AZƏRBAYCAN SSR  ELMLƏR AKADEMİYASI

TARİX İNSTİTUTU

Ə. C. RƏHİMOV

# 1920-Cİ İLDƏ

# AZƏRBAYCANDA MÜLKƏDAR

# TORPAQ  SAHİBLİYİNİN LƏĞVİ

AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASI NƏŞRİYYATI

BAKI - 1962

Azərbaycan SSR Elmlər Akademiyası Redaksiya-Nəşriyyat Şurasının qərarı ilə çap olunur

**Redaktorları:** M. Ə. İsmayılov, Z. B. Şıxlinski

## GİRİŞ

Böyük Oktyabr sosialist inqilabı bəşəriyyət tarixində ilk dəfə olaraq torpaq üzərində xüsusi mülkiyyətə son qoydu. Sosialist inqilabının qələbəsinin ertəsi günü - 1917-ci il oktyabr ayının 26-da (noyabrın 8-də) II Sovetlər qurultayı V. İ. Lenin tərəfindən yazılmış "Torpaq haqqında dekreti" qəbul etdi.

Dekretdə deyilirdi:

"1) Mülkədarların torpaq mülkiyyəti, heç bir ödənc verilmədən dərhal ləğv olunur.

2) Mülkədar malikanələri, habelə xanədan, monastır, kilsə torpaqları, bütün iş heyvanları və alətləri ilə, təsərrüfat binaları və bütün ləvazimatı ilə birlikdə, Məclis-müəssisan çağırılana qədər, nahiyə torpaq komitələrinin və qəza kəndli deputatları sovetlərinin ixtiyarına keçir"[1]. Bu dekretlə torpaq üzərində mülkiyyət hüququ dövlətin əlinə keçdi, yəni torpaqlar milliləşdirildi, beləliklə, burjua-demokratik inqilabının qarşısında duran vəzifə həll edilmiş oldu. Rusiyada mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi işinə əməli olaraq 1917-ci ilin noyabr ayından başlanıldı.

Dekretə uyğun olaraq, mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi mülkədar malikanələri və əmlakının geniş surətdə müsadirə edilməsi yolu ilə həyata keçirilirdi. Müsadirə edilən torpaqlar adamların sayına görə bölünürdü.

Müsadirə edilmiş torpaqlar birinci növbədə muzdurlara, torpaqsız və aztorpaqlı kəndlilərə verildi.

Torpaqları bölərkən sovet və kollektiv kəndli təsərrüfatlarına, şirkətlərə, artellərə və kommunalara üstünlük verilirdi. Müsadirə edilmiş evlər və tikintilər mədəni maarif idarələrinə və təşkilatlara, kollektiv təsərrüfatlara və həmçinin yaşamaq üçün kənd yoxsullarına verilirdi.

Sovet hakimiyyətinin aqrar siyasəti nəticəsində tornaq üzərində xüsusi mülkiyyət hüququ ləğv edildi, bütün torpaqlar, yeraltı sərvətlər, meşələr, sular dövlət mülkiyyəti (ümumxalq malı) oldu, torpaq alqı-satqı qadağan edildi. Kəndlilərə inqilabdan əvvəl istifadə etdikləri torpaqlardan əlavə, pulsuz istifadə üçün 150 milyon desyatindən artıq yeni torpaq sahəsi verildi. Rusiya kəndliləri hər il mülkədarlara verməli olduqları 700 milyon manata qədər (qızıl pulla) icarə haqqından və yeni torpaq satın almaq xərclərindən azad edildilər. Kəndlilərin

[1] V. İ. Lenin. Əsərləri, 26-cı cild, Bakı. Azərnəşr, 1952, səh. 256.

inqilabdan qabaq mülkədarlardan satın aldıqları torpaqlara görə kəndli bankına verməli olduqları 1,4 milyard manat borc ləğv edildi[2].

V. İ. Lenin qeyd edirdi ki, qalib gəlmiş proletariat torpaq haqqında tarixi dekretlə "kəndlilərin əksəriyyətinin ən mühüm iqtisadi tələblərini bütünlüklə və dərhal, inqilabi sürətlə, ciddiyyət və qətiyyətlə yerinə yetirdi, mülkədarları tamamilə və əvəzsiz olaraq əmlakdan məhrum etdi"[3].

Torpaqların milliləşdirilməsi kənd təsərrüfatında istismarçı münasibətlərə kəskin zərbə endirdi, milyonlarla kəndlini keçmişin ağır məşəqqətlərindən qurtardı. Sovet dövlətinə kənddə sosializm quruculuğuna keçmək üçün böyük imkanlar verdi[4].

Kommunist partiyasının rəhbərliyi ilə Rusiyada həyata keçirilmiş torpaq haqqında dekret Rusiya imperiyasının tərkibində olmuş ucqar ölkələrdə, o cümlədən Azərbaycanda da milli azadlıq hərəkatının və torpaq uğrunda mübarizənin genişlənməsinə təkan verdi, sosialist inqilabının qələbəsi işinə kömək etdi.

Kommunist partiyasının rəhbərliyi və bilavasitə rus xalqının yardımı ilə 1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qalib gəldi. Hakimiyyəti ələ almış Azərbaycan İnqilab Komitəsinin qəbul etdiyi dekretlərdən birincisi torpaq haqqında dekret idi.

V. İ. Lenin yazırdı ki, "Qafqaz respublikaları Rusiyadan daha artıq dərəcədə kəndli ölkələridir"[5]. Azərbaycan da bu respublikalardan biri idi. Məhz buna görə də Azərbaycanda torpaq məsələsini həll etmədən kəndliləri sosializm quruculuğuna cəlb etmək mümkün deyildi.

Azərbaycanda torpaq üzərində mülkədar mülkiyyətinin ləğv edilməsi sosializm quruculuğunun mühüm mərhələsini təşkil edir.

Müəllif "1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi" mövzusunda əsər yazarkən V. İ. Leninin və Kommunist partiyasının aqrar məsələyə dair göstərişlərinin respublikamızın yerli şəraitinə uyğun olaraq nə cür həyata keçirildiyini, inqilab komitələrinin, torpaq komitələrinin, yoxsul komitələrinin gördükləri tədbirləri, zəhmətkeş kəndli kütlələrinin fəaliyyətini və sairəni göstərməyə çalışmışdır.

Müəllif əsərdə mülkədar torpaq sahibliyinin ləğvi prosesini göstərməklə yanaşı, yerlərdə sovet dövlət aparatının möhkəmlənməsi, zəhmətkeş kəndli kütlələrinin iqtisadi vəziyyətinin yaxşılaşması, Sovet Rusiyasının gənc Azərbaycan respublikasına yardımı, Bakı fəhlələrinin kəndə köməyi, fəhlə-kəndli ittifaqının möhkəmlənməsi, müsadirə edilmiş mülkədar torpaqlarının bir hissəsində sovet

---

[2] П. И. Ляшенко. История народного хозяйства СССР, III cild, M., 1956, səh. 46.
[3] V. İ. Lenin. Əsərləri, 30-cu cild, Bakı, Azərnəşr, 1952, səh. 267.
[4] V. İ. Lenin. Əsərləri, 28-ci cild, Bakı, Azərnəşr, 1952 səh. 325.
[5] V. İ. Lenin. Əsərləri, 32-ci cild, Bakı, Azərnəşr, 1952 səh. 341.

təsərrüfatlarının və kollektiv təsərrüfatların (artel və kommunaların) təşkili, partiya və hökumətin kollektiv təsərrüfatlara yardımı, su məsələsinin həlli sahəsində atılan ilk addımlardan və sairədən bəhs edir. Əsərdə həmçinin mülkədar torpaq mülkiyyətinin ləğv edildiyi dövrdə baş vermiş çətinliklər, bu işin gərgin sinfi mübarizə şəraitində həyata keçirilməsi şərh edilir.

Əsərin sonunda Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvinin əhəmiyyətindən danışılır. Mövzu üzərində iş aparılarkən marksizm-leninizm klassiklərinin əsərləri, partiya və hökumətin bu sahədəki qərarları əsas götürülmüşdür. Əsərdə partiya və hökumət rəhbərlərinin məruzə, nitq, çıxış və məqalələrindən, partiya və sovet təşkilatlarının hesabat materiallarından, Azərbaycan Mərkəzi statistika İdarəsinin materiallarından, Azərbaycan SSR Mərkəzi Dövlət Tarix arxivində, Azərbaycan SSR Oktyabr inqilabı və sosializm quruculuğu Mərkəzi Dövlət arxivində, Gürcüstan SSR Oktyabr inqilabı və sosializm quruculuğu Mərkəzi Dövlət arxivində, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun elmi arxivində saxlanılan sənədlərdən, Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi V. İ. Lenin adına Dövlət Kənd Təsərrüfatı Muzeyi materiallarından, habelə qəzet, jurnal materiallarından və sairədən istifadə edilmişdir.

# I FƏSİL

## AZƏRBAYCANDA SOSİALİST İNQİLABININ QƏLƏBƏSİ ƏRƏFƏSİNDƏ AQRAR MƏSƏLƏ VƏ KƏNDLİLƏRİN TORPAQ UĞRUNDA MÜBARİZƏSİ

Böyük Oktyabr sosialist inqilabından əvvəl Azərbaycan bəy, xan və xəzinə torpaq sahibliyinin hökm sürdüyü geridə qalmış kənd təsərrüfatı ölkəsi idi. Əhalinin əksəriyyətini təşkil edən kəndlilər torpaqsızlıqdan, aztorpaqlılıqdan, kənd təsərrüfatı alətlərinin çatışmamasından əziyyət çəkir, dövlət məmurlarının və mülkədarların zülmü altında inləyirdilər. Ağır istismar, siyasi hüquqsuzluq, iqtisadi asılılıq, aclıq, ağır mükəlləfiyyətlər və sairə kəndlilərin acınacaqlı vəziyyətini xarakterizə edən səciyyəvi cəhətlər idi.

Azərbaycan Statistika İdarəsinin verdiyi məlumata görə Azərbaycanın (keçmiş Bakı, Yelizavetpol quberniyaları və Zaqatala dairəsi sərhədləri daxilində) ümumi torpaq fondu 8.130.685 desyatin idi[6]. Bu torpaqlardan 6.184.585 desyatini yararlı idi ki, onun. da 55.468 desyatinini ev ətrafı təsərrüfat yerləri (usadbalar), 73.447 desyatinini bağlar, 1.607.418 desyatinini əkin yerləri, 166.562 desyatinini biçənəklər, 895.547 desyatinini meşə və kolluqlar, 2.006.571 desyatinini örüşlər, 1.209.566 desyatinini otlaq yerləri və 171.566 desyatinini başqa yararlı torpaq sahələri təşkil edirdi[7].

Bu torpaqlar xəzinə, xüsusi sahibkarlar, hüquqi şəxslər və kəndlilər arasında aşağıdakı şəkildə bölünmüşdü: xəzinə torpaqları 2.007.309 desyatin, xüsusi sahibkarlara və hüquqi şəxslərə məxsus olan torpaqlar 1.168.386 desyatin, satın alınmış kəndli torpaqları 43.086 desyatin, əsarətli şərtlərlə kəndlilərin istifadəsində olan pay torpaqları 2.965.483 desyatin[8]. Pay torpaqlarının təxminən iki milyon desyatindən çoxu xəzinənin, qalanı isə mülkədarların mülkiyyəti sayılırdı. Azərbaycanda 195 nəfər iri torpaq sahibindən Gəncə qəzasında Zülqədərovların 34.278 desyatin, Məlikbəylərovların 14.522 desyatin; Cavanşir qəzasında Cəlalovların 21.513 desyatin, Ağalarovların 9.402 desyatin, Rüstəmbəyovların 5.907 desyatin, Məlikbəylərovların 9.376 desyatin; Qaryagin (indiki Füzuli rayonu) qəzasında Cavanşirovların 17.670 desyatin; Quba qəzasında de-Burun 6.552 desyatin, Mirzəyevlərin 7.318 desyatin; Salyan qəzasında Şirvanskilərin 13.146 desyatin; Şuşa qəzasında Fərruxbəy Vəzirovun 8.990 desyatin; Zəngəzur

---

[6] Известия Азербайджанского Центрального Статистического Управления, № 3(5), Издание АЦСУ, 1922, səh. 72.

[7] Yenə orada.

[8] Известия Азербайджанского Центрального Статистического Управления, №3(5), Издание АЦСУ, 1922, səh. 72.

qəzasında Usmiyevlərin 39.295-desyatin və bundan başqa 182 bəy-xan və mülkədarın hərəsinin 1000 desyatindən çox torpaqı var idi[9].

Lənkəran qəzasında kəndlilərə olmazın zülm edən mülkədar Talışinskilərin on minlərlə desyatin torpağı var idi.

Azərbaycanın bir hissəsini təşkil edən Naxçıvan ölkəsində də bəy, xan, xəzinə torpaq sahibliyi qüvvətli idi. Sovet hakimiyyətinin qələbəsinə qədər torpaqlarını 89,3 faizi mülkədarların və xəzinənin sahibliyində idi[10].

Belə ki, indiki Naxçıvan MSSR sərhədləri daxilində kənd təsərrüfatı üçün yararlı olan 508,8 min hektar torpaqdan 273,9 min hektarı bəy və xanlara, 180,5 min hektarı xəzinəyə, 14,2 min hektarı kilsələrə, məscidlərə və monastırlara mənsub olduğu halda, kəndlilərin sahibliyində olan torpaqlar 40,2 min hektar idi[11].

Burada minlərlə kəndli torpaqsızlıqdan və aztorpaqlılıqdan əziyyət çəkdiyi bir zamanda, xan Naxçıvanskilərin, Kəngərlinskilərin minlərlə desyatin torpaqları var idi[12].

Torpaq üzərində mülkədar, bəy-xan mülkiyyətinin mövcud olması, Azərbaycanın iqtisadi, siyasi və mədəni geriliyinin, kəndli kütlələrinin hüquqsuz və dilənçi vəziyyətdə qalmalarının başlıca mənbəyi idi.

Çarizm və mülkədarların əli ilə keçirilən kəndli islahatları istər rus kəndlilərini və istərsə də milli ucqarlarda yaşayan kəndliləri azad etməmiş, onları mülkədarların zülm və istismarından qurtarmamışdı. "Böyük islahat" təhkimçi islahatı idi və başqa cür ola da bilməzdi, çünki onu təhkimçilər keçirirdilər"[13]. V. İ. Lenin 1861-ci il kəndli islahatının əsil mahiyyətini açıb göstərərək yazırdı ki, "Bədnam "azadlıq" kəndlilərin ən vicdansız bir şəkildə talan edilməsi, bir sıra zorakılıklar və kəndlilərin tamamilə ələ salınması idi"[14].

İstər Rusiyada və istərsə də milli ucqarlarda kəndli islahatlarından sonra on minlərlə kəndlinin torpaqdan məhrum edilməsi bu islahatların sinfi mahiyyətini açıb göstərirdi.

Çar hökuməti Rusiyada təhkimçilik hüququnun ləğv edilməsi haqqında verdiyi manifestdən 9 il sonra 1870-ci il may ayının 14-də Yelizavetpol, Bakı, Erevan quberniyalarında kəndli islahatı keçirmək haqqında fərman verdi. Həmin fərmana görə kəndlilərin mülkədarlardan şəxsi asılılığı ləğv edilirdi. 15 yaşına çatmış kişi qisminə 5 desyatin torpaq sahəsi verilməsi nəzərdə tutulurdu. Lakin Azərbaycanın heç yerində zəhmətkeş kəndliyə 5 desyatin torpaq verilmədi.

---

[9] Отчетный доклад НКЗ Азербайджана тов. Д. Буниатзаде обьединенному заседанию АзЦИК-а и Совнаркома о деятельности НКЗ-а на 1923-24 операционный год. 28/1 1925 г. Стенограф. отчет, Bakı, 1925, səh. 2-3.

[10] Н. А. Сокольский. Материалы по изучению Нахичеванской ССР, Тифлис, 1933, səh. 22.

[11] Н. А. Сокольский. Материалы по изучению Нахичеванской ССР, Тифлис, 1933, səh. 22.

[12] Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun partiya arxivi, fond 95, siyahı 1, iş 157, vər. 12-13.

[13] V. İ. Lenin. Əsərləri, 17-ci cild, Bakı, Azərnəşr, 1951, səh. 107.

[14] Yenə orada.

Mülkədarlar, bəylər islahatın özləri üçün əlverişli olan şərtlərindən istifadə etdilər, 1870-ciilədək kəndlilərin istifadəsində olan torpaqların $^{1}/_{3}$ hissəsini onların əlindən aldılar.

1870-ci il 14 may tarixli fərman mülkədarların xeyrinə olaraq kəndlilərin bir sıra mükəlləfiyyətlər yerinə yetirmələrini, vergi vermələrini qanuniləşdirmişdi. Bu fərmana görə kəndlilər pay torpaqlarını satın almayınca həmin tornaqlar əvvəlki sahiblərinin mülkiyyəti olaraq qalırdı. Kəndlilər pay torpaqlarından götürdükləri məhsulun $^{1}/_{10}$ hissəsini malcəhət adı ilə mülkədarlara verirdilər[15].

Mülkəlarlar daha artıq malcəhət ələ keçirmək məqsədi ilə toplanan məhsulun miqdarını qəsdən artırmağa çalışırdılar. Bu hal kəndlilərlə mülkədarlar arasında toqquşmalara səbəb olurdu. Kəndli malcəhəti mülkədarların evinə aparmalı idi. Kəndlilər malcəhətdən əlavə, istifadə etdikləri hər desyatin torpaq üçün mülkədarlara 30 qəpik vergi verirdilər.

Torpaqsız və aztorpaqlı kəndlilər torpağı əsarətli şərtlərlə mülkədar və qolçomaqlardan icarəyə götürməyə və onların soyğunçu tələblərini yerinə yetirməyə məcbur olurdular. Azərbaycanda torpaqların kəndlilər tərəfindən icarəyə götürülməsi geniş yayılmışdı.

Sənayenin inkişafı, ticarət əlaqələrinin genişlənməsi kənd təsərrüfatı məhsullarına tələbatı getdikcə artırırdı. Pambıq parça, ipəkçilik, şərabçılıq və sairə sənaye sahələri üçün kənd təsərrüfatı yeganə xammal mənbəyi idi. Odur ki, torpaq sahibləri belə bir fürsətdən istifadə edərək torpaq icarə haqlarını artırmaqla böyük gəlir əldə edirdilər.

Bakı və Yelizavetpol quberniyalarında 1900-1910 və 1913-cü illərdə torpağın icarə qiymətlərinin müqayisəsi 1-ci cədvəldə verilmişdir.

1-ci cədvəldən məlum olur ki, torpaq sahibkarları 1900-cü illə 1913-cü il arasında Yelizavetpol və Bakı quberniyalarında icarə haqlarını 2-3 dəfə artırmışdılar. Bu artım 1910-1913-cü illər arasında daha çox olmuşdur.

**1-ci cədvəd**

**Hər desyatin torpağın orta icarə qiyməti[*] (manatla)**

| **quberniyalar** | **1900-cü il** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Payızlıq əkin** | | **Yazlıq əkin** | | **Biçənək** | |
| | Suvarılan hər desyati | Suvarılmayan hər | Suvarılan hər desyati | Suvarılmayan hər | Suvarılan hər desyati | Suvarılmayan hər |

[15] Колониальная политика российского царизма в Азербайджане, ч. II, М.-Л., 1937, səh. 412-413.

[*] «Экономическая история Грузии и закавказья 1801-1920 гг.». Источники и материалы. Сельское хозяйство и аграрные отношения, IV cild. Тбилиси, 1955, səh. 428-429.

| | n | desyatin | n | desyatin | n | desyatin |
|---|---|---|---|---|---|---|
| Yelizavetp<br>ol Bakı | 8,9<br>6,8 | 4,8<br>4,9 | 8,6<br>5,5 | 3,9<br>4,6 | 4,7<br>5,0 | 3,7<br>4,5 |
| **1910-cu il** | | | | | | |
| Yelizavetpol<br>Bakı | 12,7<br>15,0 | 7,4<br>8,4 | 14,1<br>13,5 | 5,9<br>10,7 | 8,9<br>9,7 | 5,7<br>10,3 |
| **1913-cü il** | | | | | | |
| Yelizavetpol<br>Bakı | 18,6<br>19,8 | 8,9<br>14,7 | 15,7<br>14,7 | 7,5<br>12,9 | 16,1<br>12,3 | 8,6<br>10,8 |

Bir sıra qəzalarda mülkədarlar icarə haqqını $^{1}/_{10}$ dən $^{1}/_{3}$-ə qaldırmışdılar. Məsələn, Lənkəran qəzasında mülkədar Mehmandarov öz torpaqlarını götürülən məhsulun üçdə bir hissəsini almaq şərti ilə icarəyə verirdi. Bu yolla o, hər il kəndlilərdən təxminən 6.000 pud buğda, bundan əlavə xeyli düyü və başqa kənd təsərrüfatı məhsulları alırdı[16].

Sahibkarların bir qisminin təsərrüfatında muzdlu əmək tətbiq edilirdi. Onlar əsas etibarı ilə ən yoxsul kəndliləri muzdlu fəhlə sifəti ilə öz təsərrüfatlarına cəlb edirdilər. İş heyvanı, kənd təsərrüfatı aləti olmayan, torpaqsızlıqdan və aztorpaqlılıqdan əziyyət çəkən yoxsul kəndlilər iş qüvvələrini sataraq əldə etdikləri muzd sənaye fəhləsininkindən bir neçə dəfə aşağı olurdu. İstismarçı siniflər öz təsərrüfatlarında mövsümlə işləyən kəndlilərin əməyini də istismar edirdilər. Kənd təsərrüfatında mövsümlə işləyən kəndlilərin əksəriyyətini Cənubi Azərbaycandan gələnlər təşkil edirdi.

Torpaq sahibləri ağır vəziyyətdə olan bu kəndlilərin əlacsızlığından istifadə edərək onlara həddindən az əmək haqqı verirdilər[17].

Qeyd etmək lazımdır ki, Azərbaycanda mülkədar təsərrüfatı zəif inkişaf etmişdi. Bu, mülkədarların təsərrüfat işləri ilə məşğul olmamalarından irəli gəlirdi. Məsələn, Cavad qəzasının varlılarından Vittenin, Stepanovun, Ekin və Şimali Muğanda yaşayan bir neçə xanın sahibliyində 79.685 desyatin torpaq var idi. Lakin sahibkarlar həmin torpaqların yalnız 20.000 desyatin olan[18] bir hissəsində öz təsərrüfatlarını təşkil etmişdilər. Qalan sahələr kəndlilərin icarəsində idi.

Azərbaycanda mülkədarların əksər hissəsi təsərrüfatın idarə edilməsi işi ilə məşğul olmayıb, şəhərlərdə yaşayırdılar. Onların bir qismi orduda, dövlət idarələrində xidmət edir, digər qismi isə təsərrüfatdan gələn gəlir hesabına şəhərlərdə meşşan həyat sürürdülər. Onlar malikanələrinin idarə edilməsi işini öz adamlarına tapşırırdılar ki, bu adamlar da kəndliləri qəddarcasına soymaq hesabına varlanırdılar.

[16] "Kommunist" qəzeti (rusca), 17 noyabr 1920-ci il, № 165.
[17] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 47, vər. 47-49.
[18] "Kommunist" qəzeti (rusca), 17 noyabr 1920-ci il, № 165.

Azərbaycanda kəndli təsərrüfatlarının istifadəsində olan torpaqlar mülkədar təsərrüfatlarının əhatə etdiyi torpaq sahəsindən xeyli çox olmuşdu. Kəndli təsərrüfatlarının istifadəsində olan torpaqlar əsas etibarı ilə xəzinənin və mülkədarların mülkiyyəti sayılan pay torpaqları və mülkədarlardan icarəyə götürülmüş torpaqlar idi. Kəndlilər xəzinənin sahibliyində olan pay torpaqlarından istifadəyə görə dövlətə pulla ödənilən mükəlləfiyyət daşıyır, mülkədarların mülkiyyəti sayılan pay torpaqlarından istifadəyə görə mülkədarlara malcəhət verirdilər.

Kəndli təsərrüfatında məhsuldarlıq mülkədar təsərrüfatından aşağı səviyyədə olmuşdu. Bu, mülkədar təsərrüfatlarının münbit torpaqlarda olmaları, bu torpaqların su ilə yaxşı təchiz edilməsi, vaxtlı-vaxtında gübrələnməsi və təkmilləşmiş kənd təsərrüfatı alətləri ilə becərilməsi ilə əlaqədar idi. 1912-ci ildə Bakı quberniyasında kəndli təsərrüfatlarında birə 4,3 buğda, birə 4,2 arpa məhsulu alınmışsa, mülkədar təsərrüfatlarından birə 6,1 buğda, birə 5,1 arpa məhsulu alınmışdı[19]. Azərbaycanın başqa yerlərində də vəziyyət, əsasən, belə idi.

Azərbaycanın kənd təsərrüfatında əkinçilik birinci yer tuturdu. Becərilən torpaqların 95,5 faizini əkin yerləri təşkil edirdi[20]. Əkinçiliyin başlıca məhsulları olan buğda, arpa və düyü həm əhalinin istehlakına, həm də satış üçün sərf olunurdu. Bununla əlaqədar olaraq taxılçılığın inkişafına diqqət artırılırdı. Belə ki, Azərbaycanda (keçmiş Bakı, Yelizavetpol quberniyaları və Zaqatala dairəsi sərhədləri daxilində) 1901-ci ildə 30.478.700 pud, 1914-cü ildə isə 52.215.512[21] pud taxıl götürülmüşdür.

XX əsrin əvvəllərində əmtəə əhəmiyyəti kəsb edən pambıqçılığın, üzümçülüyün, baramaçılığın inkişafına da diqqət artırılmışdı. Kənd təsərrüfatının bu sahələrində kapitalist münasibətləri xeyli inkişaf etmişdi. Həmin bitkilərdən alınan məhsula nəinki Azərbaycanın daxilində, həmçinin başqa yerlərdə, xüsusən Rusiyanın mərkəzi quberniyalarında böyük ehtiyac var idi. Məsələn, Azərbaycanda istehsal edilən pambıq yerli kustar və iri toxuculuq sənayesinin ehtiyaclarını ödəməklə bərabər, Rusiya bazarlarına da göndərilirdi[22]. Rusiya şəhərləri ilə ticarətin ildən-ilə artması, rus toxuculuq sənayesinin pambığa olan ehtiyacı sahibkarları böyük gəlir verən pambıq əkini sahələrini genişləndirməyə həvəsləndirirdi. Bakı və Yelizavetpol quberniyalarında pambıq bitkisi əkini sahəsinin 1909-cu ildə 19.800 desyatindən 1913-cü ildə 81.700 desyatinə çatdırılması faktı da bunu sübut edir[23].

---

[19] С.Р.Конопка. Кавказ, тифлис, 1914, səh. 37.
[20] П. И. Лященко. «История народного хозяйства СССР», II cild, M., 1950, səh. 554.
[21] M. İsmayılov. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, Bakı, 1960, səh. 32.
[22] С. Н. Тимофеев. «Статистика хлопководства в Закавказском крае за 1913 г.», Tiflis, 1915, səh. 30.
[23] Yenə orada.

Azərbaycanda pambıq istehsalının artması ilə əlaqədar olaraq, pambıqtəmizləyən zavodların da fəaliyyəti genişlənirdi. Bakı və Yelizavetpol quberniyalarında birlikdə 1909-cu ildə 289.100 pud pambıq təmizlənmişdirsə, 1914-cü ildə 1.300.000[24] pud pambıq təmizlənmişdi.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda pambıqçılıqla yanaşı, böyük əmtəə əhəmiyyəti kəsb edən üzümçülük də sürətlə inkişaf edirdi. Azərbaycanın Yelizavetpol, Şamaxı, Göyçay, Quba qəzalarında üzümçülük xüsusi ilə geniş yayılmışdı. Məsələn, Göyçay qəzasında üzümçülüklə 158 kənd məşğul olurdu, üzüm bağlarının sayı 7.277 və onların əhatə etdikləri torpaq sahəsi 4.898 desyatin 634 kv. sajın idi. Azərbaycanda (Yelizavetpol, Bakı quberniyaları və Zaqatala dairəsi birlikdə) təxminən 23.873 desyatin sahə üzümlük idi. Bu sahələrdən 1913-cü ildə 5.368 631 pud üzüm istehsal edilmişdi[25].

Üzümlüklər 50.343 bağ sahibinin əlində idi. Onların əksəriyyətinin əlində olan üzümlük sahəsi 1 desyatindən də az idi. Kiçik üzüm bağı sahəsinə malik olan minlərlə kəndli ilə yanaşı, bir qrup sahibkarın əlində onlarla desyatin üzüm bağı var idi. Məsələn, Yelizavetpol qəzasında zavod sahibi Forerin 270 desyatin, zavod sahibi Qummelin isə 100 desyatin sahədə üzüm bağı var idi[26].

Üzümçülüyün inkişafı şərabçılıq və başqa spirtli içkilər istehsalını genişləndirməyə imkan vermiş, kənd təsərrüfatının bu sahəsində tədricən kapitalist münasibətləri inkişaf etməyə başlamışdı.

Quba qəzasında Qukasovun, Tağıyevin, de-Burun; Şamaxı qəzasında Aqriyev qardaşlarının, Canımovun bağ-şərabçılıq təsərrüfatlarında; Şamaxı qəzasında Şustovun sənaye-şərabçılıq təsərrüfatında; Göyçay qəzasında, Kürdəmir ətrafında Aqriyevin, Şustovun bağ-şərabçılıq təsərrüfatlarında; Yelizavetpol qəzasında Forer qardaşları səhmdar cəmiyyətinin bağ-şərabçılıq sənaye təsərrüfatında, Qummel qardaşları səhmdar cəmiyyətinin bağ-şərabçılıq sənaye təsərrüfatında, L. Qolisinin bağ-şərabçılıq malikanəsində xeyli miqdar şərab istehsal edilirdi[27].

1913-cü ildə yalnız Yelizavetpol quberniyasında 694 şərabçəkən və 6 konyakçəkən zavod var idi[28].

Yelizavetpol quberniyasında 1913-cü ildə 2.661.291 vedrə, bütün Azərbaycanda isə (Bakı, Yelizavetpol quberniyaları və Zaqatala dairəsi birlikdə) 3.583.071 vedrə şərab istehsal edilmişdi[29].

Azərbaycanda başlıca olaraq mülkədarların və erməni kəndlilərinin ixtiyarında olan təsərrüfatlarda şərab və konyak istehsal edilirdi. Dini əqidə ilə

---

[24] Кавказский календарь, 1916, отдел стат., səh. 99.
[25] Кавказский календарь, 1915, отдел стат., səh. 336-387.
[26] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 135, vər. 68.
[27] Azərbaycan SSR OİMDA. fond 27.1, siyahı 1. iş. 6, vər. 7.
[28] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 615, vər.73.
[29] Кафказский календарь, 1915, отдел стат, səh. 336-387.

əlaqədar olaraq, əhalinin əksəriyyətini təşkil edən Azərbaycanlılar şərab istehsalı ilə məşğul olmurdular. Odur ki, şərab zavodlarının sahibləri Azərbaycanlı kəndlilərdən üzümü ucuz qiymətə alaraq, spirtli içkilər istehsal edir və bundan böyük gəlir götürürdülər. Məsələn, 1912-ci ildə Bakı quberniyasında şərabçəkən zavodların gəliri 196.462 manat olmuşdu[30].

Azərbaycanda torpaq və su məsələsi üzvi surətdə bir-biri ilə bağlı olan məsələ idi. Burada kənd təsərrüfatında süni suvarmadan geniş istifadə edilirdi. Lakin suvarma kanallarının və kəhrizlərin lazımi qədər olmaması yüzlərlə desyatin torpağı becərməyə imkan vermirdi. Mülkədar və başqa iri torpaq sahibkarları öz təsərrüfatlarını su ilə təchiz etmək üçün Yuqni suvarma şəbəkələri yaratmaq əvəzinə, daha çox kəndli təsərrüfatlarına gedən suyu öz əllərinə keçirməyə səy göstərirdilər. Bu isə, öz növbəsində, kəndli təsərrüfatına sarsıdıcı zərbə vurur, kəndlilərlə mülkədarlar arasında mövcud olan ziddiyyəti daha da kəskinləşdirirdi.

Kəndlilərlə mülkədarlar arasında su üstündə mübahisə əksər hallarda mülkədarların xeyrinə həll edilirdi.

Su işlərinə mirablar baxırdılar. Mirabların vəzifəsi çay və kanallardan axan suyu (böyük miqyasda) bölüşdürməkdən, su kanallarının çəkilməsi işinə rəhbərlik etməkdən və sairədən ibarət idi. Mirabın köməkçilərinə «suvar» deyilirdi. Suvarlar suyun düzgün paylanmasına nəzarət edirdilər. Ayrı-ayrı təsərrüfatlar arasında su bölənlərə «su vəkili» deyilirdi.

Mirab və suvarların saxlanması əhaliyə çox baha başa gəlirdi. Onlar suyun bölüşdürülməsində özbaşınalıq edir, su alveri ilə məşğul olur, suyu möhtəkirlik obyektinə çevirirdilər. Mirablar rəsmi surətdə maaş almaqla kifayətlənməyərək, çuvarlardan və sudan istifadə edənlərdən cinsi vergi toplayırdılar. Mirablar bəy və mülkədarlardan rüşvət alaraq, kəndli təsərrüfatlarına axan suyu onlara verirdilər. Odur ki, kəndlilər mülkədarların və özbaşınalıq edən çar məmurlarının əleyhinə çıxdıqları kimi, mirabların da qovulmasını tələb edirdilər. 1908-ci il iyul ayının 3-də Zaqatala dairəsinin rəisi Qafqaz canişinliyi dəftərxanasına göndərdiyi məlumatda yazırdı ki, Çardaqlı icması kəndliləri mirab saxlamaqdan onları azad etməyi tələb edirlər. Rəis öz məlumatında göstərirdi ki, Çardaqlı kəndlilərinin xahişi yerinə yetirilə bilməz, çünki başqa icmalar da miraba ehtiyacları olmadığını bildirmişdilər[31]. Bu sənəd Azərbaycanda kəndlilərdi mirablardan ciddi dərəcədə narazı olduğunu əks etdirir.

Kəndlilər mülkədarlara malcəhət, pul vergisi verdikləri kimi, mülkədarın mülkiyyəti sayılan sudan istifadəyə görə də vergi verirdilər. Bu verginin miqdarı təsərrüfatdan gələn məhsulun $^{1}/_{4}$-dən $^{1}/_{3}$-i qədər idi[32]. Mülkədarlar yerin şəraitindən asılı olaraq su haqqını dəyişdirirdilər.

---

30 S. R. Konopka. Navkaz, Tiflis, 1914, səh. 44.

31 Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 724, vər. 2-3.

32 Azərbaycan SSR OİMDA, fond 271, siyahı 2, iş 100, vər. 97.

Beləliklə, Azərbaycanda kəndlilərlə mülkədarlar arasında mövcud olan ziddiyyətin əsasını bir tərəfdən torpaq, digər tərəfdən isə su məsələsi təşkil edirdi.

Kiçik torpaq sahələrində təşkil edilmiş təsərrüfatlarda məhsuldarlıq kənd təsərrüfatı alətlərinin azlığı, su çatışmamazlığı, iş heyvanlarının lazımi qədər olmaması, texniki, aqronomiya geriliyi və sairə üzündən aşağı səviyyədə olurdu. Xırda kəndli təsərrüfatları ata-babadan qalan istehsal alətlərindən istifadə edirdi.

1910-cu ilə yaxın Yelizavetpol quberniyasında, əsasən varlı təsərrüfatlara məxsus cəmi 4.779 dəmir kotan var idi. Bütün Azərbaycanda 76.270 xış var idi. Azərbaycanda olan 360 minə yaxın kəndli təsərrüfatının çoxu xışla da təmin olunmamışdı[33].

İnqilabdan əvvəl Azərbaycanda kəndli təsərrüfatlarının 64 faizinin kənd təsərrüfatı alətləri yox idi. Kəndli təsərrüfatlarının 27 faizinin ibtidai ağac xışı, 9 faizinin isə dəmir kotanı var idi[34].

Dəmir kotandan, əsas etibarı ilə mülkədar və qolçomaq təsərrüfatlarında istifadə edilirdi.

Azərbaycanda kənd təsərrüfatı alətləri az və primitiv olduğu kimi, iş heyvanı və sağmal mal-qaraya da böyük ehtiyac vardı.

1914-cü ildə başlamış dünya müharibəsi, artmaqda olan vergilər, qoşqu mükəlləfiyyətləri mal-qaranın və o cümlədən iş heyvanlarının daha da azalmasına səbəb olmuşdu.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının müəyyən qədər canlanması halları olsa da belə, ümumiyyətlə, kənd təsərrüfatı məhsulları əhalinin artan tələbini ödəyə bilməmiş, çarizmin milli müstəmləkə zülmü, mülkədarların istismarı xalqın geriliyinə, böyük iqtisadi ehtiyac içərisində yaşamasına səbəb olmuşdur.

Çar hökumətini kəndlilərin ağır vəziyyəti deyil, vergilər, mükəlləfiyyətlər maraqlandırırdı. Çar Hökumət orqanları kəndliləri mülkədarlara və dövlətə vergi verməyə və bir sıra başqa mükəlləfiyyətlər həyata keçirməyə məcbur edirdi.

Çar məmurlarının və mülkədarların özbaşınalıqı kənddə sinfi mübarizənin son dərəcə kəskinləşməsinə, zəhmətkeş kəndlilərlə mülkədar və çarizmin digər müdafiəçiləri arasında açıq toqquşmaların getdikcə daha geniş şəkil almasına səbəb olurdu. Bu dövrdə artıq Azərbaycanın bir sıra qəzalarında kəndli çıxışları adi hal olmuşdu. Kəndlilər öz zalımlarına qarşı mübarizədə mülkədarların, kəndxudaların və başqa zülmkarların evlərini yandırmaq, vergi verməkdən boyun qaçırmaq, fərdi və kütləvi müqavimət göstərmək, fürsət düşdükdə terrora əl atmaq və sairə mübarizə üsullarından istifadə edirdilər. Məsələn, 1910-cu il ivqust ayının 20-də Quba qəzasındakı Una kəndinin sakinləri vergi verməkdən. boyun qaçırmışdılar.

---

[33] Z. İbrahimov, sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizasi (1917-1918-ci illər , Bakı, 1957, səh. 24.

[34] Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi V. İ. Lenin adına Dövlət Kənd Təsərrüfatı Muzeyi ekspozisiyası materiallarından (birinci zal).

Kəndxuda və vergi toplayan kəndlilərdən vergi tələb etdikdə, bir dəstə kəndli kəndxudanı dəyənəklə döymüşdülər. Kəndxuda qəzəblənmiş kəndlilərin əlindən qaçmaqla yaxasını qurtara bilmişdi[35]. 1911-ci ilin sonu və 1912-ci ilin əvvəllərində Quba qəzasının Velyamir, Dadalı, Sarvan, Göyçay qəzasında isə Çiqni adlı torpaq sahəsini ölçərkən mülkədarlarla kəndlilər arasında mübahisə baş vermişdi. Mülkədarlarla kəndlilər arasında olan bu mübahisə Bakı quberniya idarəsi, Bakı dairə məhkəməsi, Tiflis məhkəmə palatasının diqqətini cəlb etmişdi[36]. Cavad qəzasının Axtaçı kəndliləri 1912-ci il may ayının 27-də güllə ilə kəndxudanı və onun köməkçisini öldürüb, Kür çayına atmışdılar[37]. Bu, kəndlilərin istismarçı siniflərə və onların nümayəndələrinə qarşı qəzəb və nifrət hissinin nəticəsi idi.

1910-cu il sentyabr ayının 22-də gecə saat 2-də Bakı qəzasının Corat kənd cəmiyyətində bir neçə silahlı kəndli kəndxudanın evini[38], Cavad qəzasının Anaxanlı kəndliləri isə 1912-ci il sentyabr ayınınə gecə mülkədar Surxay xan Şirvanskinin evini yandırmışdılar[39]. Kəndlilər öz zalımlarından bu yollarla intiqam alırdılar.

Zülm və istismar nəticəsində Azərbaycan kəndlilərinin öz zalımlarına qarşı mübarizəsi getdikcə qüvvətlənərək, tədricən kütləvi xarakter alırdı.

Lənkəran, qəzası kəndlilərinin torpaq uğrunda mülkədarlara qarşı apardıqları mübarizə xüsusilə qüvvətli idi. Bu mübarizə xan Talışinskilərin özbaşınalıqlarına, zülm və istismarına qarşı yönəldilmiş və kütləvi xarakter almışdı. Toqquşmanın getdikcə ciddi xarakter alması ilə əlaqədar olaraq, polis və hətta hərbi qüvvə də işə qarışmışdı[40].

Kəndli həyəcanlarından qorxuya düşən Əhməd xan Talışinski 1912-ci il sentyabr ayının 20-də Qafqaz canişininə vurduğu teleqramda kəndli hərəkatını yatırtmaq üçün kömək göndərilməsini xahiş edirdi[41]. Lənkəran qəzasında olduğu kimi, Azərbaycanın başqa qəzalarında da kəndli hərəkatı genişlənirdi. Zaqafqaziyada və o cümlədən Azərbaycanda kəndli hərəkatının genişlənməsi və kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı feodal-asılılıq münasibətlərinin ləğv edilməsini tələb edirdi. Məcburiyyət qarşısında qalan çar hökuməti uzun süründürmədən sonra 1912-ci il dekabr ayının 20-də Zaqafqaziyanın beş quberniyasında, o cümlədən Bakı və Yelizavetpol quberniyalarında sahibkar kəndlilərinin istifadəsində olan pay qorpaqlarının məcburi olaraq pulla satın alınması haqqında qanun verdi.

---

[35] Azərbaycan SSR MDTA, fond 1. siyahı 1, iş 24. vər. 95.
[36] Yenə orada, iş 936, vər. 1-3.
[37] Yenə orada, iş 69. vər. 177.
[38] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 24, vər. 137.
[39] Yenə orada, iş 70, vər. 8.
[40] «Биржевые ведомости» qəzeti, 28 iyun 1912-ci il, № 160.
[41] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 944, vər. 129.

1912-ci il 20 dekabr qanununa görə, Azərbaycanın sahibkar kəndliləri pay torpaqlarını satın almaqla öz mülkiyyətlərinə çevirməli idilər. Qeyd etmək lazımdır ki, 1870-ci ildən sonrakı müddətdə kəndlilər pay torpaqlarından istifadəyə görə, mülkədarlara o qədər çox vergi vermiş və mükəlləfiyyət daşımışdılar ki, həmin torpaqların qiyməti artıqlaması ilə ödənilmişdi. 1912-ci il 20 dekabr qanununa əsasən sahibkar kəndliləri Bakı və Yelizavetpol quberniyaları üzrə satın alınacaq pay torpaqları üçün xəzinəyə əlavə faizlə birlikdə 20.715.376 manat vıkup pulu verməli idilər[42]. Qanuna görə pay torpaqlarını mülkədarlardan satın almaq üçün kəndlilərə xəzinə borc pul verməli idi. Həmin borcu onlar ən azı 28, ən uzağı isə 41- 56 il müddətində ödəməli idilər. Əgər kəndli öz borcunu 28, ilə ödəməli idisə ildə xəzinəyə hər manata 6 qəpik, 41 ilə ödəməli idisə 5 qəpik, 56 ilə ödəməli idisə 4 qəpik yarım verməli idi.

Pay torpaqları kəndlilər tərəfindən satın alınarkən mülkədarlar və çar məmurları müxtəlif saxtakarlıqlara əl ataraq, daha artıq pul əldə etməyə çalışırdılar.

1912-ci il 20 dekabr qanununa görə, yararsız torpaqlar pulsuz olaraq, kəndlilərin mülkiyyətinə çevrilirdi. Ancaq torpağın satın alınması aktı tərtib edilərkən, mülkədarlar yararsız torpaqları məhsuldar torpaq kimi pulla kəndlilərə satırdılar.

Mülkədarlar çox zaman pulsuz olaraq kəndlilərin ixtiyarına keçməli olan yararsız torpaqları öz əllərində saxlayırdılar. Qanuna görə kəndlilər becərilmək üçün yararsız torpaqlarda öz mal-qaralarını otarmalı, su mənbələrindən pulsuz istifadə etməli idilər. Əslində isə belə torpaqlar mülkədarların ixtiyarında qaldığından, kəndlilər onlardan istifadə edə bilmirdilər.

Kəndli pay torpaqlarının pulla satın alınması üçün aktlar tərtib edilməsi də ləng gedirdi. Belə ki, Zaqafqaziyanın 5 quberniyasında 1917-ci il yanvarın 1-nə kimi pay torpaqlarının kəndlilər tərəfindən satın alınmasına dair 6184 akt əvəzinə 2795 akt tərtib edilmişdi ki, bu da 45 faiz təşkil edirdi[43].

Qafqaz canişinliyi dəftərxanasının verdiyi məlumata görə, Zaqafqaziyada yaşayan müvəqqəti mükəlləfiyyətli kəndlilər pay torpaqlarını satın almalarına (vıkup) görə hər il xəzinəyə 908.559 manat pul məli idilər. Bunun da 338.949 manatı Yelizavetpol quberniyasının, 131.678 manatı isə Bakı quberniyasının payına düşürdü[44]. 1912-ci il 20 dekabr qanununun Azərbaycanda həyata keçirilməsi tarixinin tədqiqatçılarından İ. Talıbzadə yazır ki, ilk hesablama siyahılarının tərtib olunub-olunmamasından, kəndlilərin həmin siyahılar üzrə vıkup pulu ödəyib-ödəməsindən asılı olmayaraq, onlar 1913-cü il yanvar ayının 1-dən etibarən xüsusi mülkiyyətçilər qrupuna daxil olmuşdular. 1913-cü il

[42] İ. A. Talıbzadə. Azərbaycanda vıkup əməliyyatının ilk mərhələsi. «Azərbaycan SSR EA məruzələri», № 10. 1958, səh. 822.

[43] Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 587, vər. 107-108; S.L.Avaliani. «Крестьянский вопрос в Закавказье», IV cild, Tiflis, 1920, səh. 139.

[44] Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 587, vər. 308.

yanvar ayının 1-dən Bakı quberniyasında 132.186 desyatin, Yelizavetpol quberniyasında isə 271.252 desyatin torpaq sahibkar mülklərində yaşayan kəndlilərin xüsusi mülkiyyəti elan edilmişdi. Hər iki quberniyada bunun sahəsi 403.438 desyatin idi. Məhz buna görə də kəndlilər pay torpağının mülkiyyətçisi adlanırdılar[45].

1913-cü il iyul ayının 7-də verilən qanuna əsasən Zaqatala dairəsində və habelə Dağıstan vilayətində də pay torpaqları kəndlilər tərəfindən satın alınmalı idi. Həmin qanuna görə, Zaqatala dairəsi kəndliləri də bəy və keşkəl sahiblərinin xeyrinə daşıdıqları mükəlləfiyyətlərdən 1913-cü il yanvar ayının 1-dən azad edilirdilər. Çarizm bəylərin və keşkəl sahiblərinin kəndlilərdən aldıqları mükəlləfiyyətlərin əvəzində onlara xəzinədən birdəfəlik pul mükafatı verirdi. Bu məqsədlə Dağıstan vilayəti və Zaqatala dairəsi üçün 587.278 manat pul buraxılmışdı ki, onun da 284.968 manat 40 qəpiyi Zaqatala dairəsinin payına düşürdü[46].

1913-cü il 7 iyul qanununa görə Zaqatala dairəsi kəndliləri bəylərdən və keşkəl sahiblərindən pay torpaqlarını satın almaq üçün dövlətdən borc pul götürürdülər. Həmin borcu kəndlilər iyirmi il müddətində (hər il bərabər miqdarda) ödəməli idilər.

Qanun 1913-cü ilin ikinci yarısında verildiyi halda, xəzinədən alınan borc pulun ödənilməsi vaxtı 1913-cü il yanvarın 1-dən hesablanırdı[47].

Zaqafqaziyanın başqa yerlərinə nisbətən burada xəzinəyə olan borcun ödənilməsi müddəti qısa idi. Bu isə Zaqatala dairəsi kəndlilərinin vəziyyətini daha da ağırlaşdırırdı. Çünki onlar xəzinəyə olan borclarını nisbətən daha qısa bir müddətdə ödəməli idilər. Zaqatala dairəsində bütün kənd və yaxud ayrı-ayrı həyətlərin dövlətə olan borcu kəndlilərin daşıdıqları mükəlləfiyyətlərin illik məbləğindən on qat artıq idi[48].

Zaqatala dairəsində kəndlilərin bəy və keşkəl sahiblərindən asılılığının 1913-cü il yanvarın 1-dən etibarən ləğv olunması qərara alındığı halda, qanunun özü həmin ilin ikinci yarısında verilmişdi. Halbuki kəndlilər bu vaxta kimi bəy və keşkəl sahiblərinə adətən verdikləri mükəlləfiyyətləri (1913-cü il üçün) əsasən ödəmişdilər. Qafqaz canişinliyinin özü də qanunun həyata keçirilməsi işini vaxtında təşkil etməmişdi. Belə ki, Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılığının ləğv edilməsi haqqındakı qanun 1913-cü il iyul ayının 7-də verildiyi halda, Qafqaz canişinliyi həmin qanunun həyata keçirilməsinə

[45] İ. A. Talıbzadə. Azərbaycanda vıkui əməliyyatının ilk mərhələsi, «Azərbaycan SSR EA məruzələri», 1958, № 10, səh. 823

[46] Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 587, vər. 308.

[47] Azərbaycan SSR EA A. Bakıxanov adına Tarix İnstitutunun Əsərləri, I cild, Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1947, səh. 102,

[48] Yenə orada.

dair təlimatlardan birini 1913-cü il noyabrın 23-də, digərini isə 1913-cü il dekabrın 9-da vermişdi.

Beləliklə, 1913-cü il 7 iyul qanunu formal səbəblər üzündən həmin ildə həyata keçirilmədi. İstər 1912-ci il 20 dekabr qanunu, istərsə də 1913-cü il 7 iyul qanunu Azərbaycan kəndlilərinin vəziyyətini yaxşılaşdıra bilmədi, çünki bu qanunlar istismarçı siniflərin mənafeyini təmsil edirdi.

Həmin qanunlar veriləndən sonra Azərbaycan qəzalarında torpaq və su üstündə baş-verən bir sıra hadisələr yuxarıda deyilənləri bir daha təsdiq edir.

1913-cü il mayın 2-də Cavanşir qəzası Divanlı kəndinin mülkədar və bəyləri pay torpaqlarını zorla tutaraq, kəndliləri oradan qovmuş və onların 8 xışını aparmışdılar. Pay torpaqlarında darı əkilməsinə baxmayaraq, onlar həmin yerləri yenidən şumlatdırıb əkdirmişdilər. Divanlı kəndliləri zəbt edilmiş pay torpaqlarına yaxınlaşmaq istədikdə mülkədar Bədirbəyovlar onlara silahlı müqavimət göstərmişdilər[49].

Mülkədarlar kəndliləri daim əzlərindən asılı vəziyyətdə saxlamağa çalışaraq, pay torpaqlarının kəndlilər tərəfindən məcburi satın alınmasını nəzərdə tutan 1912-ci il 20 dekabr qanununu narazılıqla qarşılayır, onu hər addımda pozurdular.

1912-ci il qanununa cavab olaraq, Cavanşir qəzasının Alpout kəndində mülkədar Adıgözəlovlar su mənbələrini zəbt edərək, kəndlilərə su verməmişdi.

Nəticədə kəndlilərə məxsus olan 200 desyatin əkin sahəsi susuzluq üzündən yanıb tələf olmuşdu.

Alpout kəndlilərinin Qafqaz canişininə göndərdikləri 1913-cü il 11 iyul tarixli ərizəsindən məlum olur ki, 1912-ci il 20 dekabr qanununa kimi mülk Adıgözəlovlar kəndlilərə pay torpaqlarında olan əkin sahələrini suvarmaqdan ötrü su kanallarından istifadə etməyə isazə verirdilər. Çünki onlar pay torpaqlarına körə kəndlilərdən çoxlu malcəhət alırdılar. Lakin 1912-ci il qanunu veriləndən sonra mülkədar Adıgözəlovlar kəndliləri sudan məhrum etmişlər. Burada kəndlilərə verilən $^{1}/_{3}$ baş[50] Tərtər suyu nəinki kəndli təsərrüfatları üçün az idi, hətta 130 ailənin içməsi üçün belə kifayət etmirdi[51].

Qafqazın üçüncü su nahiyəsi müfəttişi və Tərtər su dairəsi mirabı tərtib etdikləri protokolda Alpout kəndlilərinin sudan korluq çəkdiklərini qeyd edərək göstərirdilər ki, kəndlilər mal-qaranın içməsi üçün belə su tapmırlar[52].

Mülkədar Adıgözəlovların Alpout kəndlilərinin başına gətirdikləri fəlakəti 1913-cü ildə mülkədar Vəlibəyovlar Cavanşir qəzasının Qarapirim kəndlilərinin başına gətirməyə çalışmışdılar. Qarapirim kəndliləri əvvəllər Vəlibəyovların və özlərinin pay torpaqlarından keçən su kanalları və kəhrizlərindən istifadə edirdilər.

---

[49] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 98, vər. 45.
[50] Baş - su ölçüsüdür. Hər baş 1 saniyədə arxdan axan 2 vedrə və ya 25 litr sudur.
[51] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 966. vər. 2-3.
[52] Yenə orada, vər. 41.

Mülkədar Vəlibəyovlar 1912-ci il 20 dekabr qanunundan sonra da kəndliləri özlərindən asılı vəziyyətdə saxlamaq, onlardan çoxlu vergi almaq məqsədi ilə kəndlilərə çatacaq suyu öz əllərinə keçirməyə çalışırdılar. Bu da nəticədə mülkədarlarla kəndlilər arasında mübahisəyə, toqquşmaya səbəb olmuşdu[53].

Qarapirim kəndlilərinin mülkədarlara qarşı torpaq və su uğrunda apardıqları mübarizə 1913-cü ilin axırlarında daha da kəskinləşərək, kütləvi xarakter almışdı. Qarapirim kəndliləri torpaqsızlıqdan və aztorpaqlılıqdan, suvarma suyunun azlığından əziyyət çəkdikləri bir zamanda, soyğunçu mülkədarlar kiçik-kiçik sahələrdən ibarət olan pay torpaqlarını ələ keçirməyə cəhd edirdilər ki, bu da kəndlilər tərəfindən müqavimətlə qarşılanırdı.

Mülkədar Vəlibəyovların Qarapirim malikanəsində «Təpələr» adlı yataq yeri həmin malikanəni idarə edən İbrahimbəy Zeynalabdinbəyov tərəfindən kəndlilərə mənsub olan pay torpaqları ilə birlikdə Məhərrəmbəy Kazımbəy oğluna icarəyə verilmişdi. İbrahimbəy Zeynalabdinbəyovun pay torpaqlarını öz başına icarəyə verməkdən məqsədi daha çox icarə haqqı almaq və kəndlilərin hesabına varlanmaq idi. Mülkədar malikanəsini idarə edən bir adam tərəfindən pay torpaqlarının icarəyə verilməsinə qarşı kəndlilər öz etiraz səslərini qaldırırdılar. Onlar kütləvi şəkildə icarədar Məhərrəmbəy Kazımbəy oğlunun qoyunlarını «Təpələr» adlı yataq yerindən qovdular və həmin yerlərdən əvvəlki kimi öz qoyunlarının otarılması üçün istifadə etməyə başladılar. Məsələ ciddi xarakter aldı. Qəyyum İbrahimbəy Zeynalabdinbəyovun xahişi ilə pristav və strajniklərdən ibarət bir dəstə yataq yerinə göndərildi.

Mülkədar Vəlibəyovların xalası oğlu olan pristav Cümşüdbəy Vəzirov öz qoyunlarını yataq yerindən aparmağı Qarapirim kəndlilərindən tələb etdikdə, kəndlilər 60-70 nəfərlik (bunların əksəriyyəti qadın idi) bir dəstə ilə ağac, bel və dəmir yabalarla pristav və strajniklərə hücum edib, onları daşa basdılar. Başqa kəndli dəstəsi pusquda durub, pristav və strajniklərə tüfənglərdən atəş açdı. Qəzəblənmiş kəndlilərin təzyiqi altında pristav və strajniklər atışa-atışa geri çəkilməli oldular. Onlar toqquşma zamanı baş verən qarışıqlıqdan istifadə edərək 16 kəndlini həbs etdilər[54].

Kəndlilərin pay torpaqlarını əllərində saxlamaq uğrunda apardıqları mübarizəyə mülkədarlarla əlbir olan çar hökumət orqanları cəza tədbirləri ilə cavab verirdilər. Pristav Vəzirov 25 strajniklə birlikdə tarpaq uğrunda mülkədarlara qarşı mübarizə aparan Qarapirim kəndlilərinə divan tutmaqla, kəndlilərin (ərini qarət etməklə, onları döymək və öldürməklə hədələyirdi. Hökumət orqanlarının özbaşınalığı, hədəsi ilə əlaqədar olaraq Qarapirim kəndliləri qaçıb başqa kəndlərdə gizlənirdilər. Mühafizəsiz əhaliyə qarşı hücuma keçən çar hökumət orqanları Cavanşir qəzası kəndlərini axtararaq, Qarapirimdən qaçmış qadın və uşaqları həbs

---

[53] Yenə orada, iş 428, vər. 43.
[54] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 98, vər. 163-164.

edirdilər. Yerli inzibati orqanların özbaşınalığından qorunmaq üçün Yelizavetpol qubernatorundan kömək ala bilməyən kəndlilər Qafqaz canişininə müraciət etmişdilər. Onlar canişinə yazdıqları ərizədə müdafiə edilmələri üçün xüsusi tapşırıqla məmur göndərilməsini xahiş edirdilər. Lakin Qafqaz canişininə edilən müraciətdə kəndliləri fəlakətdən xilas edə bilməzdi. Halbuki kəndlilərin geridə qalmış müəyyən hissəsi bunu görmür, kortəbii olaraq yuxarı orqanların köməyinə ümid bəsləyirdilər.

Bununla belə kəndlilərin mülkədarlara və başqa istismarçılara qarşı apardıqları sinfi mübarizə tədricən mütəşəkkil və kütləvi xarakter alırdı.

1913-cü il aprelin 8-də Bakı kapitalisti Tağıyevin «Yevlax mülki» adlı malikanəsində torpaq üstündə kəndlilərlə yerölçən arasında toqquşma baş vermişdi. Məhkəmənin haqsızcasına çıxartdığı hökmə əsasən 26 və 27 nömrəli torpaq sahələrinin sərhəddini müəyyən etmək üçün buraya gələn yerölçənə 40 nəfərə yaxın kəndli müqavimət göstərmişdi. Bunun səbəbi rəndlilərin pay torpaqlarının yerölçənin sərhəd çəkdiyi torpaqlara tamamilə daxil edilməsi idi. Pay torpaqlarının əllərindən çıxacağından ehtiyat edən kəndlilər yerölçəndən öz işini dayandırmağı tələb etmişdilər. Yerölçən, kəndlilərin hiddətləndiyini və onlardan bir neçəsinin soyuq silahlarla silahlandığını görərək, qorxuya düşmüş və öz işini dayandırmağa məcbur olmuşdu[55].

1914-cü ilin iyulunda başlanmış birinci dünya müharibəsi bütün Rusiya zəhmətkeşlərinin, həmçinin Azərbaycan fəhlə və kəndlilərinin vəziyyətini daha da ağırlaşdırdı, milyonlarla adamı məhrumiyyətlərə, fəlakətə düçar etdi.

Səfərbərlik məhsul verən və iş heyvanlarının böyük bir hissəsinin ordunun tələblərini ödəmək məqsədi ilə əhalinin əlindən alınmasına səbəb olmaqla yanaşı, vergilərin artırılmasını, bahalığı, yoluxucu xəstəliklərin yayılmasını, habelə şəhər və kəndlərdə vəziyyətin daha da ağırlaşmasını sürətləndirdi.

Bütün ölkədə təsərrüfat pozuldu, kənd təsərrüfatından gələn məhsul azaldı, əkin sahələri ixtisara düşdü, qıtlıq, aclıq əmələ gəldi. Bu münasibətlə ərzaq işləri üzrə xüsusi müşavirənin sədri A. Naumovun 1916-cı il aprelin 2-də qubernatorlara və başqa məsul vəzifəli şəxslərə və idarələrə göndərdiyi məktubda deyilirdi ki, müharibə və hərbi vəziyyətlə əlaqədar olaraq ölkədə həddən artıq bahalıq, ən vacib ərzaq mallarınını çatışmamasımüşahidə edilməkdədir. Hərbi vəziyyət ölkənin kənd təsərrüfatı qüvvələrini zəifləlmiş, kənd təsərrüfatında işləyən fəhlə qüvvəsi ixtisara düşmüş, iş və məhsul verən mallar, qoşqu qüvvəsi azalmış, kənd təsərrüfat alətlərini və məhsulunu daşımaq sahəsində çətinliklər meydana çıxmış, nəticədə əkin sahələri ixtisara düşmüşdür[56].

Belə bir vəziyyət bütün Rusiya ilə bərabər Azərbaycana da aid idi.

---

[55]Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 98, vər. 27.
[56] Azərbaycan SSR OİMDA, fond 62, siyahı 1, iş 95, vəp. 4.

Kənd təsərrüfatında mühüm rol oynayan malların azalması, su şəbəkələrinə diqqətin zəifləməsi və sairə birinci növbədə kəndli təsərrüfatına və qismən mülkədar təsərrüfatına xeyli zərər vurmuş, əkin yerlərinin azalmasına, məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdu. Məsələn, Yelizavetpol quberniyasında 1914-cü illə 1915-ci ildəki əkin sahələrini müqayisə etdikdə kəndli təsərrüfatında əkin yerlərinin daha çox azaldığını görürük. Bunu 2-ci cədvəldən aydın görmək olar.

2-ci cədvəldən məlum olur ki, 1914-cü illə 1915-ci il arasında Yelizavetpol quberniyasında kəndli təsərrüfatında əkin sahələri 53.866 desyatin, mülkədar təsərrüfatında isə 6.329 desyatin azalmışdı.

Sonrakı illərdə bu tənəzzül daha da artmışdı. Öz iqlim şəraiti, torpağının məhsuldarlığı, su ilə təchiz edilməsi və sairə etibarı ilə Yelizavetpol quberniyasına nisbətən aşağı səviyyədə duran Bakı quberniyasında müharibənin təsiri daha ağır olmuşdur.

Əkin sahələrinin ixtisara düşməsi ilə əlaqədar olaraq, kənd təsərrüfatından gələn məhsul da azalmışdı..

Dünya müharibəsi, xarici müdaxilə və Vətəndaş müharibəsi nəticəsində Azərbaycanda bütün kənd təsərrüfatı bitkiləri əkini sahəsi 1913-cü ildən sovet hakimiyyətinin qələbəsinə qədər olan dövrə kimi 361,9 min hektar və ya 38 faiz, dənli bitkilərin əkin sahəsi 9(54 1 min hektar və ya 32 faiz azalmış, pambıq əkini sahəsi 1913-cü ildə 103,2 min hektardan 1921-ci ildə 5 2 min hektara kimi ixtisara düşmüşdü[57].

2-ci cədvəl

Kəndli və mülkədar təsərrüfatlarında əkin yerlərinin sahəsi (desyatinlə)*

| **Qəzalar** | **Kəndli təsərrüfatı** | | | **Mülkədar təsərrüfatı** | | |
|---|---|---|---|---|---|---|
| | 1914-cü ildə əkilmiş-dir | 1915-ci ildə əkilmiş-dir | - Azalma + Artma | 1914-cü ildə əkilmiş-dir | 1915-ci ildə əkilmiş-dir | - Azalma + Artma |
| Yelizavetpol şə. | - | - | - | 10.276 | 10.000 | - 276 |
| Nuxa | 47.937 | 32.500 | - 15.437 | 12.246 | 10.000 | - 2.246 |

[57] Достижения советского Азербайджана за 40 лет в цифрах, статистический сборник, Bakı, 1960, səh. 80.

* Azərbaycan SSR OİMDA, fond 62, siyahı 1, iş 95, vər. 56.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Cavanşir | 42.160 | 42.132 | - 28 | 8.474 | 8.520 | + 46 |
| Şuşa | 29.068 | 12.630 | - 16.438 | 11.427 | 11.116 | - 311 |
| Zəngəzur | 48.633 | 46.660 | - 1.973 | 7.912 | 6.717 | - 1.195 |
| Yelizavetpol | 42.955 | 36.366 | - 6.589 | 13.423 | 13.355 | - 68 |
| Ərəş | 17.801 | 12.445 | - 5.356 | 6493 | 5.845 | - 648 |
| Qazax | 28.320 | 21.080 | - 7.240 | 11.000 | 10.009 | - 991 |
| Qaryagin | 19.720 | 18.915 | - 805 | 11.940 | 11.310 | - 630 |
| Cəmi | 276.594 | 222.728 | - 53.866 | 84.191 | 77.872 | - 6.319 |

Bu illərdə maldarlığa da böyük zərər dəymişdi. Məsələn, Yelizavetpol quberniyasında mal-qaranın 1912-ci ildəki sayını 1915-ci illə müqayisə etdikdə maldarlığın get-gedə ciddi şəkildə tənəzzülə uğradığı aydın görünür.

3 - cü cədvəl

| **Yelizavetpol quberniyası** | | | | | |
|---|---|---|---|---|---|
| **İllər** | **Atlar** | **İribuynuzlu mal-qara** | **Camışlar** | **Qoyunlar** | **Keçilər** |
| 1912 | 71.307 | 643.084 | 162.254 | 1.262.780 | 85.323* |
| 1915 | 64.665 | 342.715 | 135.342 | 833.834 | 72.347** |

3-cü cədvəldən məlum olduğu kimi, üç il müddətində Yelizavetpol quberniyasında atların sayı 6.022 baş, iribuynuzlu malların sayı 300.369 baş, qoyunların sayı 428.946 baş azalmışdı.

Sonrakı illərdə bu tənəzzül daha da artaraq, kənd təsərrüfatının ümumi vəziyyətinə kəskin təsir etmişdi. Nəticədə 1916-cı ildən sovet hakimiyyətinin qələbəsinə kimi olan dövrdə Azərbaycanda iribuynuzlu malların sayı 417 min baş və ya 30 faiz, qoyun və keçilərin sayı 1,3 milyon başdan çox və ya iki dəfədən artıq azalmışdı[58].

Bu, ölkənin ümumi vəziyyətinə ciddi təsir göstərmiş, zəhmətkeş kəndli kütlələrinin güzəranını daha da pisləşdirmişdi.

Təsərrüfat dağınıqlığı ilə yanaşı, çar məmurlarının və mülkədarların özbaşınalığı zəhmətkeş kəndlilərin vəziyyətini dözülməz etmişdi.

---

* 1912-ci ilə aid olan rəqəmlər Yelizavetpol qubernatorunun 1913-cü il heabatından götrürülmüşdür. Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 615, vər. 74.

** 1915-ci ilə aid olan rəqəmlər qəza rəislərinin illik hesabatının quberniya üzrə yekunundan götürülmüşdür. Azərbaycan SSR OİMDA, fond 9/62, siyahı 1, iş 95, vər. 30-31.

[58] Yenə orada.

Çar məmurları tərəfindən müdafiə edilən mülkədarlar müharibə illərində daha da azğınlaşaraq, geniş miqyasda kəndli torpaqlarını zəbt edirdilər.

1915-1916-cı illərdə Lənkəran qəzası mülkədarı Əhmədxan Talışinski Astara kəndlilərinin, Qazax qəzası mülkədarlarından Kələntərov kişiləri müharibəyə səfərbərliyə alınmış Başkəndin erməni ailələrinin, Şuşa qəzasının bəylərindən olan Vəzirovlar Xındırıstan kəndlilərinin və Cavanşir qəzasının mülkədarları sayılan Vəlibəyovlar Qarapirim kəndinin əhalisinin torpağını zəbt edərək, yoxsul kəndlilərə olmazın əzab və əziyyət vermişdilər. [59] Nəticədə kəndlilərin torpaqsızlaşması sürətlə artmışdır. Məsələn, 1895-ci ildə Yelizavetpol quberniyasında torpaqsız kəndlilərin sayı 5.308 ev və ya kişili-qadınlı 25.000 nəfər, Bakı quberniyasında 3.906 ev və ya kişili-qadınlı 11.709 nəfər[60] idisə, 1916-cı ildə Yelizavetpol quberniyasında 6.893 ev və ya kişili-qadınlı 35.462 nəfər, Bakı quberniyasında isə 1.686 ev və ya kişili-qadınlı 19.573 nəfərə çatırdı[61]. Kənddə inkişaf etməyə başlamış kapitalist münasibətləri kəndlilər arasında təbəqələşməni qüvvətləndirirdi. Bu fikri Böyük Oktyabr sosialist inqilabı ərəfəsində Azərbaycan kəndinin ictimai quruluşunu xarakterizə edən aşağıdakı rəqəmlər sübut edir: yoxsul təsərrüfatları (əkin sahəsi olmayanlar və 1 hektara qədər əkin sahəsi olanlar) - 186.800 və yaxud 54 faiz; ortabab kəndli təsərrüfatları (4 hektara qədər əkin sahəsi olanlar) - 110.700 və yaxud 34 faiz; varlı və qolçomaq təsərrüfatları (4-8 hektar və daha artıq) - 28.000 və yaxud 8,6 faiz. Kəndlilərin istifadəsində olan torpaq sahəsi az məhsuldar olub, su ilə pis təchiz edilirdi. Məhsuldar torpaqlar və su mənbələri əsasən mülkədarların və qolçomaqların ixtiyarında idi[62].

Zəhmətkeş kəndlilər meşə materiallarından da istifadə edə bilmirdilər.

Çar hökuməti orqanlarının, bəy və mülkədarların təqib və cəza tədbirlərinə baxmayaraq, meşə materiallarından istifadə etməkdən məhrum edilən, lakin ona böyük ehtiyacı olan Azərbaycan kəndliləri elə hallar olurdu ki, meşəliklərdən və yaxud meşə yerlərində olan otlaqlardan istifadə etmək üçün silah işlətməyə məcbur olurdular.

Müharibə illərində çar hökumət orqanlarının təqib və cəza tədbirlərinə baxmayaraq, ölkənin başqa yerlərində olduğu kimi, Azərbaycanda da kəndlilərin mülkədarlara qarşı torpaq uğrunda mübarizəsi davam edirdi. Bakı bolşevik təşkilatı tərəfindən yerlərə göndərilən inqilabçı fəhlələr Yelizavetpol, Nuxa, Şuşa, Lənkəran, Şamaxı şəhərlərində gizli şəkildə işləyən bolşevik qrupları ilə birlikdə kəndlilər arasında çarizmə, mülkədarlara, müharibəyə qarşı təbliğat aparırdılar.

---

[59] Z. İbrahimov. Göstərilən əsəri, səh. 70.

[60] Bax: V. İ. Lenin. Əsərləri, 18-ci cild, Bakı, Azər-nəşr, 1951, səh. 86.

[61] Azərbaycan SSR MDTA, fond 1, siyahı 1, iş 1815, vər. 36.

[62] К XVIII сьезду ВКП(б). Основные показатели развития социалистического строительства Азербайджанской ССР, Азнархозучет, Bakı, 20 fevral 1939, səh. 8, MLİ Azərbaycan filialının kitabxanası.

Bu zaman Rusiya zəhmətkeşlərinin mübarizəsi tarixində mühüm hadisə baş verdi. Bolşeviklər partiyasının rəhbərliyi altında Rusiya fəhlə və kəndlilərinin azadlıq hərəkatı genişlənərək inqilabi partlayışa səbəb oldu. 1917-ci il fevral ayında çarizm devrildi.

Öz xarakteri etibarı ilə fevral inqilabı burjua-demokratik inqilabı olub, bilavasitə mütləqiyyətə və təhkimçilik qalıqlarına qarşı çevrilmişdi. İnqilabın hərəkətverici qüvvələri fəhlə sinfi və kəndlilər idi. İnqilabda hegemon rolunu proletariat oynayırdı. Proletariatın hegemonluğu, onun Kommunist partiyasının başçılığı altında milyonlarla əsgər nə kəndlilərin mübarizəsinə rəhbərliyi inqilabın qələbəsini təmin etdi.

Fevral burjua-demokratik inqilabının lap ilk günlərində Petroqradda və Rusiyanın bir çox başqa şəhərlərində fəhlə və əsgər deputatları sovetləri meydana çıxdı. 1917-ci il martın 4-də və 5-də Bakı fəhlə deputatları sovetinə seçkilər keçirildi. Martın 6-da 52 nümayəndədən ibarət Bakı deputatları soveti təşkil olundu. Eyni zamanda şəhərdə əlahiddə olaraq zabit və əsgər deputatları sovetləri yaradıldı. Martın 29-da isə hər iki sovet birləşərək hərbi deputatlar Soveti adlandırıldı. Birləşmədən sonra hərbi deputatlar sovetinə zabitlərin təsiri xeyli artmışdı[63].

İnqilabın qələbəsi ilə əlaqədar olaraq 1917-ci ilin mart-aprel aylarında Yelizavetpolda, Şamaxıda, Dərbənddə, Hacıqabulda və başqa yerlərdə fəhlə və əsgər deputatları sovetləri; Lənkəranda, Şuşada, Nuxada, Zaqatalada, Qubada, Culfada, Şahtaxtıda, Qaryagində və başqa yerlərdə əsgər deputatları sovetləri və əsgər komitələri meydana çıxmışdı[64].

Bolşeviklərin həbsdə, sürgündə, cəbhədə olmasından istifadə edən menşevik və eserlər istər Bakıda və istərsə də qəza şəhərlərində təşkil edilmiş olan sovetlərdə çoxluğu öz əllərinə ala bilmişdilər.

Çarizm yıxıldıqdan sonra Petroqradda menşevik və eserlərin sazişçi xain siyasəti nəticəsində qəti burjua hökuməti təşkil edildi ki, onun da tərkibinə burjua-mülkədar partiyalarının nümayəndələri daxil oldular. Az sonra yerlərdə də müvəqqəti hökumətin hakimiyyət orqanları əmələ gəldi. 1917-ci il martın 5-də Bakıda burjua hakimiyyət orqanı-ictimai təşkilatlar şurası və onun icraiyyə komitəsi, martın 10-da Yelizavetpolda ictimai təşkilatlar icraiyyə komitəsi təşkil olundu.

1917-ci il martın 9-da müvəqqəti burjua hökuməti Qafqaz canişinliyini ləğv edib, onun əvəzində Xüsusi Zaqafqaziya Komitəsini təsis etdi. Bu komitənin heyətinə IV dövlət dumasının üzvləri A. Xarlamov (kadet), M. Papaçanov (kadet), M. Y. Səfərov (kadet), A. Çxenkeli (menşevik), Pereverzev (eser) daxil edildilər.

---

[63] Z. İbrahimov. Göstərilən əsəri, səh. 82
[64] Yenə orada, səh. 83.

Beləliklə, müvəqqəti hökumət Zaqafqaziyanın idarə edilməsini, milyonlarla fəhlə və kəndlinin taleyini bir qrup monarxistə və onların ardınca sürünənlərə tapşırdı.

Qəza və nahiyə mərkəzlərində məmurların, qəza rəislərinin yerinə komissarlar təyin edilirdi.

İcraiyyə komitələrinin istismarçı siniflərin nümayəndələrindən təşkil edilməsi zəhmətkeş əhalinin ciddi narazılığına səbəb olmuşdu. Məsələn, Göyçay qəzasının kəndliləri icraiyyə komitəsinə müraciət edərək komitədə onların nümayəndələrinin olmamasına qarşı öz etirazlarını bildirirdilər. Zəhmətkeş kütlələr çar hakimiyyəti zamanı təyin edilmiş bütün məmurların dərhal qovulmasını, komissarların seçki ilə olmasını, suvarma işlərinin məmurların və mirabların əlindən alınıb əhaliyə verilməsini qəti surətdə tələb edirdilər[65].

Fevral burjua-demokratik inqilabından sonra bütün Rusiyada olduğu kimi, Azərbaycanın Bakı, Yelizavetpol, Şamaxı və başqa şəhərlərində də ikihakimiyyətlilik gəlmişdi. Bunlardan biri müvəqqəti hökumətin yerlərdəki orqanları olan, mülkədarlar və keçmiş çar məmurları tərəfindən idarə edilən icraiyyə komitələri, digəri isə proletariatla kəndlilərin inqilabi demokratik diktaturası olan fəhlə və əsgər deputatları sovetləri idi. Menşeviklərin və eserlərin xəyanəti nəticəsində mövqelərini möhkəmlədən burjua müvəqqəti hökuməti çarizmin siyasətini davam etdirərək, mülkədar və kapitalistlərin mənafeyini müdafiə edirdi. Müvəqqəti hökumət verdiyi vədlərdən fərqli olaraq xalqa nə sülh, nə 8 saatlıq iş günü, nə milli azadlıq, nə də kəndlilərə torpaq verdi. Rusiyada və həmçinin milli ucqarlarda yaşayan fəhlə və kəndlilər müvəqqəti hökumətin siyasətinin çarizmin siyasətindən fərqlənmədiyini görərək, kapitalist və mülkədarlara qarşı mübarizəni qüvvətləndirməyə başladılar. Müvəqqəti hökumət artmaqda olan kəndli çıxışlarının qarşısını almaq, mülkədar torpaq mülkiyyətinin toxunulmazlığını təmin etmək məqsədi ilə hər cür alçaq tədbirlərə əl atırdı. Müvəqqəti hökumət 1917-ci il aprelin 2-də verdiyi qanunda ərzaq komitələrinə mülkədar və qolçomaqların əkinlərini qorumaq vəzifəsini tapşırmışdı. Müvəqqəti hökumət torpaq islahatı keçirəcəyini vəd edərək, 1917-ci il aprelin 21-də «torpaq islahatını hazırlamaq» üçün torpaq komitələrinin yaradılması haqqında qanun vermişdi. Həmin qanuna əsasən Petroqradda baş torpaq komitəsi təşkil edildi ki, onun da vəzifəsi torpaq islahatı keçirmək üçün ümumi layihə hazırlamaq idi. Yerlərdə isə quberniya, qəza torpaq komitələri yaradıldı. Belə komitələr Bakı və Yelizavetpol quberniyalarında və həmin quberniyalara daxil olan qəzalarda da təşkil edilmişdi. Lakin bu komitələr kəndlilərə bir şey verməyərək, hakim istismarçı siniflərin mənafeyinə uyğun hərəkət edirdilər. Müvəqqəti hökumət tərəfindən verilən aqrar qanunları kəndliləri aldatmaq, onları inqilabi mübarizədən uzaqlaşdırmaq və mülkədarların mövqeyini möhkəmləndirməkdən başqa bir şey deyildi. Müvəqqəti hökumət kapitalist və mülkədarların mənafeyi keşiyində

[65] «Baku» qəzeti, 15 mart 1917-ci il, № 60.

duraraq, istismarçı siniflərə xidmət edirdi. Belə bir zamanda bolşeviklər mərkəzdə və milli ucqarlarda kütlələr arasında böyük inqilabi iş aparırdılar.

V. İ. Lenin o zaman partiyanın vəzifələrindən bəhs edərək yazırdı: «Rusiyada hazırkı dövrün xüsusiyyəti, inqilabın, proletariat lazımi qədər şüurlu və mütəşəkkil olmadığından hakimiyyəti burjuaziyaya vermiş olan birinci mərhələsindən onun ikinci mərhələsinə, hakimiyyəti proletariata və kəndlilərin ən yoxsul təbəqələrinə verməli olan mərhələsinə keçməkdən ibarətdir»[66].

V. İ. Lenin özünün məşhur Aprel tezislərində aqrar məsələ üzrə bolşeviklər partiyasının vəzifələrindən bəhs edərək yazırdı: «Aqrar proqramında ağırlıq mərkəzi muzdur deputatları sovetlərinə keçirilməli.

Bütün mülkədar torpaqları müsadirə edilməli. Ölkədə bütün torpaqlar milliləşdirilməli, yerli muzdur və kəndli deputatları sovetlərinin ixtiyarına verilməli. Ən yoxsul kəndlilərdən deputat sovetləri düzəltməli»[67].

Bu münasibətlə RSDF(b)P yeddinci (Aprel) konfransı Rusiyada bütün mülkədar torpaqlarının (həmçinin xanədan, kilsə, hökumət və sairə torpaqların) dərhal və tamamilə müsadirə edilməsi, bütün torpaqların kəndli deputatları sovetlərinin əlinə keçməsi dövlətdəki bütün torpaqların milliləşdirilməsi və sairə haqqında qərar çıxartdı[68].

Kütlələr içərisində geniş iş aparan, müvəqqəti hökumətin imperialist xarakterini, eser və menşeviklərin xəyanətini ifşa edən bolşeviklər partiyasının rəhbərliyi altında Rusiyada fəhlə və kəndlilərin inqilabi çıxışları artmağa başladı.

Zaqafqaziyanın başqa yerlərində olduğu kimi, Azərbaycan qəzalarında da 1917-ci ilin aprel, may aylarından başlayaraq kəndli hərəkatı genişlənirdi. Bundan qorxuya düşən Xüsusi Zaqafqaziya Komitəsi kəndlilərə müraciət edərək, mülkədar torpaqlarını tutmamağı və torpaq məsələsinin məclis-müəssisanda həll edilməsini gözləməyi təklif edirdi [69]. Bu, geniş kəndli kütlələrini mülkədarlara qarşı mübarizədən uzaqlaşdırmaqdan başqa bir şey deyildi. Zaqafqaziya və o cümlədən Azərbaycan kəndliləri əvvəlki kimi, yenə də torpaqsızlıqdan və aztorpaqlılıqdan əziyyət çəkir, mülkədar və iri torpaq sahiblərinin zülm və istismarı altında əzilirdilər.

«Müvəqqəti hökumət aqrar məsələsini də həll etmək istəmirdi. Kəndlilərə torpaq vermək arzusunda olmadığını açıq söyləməyə cürət etməyən müvəqqəti hökumət onları aldadaraq, məsələnin həllini müəssislər məclisi çağırılanadək təxirə salırdı və mülkədar torpaqlarını tutmaq üçün kəndlilərin göstərdikləri hər bir cəhdi əzirdi»[70].

---

[66] V. İ. Lenin. Əsərləri, 24-cü cild, Bakı, Azərnəşr. 1951, səh. 4.
[67] Yenə orada, səh. 5.
[68] Sov.İKP qurultayları, konfransları və MK Plenumlarının qətnamə və qərarları, I hissə, səh. 376-377
[69]Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 587, vər. 245.
[70] Sovet İttifaqı Kommunist partiyasının tarixi, Bakı, Azərnəşr, 1960, səh. 210.

Belə bir vəziyyət isə uzun zaman davam edə bilməzdi. Müvəqqəti hökumətin verdiyi vədlərin yalan olduğunu, görən, ağır zülm və istismar altında inləyən, böyük maddi ehtiyac içərisində yaşayan Azərbaycan kəndlilərinin istismarçılara qarşı inqilabi mübarizəsi qüvvətlənməyə başladı.

Kəndlilər bəylərin torpaqlarını, mal-qarasını zəbt edir, meşələri icazəsiz qırır, həbs edilən adamları azad edirdilər. Yerli hökumət orqanları çox zaman kəndli hərəkatının öhdəsindən gələ bilmədikləri üçün quberniya mərkəzlərindən hərbi qüvvə göndərilməsini xahiş edirdilər. Məsələn, Göyçay qəza komitəsinin sədri kömək almaq məqsədi ilə 1917-ci il aprelin 20-də Bakıya vurduğu teleqramda yazmışdı: «Bu gün kəndlilərin böyük bir dəstəsi məhbusları azad etmək üçün həbsxanaya doğru yönəldi. Mühafizə dəstəsinin əsgərləri vəziyyətin çıxılmaz olduğunu kerərə:-.: dəstəni atə.şə tutmağa başladılar. İki nəfər öldürüldü, bir nəfər yaralandı, qalanları isə qaçdılar. Məhbusları zorla sakitləşdirə bildik. Şuluqluq gözlənilir. Kömək göstərmənizi xahiş edirik»[71].

1917-ci ilin yazında Quba qəzasında da böyük kəndli iğtişaşları olmuşdu. Bu münasibətlə «Baku» burjua qəzeti təəssüflə yazmışdı ki, Quba qəzasında Rılskinin «Velyamir» malikanəsində kəndlilər arasında böyük iğtişaşlar baş vermişdir. Görülmüş əks tədbirlərə baxmayaraq, «kəndlilər qarışıqlıq salmaqda davam edir, arpa əkinini məhv edir, mal-qaranı aparır, malikanə fəhlələrini tarla işlərinə çıxmağa qoymur, hazırlanmış odunu meşədən daşımağa yol vermir və torpağı zəbt edirlər»[72].

1917-ci ilin iyul ayında Şərur qəzasının-Düdəngə kəndinin yoxsul kəndliləri yerli mirabı işdən kənar edib, öz nümayəndələrini mirab seçmiş və yerli mülkədar Zina xanım Səfiyevanı sudan məhrum etməyi qərara almışdılar. Səfiyevanın köməyinə göndərilmiş polis dəstəsi kəndlilər tərəfindən məğlub edilərək kəndə buraxılmamışdı[73].

Artmaqda olan kəndli hərəkatından qorxuya düşən Xüsusi Zaqafqaziya Komitəsi özünün yerlərdəki orqanlarından kəndlilər tərəfindən torpaqların və suyun ələ keçirilməsinə, meşələrin qırılmasına yol verilməməsi üçün bütün tədbirlərin görülməsini tələb edirdi[74].

Müvəqqəti hökumətin kapitalist və mülkədarların tərəfini saxlaması siyasətinə daşnaq və müsavat burjua-mülkədar millətçi partiyaları kömək edirdilər.

Sazişçi partiyalara, burjua-mülkədar millətçi partiyalarına qarşı mübarizədə RSDFP-nin Bakı Komitəsi və «Hümmət» bolşevik təşkilatı mühüm rol oynayırdı. Onlar fəhlələrlə kəndlilərin əlaqəsini genişləndirməyə və

---

71 Azərbaycan SSR OİMDA, fond 332, siyahı 1, iş 5, vər. 1.

72 «Baku» qəzeti, 25 aprel 1917-si il, № 90.

73 Q. Ə. Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, Böyük Oktyabr və Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə, sənədlər, məqalələr külliyyatı, Bakı, 1958, səh.

74 Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 587. vər. 245.

möhkəmləndirməyə çalışırdılar. Bolşevik «Hümmət» təşkilatının başında N. Nərimanov, M. Əzizbəyov, S. M. Əfəndiyev və başqaları dururdular.

Yelizavetpol, Lənkəran, Şamaxı, Quba, Nuxa, Qazax, Şuşa və başqa şəhərlərdə də bolşevik qrupları və özəkləri təşkil edilmişdi. Yerlərdə təşkil edilmiş olan bolşevik təşkilatları kütlələr arasında geniş inqilabi iş aparırdılar. Onlar kəndlilərə müvəqqəti hökumətin imperialist mahiyyətini izah edir, bolşevik partiyasının aqrar məramnaməsinin əhəmiyyətini göstərirdilər. Bolşeviklər partiyasının mülkədar torpaqlarını müsadirə etmək, bütün torpaqları milliləşdirmək siyasəti kütlələr tərəfindən rəqbətlə qarşılanır və zəhmətkeş kəndliləri inqilabiləşdirmək sahəsində böyük rol oynayırdı,

Azərbaycanda kəndli hərəkatı gündən-günə qüvvətlənirdi. 1917-ci il mayın 25-26-da Muğan və Şirvan düzləri kəndlilərinin qurultayı oldu. Qurultayda 122 nümayəndə iştirak edirdi. Qurultayda başqa məsələlərlə yanaşı, torpaq məsələsi də müzakirə edildi və qərara alındı ki, torpaq milliyyətindən asılı olmayaraq, kimin tərəfindən becərilərsə, ona da mənsub olmalıdır[75]. Bu qərar minlərlə zəhmətkeş kəndlinin istək və arzusuna uyğun olub, mülkədarlara ciddi zərbə idi.

1917-ci ilin yayında ölkədə vəziyyət daha da gərginləşdi. Müvəqqəti hökumətin əksinqilabçı, xalqa zidd mövqeyi artıq tamamilə kütlələrə məlum olurdu. Müvəqqəti hökumətin xalqa zidd siyasəti, iyul nümayişlərinin qəddarlıqla güllələbaran edilməsi, fəhlə təşkilatları üzərinə hücum və təqiblər kütlələrin inqilabi qüvvələrinin daha da birləşməsinə səbəb oldu.

Mülkədarlara qarşı kəndlilərin inqilabi mübarizəsinin genişlənməsi ilə əlaqədar olaraq müvəqqəti hökumət bərk qorxuya düşmüşdü. 1917-ci il iyulun 18-də müvəqqəti hökumət artmaqda olan kəndli hərəkatının qarşısını almaq, mülkədarların mülkiyyətini qorumaq üçün qanun verdi. Müvəqqəti hökumət zəhmətkeşlərə qarşı təzyiqi gücləndirdi.

1917-ci ilin iyul ayında Petroqrad proletariatının dinc nümayişi müvəqqəti hökumət tərəfindən silah gücünə dağıdıldıqdan sonra vəziyyət tamam dəyişdi. İkihakimiyyətlilik qurtardı. Hakimiyyət tamamilə burjuaziyanın əlinə keçdi.

V. İ. Lenin o zaman yazırdı: «Burjuaziyanın hökumətdə bütünlüklə ələ ala bilmədiyi, sovetlərin ələ almaq istəmədiyi hakimiyyət, aydındır ki, tamamilə kadetlər və qaragüruhçular tərəfindən, mülkədarlar və kapitalistlər tərəfindən yardım göstərilən hərbi güruhun, bonapartçıların əlinə keçdi»[76].

İnqilabın dinc dövrü qurtardı. Bu zaman bolşeviklər partiyası yeni vəzifələr qarşısında durmuşdu. Bu vəzifə də inqilabın sonrakı inkişaf yolunu müəyyən etməkdən ibarət idi ki, onu da partiyanın VI qurultayı həll etdi.

---

[75] «Известия Бакинского Совета» qəzeti, 2 iyun 1917-ci il № 49.

[76] V.İ. Lenin. Əsərləri, 25-ci cild, Bakı, Azərnəşr, 195), səh. 250.

RSDF(b)P VI qurultayı V. İ. Leninin göstərişlərini rəhbər tutaraq silahlı üsyan hazırlamaq xəttini yeritdi. «Partiyanın VI qurultayı göstərdi ki, hakimiyyət proletariatın və yoxsul kəndlilərin əlinə ancaq silahlı üsyan yolu ilə, burjuaziya diktaturasının devrilməsi yolu ilə keçə bilər»[77].

Partiyanın VI qurultayının bütün qərarları proletariat və yoxsul kəndliləri silahlı üsyana hazırlamağa doğru yönəldilmişdi. Qurultay bolşeviklərin məramnaməsini müzakirə və təsdiq etdi. Həmin məramnamənin əsas maddələri bunlar idi: hakimiyyətin zəhmətkeşlərə verilməsi, bütün millətlərin hüquq bərabərliyi, torpaqların, fabriklərin, zavodların, dəmir yolların, bankların milliləşdirilməsi, istehsalat nə bölgü üzərində fəhlə nəzarəti qoyulması və sairə.

«VI qurultay, sosialist inqilabının qələbəsinin şərti olmaq etibarı ilə, proletariatla yoxsul kəndlilərin ittifaqı haqqında Lenin müddəasını bütün öz qərarlarında xüsusi bir qüvvə ilə qeyd etdi»[78].

VI qurultaydan sonra ölkədə fəhlə və yoxsul kəndlilərin inqilabi mübarizəsi yeni əzəmətlə yüksəldi. Fəhlə hərəkatı ilə yanaşı, 1917-ci ilin aprel-may aylarından başlayan kəndli çıxışları yay və payız aylarında daha da genişləndi. 1917-ci ilin may ayında ölkədə 152, iyul ayında 378, avqust ayında 440 kəndli çıxışları olduğu halda, sentyabr ayında onların sayı 958-ə çatdı[79].

1917-ci ilin yayından başlayaraq Azərbaycanın Şuşa, Səbrayıl, Yelizavetpol, Ərəş, Qazax, Nuxa və başqa qəzalarında kəndli çıxışları geniş vüsəq aldı. Bu münasibətlə Yelizavetpol qəza komissarının 1917-ci ilin oktyabr ayında Yelizavetpol quberniya komissarına göndərdiyi raportda qeyd edilirdi ki, qəzada kəndli hərəkatı may ayından başlamışdır. Kəndlilər sahibkarlara məxsus olan əkin yerlərini, çəmənlikləri tutur, sahibkar torpaqlarında öz mal-qaralarını otarır, meşələri qırırlar[80].

Başqa bir sənəddə göstərilirdi ki, dövlət çevrilişi kəndlilərin torpaq sahibkarlarına qarşı münasibətinə təsir etmişdir. Kəndlilər mülkədar torpaqlarını tutaraq əkirlər. Onlar torpaq sahibkarlarından icarəyə götürdükləri torpağa görə verdikləri icarə haqqını azaldırlar[81]. Torpaq sahiblərinin. mülkündə muzdlu fəhlə sifəti ilə işləyən kəndlilər əmək haqqının artırılmasını tələb edirdilər. Çar devriləndən sonra kəndlilər bəylərə bəhrə vermir və başqa mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırırdılar[82].

---

[77] Sovet İttifaqı Kommunist partiyasının tarixi, Bakı, Azərnəşr, 1960, səh. 235.

[78] Sov.İKP qurultayları, konfransları vo MK Plenumlarının qətnamə və qərarları, I hissə, Bakı, 1954. səh. 411.

[79] А.Н.Лопаткин. Из истории разработки аграрной программы болшевитстской партии, Госполитиздат, 1952, səh. 242.

[80] Azərbaycan SSR OİMDA, fond 268, siyahı 1, iş 17, vər. 10.

[81] Yenə orada.

[82] Yenə orada, vər. 12.

Quberniya və qəza komissarları Xüsusi Zaqafqaziya Komitəsinə müraciət edərək kəndli hərəkatının qarşısını almaq məqsədi ilə hərbi hissələrin göndərilməsini tələb edirdilər[83].

Azərbaycan bolşevikləri partiyanın aqrar məsələyə dair göstərişlərini rəhbər tutaraq, sosialist inqilabının qələbəsi üçün proletariatla zəhmətkeş kəndlilərin ittifaqının həlledici əhəmiyyətini nəzərə alaraq, kənddə böyük inqilabi iş aparırdılar. Bunun nəticəsində Yelizavetpol qəzasında aqrar hərəkatı genişlənərək, yeni-yeni kənd və nahiyələri əhatə edirdi. Göygəldi, Borçalı kəndliləri 1917-ci il avqust ayının əvvəllərində silahlanaraq, «Xan-Qərvənd», Kuprianovun, Məmmədxanbəyovun malikanələrinə basqın etmiş, 100.000 manatlıq döyülmüş buğdanı və taxıl dərzlərini zorla aparmışdılar.

Xan-Qərvənd kəndliləri sahibkarlara məxsus suyu zorla öz təsərrüfatlarına aparmış, Qızılhacılı kəndliləri isə «Xan-Qərvənd» malikanəsini ələ keçirərək, sahibkarlara köməyə gəlmək istəyənləri atəşə tutub, onları yaxına buraxmamışlar.

Kəndli iğtişaşlarının genişlənməsindən qorxuya düşən quberniya komissarı hərəkatın qarşısını almaq məqsədi ilə həmin yerlərə hərbi qüvvə göndərməyə məcbur olmuşdu[84].

Bu zaman Cavanşir qəzasındakı Talış kəndinin sakinləri də «Xanağa» malikanəsindəki bütün məhsulu mənimsəyərək, sahibkar Məlik-Bəylərovlara düşən hissəni verməkdən boyun qaçırmışlar[85].

Yelizavetpol quberniyasında kəndli hərəkatının genişlənməsi münasibəti ilə Yelizavetpol quberniya idarəsi tərəfindən Petroqrada-müvəqqəti hökumətə göndərilən 1917-ci il 18 avqust tarixli məlumatda deyilirdi: «Kəndlilər arasında aqrar hərəkatı başlanmışdır. Silahlı kəndlilər mülkədar malikanələrini dağıdır, sütül taxılı yığır, suların qabağını kəsib özləri üçün istifadə edir, isti silahları işə salır və komissarları təhqir edirlər. Bunun qarşısını almaq üçün qoşun göndərilmişdir[86].

1917-ci ilin payız aylarında kəndli hərəkatı genişlənərək Azərbaycan qəzalarının əksəriyyətini əhatə etmişdi. Kəndlilər mülkədar torpaqlarını tutur, müvəqqəti hökumət tərəfindən göndərilən qoşunlara, bəy quldur dəstələrinə qarşı silahlı müqavimət göstərirdilər.

Bu zaman zəhmətkeşlər arasında bolşeviklərin təsiri və fəaliyyəti daha da artmışdı. Şəhərlərdə bolşeviklərin təsirinin artması, hər şeydən əvvəl, fəhlə və əskər deputatları sovetlərinin bir-birinin ardınca bolşeviklərin tərəfinə keçməsi nəticəsi idi. Fəhlə və əsgərlər sovetlərdən eser və menşevikləri qovaraq, onların yerinə bolşevik partiyasının nümayəndələrini seçirdilər.

---

[83] Gürcüstan SSR OİMDA, fond 1471, siyahı 1, iş 494; vər. 1-2.
85 «Baku» qəzeti, 12 avqust 1917-ci il, № 180.
[84] Yenə orada.
[85] Yenə orada.
[86] Bax: «Kommunist» qəzeti, 9 iyun 1957-ci il, № 134.

1917-ci il oktyabrın 2-dən 7-nə kimi Tiflisdə Qafqaz bolşevik təşkilatlarının birinci qurultayı oldu. RSDF(b)P-nin VI qurultayının qərarlarını rəhbər tutan Qafqaz bolşevik təşkilatının birinci qurultayı müvəqqəti hökuməti devirmək, menşevik və eserlərin, millətçi partiyalarının müqavimətini qırmaq, ölkədə sosialist inqilabının qələbəsini təmin etmək haqqında konkret qərarlar qəbul etdi.

Qurultayda aqrar məsələ də müzakirə edildi. Həmin məsələ üzrə qurultay torpaqların milliləşdirilməsi, kəndli deputatları sovetləri və yaxud kəndli komitələri tərəfindən bütün mülkədar torpaqlarının dərhal, mütəşəkkil şəkildə tutulması tələbini irəli sürdü. Qurultay hər yerdə sovetləri və yaxud kəndli komitələri təşkil etməyə çağırdı[87].

1917-ci ilin sentyabr ayında Bakı fahlələri bolşeviklərin rəhbərliyi altında ümumi tətil etdilər. Kapitalistlər fəhlələrin tələblərini qəbul etməyə, yeni, müştərək müqavilə bağlanmasına razılıq verməyə məcbur oldular. Sentyabr tətili Bakı və Azərbaycanda sinfi mübarizəni daha da kəskinləşdirdi. Bu zaman Bakı fəhlə və əsgər deputatları sovetində bolşeviklərin təsiri xüsusi ilə qüvvətləndi. 1917-ci il oktyabrın 13-də Bakı sovetinin menşevik-eser icraiyyə komitəsi kütlələrin təzyiqi və bolşeviklərin qəti mübarizəsi nəticəsində istefa verməyə məcbur oldu. Bakı fəhlə və əsgər deputatları sovetinin rəhbərliyinə bolşeviklər keçdilər. Bakı soveti İcraiyyə Komitəsi sədrliyinə Stepan Şaumyan seçildi. Oktyabrın 15-də Bakı sovetinin geniş iclası mədən-zavod komissiyalarının nümayəndələrinin iştirakı ilə müvəqqəti hökumətə etibar etməmək, bütün hakimiyyəti fəhlə, əsgər, kəndli deputatları sovetinə vermək haqqında qərar qəbul etdi.

1917-ci il sentyabr-oktyabr aylarında genişlənən ümumi inqilabi böhran Azərbaycan kəndlərini də bürüdü. Bakı sovetinin rəhbərliyi altında Azərbaycanda və Bakıda müvəqqəti hökumətə, kapitalist və mülkədarlara qarşı mübarizə genişləndi.

Bu mübarizə 1917-ci il oktyabr ayının 25-də (noyabrın 7-də) Petroqrad proletariatının qalibiyyətli üsyanı nəticəsində müvəffəqiyyətlə başa çatdırıldı. Bu, bəşəriyyət tarixində yeni bir dövr açan Böyük Oktyabr sosialist inqilabı idi.

Böyük Oktyabr sosialist inqilabının qələbəsindən, sovet hakimiyyətinin sülh və torpaq haqqında dekretlərindən ruhlanan Azərbaycan fəhlə və zəhmətkeş kəndlilərinin sovet hakimiyyəti uğrunda, mülkədar və kapitalistlərə qarşı mübarizəsi daha da qüvvətləndi və yeni mərhələyə daxil oldu.

Böyük Oktyabr sosialist inqilabının qələbəsindən ruhlanan qəhrəman Bakı proletariatı 1917-ci il oktyabrın 31-də bolşeviklərin rəhbərliyi ilə Bakıda sovet hakimiyyətinin qurulduğunu elan etdi. Noyabr ayının 2-də isə Bakı fəhlə və əsgər deputatları soveti hakimiyyəti əməli surətdə ələ almaq üçün məramnamə qəbul edib, yeni icraiyyə komitəsi seçdi.

---

[87] Борьба за победу Советской власти в Грузии. Документы и материалы. (1917-1921 гг.), Тбилиси, 1958. səh. 103.

Bakı soveti noyabrın 12-də əksinqilabçı eser-menşevik «İctimai təhlükəsizlik komitəsi»ni, az sonra isə «İctimai təşkilatların icraiyyə komitəsi»ni ləğv etdi.

Bakı soveti İcraiyyə Komitəsi son dərəcə ağır şəraitdə fəaliyyət göstərirdi. Belə ki, Bakıda şəhər duması, müsəlman və erməni «milli-şuraları» kimi əksinqilabçı təşkilatlar mövcud idilər və onların real hakimiyyəti var idi.

Əksinqilabçı təşkilatların, partiyaların müqavimətinə baxmayaraq, Bakı sovetinin İcraiyyə Komitəsi bir sıra inqilabi tədbirləri həyata keçirməyə müvəffəq oldu.

Rusiya fəhlə sinfinin qabaqcıl dəstələrindən biri olan qəhrəman Bakı proletariatı sovetin ətrafında sıx sıralarla birləşdi.

Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizəyə böyük Leninin şagirdləri N. Nərimanov, M. Əzizbəyov, s. Şaumyan, A. Caparidze, S. M. Əfəndiyev, İ. Fioletov və başqaları rəhbərlik edirdilər.

Bakıda fəhlə və əsgər deputatları sovetinin fəaliyyətinin genişləndiyi bir zamanda Azərbaycan kəndliləri mülkədarlara qarşı daha inamla mübarizə aparmağa, sahibkar torpaqlarını tutmağa, silahlanaraq kütləvi surətdə çıxış etməyə başladılar.

Qazax, Gəncə, Nuxa qəzalarında, Qarabağda kəndlilər tərəfindən xəzinə və sahibkar meşələrinin, əkin yerlərinin tutulması sürətlə artırdı.

Rusiyada proletar inqilabının qələbəsi nəticəsində Zaqafqaziyada inqilabi hərəkatın genişlənməsindən qorxuya düşmüş əksinqilabçı menşevik, eser, müsavat və daşnaq partiyaları öz qüvvələrini səfərbər edərək, sovet hakimiyyəti əleyhinə blok təşkil etdilər. Onlar Antanta imperialistləri ilə ittifaq bağlayaraq, onların agentlərinə çevrildilər və Zaqafqaziyada sovet hakimiyyətinin qalib gəlməsinə yol verməmək üçün 1917-ci il noyabrın 15-də Tiflisdə «Zaqafqaziya Komissarlığı» adlı əksinqilabi «hökumət» təşkil etdilər. Bu «hökumətin» 12 nəfər üzvü var idi. Müsavatçı və mülkədarlardan Fətəlixan Xoyski, M. Y. Səfərov, Məlik Aslanov, X. B. Xasməmmədov da buraya daxil idilər. Zaqafqaziya Komissarlığı Zaqafqaziyanın hakim istismarçı sinifləri əlində sovet hakimiyyəti əleyhinə mübarizə aparmaq üçün bir alət idi.

Bakı soveti Zaqafqaziya Komissarlığını istismarçı siniflərin əksinqilabçı orqanı hesab edərək, onu tanımadığını bildirdi. Yerlərdə də zəhmətkeş əhali əksinqilabçı Zaqafqaziya Komissarlığının təşkilinə qarşı öz etiraz səsini qaldırdı. Məsələn, Ağdaş zəhmətkeşləri 1917-ci il noyabrın 19-da Oktyabr inqilabının qələbəsi münasibəti ilə keçirdikləri mitinqdə əksinqilabçı Zaqafqaziya Komissarlığının təşkilinə qarşı çıxmış və qəbul etdikləri qətnamədə yazmışlar: «biz özbaşına düzəldilmiş Zaqafqaziya burjua-bəy hökumətinə etibar etmədiyimizi bildiririk; bu hökumət qeyri-inqilabi hökumət olub nə inqilabi dövrə, nə də

Zaqafqaziyada yaşayan bütün millətlərin zəhmətkeş kütlələrinin mənafeyinə uyğun deyildir»[88].

Zəhmətkeş əhalinin narazılığından, çıxışlarından qorxuya düşən Zaqafqaziya Komissarlığı kəndliləri mülkədarlara qarşı inqilabi mübarizədən uzaqlaşdırmaq məqsədi ilə torpaq haqqında «qanun layihəsi» hazırlamağa başladı.

1917-ci il dekabrın 8 və 9-da Zaqafqaziya Komissarlığının iclasında torpaq haqqında «qanun layihəsi» müzakirə edilərkən, Azərbaycan burjua-mülkədar millətçiləri mülkədar torpaq mülkiyyətinin saxlanılmasını təkidlə tələb edib, mülkədar və vəqf torpaqlarının kəndlilər tərəfindən müsadirə edilməsinin qəti əleyhinə çıxdılar[89].

Zaqafqaziya Komissarlığının 1917-ci il dekabrın 16-da qəbul etdiyi torpaq haqqında qanun isə həqiqətdə Zaqafqaziya mülkədarlarının təzyiqi altında həyata keçirilmədi.

S.Q.Şaumyan Zaqafqaziya Komissarlığının torpaq haqqında «qanununun» mahiyyətini çox gözəl ifşa etmişdi. S. Q. Şaumyan Zaqafqaziya Komissarlığının torpaq qanununu xarakterizə edərək yazırdı ki, Xalq Komissarlar sovetinə, yəni Rusiyanın fəhlə-kəndli hakimiyyətinə müharibə elan edən Zaqafqaziya Komissarlığı da «torpaq haqqında» dekret verməyə məcbur oldu, lakin bu «qanuna» görə, mülkədar torpaq mülkiyyəti bu və ya başqa bəhanələrlə saxlanılırdı, qalan torpaqlar isə kəndli komitələrinin ixtiyarına deyil, yuxarıdan təyin edilmiş torpaq komitələrinin ixtiyarına verilirdi. Məlum olur ki, torpaq məsələsinin, yəni kəndli məsələsinin həlli, kəndlilərin özləri tərəfindən deyil, başqa təşkilatlar tərəfindən həyata keçirilir. Belə bir hal təhkimçilik hüququ ləğv edilərkən olmuşdu. Kəndlilərin taleyini kəndli komitələri deyil, dvoryan komitələri, başqa sözlə desək, təhkimçilərin və ya qul sahiblərinin özləri həll edirdilər[90].

Zaqafqaziya Komissarlığı kəndlilərə nəinki torpaq verdi, əksinə, Azərbaycan bəylərinin və gürcü dvoryanlarının tələbi ilə qəbul etdiyi başqa bir qanuna əsasən kəndliləri (torpaq məsələsi müəssislər məclisi tərəfindən həll olunana qədər) öz ağalarına icarə haqqı və başqa vergiləri verməyə, həm də bütün bunları hökmən 1916-cı ildəki yüksək qiymətlə verməyə məcbur etdi[91].

Zaqafqaziya Komissarlığı kəndlilərə yalan vədlər verməklə, onların inqilabi hərəkatının qarşısını almağa çalışırdısa da, məqsədinə nail ola bilmirdi. Belə ki, əsrlər boyu bəy-xan zülmünə məruz qalan Azərbaycan kəndliləri torpaq haqqında Lenin dekretindən ruhlanaraq, mülkədarlara qarşı ölüm-dirim mübarizəsinə qalxmışdılar. 1917-ci il oktyabr ayının axırları və noyabr ayının əvvəllərində Şamxor stansiyası yaxınlığında olan Dəllər kəndinin sakinləri Şamxor bəylərinin

---

[88] «Кавказски рабочи» qəzeti, 24 oktyabr 1917-ci il, № 207.
[89] Gürcüstan SSR OİMDA, fond 268, siyahı 1, iş 31, vər. 16, 18, 19.
[90] С.Г.Шаумян. Избранные произведения (1917-1918), 2-ci cild, M., 1958, səh. 162.
[91] Yenə orada, səh. 191.

torpaqlarını, o cümlədən 730 desyatinlik «Dəllər» mülkünü və min desyatinə yaxın olan «Oxçuluq» mülkünü tutmuşdular[92].

Ölkədə kəndli hərəkatının genişlənməsi münasibəti ilə Yelizavetpol quberniyası Torpaq və Xəzinə Əmlakı İdarəsi rəisinin Zaqafqaziya Komissarlığına göndərdiyi 1917-ci il 19 dekabr tarixli məktubunda deyilirdi ki, inqilabdan sonra təbliğatın təsiri altında əhali kütləvi surətdə meşələri qırır, meşələrin yandırılması hesabına pay torpaqlarını genişləndirir, mal-qaranı meşəliklərdə otarır və s.[93]. İnqilabi hərəkatın qarşısını almaq üçün hakim və yerli orqanların gördükləri tədbirlərə baxmayaraq, Azərbaycan kəndində sinfi mübarizə getdikcə kəskinləşirdi. Yelizavetpol qəzasının Saratovka kənd əhalisi xəzinəyə mənsub olan 2.000 desyatinə qədər meşə sahəsini tutmuşdular. Qazax qəzasının Baran icması komissarı Ağstafa meşəbəyliyinə müraciət edərək, kəndlilər tərəfindən meşələrin tutulması və qırılmasının qarşısını almaq üçün hərbi qüvvə göndərilməsini tələb edirdi[94].

Xəzinə və sahibkar meşələrinin kəndlilər tərəfindən tutulması və qırılaraq torpaq sahələrinə çevrilməsi halları Qazax qəzasının Ağstafa və Şəmsəddin meşələrində, Nuxa qəzasında, həmçinin Tərtər meşəbəyliyində də geniş yayılmışdı. Kənddə genişlənən sinfi mübarizə bolşeviklər partiyasının bilavasitə fəaliyyəti nəticəsində əsas məqsədə doğru-burjua-mülkədar quruluşunu devirməyə doğru yönəldilirdi.

Böyük Oktyabr Sosialist inqilabının qələbəsindən sonra qəzalarda bolşeviklərin fəaliyyəti genişlənməyə başladı. Bu zaman N. Nərimanov, S. Q. Şaumyan, M. Əzizbəyov, S. M. Əfəndiyev, P. A. Caparidze, B. Sərdarov, M. İsrafilbəyov, D. Bünyadzadə, H. Sultanov, A. B. Yusifzadə, Q. M. Ağasıyev, M. Aydınbəyov, Əmiraslan Süleymanov, M. Məmmədyarov və başqa kommunistlər təşviqat və təşkilat tədbirləri görmək üçün tez-tez qəzalara gedirdilər. Onlar Bakı bolşevik təşkilatı ilə Azərbaycan kəndliləri arasında əlaqə yaradılması işini təşkil etmək, zəhmətkeş kəndlilərin bəy və mülkədarlara qarşı mübarizəsinə istiqamət vermək üçün qüvvələrini əsirgəmirdilər. N. Nərimanov Azərbaycan və bütün Zaqafqaziya zəhmətkeşlərini böyük Lenin ideyalarını həyata keçirmək uğrunda mübarizəyə çağıraraq yazırdı: «Hər yerdə çalışmalısınız ki, hökumət fəhlə, zəhmətkeş kəndlilər sovetlərinin ixtiyarına keçsin. Bu sovetlər, bu təşkilatlar ancaq Leninin məramnaməsini qüvvətləndirəcəkdir və ancaq bunlar inqilabı dərinləşdirib möhkəmləndirəcəkdir»[95].

Gəncədəki zavod və fabriklərdə, Gədəbəy mis mədənində, Tovuz sement zavodunda, Nuxa və Şuşa ipək zavodlarında işləyən fəhlələr kəndlilər arasında gizli inqilabi təbliğat işi aparırdılar.

---

[92] Azərbaycan SSR OİMDA, fond 268, siyahı 1, iş 31, səh: 16, 18, 19.
[93] Azərbaycan SSR MDTA, fond 23, siyahı 2, iş 40, vər. 68 – 69.
[94] Yenə orada.
[95] «Hümmət» qəzeti, 1 yanvar 1918-ci il, № 25.

1917-ci ilin dekabr ayının 24-də və 26-da Qovlar stansiyasında Qazax, Tovuz, Şamxor, Gədəbəy bolşeviklərinin və inqilabçı kəndlilərinin gizli yığıncağı keçirildi. Yığıncağın təşkilatçısı köhnə inqilabçı, bolşevik Müseyib Əliyev idi. İclas Qazax və Gəncə qəzalarında bəy və mülkədarlar əleyhinə üsyan qaldırmağı qərara aldı[96].

1917-ci ilin sonlarında yeni bir qüvvə ilə yüksələn kəndli hərəkatı 1918-ci ilin yanvar-fevral aylarında ən yüksək nöqtəyə qalxdı.

1918-ci il yanvarın 3-də Gəncə qəzasının Yuxarı Ayıblı kəndlilərinin mülkədar Qarabəyovlar əleyhinə üsyanı qalxdı. Üsyan getdikcə genişlənərək Gəncə qəzasının 4-cü nahiyəsinə daxil olan Xılxına, Alakol, Qovlarsarı, İrmişli və başqa kəndləri əhatə etdi. Üsyan hərəkatında 500-dən artıq kəndli iştirak edirdi.

Mübarizəyə qalxan silahlı kəndlilər yanvarın 5-6-da mülkədar Zülqədərovların və Qarabəyovların həyətyanı torpaqlarını, onların yaşadıqları evləri mühasirəyə alaraq atəşə tutur, yandırır, mülkədarları ailələri ilə birlikdə qırır, onların torpaqlarını tutur, əmlaklarını zəbt edirdilər.[97]

1918-ci ilin yanvar ayının 4-də Cəyir kəndlilərinin Şamxor bəyləri əleyhinə üsyanı oldu. Kəndlilərin qəzəbindən qorxan 80-a kimi bəy öz mülkünü atıb qaçmışdı[98].

Kəndlilər Şamxor bəylərinin torpaqlarını, meşələrini tutaraq, mal-qaraları, atlarını aparmış, tikintilərini, evlərini dağıtmışdılar[99].

1918-ci ilin əvvəllərində Goranboy-Əhmədli və Borcunlu kəndliləri Qatır Məmmədin rəhbərliyi altında mülkədarlara qarşı geniş mübarizəyə başlayırlar. Onlar mülkədar torpaqlarını zəbt edib öz aralarında bölüşdürürdülər[100].

Artmaqda olan kəndli hərəkatı istismarçı sinifləri bərk qorxuya salmışdı. Onlar kəndli hərəkatına divan tutmaq üçün hökumətdən silahlı qüvvə istəyirdilər.

Mülkədar İsgəndərbəyovun Tovuzdan Zaqafqaziya Komissarlığına göndərdiyi 7(20) yanvar 1918-ci il tarixli teleqramda deyilirdi: «Aqrar hərəkat qalxmışdır. Zülqədərovlar, Qarabəyovlar nəsli qırılıb, qalan mülkədarlar mühasirəyə alınıb. Müdafiə edilməmizi xahiş edirik, böhranlı dəqiqələrdir»[101].

Yelizavetpol ictimai təhlükəsizlik komitəsi sədri Ələsgər Xasməmmədov Zaqafqaziya Komissarlığına-Çxenkeliyə teleqram göndərərək, kəndli üsyanını yatırmaq üçün hərbi hissələr, zirehli qatarlar göndərilməsini xahiş edirdi[102].

Gəncə qəzasının kəndli üsyanının alovları bürüdüyü bir zamanda, yanvarın 6-da Qazax qəzası kəndlilərinin də üsyanı qalxdı və mülkədar sultanovların

[96] Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958, səh. 209.
[97] Azərbaycan SSR OİMDA, fond 6, siyahı 1, iş 166 a, vər. 10.
[98] Yenə orada, iş 6, vər. 7.
[99] Yenə orada, iş 6, vər. 7-8.
[100] Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958, səh. 138.
[101] Gürcüstan SSR OİMDA, fond 41 m/1, siyahı 2, iş 77, vər. 27.
[102] Yenə orada, vər. 21.

malikanələrini bürüdü. Mülkədar sultanovlara və başqa iri torpaq sahibkarlarına qarşı üsyanda Yuxarı Ayıblı, Bayramlı, Əsrik, Azablı, Öysüzlü, Vayıtlı və sairə kəndlərin əhalisi fəal iştirak etmişdilər.

1918-ci il yanvarın ortalarına kimi davam edən bu üsyan nəticəsində mülkədar Sultanovlara sarsıdıcı zərbələr endirildi. Üsyançılar mülkədarlara məxsus olan hər bir şeyi ələ keçirir, sonra isə mülkədar evlərini yandırırdılar.

Qazax bəyləri kəndli hərəkatını yatırmaq üçün Zaqafqaziya Komissarlığından təcili surətdə hərbi qüvvə göndərilməsini xahiş edirdilər[103].

Kəndlilərin inqilabi hərəkatına mülkədar Zülqədərovlar «aqrar hərəkat» adı verərək, Zaqafqaziya Komissarlığına yazmışdılar: «Aqrar hərəkat geniş ölçü almışdır. Çoxlu mülkədar qırılmışdır...»[104]. Başqa bir sənəddə deyilirdi ki, Qazax qəzasında aqrar hərəkatının geniş vüsət almasına səbəb torpaqların hamısının, demək olar ki, mülkədarlara məxsus olmasıdır. Kəndlilərin torpaq almağa ümidləri yoxdur və əgər bu vəziyyət dəyişməsə, onlar mülkədarlara qarşı ən ağır tədbirlər görəcəklər[105].

Gəncə, Qazax qəzalarını əhatə etmiş kəndli üsyanları nəticəsində ən iri mülkədarlar olan Zülqədərovlara, Qarabəyovlara, Sultanovlara, Şamxor bəylərinə və başqalarına sarsıdıcı zərbə endirilməsi ilə yanaşı, əhalini istismar edən digər ünsürlərə də divan tutulurdu. Yuxarı Ayıblı və Aşağı Ayıblı kəndlərinin əhalisi 1918-ci il yanvarın 9-da gündüz Gəncə qəzası Morul kəndində «Buzxana» adlı yerdə «Limited səhmdar cəmiyyətinə» aid olan barit mədənini[106], Alabaşlı kəndliləri knyakinya Qalisinanın «Qalisino» adlı malikanəsini dağıtdılar[107].

Göygəldi, Mingəçevir, Varvara və Qızılhacılı kəndlilərinin sakinləri tərəfindən Mingəçevir stansiyası qarşısında «Naftalan» malikanəsində «Naftalan» zavodu, həmçinin Səfirkürd kəndi qarşısında Ziqentallerin zavodu dağıdıldı[108].

Gəncə, Qazax qəzalarını kəndli üsyanının alovları bürüdüyü bir zamanda Lənkəran, Cavad, Quba, Şuşa, Ərəş və başqa qəzaların da kəndliləri öz azadlıqları uğrunda, torpaq uğrunda mübarizəyə qalxmışdılar. Məsələn, Şuşa qəzasında kəndlilər çıxış edərək, qəddar mülkədar Fərrux bəy Vəzirovun malikanəsini dağıtdılar[109].

Kəndli hərəkatının genişlənməsi və kəskin xarakter alması mülkədar ağalığı və onun ifadəsi olan Zaqafqaziya Komissarlığının mövcudiyyətini təhlükə qarşısında qoymuşdu. Bundan qorxuya düşən Zaqafqaziya Komissarlığı kəndlilərə qarşı repressiyalara, təqiblərə başladı. Lakin həbs və ölüm hədələri Azərbaycan

---

[103] Gürcüstan SSR OİMDA, fond 41 m/1, siyahı 2, iş 77, vər. 33.
[104] Yenə orada, vər. 38.
[105] Azərbaycan SSR OİMDA, fond 6, siyahı 1, iş 1, vər. 48.
[106] Yenə orada, iş 59, vər. 2.
[107] Yenə orada, iş 23, vər. 9.
[108] Yenə orada, iş 6, vər. 7-8.
[109] «Зарја Востока» qəzeti, 4 yanvar 1924-cü il, № 6.

kəndlilərinin mübarizə ruhunu qıra bilmədi. Onlar öz zalımları üzərinə hücumu davam etdirərək, sahibkar torpaqlarını tutur, bütün mülkədar əmlakını məhv və ya zəbt edirdilər.

1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində baş verən kəndli üsyanları nəticəsində Azərbaycan mülkədarlarının bir çoxu iqtisadi və siyasi cəhətcə xeyli zəiflədi. Yalnız Gəncə qəzasında 100 min desyatindən artıq mülkədar torpağı kəndlilərin əlinə keçdi[110]. Qazax və başqa qəzalarda da kəndlilər tərəfindən mülkədar torpaqlarının zəbt edilməsi geniş yayılmışdı. Sonralar, müsavat hökuməti dövründə toplanmış məhkəmə materiallarından məlum olur ki, kəndli çıxışları nəticəsində Zülqədərovlara 6 milyon manata qədər, Şamxorskilərə 2 milyon manatdan artıq, Qalisinlərə 2,5 milyon manata qədər ziyan vurulmuşdu[111].

Azərbaycan kəndlidəri mülkədarların sonradan baş qaldırıb, kəndlilərin əlinə keçən torpaqları geri alacaqlarından və onlara divan tutacaqlarından ehtiyat edərək, mülkədarları istər iqtisadi və istərsə də cismani cəhətcə məhv etmək üçün var qüvvələrini sərf edirdilər.

Azərbaycan kəndlilərini narahat edən bir məsələ də türk işğalı təhlükəsi idi. Müsavatçıların türk ordusunu Azərbaycana dəvət etmək uğrunda apardıqları kampaniya bu təhlükəni artırırdı. Kəndlilər çox yaxşı başa düşürdülər ki, türklərin Azərbaycana gəlməsi mülkədarların əl-qolunu açacaqdır.

Stepan Şaumyan yazırdı: «Müsəlman kəndliləri, demək olar ki, hər bir yerdə deyirdilər ki, rus qoşunları getdikdən sonra buraya türklər gələcəkdir, o zaman bizim bəylərin və xanların gücü daha da artacaqdır və bizə güzəran olmayacaqdır. Buna görə də indidən onları öldürmək lazımdır»[112].

Bolşeviklər 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində Azərbaycan qəzalarında inqilabi kəndli hərəkatının genişlənib mütəşəkkil xarakter alması üçün əllərindən gələni edirdilər.

1918-ci ilin yanvarında Bakıdan Tiflisə gedən RSFSR XKS-nin Qafqaz işləri üzrə fövqəladə komissarı Stepan Şaumyan Gəncə və Qazax qəzalarındakı kəndli hərəkatının bürüdüyü bir sıra rayonlara gedərək, yerli bolşeviklərlə görüşmüş, A. Mrovyan, Müseyib Əliyev və başqa kommunistlərlə Gəncə, Tovuz, Qovlar partiya təşkilatı fəallarının bir neçə gizli yığıncağını keçirmişdi. S. Şaumyan kəndlilərlə söhbətlərində göstərirdi ki, aqrar hərəkatı mütəşəkkil olmalıdır, kəndlilər bütün torpaqları müsadirə edib kəndli komitələrinin sərəncamına verilməsinə çalışmalıdırlar.

S. Şaumyan RSFSR XKS adından Azərbaycan kəndlilərinə müraciətində yazırdı: «Kəndli qardaşlar! Torpaq sahibləri olan mülkədarların, xanların, bəylərin, ağaların əsrlərdən bəri davam edən zülmünü öz üzərindən qəti sürətdə atmaq saatı

---

[110] Azərbaycan SSR OİMDA, fond 469, siyahı 1, iş 31, vər. 2.

[111] Bax: İsmayıl Hüseynov. 1918-ci ildə Azərbaycanda kəndli üsyanı. V.İ.Lenin adına ADPİ-nin əsərləri, I hissə, Bakı, 1946, səh. 63.

[112] С.Г.Шаумян. Статьи и речи (1917-1918 гг.), səh. 93.

gəlib çatmışdır. Fəhlə-kəndli hökuməti adından sizin oyanmanızı və sizin mübarizənizi təbrik edirəm. Torpaq xalqa məxsus olmalıdır. Çalışın ki, sizin üsyanınız ümumi olsun. Hər yerdə müsəlman kəndliləri bəylərin torpaqlarını mütəşəkkil surətdə zəbt etsinlər, bu torpaqları öz ixtiyarına almalı olan kəndli komitələri yaradın»[113]. Bolşeviklərin yerlərdə apardıqları inqilabi iş bəy-mülkədar üsuli-idarəsinə qarşı mübarizədə öz müsbət nəticələrini verirdi. Artmaqda olan kəndli hərəkatını yatırmaq üçün-var qüvvələrini sərf edən mülkədarlar, müsəlman milli şurasının başçıları bolşeviklərin kəndlilər arasında apardıqları inqilabi işlə əlaqədar olaraq, demişlər ki, bolşeviklərin, «müsəlmanları öz bəylərini yıxmağa çağıran intibahnaməsi müsəlman kütlələrinin iğtişaşına səbəb olmuşdur»[114].

Buna cavab olaraq Zaqafqaziya Komissarlığı soyğunçu mülkədarların mənafeyi naminə kəndli hərəkatını yatırmaq üçün terror tədbirlərinə, qanlı cinayətlərə əl atmaqdan çəkinmədi. Zaqafqaziya Komissarlığı bəy və mülkədar quldur dəstələrini silahla təchiz etmək məqsədi ilə Qafqaz (Türkiyə) cəbhəsindən qayıdan inqilabçı rus əsgərlərinə alçaqcasına divan tutdular. Bu qəsdin hazırlanmasında ABŞ-ın və Antanta dövlətlərinin Tiflisdəki nümayəndəlikləri yaxından iştirak etdilər.

Gəncə müsəlman milli komitəsinin başçılıq etdiyi və Zaqafqaziya Komissarlığı tərəfindən göndərilmiş zirehli qatarın kömək etdiyi müsavatçı quldur dəstələri 1918-ci il yanvar ayının 9-da Şamxor stansiyası yaxınlığında inqilabçı rus əsgərlərinin eşelonlarına qəflətən basqın etdilər. Yanvarın 12-nə kimi davam edən qanlı qırğın nəticəsində yüzlərlə əsgər öldürüldü və yaralandı. Xan-bəy quldur dəstələri törətdikləri bu qanlı faciənin hesabına çoxlu silah ələ keçirdilər: Əsgərlər özlərini müdafiə edərək, mülkədar quldur dəstələrinə qarşı vuruşa-vuruşa Bakıya gəlməyə müvəffəq oldular. Bakı proletariatı inqilabçı rus əsgərlərini rəğbətlə qarşılayaraq, onların dincəlməsi üçün əlindən gələni əsirgəmədi.

Şamxor hadisəsi Bakı proletariatının və bütün Zaqafqaziya zəhmətkeşlərinin böyük hiddət və qəzəbinə səbəb oldu. Zaqafqaziya burjua-mülkədar partiyaları zəhmətkeşlərin artmaqda olan inqilabi çıxışlarının qarşısını almaq üçün hakimiyyət orqanlarını möhkəmləndirməyə cəhd edirdilər. 1918-ci il fevralın 10-da menşevik, daşnaq, müsavatçı, eser və kadetlərdən ibarət Zaqafqaziya seymi təşkil edildi. Zaqafqaziya seymi Zaqafqaziya Komissarlığının sovet hakimiyyəti əleyhinə, fəhlə və zəhmətkeş kəndlilər əleyhinə yönəldilmiş siyasətini yeni qüvvə ilə davam etdirməyə başladı. Seymin bütün fəaliyyəti Zaqafqaziyada inqilab hərəkatını yatırmağa, Zaqafqaziyanı sovet Rusiyasından ayırmağa xidmət edirdi.

---

[113] «Кавказский Вестник Совета Народных Комиссаров» qəzeti, 31 yanvar 1918-ci il, № 1.
[114] «Бакински рабочи» qəzeti, 21 mart 1918-ci il, № 52. 54

Zaqafqaziya seymi torpaq məsələsini həll etmək niyyətində deyildi. Lakin Zaqafqaziyada inqilabi kəndli hərəkatının genişlənməsi seymdə oturanları sözdə də olsa torpaq məsələsinin «həllinə» hazır olduqlarını bildirməyə vadar edirdi. Bu məqsədlə seym 11 nəfərdən ibarət xüsusi komissiya ayırdı. Komissiyanın tərkibinə müsavat partiyasından Rüstəmbəyov, Mahmudov, Rəsulzadə, Behbudov və başqaları daxil oldular.

Zaqafqaziya seymi davam etməkdə olan kəndli hərəkatını yatırmaq üçün aqrar islahat keçirəcəyini vəd etdiyi halda, heç bir iş görmürdü, çünki seymdə oturanlar mülkədarların nümayəndələri olub, istismarçı siniflərin mənafeyini müdafiə edirdilər.

Mülkədarlar kəndli üsyanını yatırmaq məqsədi ilə milli qırğın törətməyə cəhd edirdilər. Azərbaycanda erməni-müsəlman qırğını salmaq üçün millətçi partiyalar mülkədar qaragüruhuna can-başla xidmət edirdilər. Eyni zamanda Azərbaycan və erməni mülkədarları üsyançı kəndlilərə qarşı mübarizədə bir-birlərinə kömək edirdilər. Mülkləri üsyançı kəndlilər tərəfindən darmadağın edilmiş azərbaycanlı mülkədarlar bir çoxu erməni mülkədarlarının evində özlərinə sığınacaq tapırdılar.

1918-ci ilin yanvarında Yelizavetpol qəzasında bu hadisələrin şahidi olan Məşədi Əzizbəyov demişdi: «Daşnaqlar Yelizavetpol quberniyasında kəndli hərəkatına mane olurdular, daşnaqlar bəyləri və xanları gizlədir və beləliklə, onlarla əlbir işləyirdilər»[115].

Mülkədarların erməni və Azərbaycanlı zəhmətkeş əhali arasında milli nifaq salmaq siyasətini ifşa edən bolşeviklər partiyası bu iki qardaş xalqın kəndlilərini öz istismarçıları olan mülkədarlara qarşı mübarizəyə çağırırdı. Nəticədə Azərbaycan kəndlilərinin genişlənməkdə olan inqilabi hərəkatı erməni kəndlilərini də bürümüşdü.

Bu zaman Gürcüstan qəzalarında da kəndli hərəkatı genişlənməkdə idi. Beləliklə, müsavatçıların, daşnaqların, menşeviklərin ölkədə inqilabi hərəkatın qarşısını almaq, mülkədarların ağalığını təmin etmək məqsədi ilə Zaqafqaziya xalqları arasına milli nifaq salmaq siyasəti zəhmətkeşlər qarşısında ifşa edildi və tam iflasa uğradı.

Bolşeviklər əksinqilabçı Zaqafqaziya Komissarlığına qarşı inadlı mübarizə aparan Zaqafqaziya fəhlə sinfini və zəhmətkeş kəndliləri sıx birləşdirərək, onları mübariz proletar beynəlmiləlçiliyi ruhunda tərbiyə edirdilər.

Azərbaycanda 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində baş vermiş kəndli üsyanlarının özünə məxsus xüsusiyyətləri var idi. Bu üsyanlar öz kəskinliyi, kütləviliyi və mütəşəkkilliyi ilə əvvəllər baş vermiş kəndli çıxışlarından ciddi surətdə fərqlənirdi. Əgər əvvəllər Azərbaycan kəndliləri vergilərin azaldılmasını tələb edirdilərsə, sahibkarlar tərəfindən pay torpaqlarının, suyun zəbt edilməsinə

[115] «Известия Бакинского Совета» qəzeti, 11 iyul 1918-ci il, № 111.

qarşı öz etiraz səslərini qaldırırdılarsa, çar hökumətinin, sonra isə müvəqqəti hökumətin yerlərdəki orqanlarına ağac, yaba, bel və bəzən soyuq və isti silahlarla müqavimət göstərirdilərsə, icarə haqqını və sairəni verməkdən boyun qaçırırdılarsa, Böyük Oktyabr Sosialist inqilabından sonra onlar öz zalımlarına qarşı daha inamla mübarizə aparır, mülkədar torpaqlarını tutur, sinfi düşmənə qarşı kütləvi şəkildə silahlı müqavimət göstərirdilər.

Gəncə və Qazax qəzalarını əhatə edən kəndli hərəkatı öz kütləviliyi və mübarizliyi etibarı ilə fərqlənirdi. Bu hərəkat mülkədar ağalığına və özbaşınalığına, zülm və istismara qarşı çevrilmiş möhkəm sinfi intiqam xarakteri daşıyırdı. Həmin hərəkatın xarakterik xüsusiyyətlərindən biri də onun bir neçə rayonda (Gəncə, Şamxor, Qazax, Tovuz) eyni zamanda baş verməsi idi. Bu da onun əvvəlcədən hazırlandığını söyləməyə imkan verir. Üsyanda iştirak edən əsas qüvvə torpaqsız və aztorpaqlı kəndlilər idi. Gəncə və Qazax qəzalarının zəhmətkeş kəndliləri arasında Muxtar Hacıyev, Müseyib Əliyev, Əmiraslan Süleymanov və başqa bolşeviklər böyük inqilabi iş aparırdılar.

Genişlənən aqrar hərəkatına müqavimət göstərmək üçün istismarçı siniflər xüsusi silahlı dəstələr yaradırdılar. Bu dəstələrə qarşı mütəşəkkil silahlı qruplar yaradılması zəruriliyini hiss edən bolşevik təşkilatları Lənkəran, Cavad, Şamaxı və başqa qəzalarda qızıl qvardiya və partizan dəstələri təşkil edirdilər. Belə dəstələrdən biri də Gəncə qəzasında Müseyib Əliyev tərəfindən təşkil edilmişdi.

Bir çox yerlərdə kəndlilər burjua-mülkədar hakimiyyət orqanlarının ləğv edilməsini və kəndli deputatları sovetləri yaradılmasını tələb edirdilər. 1918-ci il fevralın 17-də Lənkəran qəzası kəndlilərinin ümumi iclasında qəbul olunmuş qətnamədə deyilirdi; «1. Fəhlə, əsgər və kəndli deputatları sovetinin şəxsində Xalq Komissarlığının (RSFSR XKS nəzərdə tutulur - Ə. R.) hakimiyyətini təbrik etmək və onun tərəfini saxlamaq; 2. Xalq Komissarlığının (RSFSR-Ə. R.) hakimiyyəti ilə şəxsən birləşmək üçün Bakıya öz içərimizdən adam göndəririk ki, Qafqaz Komitəsi hərbi-inqilabi ordusu bizim cəmiyyəti yeni göstərişli dekretlə təchiz etsin»[116].

Bakı quberniyasının Quba qəzasında da kəndlilər sovet hakimiyyəti uğrunda mübarizə apararaq, mülkədarların hakimiyyətini yıxmaq üçün Bakı fəhlə, əsgər və matros deputatları soveti tərəfindən kömək göstərilməsini xahiş edirdilər[117].

Azərbaycan qəzalarında kəndli çıxışları 1917-ci ilin axırından 1918-ci ilin iyun ayına kimi davam etdi. Müsavatçılar türk işğalçılarının süngüsünə arxalandılar və onların köməyi ilə kəndli üsyanını yatıra bildilər.

Böyük Oktyabr sosialist inqilabının qələbəsindən sonra Azərbaycan qəzalarında başlanan və 1918-ci ilin ilk aylarında yüksək səviyyəyə qalxan kəndli hərəkatının böyük siyasi və tarixi əhəmiyyəti var idi. Bu hərəkat göstərdi ki,

---

[116] «Известия Бакинского Совета» qəzeti, 26 mart 1918-ci il, № 56.
[117] Yenə orada, 20 mart 1918-ci il, № 51.

Azərbaycan zəhmətkeş kəndliləri burjua-mülkədar quruluşuna qarşı, sosialist inqilabının qələbəsi uğrunda mübarizədə fəal siyasi qüvvədir. Bu hərəkat Azərbaycan kəndində istismarçı siniflərə böyük zərbə endirdi, bəy-mülkədar üsuli-idarəsinin əsaslarını laxlatdı, mülkədarlar sinfinin iqtisadi qüdrətini xeyli zəiflətdi, zəhmətkeş kəndlilərə onların böyük siyasi qüvvə olduğunu hiss etdirdi.

Azərbaycan qəzalarında kəndli hərəkatının əzəmətlə yüksəldiyi bir zamanda Bakı proletariatı bolşeviklər partiyasının rəhbərliyi ilə sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparır, sosialist inqilabının qəzalara yayılması üçün tədbirlər hazırlayırdı.

Lakin sinfi düşmən də öz növbəsində əks tədbirlər görürdü. İmperialist dövlətlərdən yardım və göstəriş alan müsavatçılar, daşnaqlar, menşeviklər və başqa düşmən ünsürlər Zaqafqaziyada inqilab hərəkatının qalası olan Bakıdakı sovet hakimiyyəti əleyhinə, mübarizəni genişləndirirdilər. Müsavatçılar 1918-ci il martın 30-da Bakıda sovet hakimiyyəti əleyhinə qiyam qaldırdılar.

Lakin qəhrəman Bakı proletariatı bolşeviklər partiyasının rəhbərliyi altında müsavat quldur dəstələrini darmadağın etdi və şəhərdə hakimiyyətin tamamilə Bakı sovetinin əlində möhkəmlənməsinə nail oldu.

Bu dövrdə Bakı bolşeviklərinin qarşısında duran ən vacib vəzifə sosialist inqilabını qəzalara keçirmək idi. Qəzalarda sovet hakimiyyətini qurmadan, yüz minlərlə kəndlini sovet hakimiyyəti tərəfinə çəkmədən Bakıda sovet hakimiyyətini möhkəmlətmək qeyri-mümkün idi.

A. Caparidze Bakı Sovetinin 1918-ci il 8 aprel tarixli fövqəladə iclasındakı məruzəsində demişdi: «İndi bizim qarşımızda duran əsas vəzifə kəndli kütlələrini sovet hakimiyyətinin tərəfinə çəkmək və inqilabın bütün ölkədə qələbəsi naminə zəhmətkeş kəndliləri mülkədar əksinqilabına qarşı mübarizəyə cəlb etməkdən ibarətdir. Bunsuz inqilab məhv ola bilər»[118].

Bakı proletariatının yardımı, bolşeviklər partiyasının rəhbərliyi, yerlərdə yoxsul kəndlilərin fəallığı nəticəsində Azərbaycan qəzalarından bir çoxunda sovet hakimiyyəti uğrunda aparılan mübarizə müvəffəqiyyətlə nəticələndi. 1918-ci ilin aprel ayında Bakı, Lənkəran, Cavad, Quba, Şamaxı qəzalarında və Göyçay qəzasının bir hissəsində sovet hakimiyyəti quruldu. Az sonra bu qəzaların kəndlərinin bir çoxunda kəndli deputatları sovetləri təşkil edildi. 1918-ci il yayın əvvəllərinə qədər Bakı qəzasının 39, Quba qəzasının 71, Lənkəran qəzasının 67, Cavad qəzasının 27 və Şamaxı qəzasının 22 kəndində kəndli deputatları sovetləri təşkil edilmişdi; bu sovetlərin yaradılması kəndlilərin həyatında mühüm hadisə idi. Kəndli sovetləri ilk zamanlar hələ zəif olsalar da, yoxsul kəndlilər arasında böyük nüfuza malik olub, onların tərəfindən qızğın müdafiə edilirdi[119].

[118] «Известия Бакинского Совета» qəzeti,10 aprel 1918-ci il, № 63.
[119] Azərbaycan Kommunist partiyasının tarixi, I hissə, Bakı, 1958, səh. 320.

M. Əzizbəyov, B. Sərdarov, A. Caparidze, D. Bünyadzadə, M. Məmmədyarov, H. Sultanov, B. Əfəndiyev, M. B. Qasımov və başqa bolşeviklər qəzalarda sovet hakimiyyəti orqanlarını yaratmaq və möhkəmləndirmək üçün yorulmadan çalışırdılar. Partiya və sovet təşkilatları Bakıdan kənd yerlərinə xeyli miqdar bacarıqlı kadrlar göndərirdilər. Onlar qəzalarda əksinqilabçı ünsürlərə qarşı mübarizəni təşkil edir, zəhmətkeş kəndli kütlələrini sovet hakimiyyəti ətrafında birləşdirirdilər.

Bakı quberniyasının bir sıra qəzalarında sovet hakimiyyəti qurulmasının yerlərdə kəndli deputatları sovetləri yaradılması, Azərbaycanda və habelə Zaqafqaziyada sosialist inqilabının genişlənməsi üçün böyük əhəmiyyəti var idi. Tiflisdə erməni dilində çıxan «Karmir Droşak» («Qırmızı bayraq») bolşevik qəzeti 1918-ci il 19 aprel tarixli nömrəsində yazmışdı: «Bakı proletariatının qələbəsi Zaqafqaziya əksinqilabının darmadağın edilməsi deməkdir»[120].

1918-ci il aprel ayının 19-da Rusiya Kommunist (bolşeviklər) partiyası Bakı təşkilatının ümumi konfransı oldu. Konfrans bolşeviklərdən ibarət Bakı Xalq Komissarları soveti təşkil edilməsi haqqında qərar verdi. Konfransda başqa məsələlərlə yanaşı, kənddə iş məsələsi də müzakirə edildi. «Konfrans qeyd etdi ki, Azərbaycanlı zəhmətkeşlər arasında təşviqat işini genişləndirmək və kənddə torpaq məsələsini həll etmək yolu ilə onları sovet hakimiyyəti ətrafında daha sıx birləşdirmək lazımdır»[121]. Bakı fəhdə, əsgər və matros deputatları sovetinin 1918-ci il aprelin 19-da qəbul etdiyi qətnamədə deyilirdi: «Fəhlələrin və şəhər yoxsullarının iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün ən yaxın zamanlarda bir sıra ictimai tədbirlər həyata keçirməli, habelə Bakı quberniyasında mülkədar torpaqlarının kəndlilərin əlinə keçməsi üçün bütün tədbirlər görülməlidir»[122].

1918-ci il aprelin 25-də Bakı sovetinin iclasında Bakı Xalq Komissarları soveti təşkil edildi. Onun tərkibinə S. Q. Şaumyan, P. A. Caparidze, N. Nərimanov, İ. T. Fioletov, M. Əzizbəyov, Y. D. Zevin, M. H. Vəzirov və başqaları daxil oldular.

Azərbaycan qəzalarında sovet hakimiyyəti uğrunda aparılan mübarizəyə bilavasitə rəhbərlik etmək üçün 1918-ci il aprelin ortalarında və mayın əvvəllərində Bakı sovetinin İcraiyyə Komitəsi M. Ə. Əzizbəyovu Bakı quberniyasının quberniya komissarı, M. İsrafilbəyovu (Qədirlini) Cavad, Lənkəran və Şamaxı qəzalarının fövqəladə komissarı təyin etdi.

Bakı sovetinin şəhərdənkənar yerlər şöbəsi kəndlilər arasında aparılan inqilabi işə rəhbərlik edirdi. 1918-ci ilin mart-iyun aylarında Bakı, Şamaxı, Quba, Lənkəran qəzalarında, Astarada kəndli deputatları qurultayları keçirildi. Zəhmətkeş

[120] Болшевики в борьбе за победу социалистической революции в Азербайджане», Документы и материалы, Вакı, 1957, səh. 359.
[121] Azərbaycan Kommunist partiyasının tarixi, I hissə, Bakı, 1958, səh. 315.
[122] «Бакински рабочи» qəzeti, 29 may 1918-ci il, № 99.

kəndlilərin siyasi fəallığının artırılmasında və yerlərdə sovet hakimiyyətinin möhkəmləndirilməsində bu qurultayların böyük əhəmiyyəti var idi.

1918-ci il may ayının 16-da Çuxuryurdda Şamaxı qəzası inqilabçı kəndlilərinin qurultayı oldu. Həmin qurultayda 285 min kəndlini təmsil edən 299 nümayəndə iştirak edirdi. Qurultayın işinə M. Əzizbəyov rəhbərlik edirdi. Kəndlilər qurultayda fəal iştirak edirdilər. Qurultaya bir nəfər də olsun qolçomaq buraxılmamışdı. Qurultay sovet hakimiyyətinə kömək etmək, mülkədar torpaqlarının müsadirə etmək haqqında qərar qəbul etmişdi[123].

1918-ci il may ayının 26-da Bakıda Bakı qəzası kəndli deputatları sovetlərinin qurultayı açıldı. Qurultayda kəndli deputatları sovetləri olan 29 kənddən 38.500 kəndlini təmsil edən 81 nümayəndə iştirak edirdi[124].

Qurultaya gəlmiş nümayəndələrin yarısı tamamilə torpaqsız kəndlilər idi[125]. Qurultayın sədrliyinə N. Nərimanov və sədr müavinliyinə M. H. Vəzirov seçilmişdi. Qurultayda N. Nərimanov, M. Əzizbəyov, S. Şaumyan, A. Caparidze, M. Məmmədyarov və başqa bolşeviklər məruzə və nitqlərlə çıxış edib, zəhmətkeş kəndliləri Bakı fəhlələri ilə möhkəm ittifaq bağlamağa, sovet hakimiyyətini möhkəmləndirməyə, sosialist inqilabının keşiyində sayıq duraraq, daxili və xarici düşmənə qarşı mübarizəyə çağırmışdılar. Qurultayda çıxış edən kəndli nümayəndələri sovet hakimiyyətini axıradək müdafiə etməyə hazır olduqlarını bildirmişdilər.

Qurultayda hakimiyyət, yerlərdə vəziyyət, məhsul toplanışı və əkinlərin mühafizəsi, kənd kooperativləri, əmək mühafizəsi haqqında məsələlər müzakirə edildi 150 müvafiq qərarlar qəbul olundu. Qurultayın hakimiyyət məsələsinə dair qətnaməsində sovet hakimiyyətini, fəhlə-kəndli ittifaqını, Sovet Rusiyası ilə qardaşlıq ittifaqını möhkəmləndirmək tələb olunurdu. Qurultay öz qərarında göstərmişdir ki, yerlərdə güclü fəhlə-kəndli hakimiyyəti orqanlarını təşkil etmək üçün dərhal işə başlamaq lazımdır. Qurultay məhsul toplanışı və əkinlərin mühafizəsi üçün lazımi tədbirlərin görülməsində kənd kooperativlərinin, kəndli deputatları sovetlərinin ciddi fəaliyyət göstərmələrini tələb etdi.

Qurultayda Bakı qəzası kəndli deputatları sovetinin 15 nəfərdən ibarət İcraiyyə Komitəsi seçildi. İcraiyyə Komitəsinin tərkibinə N. Nərimanov, M. Əzizbəyov, D. Bünyadzadə, M. Məmmədyarov, M. Axundov, Həsən Mirzəyev, A. B. Yusifzadə, B. Şahtaxtinski, M. H. Vəzirov və başqaları seçildilər. Az sonra H. Sultanov, B. Sərdarov və B. Əfəndiyev də İcraiyyə Komitəsinin tərkibinə daxil edilmişdilər. Kəndli deputatları soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə M. Əzizbəyov, sədr müavinliyinə H. Mirzəyev, katib vəzifəsinə isə A. Yusifzadə seçildi.

---

[123] «Известия Бакинского Совета» qəzeti, 28 may 1918-ci il, № 98.
[124] «Бакински рабочи» qəzeti, 29 may 1918-ci il, № 98.
[125] «Əxbari» qəzeti, 29 may 1918-ci il, № 37.

Bakı qəzası kəndli deputatları sovetinin qurultayı qurtardıqdan sonra Bakı fəhlə, əsgər və matros deputatları sovetinin və Bakı qəzası kəndli qurultayı nümayəndələrinin birləşmiş iclası oldu. İclas Zaqafqaziya seyminin Zaqafqaziyanın Rusiyadan ayrılmasına dair çıxardığı qərara qarşı öz qəzəbini bildirməklə bərabər, seymdə oturanların xalq düşməni olduqlarını elan etdi.

Birləşmiş iclas Zaqafqaziyanın Rusiyadan ayrılması məsələsinin qəti surətdə əleyhinə çıxmaqla bərabər, öz qərarında yazmışdı: «biz öz taleyimizi inqilabçı Rusiyanın taleyi ilə sıx surətdə bağlayırıq»[126].

«Pravda» qəzeti o zaman Azərbaycan kəndinin vəziyyətindən, kəndli qurultaylarının əhəmiyyətindən bəhs edərək yazırdı: «Müsəlman kəndi oyanmışdır, müsəlman kəndliləri istismarçılara qarşı müstəqil mübarizə yoluna düşmüşlər. Beynəlmiləl sinfi mübarizə ideyası avam, əsrlər boyu zülm çəkmiş müsəlman kəndli kütlələri arasında yayılır. Bunu, müsəlman kəndlərində kəndli sovetlərinin təşkili, sovet hakimiyyətinin tanınması və yaradılması və sairə haqqında çıxarılan qərarlar, hökmlər haqqında şəhərdənkənar yerlər komissiyalarından alınan, demək olar ki, hər cür məlumatlar təsdiq edir. Bunu Şamaxı qəzası, habelə Bakı qəzası kəndli deputatları qurultayları təsdiq edir»[127].

Bu zaman Bakı Xalq Komissarları soveti burjua-mülkədar quruluşunun maddi əsasını məhv etmək və sovet dövlətinin iqtisadi bazasını yaratmaq məqsədi ilə bir sıra mühüm sosialist tədbirləri həyata keçirdi. Bakı neft sənayesi, Xəzər ticarət donanması, banklar və balıq vətəgələri milliləşdirildi. Lakin bu tədbirlərlə kifayətlənmək olmazdı. Azərbaycanın böyük bir hissəsində qalib gəlmiş sovet hakimiyyətini müdafiə etmək və onu möhkəmlətmək üçün aqrar məsələsini düzgün həll etmək lazım idi.

Bakı Xalq Komissarları sovetinin 1918-ci il mayın 1-də verdiyi bəyannamədə qarşıda duran vəzifələrdən və həmçinin aqrar məsələsindən bəhs edilərək deyilirdi: «Bakı quberniyasında torpaqlar indiyə kimi bəylərin və xanların əlindədir. Bütün mülkədar torpaqlarını kəndlilərə vermək üçün qəti addımlar atmaq lazımdır»[128].

Bakı Xalq Komissarları soveti proletar diktaturasını möhkəmlətmək, Azərbaycan kəndlilərini sovet hakimiyyəti tərəfinə çəkmək, yüz minlərlə yoxsul kəndlinin torpağa olan ehtiyacını ödəmək, bəy, xan ağalığına son qoymaq məqsədi ilə 1918-ci il iyunun 18-də mülkədar torpaqlarının müsadirə edilməsi və ictimailəşdirilməsi haqqında dekret verdi. Dekretdə deyilirdi:

«1. Bütün mülkədarların (bəylərin, xanların, məliklərin, knyazların), onların vəkillərinin və qeyri zəhmətkeş icarədarların xüsusi sahibliyində olan torpaqları, tikintiləri, avadanlığı, kənd təsərrüfatı məhsulları və materiallarını almalı.

---

[126] «Бакински рабочи» qəzeti, 31 may 1918-ci il, № 100.
[127] «Правда» qəzeti, 12 iyun 1918-ci il, № 117,
[128] «Известия Бакинского Совета» qəzeti, 1 may 1918-ci il, № 81.

2. Bu tədbirləri həyata keçirmək üçün müvəqqəti torpaq komitələri təşkil etməli.

3. Bütün kəndli deputatları sovetlərinə sərəncam verilir ki, yerlərdə müvəqqəti torpaq komitələri təşkil etsinlər və dərhal hazırkı dekreti həyata keçirməyə başlasınlar. Kəndli deputatları sovetləri olmayan yerlərdə müvəqqəti torpaq komitələrinin təşkili işi Xalq Torpaq Komissarlığının göstərişi ilə sovet hakimiyyəti komissarlarına tapşırılır»[129].

Bakı Xalq Komissarları sovetinin torpaq haqqında dekreti ilə yanaşı, Xalq Torpaq Komissarlığı 1918-ci il iyunun 18-də torpaq islahatının başlıca Əsasnaməsini, müvəqqəti torpaq komitələri haqqında Əsasnaməni verdi.

Bakı Xalq Komissarları sovetinin bu dekreti əsasında torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv edilirdi. Bundan sonra torpağı satmaq və almaq olmazdı, o, xalq malına çevrilirdi. Mülkədar həyətləri və tikililəri zəbt edilməli və onlardan kəndlilərin ictimai təminat və mədəni-maarif müəssisələri şəbəkəsini genişləndirmək üçün istifadə edilməli idi. Bəzi hallarda həmin həyətlər və mülklər yoxsul kəndlilərin istifadəsinə verilə bilərdi.

Torpaq islahatını həyata keçirmək üçün quberniya (Bakı), bir çox yerlərdə isə qəza və rayon torpaq komitələri təşkil edilmiş və onların qarşısında XKS-nin torpaq haqqında dekretini həyata keçirmək əsas vəzifə olaraq qoyulmuşdu.

Bakı Xalq Komissarları sovetinin 1918-ci il iyun ayında (iyunun 18-dən sonra) verdiyi başqa bir dekretinə əsasən mülkədarların (bəylərin, xanların, məliklərin), onların vəkillərinin və icarədarların ixtiyarında olan meşələr, meşə təsərrüfatına xidmət edən bütün tikililər, daşınar və daşınmaz əmlak, tədarük edilmiş meşə materialları və sairə müsadirə edilib, ümumxalq malına çevrilirdi. Bu dekretin də həyata keçirilməsi qəza torpaq komitələrinə həvalə edilmişdi[130].

Bakı Xalq Komissarları sovetinin aqrar siyasət sahəsindəki tədbirlərinin Azərbaycan kəndlilərinin inqilabiləşməsi, fəhlə-kəndli ittifaqının, proletar diktaturasının möhkəmləndirilməsi, sosialist inqilabının kəndə yayılması üçün çox böyük əhəmiyyəti var idi.

Bakı Xalq Komissarları soveti torpaq haqqında dekreti həyata keçirmək, kənddə sosialist inqilabını genişləndirmək, sovet hakimiyyətini möhkəmlətmək və əmin-amanlıq yaratmaq üçün bir sıra yeni mühüm tədbirlər həyata keçirməyə başladı. Bakı XKS və XTK torpaq haqqında dekreti yerinə yetirmək sahəsində Sovet Rusiyasının təcrübəsi ilə tanış olmaq və Rusiya Sovet Respublikası hökumət orqanları ilə sıx əlaqə yaratmaq üçün bir neçə dəfə Moskvaya xüsusi nümayəndələr göndərmişdi[131]. Bundan əlavə, Bakı Xalq Komissarları soveti Xalq Torpaq Komissarlığı qəza torpaq komitələrinə və başqa sovet təşkilatlarına müntəzəm

---

[129] Yenə orada, 18 iyun 1918-ci il, № 116.
[130] Azərbaycan SSR OİMDA, fond 60. siyahı I, iş 27, vər. 5. 64
[131] Z. İbrahimov. Göstərilən əsəri, səh. 421.

surətdə göstərişlər vermək, təlimatçı və təşkilatçılar göndərmək vasitəsi ilə torpaq orqanlarının işinə istiqamət verirdi[132].

Lakin mövcud şərait torpaq islahatı kimi mühüm bir işin həyata keçirilməsini çətinləşdirirdi. Sovet hakimiyyəti qurulmuş olan rayonlarda əksinqilabçı siniflərin qüvvəsi tamamilə sarsılmamışdı. Sovet hakimiyyətinin yerlərdə gücü hələ zəif idi.

Qəzalarda sovet hakimiyyəti orqanlarını təşkil etmək və möhkəmləndirmək, torpaq haqqında dekreti və başqa tədbirləri həyata keçirmək üçün lazım olan kadrlar az idi.

Proletar Bakısının əksinqilabçı quldur dəstələri tərəfindən əhatə edilməsi kəndə inqilabçı təşviqatçıların, təşkilatçıların göndərilməsinə, yerlərdə sovet hakimiyyəti orqanlarının yaradılıb möhkəmləndirilməsinə, torpaq dekretinin həyata keçirilməsi üçün lazımi tədbirlərin görülməsinə mane olurdu. Bakı qəzası istisna olmaqla, mövcud şərait üzündən Bakı ilə qəzalar arasında əlaqə çətin idi.

Halbuki Bakı proletariatının yardımı və rəhbərliyi olmadan qəzalarda torpaq haqqında dekreti və başqa tədbirləri həyata keçirmək mümkün deyildi.

Digər tərəfdən isə müsavatçılar, daşnaqlar, eserlər, menşeviklər, millətçi təmayülçülər kəndlilər arasında əksinqilabi, pozuculuq işi aparırdılar. Belə bir vəziyyət isə Azərbaycan kəndlilərinin Bakı proletariatı ilə əlaqəyə girib, bəy və mülkədar ağalığına qarşı mütəşəkkil mübarizə aparmaq işinə mane olur, torpaq dekretinin həyata keçirilməsinə imkan vermirdi.

Torpaq haqqında dekretin həyata keçirilməsi sahəsində Bakı Xalq Komissarları sovetinin nöqsanları da var idi.

Mart döyüşlərindən sonra Bakıda sovet hakimiyyətinin daha da möhkəmlənməsinə baxmayaraq, Bakı Xalq Komissarları soveti mülkədar torpaqlarının müsadirə edilməsi və ictimailəşdirilməsi haqqında dekreti xeyli gec - yalnız iyunun 18-də, qızışmaqda olan Vətəndaş müharibəsi şəraitində verdi ki, bu da həyata keçirilə bilmədi. Torpaq məsələsinin əməli olaraq həlli sahəsində də qəti bir addım atılmadı. Sovet hakimiyyəti qurulmuş uzaq qəzalarda birdən-birə mümkün olmasa da, Bakının yaxınlığındakı kəndlərdə xüsusi şəxslərə mənsub olan torpaqları təxirə salmadan milliləşdirib, kəndlilərin istifadəsinə vermək olardı. Lakin bu sahədə əməli bir addım atılmadı. N. Nərimanov 1919-cu ildə Həştərxandan Moskvaya, RK(b)P MK-ya, V. İ. Leninə göndərdiyi yazılı məruzədə Bakı Xalq Komissarları sovetinin səhvlərindən danışarkən yazmışdı: «Torpağın yalnız zəhmətkeş sinfinə mənsub olduğunu elan etmək kifayət deyildi, bunu heç olmasa Bakının yaxın ətrafında əməli surətdə həyata keçirmək lazım idi; bunun yoxsul kəndliləri öz tərəfimizə çəkmək cəhətdən çox böyük əhəmiyyəti olardı»[133].

---

[132] Yenə orada, səh. 422.
[133] «26 Bakı Komissarı», Bakı, 1958, səh. 240.

Məlum olduqu kimi, Bakı sovetinə və sovet qoşun-larının komanda heyətinə soxulmuş düşmən ünsürlərin-eserlərin, daşnaqların, menşeviklərin xəyanəti, türk-alman, ingilis-amerikan müdaxiləçilərinin və onların daşnaq, eser, menşevik, müsavatçı agentlərinin təzyiqi nəticəsində Bakıda Sovet hakimiyyəti müvəqqəti olaraq yıxıldı.

Bakıda Sovet hakimiyyətinin müvəqqəti olaraq sükuta uğramasının bir sıra səbəbləri var idi. Bunlardan biri də Bakı proletariatının Azərbaycanın kəndli kütlələri ilə əlaqəsinin zəifliyi idi. A. İ. Mikoyan bu əlaqənin zəifliyini qeyd edərək yazmışdı: «Aqrar inqilabının dalğaları kəndlilər ilə Bakı proletariatı arasında burjuaziya və mülkədarların çəkmiş olduqları millətçilik-şovinizm sədlərini yıxa bilmədi. O zaman Bakı proletariatı müsəlman kəndliləri ilə əlaqə bağlaya bilmədi, milli azadlıq bayrağını Azərbaycan mülkədarlarının əlindən qoparıb almağı bacarmadı. Bakı proletariatı o zaman müsəlman kəndlilərinin geridə qalmış kütlələrini mülkədar zülmündən həqiqətən azad edə bilmədi, bu kəndliləri sovet hakimiyyəti səviyyəsinə qaldıra bilmədi. Müsəlman kəndlilərinin mülkədar zülmünə qarşı apardıqları vətəndaş müharibəsi proletariat tərəfindən rəhbərlik olmadığına görə inqilabçı kəndlilərin məğlubiyyəti ilə nəticələndi. Kəndlilərə qarşı irtica hökmranlığı başlandı, əksinqilabçı mülkədarların quldur dəstələri və türk qoşunlarının mühasirəsində olan, kəndlilərdən yardım görməyən, imperializmin eser, menşevik nökərləri tərəfindən xəyanət edilən Bakı proletariatı məğlub oldu»[134].

Bakı Xalq Komissarları Sovetinin buraxdığı səhvlərdən biri də Kommunist partiyasının Mərkəzi Komitəsinin kəndli və milli məsələlərə dair göstərişlərini ardıcıl olaraq həyata keçirə bilməməsi idi.

Bakı Xalq Komissarları Soveti müsavatçıların Azərbaycan burjua-mülkədar muxtariyyəti şüarının mahiyyətini ifşa etməklə kifayətlənərək, Azərbaycan Sovet muxtariyyəti şüarını həmin şüara qarşı qoymadı.

Lakin Bakı Xalq Komissarları Soveti tərəfindən yol verilən bu kimi ayrı-ayrı nöqsanlara baxmayaraq, sovet hakimiyyətinin 1917-1918-ci illərdə Bakıda və Azərbaycanın bir sıra rayonlarında fəaliyyətinin böyük tarixi əhəmiyyəti var idi. Bakı proletariatının qəhrəmancasına mübarizəsinin bütün Qafqaz zəhmətkeşlərinin inqilabiləşməsi üçün böyük əhəmiyyəti oldu.

1918-ci ilin yayında Bakıda və Azərbaycanın qəzalarında müvəqqəti olaraq sovet hakimiyyəti yıxıldıqdan sonra ölkə daxili əksinqilabçıların və xarici müdaxiləçilərin özbaşınalığı meydanına çevrildi. 1918-ci ilin avqust ayında ingilis müdaxiləçiləri daşnaq və menşeviklərin köməyi ilə Bakını tutdular. Bakıda və Bakı quberniyasına daxil olan qəzalardan bir çoxunda hakimiyyət Antanta imperialistlərinin oyuncağı olan Sentrokaspi hökumətinin əlinə keçdi.

---

[134] « Бакински рабочи» qəzeti, 20 sentyabr 1933- cü il, № 217.

Bu zaman Azərbaycanın əksər hissəsi Türkiyə işğalçıları tərəfindən tutulmuş, Gəncədə bəy və xanların müsavat hökuməti təşkil edilmişdi. Gəncə quberniyası bütövlüklə, Bakı quberniyasının isə bir hissəsi Türkiyə qəsbkarlarının hakimiyyəti altına düşmüşdü. Müsavat hökuməti işğalçılara hər cəhətdən qulluq göstərirdi. Onun 1918-ci il 21 iyun tarixli qərarı ilə işğalçı türk ordusunu saxlamaq üçün bütün xərclər Azərbaycan zəhmətkeşlərinin üzərinə qoyulmuşdu. Azərbaycan kəndliləri işğalçı türk qoşunlarını saxlamaq üçün öz təsərrüfatlarının gəlirinin onda bir hissəsi miqdarında xüsusi zəkat vergisi verməli idilər. Əslində isə zəkat yığmaq bəhanəsi ilə türk işğalçıları kəndlilərdən nəzərdə tutulduğundan artıq vergi alaraq, onların təsərrüfatını var-yoxdan çıxarırdılar[135].

Müsavat hökuməti ölkənin mənafeyini istismarçı siniflərin, yadelli qəsbkarların ayağı altına ataraq Azərbaycan xalqı qarşısında xaincəsinə cinayət işlədi. Müsavat hökuməti bir tərəfdən ölkə zəhmətkeşlərinin talanması hesabına istismarçı siniflərin, türk işğalçılarının varlanmasına çalışır, digər tərəfdən isə hərbi yürüş təşkil etməklə Bakıdakı Sovet hakimiyyətini yıxmaq məqsədini güdürdü. Müsavatçılar öz mənfur niyyətlərinə nail olmaq məqsədi ilə hər cür ikiüzlü siyasətə, yalana, aldatmaya əl atmaqdan çəkinmirdilər. Müsavat hökuməti Azərbaycan kəndlilərini torpaq uğrunda mülkədarlara qarşı inqilabi mübarizədən çəkindirmək məqsədi ilə Zaqafqaziya seyminin aqrar məsələ üzrə qanunlarını dəyişdirməyəcəyinə riyakarcasına and içdi. Lakin az sonra müsavat hökumətinin iç üzü meydana çıxdı.

Müsavat hökuməti Gəncədə rəsmi surətdə təşkil edildikdən az sonra, yəni 1918-ci il iyunun 22-də belə bir qərar qəbul etdi:

«1. Zaqafqaziya seymi tərəfindən torpaq islahatına dair qəbul edilmiş qanunun mövqeyi-icrası Məclisi-müəssisan çağırılıncaya qədər təxirə salınsın.

2. Bu vaxta qədər istər xüsusi şəxslərin və istərsə xəzinənin qəsb edilmiş torpaqları qaytarılsın.

3. Torpaq məsələsinə dair tezliklə lazımi materiallar toplanması torpaq nazirinə tapşırılsın.

4. Bədəl (vıkup) tədiyyələri haqqında məruzələr təqdim edilsin (mülkədarların ixtiyarında olan torpaqların müqabilində kəndlilərə satılması)»[136].

Bu dörd maddə müsavat hökumətinin bütün mövcudiyyəti ərzində onun yürütdüyü torpaq siyasətinin əsasını təşkil edirdi. Müsavat hökuməti bu qərarı ilə Zaqafqaziya seyminin fəhlə və əsgər deputatları sovetinin təzyiqi altında xəzinə, kilsə, monastır və mülkədar torpaqlarının əvəzsiz olaraq kəndlilərə verilməsi haqqında qəbul etdiyi qanunu ləğv etmiş oldu. Müsavat hökuməti türk işğalçı qoşunlarının köməyinə arxalanaraq, mülkədarların mənafeyi keşiyində durmuşdu.

---

[135] Y.L.Tokarjevski. Azərbaycanda xarici hərbi müdaxilənin boşa çıxması, Böyük Oktyabr və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə (sənədlər və məqalələr külliyyatı), Bakı, 1958, səh. 333.

[136] Q. An-n. Müsavat zülmü altında kənd və kəndli kütlələrinin mübarizəsi, Bakı, 1931, səh. 5.

«Gələcək» qəzeti Türkiyə işğalı dövründə Azərbaycan kəndlilərinin ağır vəziyyətindən, daxili mürtəce qüvvələrin tüğyan etməsindən bəhs edərək yazırdı: «Azərbaycanda qədim zamandan müftə yeməyə alışmış ağalar, bəylər bu dəfə «türk qardaşlarının» Azərbaycana gəlməsindən istifadə edərək, onların qabağına düşüb öz camaatını ayaq altına alıb bir tikə çörəyə möhtac etdilər. Birinci dəfə bütün camaatın öküzünü, gəlini və arabalarını toplayıb Qarakilsəyə göndərdilər. Bunların bir çoxu orada tələf oldu. Bir parası qayıdıb gəldisə də, onları yenə buradan məcburən Kürün o tayına hərbi ləvazimat göndərməklə məhv etdilər. Çünki bu xainlərin əsas məqsədləri türklərin burada qalmasından istifadə edib camaatın boynuna boyunduruq qoyub, öz muradlarına çatmaq idi»[137].

Türk qoşunları 1918-ci il sentyabr ayının 15-də Bakını tutdular. İngilis müdaxiləçilər Azərbaycandan çıxıb getməli oldular. Lakin Türkiyənin Azərbaycanı işğal etməsi uzun çəkmədi. Türkiyə birinci dünya müharibəsində məğlub olduqdan sonra öz qoşunlarını Azərbaycandan çıxarıb aparmalı oldu. 1918-ci il noyabr ayının ortalarında Bakı ikinci dəfə ingilis imperialistlərinin pəncəsi altına keçdi. Əvvəl türk və alman işğalçılarının süngüsünə arxalanan müsavatçılar, bundan sonra ingilis ağalarının qarşısında diz çökərək, onların buyruğu ilə hərəkət etməyə başladılar. Azərbaycanın xammalı, ərzaq ehtiyatı, əhaliyə məxsus qiymətli şeyləri Türkiyə, İngiltərə və başqa qəsbkarlar tərəfindən vəhşicəsinə talan edilib aparıldı. Bu da, ərzaq çətinliklərinin daha da kəskinləşməsi ilə, aclıqla, yoluxucu xəstəliklərlə nəticələnirdi. Məsələn, hökumət orqanları tərəfindən Lənkəran qəzası kəndlilərindən dəyər-dəyməzinə, zorla toplanmış taxıl Sara adasına daşınaraq, oradan gəmilərlə Ənzəliyə, ingilis qoşunlarına göndərilirdi[138]. Lənkəran qəzasından taxılın zorla alınıb aparılması yerli əhalinin və ətraf rayonların zəhmətkeşlərinin aclıq keçirmələrinə səbəb olurdu. Lənkərandan Salyana taxıl gətirilməsi dayandırıldığına görə, orada qıtlıq və bahalıq başlamışdı[139]. Azərbaycanın başqa yerlərində də vəziyyət acınacaqlı idi. Gəncədə, Nuxada və başqa yerlərdə ərzaq mallarının qiyməti gündən-günə bahalaşırdı. Gəncədə tacirlər qıtlıqdan istifadə edərək, əhalini vəhşicəsinə soyurdular[140]. Onlar müsavat hökuməti orqanları tərəfindən heç bir maneəyə rast gəlmədən möhtəkirlik edir, şeylərin qiymətini bahalaşdırırdılar[141]. Nuxada əhali acından qırılırdı[142]. «Жизн насионалностеj» qəzeti Azərbaycanın ərzaq vəziyyətindən bəhs edərək yazırdı:

“Azərbaycanda və qismən Bakıda ərzaq vəziyyəti çox kəskindir, dəhşətli bahalıqdır»[143].

---

[137] «Gələcək» qəzeti, 24 yanvar 1919-cu il, № 3.
[138] Azərbaycan qəzeti (rusca), 4 noyabr (22 oktyabr) 1918-ci il № 26.
[139] Yenə orada, 14 dekabr 1918-ci il № 60.
[140] Yenə orada, 15 dekabr 1918-ci il, № 61.
[141] Yenə orada, 28 yanvar 1919-cu il, № 19.
[142] Yenə orada, 8 fevral 1919-cu il, № 23.
[143] «Жизн насионалностеj» qəzeti, 6 aprel 1919-cu il, № 12.

Aclıq, dağıntı, qıtlıqla yanaşı, yoluxucu xəstəliklər də əhalini əldən salırdı. Yoluxucu xəstəliklərin yayılması nəticəsində işçi qüvvəsi xeyli azalmışdı. Məsələn, Zaqatala quberniyasında «ispan qızdırması» geniş yayıldığından çöl işlərində çalışan kəndlilərin sayı ciddi surətdə azalmışdı. Quberniyada cəmi bir həkim və beş feldşer var idi ki, bu da, yoluxucu xəstəliklərə qarşı mübarnzə aparmaq üçün son dərəcə az idi[144].

Şamaxı əhalisinin faciəli vəziyyətindən bəhs edən «Əkinçi və fəhlə» qəzeti yazırdı: «Virana qalmış Şamaxı şəhərində camaatın əhvalı əvvəlkindən indi çox pərişan bir haldadır. Camaat acından, soyuqdan qırılıb tələf olmaqdadır. Bir tərəfdən azar və aclıq, o biri tərəfdən isə çılpaqlıq Şamaxı [işinin axırına çıxmaqdadır»[145].

Belə bir vəziyyət hər şeydən əvvəl, fəhlələrin və zəhmətkeş kəndlilərin yaşayış şəraitinin daha da pisləşməsinə səbəb olurdu.

Müsavat hakimiyyəti Azərbaycan kəndlilərinin həyatında ən işgəncəli bir devr idi. Müsavatçıları Xalq Komissarları Sovetinin torpaq haqqında dekretini ləğv etdilər, aqrar çıxışları zamanı kəndlərin mülkədarlardan tutub aldıqları torpaqları mülkədarlara qaytardılar. Müsavat hökumətinin torpaq sahəsində siyasəti çarizm dövründə olan torpaq qanunlarını əbədiləşdirmək, mülkədarlarla kəndlilər arasında mövcud olan münasibətdə heç bir dəyişikliyə yol verməmək idi.

Müsavat hökuməti torpaq məsələsinin müzakirəsini parlamentin bir iclasından digər iclasına keçirirdi. Müsavat hökuməti başçıları parlamentin iclaslarında, demaqoqcasına çıxış edərək, kəndlilərə yalan vədlər verib onları aldadırdılar. Məsələn, müsavat hökuməti Nazirlər Şurasının sədri Fətəlixan Xoyski Azərbaycan parlamentinin 1918-ci il dekabrın 26-da olan iclasında demişdi ki, torpaq məsələsi kimi mürəkkəb məsələ bir gündə həll edilə bilməz, məsələyə dair lazımi materiallar və statistika məlumatını hazırlamaq lazımdır[146]. F. X. Xoyskinin parlamentdə verdiyi bu bəyanət torpaq məsələsinin həllini süründürməçiliklə əvəz etmək, kəndliləri aldatmaqdan başqa bir şey deyildir.

Ə. H. Qarayev müsavatçıların torpaq siyasətini ifşa edərək yazırdı: “hökumət bəy, xan, ağalar əlində olduğuna görə torpaq məsələsi tamamilə yaddan çıxan məsələ oldu. Yenə də rəiyyət ağaların, bəylərin, qolçomaqların ağır boyunduruğu altına girməli oldu”[147].

Müsavatçılar nəinki kəndlilərə torpaq vermir, əksinə, 1918-ci ilin əvvəllərində kəndlilərin əlinə keçən mülkədar torpaqlarını sahiblərinə qaytarırdılar.

Bu münasibətlə Q. K. Orçonikidze 1918-ci il oktyabrın 12-də V. İ. Leninə yazmışdı: «Azərbaycan respublikasının hökuməti Fətəlixan Xoyski başda olmaqla yalnız mülkədarlardan ibarətdir. Türklərin yaratdıqları və sultanın ən pis qayda-

---

144 “Azərbaycan” qəzeti (rusca), 10 dekabr 1918-ci il, № 56.

145 “Əkinçi və fəhlə” qəzeti, 1919-cu il, № 8, səh. 3.

146 «Azərbaycan» qəzeti (rusca), 29 dekabr 1918-ci il, № 69.

147 «Al bayraq» qəzeti, 18 yanvar 1919-cü il, № 2.

qanunlarını bərpa edən rejim tatarların (azərbaycanlıların - Ə. R.) hökumətə və türklərə qarşı üsyan etməsinə səbəb olmuşdur; burada müsəlman yoxsullarını aldatmaq və adamları təhqir etmək sistem şəklini almışdır. Torpaqlar bütünlüklə mülkədarlara qaytarılmışdır»[148].

Müsavatçılar müxtəlif bəhanələrlə torpaq məsələsinin həllini təxirə salaraq kəndlilərin bəy və xanlardan asılılığını əbədiləşdirməyə çalışırdılar. Bu məqsədlə onlar bir tərəfdən ordudan, polisdən, silahlı bəy, qolçomaq quldur dəstələrindən, digər tərəfdən də yalan vədlərdən istifadə edirdilər.

Müsavatçılar kəndliləri mülkədarlara qarşı torpaq uğrunda mübarizədən çəkindirmək məqsədi ilə deyirdilər: «söz yoxdur ki, torpağı verəcəyik, ancaq hələlik torpaq məsələsinə əl vurmaq olmaz. Çünki bu saat camaat anarxiya içərisindədir. Torpaq məsələsi də buraya qarışsa ölkə dağılıb gedər. Ona görə rahatlıq lazımdır»[149]. «Azərbaycan» qəzetində verilən bu bəyanatdan dörd ay sonra müsavat hökumətinin torpaq naziri Qardaşov daxili işlər naziri N. Yusifbəyova (sonradan o, Nazirlər Şurasının sədri oldu) göndərdiyi 1919-cu il 2 iyun tarixli gizli məktubunda yazmışdı: «Mən torpaq məsələsinin ali dövlət orqanı tərəfindən yeni torpaq qanununun tərtibi və təsdiqinə qədər həll edilməsini mümkün hesab etmirəm. Bunu nəzərdə tutaraq mənim idarəmin altında olan nazirlik öz cari fəaliyyətində torpaq islahatı keçirilincəyə qədər, indiyə kimi olan torpaq vəziyyətinin tamamilə mühafizə edilməsi siyasətini yürüdür və heç bir əlavə torpaq bölgüsü və yaxud xüsusi şəxslərin əlində olan torpaqların və ya dövlət torpaqlarının başlı-başına tutulmasına yol vermir»[150]. Müsavat parlamentində torpaq məsələsinin müzakirəsi 15 aya kimi, yəni 1919-cu il fevralın 4-dən 1920-ci il aprelin 21-dək davam etdi.

Azərbaycan parlamentinin 1919-cu il fevral ayının 4-dəki iclasında bəy və qolçomaqlardan ibarət torpaq komissiyası seçildi. Torpaq komissiyasının cəmi 25 dəfə iclası oldu[151]. Lakin komissiya kəndlilərin xeyrinə heç bir iş görmədi. Müsavat hökuməti on minlərlə zəhmətkeş kəndlini maraqlandıran, onların müqəddəratı üçün ciddi əhəmiyyət kəsb edən torpaq məsələsinin həllini kəndlilərin qanını soranlara tapşırmaqla istismarçı siniflərin mənafeyini müdafiə etdiyini bir daha nümayiş etdirdi.

Müsavat hökumətinin rəsmi orqanı «Azərbaycan» qəzeti özünün baş məqaləsində yazmışdı: «Torpaq qanunu veriləनəcən torpaqdan istifadə və torpağı idarə etmək sahəsində, kəndlilər və xüsusi sahibkarlar arasında münasibət mövcud qanunlar üzrə nizama salınacaq və salınmalıdır. Bu qanunlara görə, xüsusi yer sahibləri öz yerlərindən istədikləri kimi istifadə bilərlər»[152].

---

[148] Г. Орджоникидзе. Статьи и речи, I cild, M., 1956, səh. 45.
[149] «Azərbaycan» qəzeti, 18 yanvar 1919-cu il, № 12.
[150] Azərbaycan SSR OİMDA, fond 894, siyahı 7, iş 5, vər. 84-85.
[151] Azərbaycan SSR OİMDA, fond 895, siyahı 5, iş 5, vər. 8.
[152] Bax: "Kommunist" qəzeti, 21 aprel 1930-cu il, № 89.

1919-cu ilin ortalarında Lənkəran qəzasında və Muğanda sovet hakimiyyəti mövcud olarkən bir sıra sahibkar torpaqları kəndlilərin ixtiyarına keçmişdi. Burada sovet hakimiyyəti müvəqqəti olaraq yıxıldıqda müsavatçılar mülkədarların torpaqlarını özlərinə qaytardılar. Bu münasibətlə «Azərbaycan» qəzetində «Milliləşdirilmiş malikanələrin geri qaytarılması» başlığı altında verilən bir məlumatda deyilirdi: «Torpaq naziri Qardaşovun sədrliyi ilə Muğanda işləyən xüsusi komissiya bolşeviklər tərəfindən milliləşdirilmiş malikanələri öz sahiblərinə geri qaytarır»[153].

Müsavat ağalığı dövründə də kəndlilər ağır şərtlərlə torpağı sahibkarlardan icarəyə götürüb becərmək məcburiyyəti qarşısında qalmışdılar.

Gəncə qəzasının Qasımbəyli kəndində mülkədar Şıxıbəyovların 429 desyatin torpaq sahəsi olduğu halda, kəndin zəhmətkeş əhalisinin bir parça da olsun torpağı yox idi. Kəndlilər mülkədar Şıxıbəyovlardan torpaq icarəyə götürərək, məhsulun $^1/_2$ və ya $^1/_3$ hissəsini sahibkarlara verirdilər[154]. Kəndlilərin torpağa olan ehtiyacını görən sahibkarlar icarə haqqını durmadan artırırdılar. Lakin kəndlilərin ağır şərtlərlə mülkədarlardan torpağı icarəyə götürmək cəhdləri çox yerdə sahibkarlar tərəfindən məhdudlaşdırılırdı; mülkədarlar çox vaxt öz torpaqlarını başqa kəndin əhalisinə icarəyə verirdilər. Məsələn, Qazax bəylərindən Sultanovlar Cırdaxan kəndlilərinin əvvəllərdə istifadəsində olan «Xınan düzü» torpaqlarını başqa kəndin əhalisinə icarəyə vermişdilər. Bunun nəticəsində hər iki kəndin sakinləri arasında toqquşma baş vermişdi[155]. Belə fitnəkarlığı mülkədarlar qəsdən, kəndlilərin arasına nifaq salmaq üçün edirdilər.

Müsavat ağalığı illərində kəndli torpaqlarının mülkədarlar tərəfindən zəbt edilməsi kütləvi şəkil almışdı. Məsələn, Tovuz kəndlilərinin parlamentin sədrinə göndərdikləri 4 mart 1920-ci il tarixli teleqramda deyilirdi ki, bəy Sultanovlar kəndli torpaqlarını zəbt etmişlər. Silahlı gözətçi dəstəsi qan axıdılmasına gətirib çıxarır. Müdafiə etmənizi xahiş edirik[156].

Mülkədarlar Gəncə qəzasının Qızılhacılı kəndlilərinin istifadəsində olan 5.000 desyatin əkin və otlaq yerlərini müsavat polisinin köməyi ilə zəbt etmişdilər[157]. Qızılhacılı kəndinin camaatı torpaq və dövlət əmlakı nazirinə göndərdikləri 26 oktyabr 1919-cu il tarixli ərizədə mülkədarlar tərəfindən zəbt edilmiş torpaqların kəndlilərə geri qaytarılmasını xahiş edirdilər. Lakin Qızılhacılı kənd camaatının ərizəsinə Torpaq və Dövlət əmlakı nazirliyi müsbət cavab verməmişdi. Nazirlik dörd ay sonra 1920-ci il 23 fevral tarixli cavabında yazmışdı

---

153 «Azərbaycan» qəzeti (rusca), 14 sentyabr 1919-cu il, № 196.
154 Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 47, vər. 73-74.
155 Yenə orada, iş 564, vər. 81.
156 Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1. iş 564, vər. 70.
157 Yenə orada, iş 553, vər. 105.

ki, Qızılhacılı kəndlilərinin xahişi hazırda terinə yetirilə bilməz vo torpaq islahatı keçirilər-kon nəzərə alınacaqdır[158].

Mülkədarlar kəndliləri torpaqlardan sıxışdırmaqla yanaşı, onlara öz torpaqlarını becərmək imkanı da vermirdilər. Gəncə qəzası Novo-Yaqaldi kəndinin kəndliləri 25 ildən bəri xüsusi sahibkarların Xan-Qərvənd malikanəsindən istifadə edirdilər (buraya «Bəbir xan», «Pirəli», «Mandanəli», «İsgərnər» və «Cavad» adlı yaylaq yerləri daxil idi. Malikanədən axan suyun həcmi 5 baş idi). Lakin mülkədarlardan Cahangirbəy Əhmədbəy oğlu, Mahmudbəy və Behbudbəy Mahmudxanbəyov qardaşları kəndlilərin icarə əsasında istifadələrində olan torpaqlarına su buraxmır və eyni zamanda kəndlilər tərəfindən icarəyə götürülmüş torpaqları başqa adamlara satırdılar[159].

Cavad qəzasının Süleyman kəndində mülkədar Hüseynbəyov əvvəllər kəndlilərin icarəsində olan torpaqları sələmçi və möhtəkir Ağaqulu və Abasqulu Vahidovlara satmaqla, həmin kəndin sakinlərindən bir çoxunu ata-babadan istifadə etdikləri torpaqlar məhrum etmişdi[160]. Müsavatın yerli orqanları da əhalinin başına olmazın məşəqqətlər açırdılar. Şamaxı qəzasının Çuxuryurd kənd əhalisinin Bakı mərkəzi fəhlə konfransı rəyasət heyətinə göndərdikləri ərizədə deyilirdi ki, yerli hakimiyyət orqanları özbaşınalıqla məşğuldurlar. Pristav İsabəy gözətçi dəstəsi ilə hər gün Çuxuryurda gələrək, əhalni incidir, kim düşdü döyür, pulunu alır, axtarış etmək bəhanəsi ilə evlərə soxulur və bütün qiymətli şeyləri aparır. Məsələn, onlar kəndlilərdən zorla üç öküz və bir at almış, bu özbaşınalıqlarla kifayətlənməyərək, 30 kəndlini həbs edib aparmışlar. Həbs edilənlərdən ikisi yolda öldürülmüş, qalanlarının isə müqəddəratı məlum deyildir. Kəndlilər canlarını qatillərin əlindən qurtarmaq üçün Bakıya qaçırlar. Nəticədə kənddə qadınlar, uşaqlar və bir neçə kişi qalmışdı. Çöl işlərinə çıxan yoxdur. Taxıl yığılmadığından açıq havada qalıb xarab olur. Əhalini aclıq hədələyir[161].

Ərizənin axırında fəhlə konfransı Rəyasət heyətindən Çuxuryurd əhalisini yerli orqanların özbaşınalığından qorumaq xahiş edilirdi[162].

Bakı qəzasının Siyəzən kəndliləri kəndxuda Balaəli Zülfüqar oğlunun, Şamaxı qəzasının Xıdırlı kəndliləri kəndxuda Mehrəli Səlim oğlunun, Cavad qəzasının Sarov kəndliləri kəndxuda Əlihüseyn Nəsrulla oğlunun vəzifədən çıxarılıb qovulmasını Bakı qubernatorundan xahiş edirdilər və sairə[163].

«Azərbaycan füqərası» qəzetində «Kəndli» imzası ilə dərc edilmiş «Qarabağda» adlı xəbərdə deyilirdi: «Cəllad, vicdansız mülkədarlar, möhtəkirlər

---

[158] Yenə orada, siyahı 3, iş 4, vər. 41.
[159] Yenə orada, iş 562, vər. 267.
[160] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1. iş 102, vər. 59, 61.
[161] “Molot” qəzeti, 7 avqust 1919-cu il, № 25.
[162] Yenə orada.
[163] “Azərbaycan” qəzeti (rusca), 16 avqust 1919-cu il, № 173; 18 avqust 1919-cu il, № 175; 17 sentyabrm 1919-cu il, № 198.

və polis məmurları sayəsində Qarabağ kəndliləri və fəhlələri çarəsiz bir dərdə mübtəla olaraq, tamamilə can verməddədirlər. Hansı bir kənddən keçilərsə, ağlaşmadan qulaq tutulur, ən kiçik bir kənddə gündə on-on beş kəndli tələf olur»[164].

Göyçay əhalisi daxili işlər nazirinə müraciət edərək qəza rəisinin köməkçisi Səmədbəyin özbaşınalığından şikayətlənir və onun qovulmasını xahiş edirdilər[165].

Müsavat polisinin vəhşiliklərindən bəhs edən «Al bayraq» qəzeti yazırdı: «Göyçaydan gündə ürək yandırıcı, qəlb bulandırıcı xəbərlər gəlməkdədir. Göyçay şəhərində polis məmurları camaatı daha təngə gətirib, istibdadın yumruğunun altında yarımcan yorulmuş camaatın ah-nalələri qulağımıza dəyməkdədir»[166]. Qəzet yenə həmin nömrəsində müsavat məmurlarının rüşvətxorluğunu, soyğunçuluğunu bir çörəkçinin dili ilə ifşa edərək yazırdı: «A başına dönüm! Mən nə edim, mən özümü saxlayım, yainki pristav və ya naçalnik ağanın gündə havayı çörəyini isticə təndirə yapım?»[167].

Məmurların zülm və işgəncəsinə məruz qalan yüzlərlə adamın fəryadı və arzusu qəzetdə belə ifadə edilmişdi: «Bilməm bizim Azərbaycan daxili naziri nəyi bəkləyir? Keçmiş gözləmələr, keçmiş yuxular məgər bizə dərsi-ibrət olmadımı?

Camaat daha «məmurların» hərəkətinə davam edə bilməyir. Camaat bu quldurların iş başından kənar olunmasını tələb edir. Bəsdir, bu qədər yatdıq, biz sormaq istəyirik daxili nazirindən nə vaxt bu «məmurlar» iş başından kənar olacaqlar. Nə təhər tənbehlər Kürdəmir pristavına və Göyçay polis məmuruna olacaqdır»[168].

Yerlərdəki məmurlar hədə-qorxu yolu ilə kəndliləri talayırdılar. Məsələn, Göyçay qəzasının vergi müfəttişi Q. Paşabəyov kəndlilərdən «toy pulu» adı ilə 9.600 manat, Kürdəmir nahiyəsinin müstəntiqi B. Buludxanov 130.000 manat pül toplamışdı. Pristav S.Mustafayev də belə hərəkət etmişdi[169].

Müsavat ağalığı dövründə Azərbaycanda rüşvət xorluğun geniş şəkil almasından bəhs edən «Bəsirot» qəzeti yazırdı: «Rüşvətxorluq tam bir moda halını almışdı. Bakıdan tutmuş Azərbaycan cümhuriyyətinin son nöqtəsinədək rüşvət alınır. Camaat xüsusunda zülmlər rəva görülür. Kəndlərdə kəndxudalar allahlıq edirlər»[170]. Müsavat ağalığı dövründə istismarçı siniflərin nümayəndələri öz sərvətlərini artırmaq üçün ən alçaq üsullara əl atırdılar. Müsavat ordusunun əsgərləri əhalinin başına olmazın əzab və işgəncə gətirirdilər.

---

[164] «Azərbaycan füqərası» qəzeti. 2 fevral 1920-ci il № 46.
[165] "Azərbaycan" qəzeti (rusca), 17 avqust 1919-cu il, № 198.
[166] «Al bayraq» qəzeti, 25 yanvar 1919-cu il, № 3.
[167] Yenə orada.
[168] Yenə orada.
[169] «Беднота» qəzeti, 25 sentyabr 1919-cu il, № 8.
[170] «Bəsirət» qəzeti, 5 aprel 1919-cu il, № 221.

«Molot» qəzeti yazırdı: «Etiraf etmək lazımdır ki, Yusifbəyovun «cəza dəstələri» heç bir şeydə general Lyaxovdan, Renenkamfdan və bu kimilərindən geri qalmırlar»[171].

Müsavat irticasının hökmranlığı, xarici müdaxiləçilərin ağalığı, bəy və mülkədarların özbaşınalığı Azərbaycan kəndlilərinin inqilabi mübarizəsinin qarşısını ala bilmədi. Əksinə, belə bir vəziyyət Azərbaycan fəhlə və kəndlilərini inqilaba daha çox yaxınlaşdırırdı, onlar yəqin edirdilər ki, yeganə nicat yolu bəylərin, xanların ağalığını yıxmaqdan, fəhlə və kəndli hakimiyyətini yaratmaqdan ibarətdir.

Kommunistlər kəndlilər arasında geniş təbiğat-təşviqat aparır, partiyanın məqsəd və proqramını onlara izah edirdilər. Kommunistlər müsavat hökumətinin bütün xəyanətlərini, hiylə və fırıldaqlarını ifşa edir, müsavatçıların imperializmə satıldığını, Azərbaycan zəhmətkeşlərinin qəddar düşmənləri olduğunu göstərir və xalqı müsavat hakimiyyətini devirməyə çağırırdılar. Azərbaycan kəndliləri yeni qüvvə ilə öz azadlıq və səadətləri uğrunda silahlı mübarizəyə qalxırdılar. Bakı kommunist təşkilatının göstərişləri və yardımı, kommunistlərin yerlərdə, bilavasitə kəndlilər arasında fəaliyyəti bu mübarizəyə mütəşəkkillik və istiqamət verirdi. Əli Bayramov «Azərbaycan füqərası» qəzetində yazırdı:

«Kəndlilər öz qardaşları olan fəhlələrlə ittifaq bağlayıb bərabər iş görməlidirlər, bir mübarizə aparmalıdırlar.

Kəndli qardaşlar! İslam millətinin nicatı adları müsəlman, özləri zalım sərvətdarlar əlində deyil, islam millətinin xilası yalnız bolşevizm ilə ola bilər. Qardaşlıq əllərinizi fəhlələrə sarı uzadıb qırmızı ordu ilə ittifaqı tələb edin!

Bu saat Azərbaycanda ağalıq edən burjuaziyaya inanmayın. Nə qədər onlar iş başındadırlar, Azərbaycan füqərayi-kasibəsi aclıqdan və bəlalardan qurtarmayacaqdır»[172].

Kommunist təbliğatının getdikcə qüvvətlənməsi nəticəsində üsyan alovu yeni-yeni rayonları və kəndləri əhatə etməyə başlamışdı. Kəndlilər sahibkar torpaqlarını tutaraq, mülkədarlara və xəzinəyə vergi verməkdən boyun qaçırır, silahlı dəstələr təşkil edərək bəyləri qırır, inzibati orqanlara ciddi müqavimət göstərirdilər.

Azərbaycan kəndində genişlənməkdə olan inqilabi kəndli hərəkatı istismarçı siniflərə və onların hakimiyyətinə qarşı çevrilmişdi. Hələ 1918-ci ilin birinci yarısında Qazax qəzasının Birinci Şıxlı kəndinin əhalisi bəylər əleyhinə mübarizə aparmaq məqsədi ilə 75 adamdan ibarət silahlı dəstə təşkil etmişdilər. Türk işğalçıları Qazax qəzasını zəbt etdikdən sonra silahlı kəndli dəstələri meşələrə çəkilərək, mübarizəni davam etdirirdilər[173].

---

[171] «Molot» qəzeti, 23 iyul 1919-cu il, № 12.
[172] «Azərbaycan füqərası» qəzeti, 29 yanvar 1920-ci il, № 43.
[173] Azərbaycan SSR OİMDA, fond 894, siyahı 1, iş 2, vər. 150.

Kəndli çıxışlarının artmasından təşvişə düşən Gəncə qubernatoru Vəkilov Daxili İşlər Nazirliyinə göndərdiyi 1918-ci il 12 noyabr tarixli raportda yazmışdı: «Gəncə qəzasının Zəyəm nahiyəsində Kərbəlayi Əsgərin və Rüstəmin başçılığı ilə böyük quldur dəstəsi əmələ gəlmişdir. Ağır vəziyyətdən çıxmaq üçün əsgəri qüvvə lazımdır. Xahiş edirəm təcili surətdə Gəncəyə bir batalyon piyada, bir vzvod topçu nə yüz nəfər süvari göndərəsiniz»[174]. Belə tədbirlər müsavat hökumətinə kəndli çıxışlarını yatırmaq üçün kömək etmirdi.

Türk-alman işğalçılarının Azərbaycandan getməsi kəndlilərin sovet hakimiyyəti uğrunda, torpaq uğrunda bəy və xanlara, mürtəce müsavat ağalığına qarşı mübarizəsinin daha da qüvvətlənməsinə səbəb oldu. Müsavatın polis orqanları yüksələn inqilabi hərəkatın qarşısını almaq üçün hökumətdən nizami ordu hissələri göndərilməsini xahiş edirdilər. Bu cəhətdən Gəncə qəzası dördüncü nahiyəsinin pristavı Fətəlibəyovun Gəncə qəzası rəisinə göndərdiyi 1918-ci il 20 noyabr tarixli məxfi raportu səciyyəvidir. Raportda Məşədi Mahmud Əliyevin, Kərbəlayi Əsgər Hacı Hüseyn oğlunun, Rüstəm Hacı Əli oğlunun və başqalarının Qovlar, Bayramlı, Xınalı kəndliləri arasında müsavat hökuməti və mülkədarlar əleyhinə iş apardıqları və şəhərdən onlara təlimatçılar göndərildiyi qeyd edilirdi[175]. Raportda deyilirdi: «Hərgah bu adamları mənəvi cəhətcə əzmək üçün buraya qoşun dəstəsi göndərilməzsə, böhranlı dəqiqələr uzaq deyil və o zaman mübarizə xeyirsiz olacaq»[176].

Zəyəm rayonunda da kəndlilər arasında bəy və mülkədarlar əleyhinə təbliğat güclənirdi. Təbliğatçılar kəndlilər qarşısında çıxış edərək onları 1918-ci ilin əvvəllərində baş vermiş üsyan zamanı bəylərdən zəbt etdikləri əmlakı geri qaytarmamağa, bəylərə dəyən zərərin əvəzini ödəməməyə çağırırdılar. Kəndlilər bəylərə dəyən zərərin ödənilməsi və aparılmış əmlakın geri qaytarılması vaxtını hər yolla uzatmağa çalışırdılar[177].

Kəndli çıxışlarının artmasından təşvişə düşən Gəncə qəzası rəisinin Gəncə qubernatoruna göndərdiyi 1918-ci il 23 dekabr tarixli məktubda yaxınlaşmaqda olan üsyan təhlükəsinin qarşısını almaq üçün onun sərəncamına heç olmazsa 300-dən 500-ə qədər hərbi qüvvə verilməsi xahiş edilirdi[178].

Hökumət orqanları silahlı qüvvəyə böyük ümid bəsləyirdilər. Lakin müsavat hökumətinin arxalandığı ordu da pozulurdu. Kəndlilər müsavat ordusuna getməkdən boyun qaçırır, səfərbər edilənlərdən isə bir çoxları əsgərlikdən qaçaraq ya partizanlara qoşulur, ya da özləri partizan dəstələri təşkil edərək müsavat hökuməti orqanlarına, bəy və mülkədarlara qarşı mübarizə aparırdılar. Bu münasibətlə Gəncə qəzasının beşinci nahiyə pristavının qəza rəisinə göndərdiyi 17

---

174 Yenə orada, fond 19. siyahı 1, iş 473, vər. 13.
175 Azərbaycan SSR OİMDA, fond 894, siyahı 7, iş 8, vər. 1.
176 Yenə orada.
177 Yenə orada, vər. 2.
178 Yenə orada, siyahı 4, iş 165, vər. 13.

dekabr 1918-ci il tarixli məxfi raportunda deyilirdi ki, nahiyədəki fərari əsgərlər 400 adamdan artıqdır. Onların hamısı gözətçi dəstəsinə müqavimət göstərirlər[179]. Gəncə qəzasının üçüncü nahiyəsində də 150-yə kimi silahlı əsgər istismarçılar əleyhinə mübarizə aparırdı[180].

İnzibati orqanlar kəndli hərəkatını yatırmaq üçün hər cür cəza tədbirlərinə əl atırdılar. Nazirlərdən, qubernatorlardan tutmuş qəza rəislərinə kimi yüksək vəzifəli şəxslər kəndlilərlə sahibkarlar arasında torpaq üstə baş vermiş mübahisələrə qarışaraq, məsələni hər nə cür olursa-olsun sahibkarların xeyrinə həll etməyə çalışırdılar. Məsələn, Gəncə qəzasının Dəllər kənd mülkədarı Süleymanbəy Şamxorski ilə kəndlilər arasında torpaq üstündə baş verən toqquşmaya torpaq və daxili işlər nazirlikləri, Gəncə qubernatoru qarışmalı olmuşdu. Bu münasibətlə Torpaq nazirliyindən daxili işlər nazirinə göndərilmiş 3 aprel 1919-cu il tarixli məktubda deyilirdi ki, Gəncə qəzası Dəllər kəndinin torpaq sahibi Süleymanbəy Şamxorskinin torpaqları qonşu kəndlərin kəndliləri tərəfindən əkilmişdir[181]. Buna cavab olaraq daxili işlər naziri 1919-cu il 10 aprel tarixli məktubunda torpaq nazirinə yazırdı: «Mən, Gəncə qubernatoruna əmr etmişəm ki, Süleymanbəy Şamxorskinin pozulmuş hüququnu bərpa etmək üçün qəti tədbirlər görsün»[182]. Mülkədar torpaqlarının kəndlilər tərəfindən tutulmasına dair hökumət idarələrinə gələn şikayətlərin ardı-arası kəsilmirdi. Kəndlilər mülkədarların zülm və istismarına iki qat artıq zərbə ilə cavab verirdilər. Ölkənin hər tərəfində kəndlilərlə mülkədarlar arasında torpaq və su üstə toqquşmalar baş verməkdə idi. Kəndlilər müsavat hökuməti tərəfindən verilən vədlərin yalan olduğunu təcrübədə görərək, bilavasitə özləri torpaq islahatı keçirirdilər. Məsələn, 1919-cu ilin payızında Gəncə qəzasındakı Xılxına kəndinin sakinləri mülkədar Adilbəy Zülqədərovun «Qazan» mülkündəki torpaqlarını tutaraq orada taxıl əkmişdilər[183].

Şuşa qəzasının Quşçulu kəndində mülkədar Fərruxbəy Vəzirovla kəndlilər arasında 1919-cu ilin əvvəllərində torpaq üstə mübahisə baş verdi. Mülkədar Fərruxbəy Vəzirov ağır şərtlərlə kəndlilərə icarəyə verdiyi torpaqların icarə haqqını daha da artırmağa cəhd etdiyi üçün kəndlilər qəzəblənmişdilər. Sahibkarla kəndlilər arasında torpaq üstündə baş verən mübahisə getdikcə kəskinləşdi. Mübahisənin başqa yerlərə yayılmasından ehtiyat edən daxili işlər nazirliyi və Gəncə qubernatoru işi sülh yolu ilə həll etmək üçün cürbəcür vasitələrə əl atırdılar[184]. Lakin müsavat hökuməti orqanlarının göstərdikləri cəhdlər kəndli həyəcanlarının qarşısını ala bilmirdi.

---

[179] Azərbaycan SSR OİMDA, fond 894, siyahı 4, iş 65, vər. 13.
[180] Yenə orada, fond 19, siyahı 1, iş 442, vər 82.
[181] Yenə orada, fond 77, siyahı 1, iş 553, vər 7.
[182] Yenə orada, vər 8.
[183] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 562, vər. 359.
[184] Yenə orada, fond 19, siyahı 1, iş 442, vər. 6, 7, 8, 9.

Kəndlilər mülkədar torpaqlarını tutmaqla bərabər, müsavatçı bəy, mülkədar quldur dəstələrinə qarşı mübarizə aparmaq üçün silahlı partizan dəstələrn təşkil edirdilər. Qəzalarda gizli şəkildə işləyən bolşevik özəkləri bu dəstələrin təşkilində böyük rol oynayırdılar. Şəhər fəhlələri, Bakı bolşevik təşkilatı qəzalarla əlaqəni genişləndirərək, kəndli hərəkatının mütəşəkkil xarakter alması üçün nə mümkünsə edirdi. Bu hərəkatın alovları içərisində Qatır Məmməd, Kərbəlayi Əsgər, Məşədi Qədir və kəndli üsyanının başqa rəhbərləri yetişdilər. Onlar öz mübariz qəhrəmanlıqları ilə zəhmətkeş xalqın hüsn rəğbətini qazandılar.

Bu zaman Azərbaycan fəhlələri və kəndlilərinin əhvali-ruhiyyəsində böyük inqilabi dönüş əmələ gəlmişdi. RSFSR Xalq Milli İşlər Komissarlığının o zaman Azərbaycana gələn nümayəndələrindən biri 1919-cu ilin aprelində yazmışdı: «Zaqafqaziyada gələcək sovet inqilabının mərkəzi olan Azərbaycan indi qaynar inqilabi coşqunluq qazanına bənzəyir. Adam öz gözlərinə inama bilmir. 1918-ci ilin noyabrından bu ilin fevralınadək mən bu ölkənin hər tərəfini dörd dəfə gəzmişəm; müsəlman kəndli sinifləri içərisində bolşevik əhvali ruhiyyəsinin özbaşına artması insanı tamamilə heyran edir. Mən burada bolşevik əhvali-ruhiyyəsində olmayanlara rast gəlmədim. İnqilabi gərginlik hər yerdə çox qüvvətlidir. Hamının nəzəri Moskvaya dikilmişdir; kəndlərdə xəlvətcə silahlanırlar»[185].

Gəncə qəzasının Goran nahiyəsində kəndli hərəkatının başında Qatır Məmməd Məmmədov dururdu. Qatır Məmmədin təşkil etdiyi partizan dəstəsi öz fəal əməliyyatı ilə müsavat üsuli-idarəsini, bəy və mülkədarları qorxuya salmışdı. Zəhmətkeş əhali Qatır Məmmədin dəstəsinə hüsn rəğbət bəsləyirdi və ona əlindən gələn yardımı göstərirdi. Yerli orqanların, bəy və mülkədarların zülmündən cana gələn kəndlilər qaçaraq Qatır Məmmədin dəstəsinə qoşulurdular. Nəticədə xalq intiqamçılarının sayı gündən-günə artırdı. Yerli əhali müntəzəm surətdə Qatır Məmmədin dəstəsinə yardım göstərirdi[186].

İstismarçı sinfə qarşı mübarizədə qazanılan hər bir yeni müvəffəqiyyət Qatır Məmmədin dəstəsini ruhlandırır, geniş zəhmətkeş kütlələri arasında onun nüfuzunu artırırdı.

Qatır Məmmədin dəstəsinin əməliyyatı Gəncə qubernatorluğunu təşvişə salmışdı. Gəncə qubernatoru hərbi nazirə göndərdiyi 1919-cu il 21 fevral tarixli məktubda yazırdı: «Qatır Məmmədin dəstəsinin cinayətkar fəaliyyəti gündən-günə artaraq həyəcanlı vəziyyət alır. İdarə orqanları dəstənin fəaliyyətinin qarşısını almaq üçün qəti tədbirlər görmüşlər. Lakin bu müsbət nəticə verməmişdi. Bununla əlaqədar olaraq sizdən çox xahiş edirəm ki, idarə orqanlarına yardım olaraq top və

[185] Bax; 26 Bakı komissarı, Bakı, 1958, səh. 289.
[186] Azərbaycan SSR OİMDA, fond 19, siyahı 1, iş 442, vər. 14.

pulemyotlarla silahlanmış hərbi dəstənin Kürəkçay rayonuna göndərilməsi haqqında sərəncam verəsiniz»[187].

Müsavat hökuməti partizanlar üzərinə göndərilən cəza dəstələrini yeni silahlarla qüvvətləndirməklə bərabər, partizanlara yardım göstərən dinc əhali əleyhinə cəza tədbirlərini də şiddətləndirirdi. Müsavat hökuməti daxili işlər naziri Qatır Məmmədin dəstəsinə yardım edənlərin dərhal həbsə alınmasını etmişdi[188]. Gəncə qubernatoru Gəncə qəzası rəisinə göstəriş vermişdi ki, Təhkəzlər kəndində Qatır Məmmədin dəstəsinə sığınacaq verənləri həbsə alsın[189].

Lakin bu tədbirlər xalq intiqamçılarının mübarizə ruhunu qıra bilmədi. Qatır Məmməddən göstəriş alan əhali müsavat dəstələrinə çörək, arpa, ot verməkdən boyun qaçırırdı[190].

Qatır Məmmədin partizan dəstəsinin fəaliyyətinə Bakı bolşevik təşkilatı rəhbərlik edirdi. Gəncə qubernatoru bu barədə müsavat xarici işlər nazirinə yazmışdı: «Qatır Məmmədin dəstəsi yaxşı təşkil olunmuş və silahlanmışdır. Dəstənin əməliyyatlarına Bakı bolşevik təşkilatı istiqamət verir. Qatır Məmməd özünün xüsusi müvəkkili vasitəsi ilə Bakı bolşevik təşkilatı ilə əlaqə saxlayır»[191].

Müsavat hökuməti artmaqda olan kəndli hərəkatını yatırmaq üçün silahlı qüvvələrin sayını getdikcə artırırdı. Yerli orqanlar kəndli hərəkatına qarşı mübarizəyə silahlı qüvvə göndərmək üçün hökumətə tez-tez müraciət edirdilər[192].

Müsavatçılar mülkədar-müsavat üsuli-idarəsini lərzəyə gətirən, Qatır Məmmədin dəstəsinə yardım göstərən, müsavat hökumətinə tabe olmaqdan imtina edən Şadılı, Borsunlu, Goranboy, Əhmədli kəndlərini vəhşicəsinə) dağıtmışdılar. Müsavatçı cəlladlar Şadılı kəndində 20 nəfər günahsız yoxsul kəndlini ot tayasında diri-diri yandırmışdılar[193].

Müsavatçılar 1919-cu ilin iyul ayında kəndli hərəkatı başçılarından Kərbəlayi Əsgəri və az sonra 1919-cu il sentyabrın 18-dəTatır Məmmədi öldürə bildilər.

Azərbaycan bolşevikləri 1918-ci ilin dərslərini nəzərdə tutaraq, Bakı proletariatı ilə Azərbaycan kəndlilərinin ittifaqını daha da möhkəmlətməyə səy edirdilər. Bolşeviklər qəzalarda kəndlilər içərisində partiya özəkləri təşkil edir və kəndli hərəkatını mütəşəkkil şəklə salmağa çalışırdılar.

Görkəmli partiya işçiləri D. (Bünyadzadə, H. Sultanov, Əliheydər Qarayev, Fərhad Əliyev, Müseyib Əliyev və başqaları kəndli kütlələrinin azadlıq hərəkatına başçılıq edirdilər.

---

[187] Azərbaycan SSR OİMDA, fond 19, siyahı 1, iş 442, vər. 23.
[188] Yenə orada, vər. 34, 35.
[189] Yenə orada.
[190] Yenə orada, vər. 54-55.
[191] Azərbaycan Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958, səh. 138.
[192] Azərbaycan SSR OİMDA, fond 19, siyahı 1, iş 442, vər. 85-86.
[193] «Kommunist» qəzeti, 30 aprel 1930-cu il. № 96.

Bu zaman Qazax qəzasında da kəndli hərəkatı geniş vüsət almışdı. «Nabat» qəzeti yazırdı: «Qazax qəzasında kəndlilər içərisində Azərbaycan hökumətindən böyük narazılıq və həyəcan görünür. Hər gün şəhərin küçələrində təntənəli bayram olacağı gözlənilir. Hökumətə qarşı aparılan bu inqilabi hərəkata köhnə və sınanmış bolşevik Əliyev başçılıq edir. Əliyevin istər türk (Azərbaycanlı - Ə. R.), istərsə də erməni kəndliləri arasında böyük nüfuz və etimadı vardır»[194].

Qəzet mülkədar torpaqlarının kəndlilər tərəfindən tutulub bölüşdürülməsindən və qəzada kəndli komitələrinin təşkilindən bəhs edərək yazırdı: «Bütün Qazax qəzasında kəndlilər torpağı öz əllərinə almış və əhali arasında bölüşdürmüşlər. Buradakı kəndli komitələri sovetlər vəzifəsini daşıyır. Bəylər Hökuməti yalnız sözdə qalmışdır»[195].

Qazax qəzasındakı ağır vəziyyəti etiraf etmək məcburiyyəti qarşısında qalan müsavat hökumətinin rəsmi orqanı «Azərbaycan» qəzeti yazırdı: «Qazax qəzasında qanunsuzluq olduğundan, buraya parlaman üzvü Rzabəy Qaraşarov xüsusi müvəkkil təyin edilmiş və ona 600 nəfərlik əsgəri dəstə ilə bərabər, böyük ixtiyarlar verilmişdir»[196]. Qazax kəndliləri müsavat hökumətinin cəza dəstələrini silahla qarşıladılar. Onlar bolşeviklərin başçılığı ilə qəzanı öz nəzarətləri altına alaraq, buraya müsavat hökumətinin bir nümayəndəsini belə buraxmırdılar.

A. İ. Mikoyan 1919-cu il mayın 22-də RK(b)P MK-ya-V. İ. Leninə göndərdiyi məruzəsində bu münasibətlə yazmışdı: «Qazax qəzasında bütün müsəlman kəndliləri əldə silah hökumətə qarşı dururlar, cəza dəstəsi gözlənilir. Orada bizim yoldaşlarımız rəhbərlik edirlər»[197].

Müsavatçılar kəndli üsyanını yatırmaq üçün Qazax qəzasına toplar və pulemyotlarla silahlanmış böyük əsgəri hissələr göndərmişdi. Müsavatçıların cəza dəstəsi top atəşi ilə bir neçə kəndi xaraba qoymuşdu. Qazax qəzası kəndliləri həmin cəza əməliyyatına başçılıq edən Gəncə qubernatoruna ultimatum göndərərək, onun istefa verməsini tələb etmiş və əks təqdirdə şəhərə hücum edəcəklərini bildirmişdilər.

1919-cu il sentyabrın 25-də sağ hümmətçilər kəndliləri sakitləşdirmək məqsədi ilə Qazaxda bütün qəza kəndlilərinin qurultayını çağırdılar. Bakı bolşevik təşkilatı Qazax qəzası kəndlilərinin qurultayında iştirak etmək və qurultayda təşəbbüsü ələ almaq məqsədi ilə Dadaş Bünyadzadəni, Əliheydər Qarayevi, Rəhim Hüseynovu, Viktor Naneyşvilini və Ağababa Yusifzadəni Qazaxa göndərdi. Qazax kəndli qurultayında 97 nümayəndə iştirak edirdi[198]. Qurultayda Bakı fəhlə konfransının da nümayəndəsi iştirak edirdi.

---

[194] «Nabat» qəzeti, 13 iyun 1919-cu il, № 31.
[195] Yenə orada.
[196] "Azərbaycan" qəzeti, 16 may 1919-cu il, № 101.
[197] Bax: С.М.Киров. Статьи, речи, документы, I cild. M., Партиздат, 1936, səh. 144.
[198] «Беднота» qəzeti, 8 oktyabr 1919-cu il, № 15.

Qurultay iştirakçılarının böyük əksəriyyətinin bolşeviklərin tərəfində olduğunu görən sağ hümmətçilər müzakirə edilən bütün məsələlər barəsində bolşeviklərin əlavə məruzələrlə çıxış etmələrinə razılıq verməli oldular.

Qurultayda aqrar məsələ haqqında məruzə edən sağ hümmətçilərin nümayəndəsi təklif edirdi ki, mülkədar torpaqları tutularkən mülkədarlara 10 desyatin bağ yeri, 15 desyatin əkin yeri, 45-50 desyatin otlaq verilsin, qalan torpaqlar isə bütün əhali üzərinə gəlir vergisi qoyulması yolu ilə mülkədarlardan pul ilə alınsın[199].

Bu layihə bolşeviklər və zəhmətkeş kəndlilər tərəfindən məhvedici tənqid atəşinə tutuldu.

Hümmətçi kommunistlər adından torpaq məsələsi üzrə əlavə məruzə ilə çıxış edən D. Bünyadzadə mülkədar torpaqlarının müsadirə edilməsi və kəndlilərə verilməsi tələbini irəli sürdü. Bu təklif qurultaydakılar tərəfindən gurultulu alqışlarla qarşılandı. Qurultay mülkədar torpaqlarının əvəzsiz olaraq kəndlilərə verilməsi haqqında qətnamə qəbul etdi[200]. Qurultaydakılar Bakı fəhlə konfransının nümayəndəsi Tağıyev fabrikinin fəhləsi Məmmədin çıxışını hərarətlə qarşıladılar. Məmməd öz çıxışında kəndliləri fəhlələrlə birləşməyə, burjua mülkədar irticasına qarşı birgə mübarizə aparmağa çağırdı. Kəndlilər Məmmədin çıxışını «Yaşasın Bakı fəhlələri!» sözləri ilə qarşıladılar [201]. Kəndlilər bütün məsələlərdə bolşeviklərin təklifini müdafiə edərək Bakı proletariatı ilə həmrəy olduqlarını bildirdilər. Qazaxdakı kəndli qurultayının əslində bolşeviklərin rəhbərliyi altında keçdiyini görən müsavat hökuməti qurultayı bağlamağı qət etdi. Lakin buna baxmayaraq, qurultay öz işini davam etdirdi və Bakı proletariatı ilə əlaqə saxlamaq üçün xüsusi nümayəndə heyəti seçdi. Bu nümayəndə heyəti Bakıya gəldi və fəhlə konfransının iclasında iştirak etdi. Konfrans kəndlilər qurultayı haqqında məruzəni dinlədikdən sonra qəbul etdiyi qətnamədə qeyd etdi ki, bu qurultay şəhərlə kənd arasında rabitə olduğunu sübut edir və «bütün Azərbaycan kəndlilərinin Bakı proletariatı ilə birləşməsi üçün rəhndir»[202].

Hümmətçi bolşeviklərin - Qazağa getməsinin burada bolşevik təşkilatının canlanması, inqilabi qüvvələrin mütəşəkkil hal alması, Qızıl qvardiya dəstələrinin yaranması üçün çox böyük əhəmiyyəti oldu. 1919-cu ilin payızı üçün bolşeviklərin rəhbərliyi altında inqilabçı kəndlilərdən üç Qızıl qvardiya dəstəsi təşkil edilmişdi. Qazaxda və Tovuzda partiya təşkilatı yaradan hümmətçi kommunistlərdən Müseyib Əliyev və Salman Əliyev kəndli dəstələri təşkil edilməsində böyük işlər görürdülər.

Bolşevik hümmətçilər müsavatçılarla mübarizə apardıqları kimi, ittihadçılara qarşı da mübarizə aparırdılar. Bolşeviklər kəndlilərin əksəriyyətini

---

[199] «Беднота» qəzeti, 8 oktyabr 1919-cu il, № 15.
[200] Yenə orada.
[201] Yenə orada.
[202] Yenə orada, 14 oktyabr 1919-cu il, № 20.

təşkil edən yoxsul kəndliləri öz tərəflərinə çəkərək, onları burjua-mülkədar partiyalarının təsirindən uzaqlaşdırdılar. Bolşeviklərlə burjua-mülkədar partiyaları arasında qızğın məfkurə mübarizəsi gedirdi.

«İttihadçılar» kəndliləri öz tərəflərinə çəkmək üçün əllərindən gələni edirdilər. Onlar bu məqsədlə 1920-ci il yanvarın 20-də Bakıda kəndli qurultayı çağırdılar. Lakin ittihadçıların planları baş tutmadı. Qurultayda çıxış edən bolşevik natiq dedi ki, kəndlilər, sizin yeriniz bəylərin, xanların və kütbeyin mollaların yanında deyildir, sizin yeriniz inqilabçı fəhlələrlə kəndlilərin içərisindədir. Biz qəti döyüşlərə hazırlaşmalıyıq. Bizim yanımıza gəlin və biz sizinlə birlikdə bəylərə və xanlara qarşı mübarizə aparmaq üçün mübariz qüvvə yaradacağıq.

Kəndlilər qurultayın rəyasət heyətindən tələb etdilər ki, torpaq məsələsinin müzakirəsini qurultayın gündəliyinə salsınlar.

Qurultaya sədrlik edən Qarabəyov buna belə cavab verdi: «Azərbaycanda torpaq məsələsini quran həll etmişdir. Biz İslamın nümayəndələriyik və biz qurana inanırıq». Buna cavab olaraq çıxış edən Azərbaycanlı fəhlə demişdir: «Biz hələlik torpaq haqqında quranın rəyini bilmirik, biz ancaq bilirik ki, Oktyabr inqilabı torpaq kəndlilərə, fabrik fəhlələrə şüarını vermişdir. Əgər bu şüara tərəfdarsınızsa, gəlin bu qurultayda onu həyata keçirək»[203]. Sədr natiqin çıxışını kəsmək istərkən kəndlilər yerdən ona mane olmuşdular. «İttihadçılar» bunu görüb qurultayı bağlı elan etdilər. Kəndlilər isə qurultayı tərk edib fəhlə klubuna - fəhlələrin yanına gəldilər.

Əli Bayramov bəy-xan partiyaları olan müsavat və ittihad partiyalarının kənddəki siyasətini ifşa edərək, yazırdı: «Kəndlilər gözlərini yaxşı açıb baxsalar, görərlər ki, tamam sərvətdarlar, mülkədarlar və havayı yeyənlər hamısı millətpərəst olmuşlar, halbuki millətin və vətənin əvvəlinci düşməni dövlətlilərdir.

Zira əkinçilərin əllərindən yerləri alan, özlərinə mal edən haman bəylərdir.

Azərbaycan hökuməti əmələ gəldikdən bu günədək şirin sözlər ilə vədlər verən, lakin axırda heç bir şey verməyən və kəndlilərə bu vaxta qədər yerləri paylamaq istəməyən yenə haman millət, millət qışqırıb hökumət başında oturan ağalardır ki, kəndliləri tanımaq istəmirlər və nə də fəhlələrin halını nəzərə alırlar»[204].

1919-cu ilin yaz və yay aylarında Muğan və Lənkəran zəhmətkeşləri də öz azadlıqları uğrunda əksinqilabçılara qarşı qətiyyətlə çıxış etməklə, Azərbaycan zəhmətkeşlərinin mübarizəsi tarixinə parlaq səhifələr yazırdılar. Onların müsavat hökumətinə, denikinçi quldur dəstələrinə və başqa əksinqilabçılara qarşı apardıqları mübarizə 1919-cu il aprelin 25 qələbə ilə nəticələndi.

1919-cu il mayın 15-də 500 kəndlinin iştirakı ilə Lənkəranda kəndli deputatları sovetlərinin bəlkə qurultayı açıldı. Qurultayda yekdilliklə qərara alındı

---

[203] А. Г. Караев. Из недавнего прошлого, Bakı, 1926, səh. 100-101.
[204] «Azərbaycan füqərası" qəzeti, 29 yanvar 1920-ci il, № 43.

ki, Lənkəranda və Muğanda sovet hakimiyyəti təşkil edilsin. Lənkəran və Muğan zəhmətkeşlərinin sovet hakimiyyəti uğrunda mübarizəsinə T. Otradnev (Ulyantsev) və İ. Kolomiytsev kimi görkəmli partiya işçiləri, həmçinin Azərbaycanlı kommunistlərdən

Bəhram Ağayev, Bala Məmməd və başqaları rəhbərlik edirdilər.

A. İ Mikoyan 1919-cu il mayın 22-də RK(b)P MK-ya - V.İ.Leninə göndərdiyi məruzədə xəbər vermişdi; «İndisə Muğandan dürüst məlumat almışıq; orada keçirilən qurultay qurtarmışdır; qurultaya 500-ə qədər nümayəndə gəlmişdi və bunların yarıdan çoxu müsəlman idi. Qurultay yoldaşlarımızın rəhbərliyi altında keçmişdi. Qəbul edilən yeganə qətnamə bundan ibarətdir ki, Muğan sovet respublikasıdır. Müsəlman kəndliləri denikinçilərə və ingilislərə qarşı mübarizə üçün təşkil olunmağı və Bakı üzərinə yürüş edib burjua hakimiyyətini yıxmağı tələb edirlər»[205].

Muğan ölkə fəhlə və kəndli deputatları soveti kommunistlərin başçılığı ilə icraiyyə komitəsi seçdi və bir sıra sosialist tədbirləri həyata keçirməyə başladı. Kəndli komitəsi yaradıldı. Muğanda sovet hakimiyyətinin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biri də mülkədar torpaqlarının müsadirə edilib, kəndlilərə verilməsi idi ki, bu sahədə də müəyyən tədbirlər həyata keçirildi. Lakin Muğanda və Lənkəranda o zaman mülkədar torpaqlarını müsadirə edib kəndlilərə vermək mümkün olmadı. Belə ki, gənc Muğan Sovet Respublikası 1919-cu il iyul ayının axırlarında müxtəlif irticaçılardan ibarət quldur dəstələrinin, bəy və xan, denikinçi qolçomaq və sairə quldur dəstələrinin və xarici müdaxiləçilərin təzyiqi nəticəsində yıxıldı. Muğanda sovet hakimiyyəti yıxıldıqdan sonra müsavat hökuməti burada müsadirə edilmiş mülkədar torpaqlarını geri alaraq, keçmiş sahiblərinə qaytardı. Lakin Muğan və Lənkəranda sovet hakimiyyətinin yıxılması, burada və başqa rayonlarda müsavatçıların, xan və bəy quldur dəstələrinin şiddətli terror tədbirləri Azərbaycan zəhmətkeşlərinin kapitalist və mülkədar ağalığına qarşı mübarizəsinin qarşısını ala bilmədi. Bu zaman qəhrəman Bakı proletariatı bolşeviklərin rəhbərliyi altında müsavat ağalığına, Denikin təhlükəsinə qarşı. xarici müdaxiləçilərin Azərbaycandan qovulması uğrunda inamla mübarizə apardığı kimi, Gəncə, Qazax, Lənkəran, Nuxa, Cəbrayıl və başqa qəzaların da kəndliləri bəy və xan istismarına son qoyulması uğrunda qəhrəmanlıqla vuruşurdular. Bu zaman qəhrəman Bakı proletariatı bolşeviklərin rəhbərliyi altında müsavat ağalığıa, Denikin təhlükəsinə qarşı, xarici müdaxiləçilərin Azərbaycandan qovulması uğrunda inamla mübarizə apardığı kimi, Gəncə, Qazax, Lənkəran, Nuxa, Cəbrayıl və başqa qəzaların da kəndliləri bəy və xan istismarına son qoyulması uğrunda qəhrəmanlıqla vuruşurdular. Bu zaman «Hümmət» təşkilatının nümayəndələri yerlərə gedərək, kəndlilər arasında böyük inqilabi iş aparırdılar. Onlar kəndlilərin mübarizəsinə istiqamət verərək, kəndlilər arasında böyük inqilabi

[205] Azərbaycan Kommunist partiyasının tarixi, I cild, Bakı, 1958, səh. 365.

iş aparırdılar. Onlar kəndlilərin mübarizəsinə istiqamət verərək, Bakı fəhlələri ilə Azərbaycan kəndlilərinin istismarçı siniflərə qarşı mübarizəsini əlaqələndirmək üçün lazımi tədbirlər görürdülər. Bolşeviklər «Hümmət», «Bednota», «Molot», «Nabat», «Əkinçi və fəhlə», «Al bayraq», «Azərbaycan füqərası» və başqa qəzetlərin səhifələrində müsavat üsuli-idarəsinin bütün çirkinliklərini ifşa edərək, zəhmətkeşləri mülkədar və kapitalistlər əleyhinə mübarizəyə çağırırdılar. Bu qəzetlərin səhifələrində və başqa sənədlərdə müsavat hökumətinnn mürtəce siyasəti ifşa edilir və bu siyasətin yaxın zamanda iflasa uğrayacağı göstərilirdi.

Bu cəhətdən Nəriman Nərimanovun 1919-cu ilin sentyabrında müsavat hökumətinin başçısı Nəsibbəy Yusifbəyova göndərdiyi məktub səciyyəvidir. Bu məktub yazışma olaraq yalnız iki şəxsin arasında qalmayıb, elə o zaman Azərbaycan zəhmətkeşlərinə bəlli oldu. Həmin məktubun Bakı fəhlə konfransında oxunması buna misal ola bilər. N. Nərimanov öz məktubunda Yusifbəyova yazırdı: «...Siz Azərbaycanı həqiqətən sevsəydiniz, müsəlmanların əsil müdafiəçiləri olsaydınız müsəlman kütlələri ilə heç vaxt belə rəftar etməzdiniz. Mən belə güman edirəm ki, indi bədbəxt müsəlman kütləri də sizin barənizdə məhz bu fikirdədirlər. Onlar bir çox ağır həyat keçirdikdən sonra belə fikrə gəldilər ki, islam və millət sözləri sizin üçün yalnız bir pərdə imiş, sovet hökuməti əleyhinə ağzı köpüklənə-köpüklənə çıxış etməyə sizi bir ovuc bəy, xan və müftəxor Bakı milyonerlərinin mənafeyi məcbur edirmiş»[206].

Nərimanov əvvəlcədən xəbərdarlıq edib yazırdı: «Siz (yəni müsavat hökuməti - Ə. R.) öz siyasətiniz üçün Zaqafqaziya müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacaqsınız. Müdhiş saatlar yaxınlaşır...

Nəsibbəy, dinləyin!.. Bütün inamla deyirəm: Bütün bəşəriyyətin nicatı kapitalın məhvində və əməyin təntənəsindədir! Buna hamıdan çox zülm altında inləyən və təbiətlə mübarizədə geri qalmış müsəlmanların ehtiyacı vardır. Qoy dövlətlərdə, xalqlarda bütün sovet hökuməti bərpa edilsin, o vaxt islam dinində olan xalqlar yüz ildə edə bilmədiklərini on ildə edəcəklər»[207]. Məktubun axırında Nərimanov Yusifbəyovu hakimiyyətdən əl çəkməyə çağırırdı. Lakin məlum olduğu kimi, müsavat «hökuməti» könüllü surətdə hakimiyyətdən əl çəkmədi, xalq əleyhinə çevrilmiş siyasətini davam etdirməkdən çəkinmədi. N. Nərimanovun məktubunda deyildiyi kimi, müsavatçılar üçün «müdhiş saatlar» yaxınlaşdı.

1920-ci il fevral ayının 11-də açılmış Azərbaycan Kommunist bolşeviklər partiyasının birinci qurultayı mürtəce müsavat üsuli-idarəsini devirmək üçün hazırlıq işlərini genişləndirməyi tələb etdi. Getdikcə mütəşəkkil xarakter alan fəhlə və kəndli hərəkatı dalğaları mənfur bəy, xan, kapitalist quruluşunun bünövrəsini sarsıtdı.

---

[206] "Kommunist" qəzeti (rusca), 16 may, 1920-ci il, № 13.
[207] "Kommunist" qəzeti (rusca), 16 may 1920-ci il, № 13.

Bolşeviklərin kəndlilər arasında apardıqları böyük inqilabi iş müvəffəqiyyətlə nəticələndi.

Azərbaycan kəndliləri 1919-1920-ci illərdə sovet hakimiyyəti uğrunda, torpaq uğrunda mübarizəni daha da gücləndirərək, fəhlə sinfi ilə ittifaqda, Kommunist partiyasının rəhbərliyi altında hakim istismarçı siniflərə sarsıdıcı zərbələr endirdilər və Azərbaycanda sovet hakimiyyətinin yaranmasında fəhlə sinfinə fəal kömək etdilər.

## II FƏSİL

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QƏLƏBƏSİ VƏ MÜLKƏDAR TORPAQ SAHİBLİYİNİ LƏĞV ETMƏK SAHƏSİNDƏ İLK TƏDBİRLƏR

Azərbaycanın fəhlə və zəhmətkeş kəndliləri Kommunist partiyasının rəhbərliyi altında, böyük rus xalqının köməyi ilə burjua, xan, bəy ağalığını yıxaraq, 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyəti qurdular.

Hakimiyyət N. Nərimanov (sədr), M. D. Hüseynov, Q. Musabəyov, H. Sultanov, D. Bünyadzadə, A. Əlimov və Ə. H. Qarayevdən ibarət Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin əlinə keçdi.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsi qəzalarda əksinqilabçı ünsürləri ləğv etmək, milis orqanlarını düşmən ünsürlərdən təmizləmək, bütün pristavları, qəza rəislərini, qubernatorları, general qubernatorları qovmaq, yerlərdə hakimiyyət orqanları olan inqilab komitələrinin təşkili haqqında göstəriş verdi[208].

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin göstərişlərinə əsasən Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı may ayından etibarən yerlərdə inqilab komitələrinin təşkili işinə başladı[209]. Yerlərdə qəza, nahiyə, kənd inqilab komitələrinin təşkili işi Kommunist partiyasının rəhbərliyi altında geniş vüsət aldı.

1920-ci il may ayının ortalarına kimi Azərbaycanın bütün qəzalarında (Naxçıvan qəzası istisna olmaqla) qəza inqilab komitələrinin təşkili və sovet hakimiyyətinin qələbəsi işi başa çatdırıldı. Nahiya və kənddərdə isə inqilab komitələrinin təşkili prosesi 1920-ci il may ayının axırına kimi davam etmişdi.

Qəza, nahiyə, kənd inqilab komitələrinin təşkili Azərbaycanda sovet quruculuğunun birinci mərhələsini təşkil edirdi. Qəzalarda sovetlərin əvəzinə inqilab komitələri təşkilinin başlıca səbəbi yerlərdə əksinqilabçıların müqavimətinin qəti qırılmaması, zəhmətkeş kəndli kütlələrinin kifayət qədər mütəşəkkil olmamaları, kəndli deputatları sovetlərinə seçkilər keçirmək üçün lazımi şəraitin olmaması idi.

Sovet hakimiyyəti bütün bunları nəzərə alaraq Azərbaycan qəzalarında kəndli deputatları sovetlərinə seçkilər keçirilməsi işini müvəqqəti olaraq təxirə saldı.

Partiya və hökumətin gördükləri tədbirlər nəticəsində Azərbaycan qəzalarında hakimiyyət orqanları - inqilab komitələri yaradıldı. Azərbaycanın zəhmətkeş kəndli kütlələri inqilab komitələrinin ətrafında sıx birləşərək, onun timsalında Sovet hakimiyyətini görür və onu müdafiə edirdilər.

---

[208] "Kommunist" qəzeti (rusca), 15 may 1920-ci il, № 12.
[209] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 273, vər. 29.

İnqilab komitələri yerlərdə köhnə burjua-mülkədar dövlət maşınının dağıdılmasında başlıca rol oynadı.

Azərbaycanın görkəmli partiya və dövlət xadimi Mirzə Davud Hüseynov göstərirdi ki, inqilab komitələri mülkədar və kapitalistlərdən alınmış hakimiyyəti əldə saxlamaq, mərkəzdə və yerlərdə keçmiş hakimiyyətin hər cür izlərini məhv etmək, jandarmanı darmadağın etmək, polisi, gözətçi dəstələrini qovmaq, zəhmətkeşlərin hələ o zaman möhkəm olmayan hakimiyyətinə qarşı burjuaziya və mülkədarların göstərdikləri hər cür müqaviməti amansızcasına qırmaq işində əsas rol oynadı[210].

Qəzalardan fərqli olaraq, Bakı şəhərində sınaqlardan çıxmış möhkəm partiya təşkilatının, mütəşəkkil fəhlə sinfinin olması burada Sovetlərə keçməyə imkan verdi. Müəyyən hazırlıqdan sonra 1920-ci il mayın 25-də 455 üzvdən ibarət Bakı fəhlə, qızıl əsgər və matros deputatları soveti seçildi. 1920-ci il iyunun 13-də toplanmış Bakı Sovetinin birinci sessiyası Bakı fəhlə, qızıl əsgər və matros deputatları sovetinin 40 nəfərdən ibarət İcraiyyə Komitəsini seçdi. Ə. H. Qarayev Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçildi.

Sovet hakimiyyəti qalib gəlmiş Azərbaycan proletariatının iradəsinə arxalanaraq, istehsal vasitələri üzərində xüsusi mülkiyyətə həmişəlik son Azərbaycan İnqilab Komitəsi 1920-ci il 24 may tarixli dekreti ilə neft sənayesinin və bütün iri sənayenin, 11 iyun tarixli dekreti ilə bankları, iyulun 6-da Xəzər ticarət donanmasının milliləşdirildiyini elan etdi. Azərbaycan Sovet hakimiyyəti balıq sənayesi müəssisələrini, tütün fabriklərini, sement, şüşə, yağ. Sabun zavodlarını, pambıq təmizləyən zavodları, mis mədənlərini və sairə mədənləri də milliləşdirdi.

1920-ci ilin may ayından dekabr ayınadək təkcə Bakıda 299 sənaye müəssisəsi milliləşdirilmişdi[211].

Beləliklə, Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin rəhbərliyi altında və Azərbaycan İnqilab Komitəsinin səyi nəticəsində xalq təsərrüfatının mühüm sahələri qısa bir zamanda milliləşdirilərək ümumxalq mülkiyyətinə çevrildi. Azərbaycan xalqı öz taleyinin hakimi, öz sərvətlərinin sahibi Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsinin qarşısında duran mühüm vəzifələrdən biri torpaq məsələsi idi. Torpaq üzərində mülkədar mülkiyyəti ölkənin ictimai-iqtisadi geriliyinə, zəhmətkeşlərin əsarətdə qalmasına səbəb olan mühüm amillərdən biri idi. V. İ. Lenin deyirdi: «mülkədar torpaq sahibliyi kəndliləri boğan və onları geridə saxlayan zülmün əsasıdır»[212]. Azərbaycan partiya təşkilatı və Azərbaycan İnqilab Komitəsi torpaq üzərində mülkədar mülkiyyətinin ləğv edilməsi işinə çox böyük əhəmiyyət verərək, yüz minlərlə kəndlinin torpağa ehtiyacını aradan qaldırmaq, yerlərdə bəy və xan

---

[210] “Kommunist” qəzeti, 27-28 aprel 1923-cü il, № 91-92.
[211] «Бакински рабочи» qəzeti, 27-28 aprel 1923-cü il, № 91-92.
[212] V.İ.Lenin. Əsərləri, 24-cü cild, Bakı, Azərnəşr, 1951. səh. 285.

zülmünü kökündən məhv etmək, kənd təsərrüfatını bərpa və inkişaf etdirmək üçün lazımi tədbirlər görməyə başladılar. Azərbaycan Sovet Sosialist Respublikası Xalq Torpaq Komissarlığı təşkil edildi. Azərbaycan SSR XTK torpaq, su, meşələr üzərində mülkədar mülkiyyətinin ləğv edilməsi, müsadirə edilən torpaqların yoxsul kəndlilər arasında bölünməsi, kənd təsərrüfatının bərpası və inkişafı işləri ilə məşğul olurdu. Onun fəaliyyətinə Kommunist partiyası rəhbərlik edirdi.

Sovet hakimiyyətinin ilk günlərindən Kommunist partiyası və Sovet hökuməti Azərbaycanda fəhlə-kəndli ittifaqını möhkəmlətmək, mülkədar torpaq sahibliyini ləğv etmək məqsədi ilə lazımi tədbirlər görməyə başladılar.

Qeyd etmək lazımdır ki, 1918-ci ilin iyul ayında Azərbaycanda Sovet hakimiyyətinin süqutunun əsas səbəblərindən biri Bakı proletariatı ilə zəhmətkeş kəndlilərin möhkəm ittifaqının olmaması idi. Bu münasibətlə N. Nərimanov 1920-ci ilin iyun ayında demişdi ki, biz 1918-ci ildə yalnız Bakıya və Bakı rayonuna diqqət yetirirdik. Biz belə zənn edirdik ki, Zaqafqaziyada hakimiyyətimizi möhkəmlətmək üçün yalnız Bakıda Sovet hakimiyyətini qurmaq və möhkəmlətmək lazımdır. Bu, səhv idi. Biz kəndlilərə diqqət yetirmirdik. Məhz indi, əgər biz yalnız burada, yəni Bakıda möhkəm olmağımıza uysaq, bu bizim səhvimiz olar[213]. Məhz buna görə də Azərbaycan KP MK və Azərbaycan İnqilab Komitəsi Sovet hakimiyyətinin ilk günlərindən aqrar məsələyə ciddi əhəmiyyət verməyə, torpaq məsələsini həll etməyə xüsusi diqqət verdi. Azərbaycan KQT MK və Azərbaycan İnqilab Komitəsinin tapşırığı ilə Azərbaycan SSR Xalq Torpaq Komissarlığı nəzdində torpaq üzərində bəy, xan, mülkədar ağalığına son qoymaq, müsadirə edilmiş sahibkar torpaqlarını yoxsul kəndlilər arasında bölmək haqqında dekretin layihəsini hazırlamaq məqsədi ilə müvəqqəti kollekiya təşkil edildi. Azərbaycan SSR Xalq Torpaq Komissarı Səməd Ağamalı oğlu həmin kollekiyanın sədri təyin edildi. Torpaq haqqında dekretin layihəsinin tərtibində partiyanın aqrar məramnaməsi, ikinci Ümumrusiya Sovetlər qurultayının torpaq haqqında Lenin dekreti əsas götürüldü.

Müvəqqəti kollegiya tərəfindən tərtib edilmiş torpaq haqqında dekretin layihəsi Xalq Torpaq Komissarlığının şurasında baxılıb, 1920-ci il mayın 3-də Azərbaycan İnqilab Komitəsinə verildi[214].

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 3-də olan iclası S. M. Kirovun, S. Ağamalı oğlunun, Ç. İldırımın, V. Naneyşvilinin, S. Vəzirovun, İ. İ. Dövlətovun iştirakı ilə torpaq haqqında dekretin layihəsini geniş müzakirə etdi və layihəyə bir sıra düzəlişlər edildi[215]. Azərbaycan İnqilab Komitəsi həmin iclasda torpaq haqqında dekreti qəbul etdi.

---

213 Sov.İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, fond 276, siyahı 3, iş 87, vər. 3.
214 Azərbaycan SSR OİMDA. fond 2502, siyahı 1, iş 7, vər. 1-2.
215 Sov.İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, fond 1, siyahı 125, iş 6, vər. 2.

1920-ci il mayın 5-də Birinci Ümumbakı partiya konfransında Kirov dedi ki, Azərbaycanda Sovet hakimiyyətini möhkəmlətmək üçün əhalinin geniş zəhmətkeş kütlələrini sovet quruculuğuna cəlb etmək, bəy-xan quruluşuna qəti zərbə endirmək lazımdır[216]. Bakı partiya konfransının hazırkı dövr və Azərbaycan Kommunist partiyasının vəzifələri haqqındakı tezislərində deyilirdi ki, partiyanın ən mühüm vəzifəsi ölkədə aqrar inqilabı keçirməkdir. Bəylərin, xanların və ağaların torpaqlarının tamamilə müsadirə edilməsi ilə yanaşı, mülkədarlar sinfi siyasi cəhətcə məhv edilməlidir[217]. Bakı partiya konfransı fəhlə sinfi ilə kəndlilərin ittifaqını daha da möhkəmləndirmək zəruriyyətini xüsusi ilə qeyd etdi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 5-də elan etdiyi torpaq haqqında dekretdə deyilirdi: «Azərbaycan Sovet Sosialist Respublikası İnqilabi hökuməti elan edir:

Xanların, bəylərin, mülkədarların bütün torpaqları, həmçinin bütün monastır, kilsə, vəqf* və məscid torpaqları, bütün canlı və cansız avadanlığı ilə birlikdə heç bir ödənc (gizli və ya açıq) alınmasından, torpaqdan bərabər istifadə edilməsi əsasında dərhal zəhmətkeş xalqa verilir»[218].

Həmin tarixi sənəddə daha sonra yazılmışdır: «Bu dekreti sürətlə və tamamilə həyata keçirmək, ümumdövlət əhəmiyyəti kəsb edən mədəni təsərrüfatların toxunulmazlığını təmin etmək, torpaqları avadanlığı planlı surətdə bölmək məqsədi ilə yerlərdə qəza və kənd (yaxud nahiyə) komitələri təşkil edilir...»[219].

Əksinqilabçı ünsürlərə qarşı mübarizə aparmaq məqsədi ilə dekretdə göstərilirdi ki, «...bu dekreti: həyata keçirilməsinə mane olanların hamısı zəhmətkeş xalqın açıq düşməni hesab olunur və Azərbaycan Sosialist Respublikası qanunlarından kənarda elan edilir»[220].

Torpaq haqqında dekret Azərbaycan kəndlilərinin həyatında çox böyük hadisə idi. S. Ağamalı oğlu mayın 5-də «Torpaq məsələsi həll olundu» adlı məqaləsində yazırdı: «Bu gün Azərbaycan hökuməti torpaq məsələsini həll etdi. Bütün torpaq pulsuz, əvəzsiz zəhmətkeşlərin ixtiyarına keçdi. Torpaq öz əlinin əməyi ilə çalışanlara paylanır»[221].

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekreti Azərbaycan kəndində mülkədar torpaq sahibliyinə, bəy və mülkədarların ağalığına sarsıdıcı zərbə vurdu. Sovet hakimiyyəti Azərbaycan kəndlilərini pay torpaqlarına görə

---

216 С.М.Киров. Избранные статьи, речи, М., 1957, səh. 102.
217 «Kommunist» qəzeti (rusca), 22 may 1920-ci il, № 17.
* Vəqf torpaqları – müsəlman dini müəssisələri və ya xeyriyyə cəmiyyətlərinə məxsus olan torpaqlardır.
218 Собрание узаконений и распоряжений рабоче-крестьянского правителвства Азербайджанской Советской Социалистической Республики, № 1, 1920, cəh. 8.
219 Yenə orada.
220 Yenə orada.
221 «Kommunist» qəzeti, 6 may 1920-ci il, № 4.

hər il xəzinəyə 6 milyon manat qızıl pul verməkdən[222] və kəndliləri mülkədar torpaqlarından istifadəyə görə hər il öz məhsullarından mülkədarlara bir milyon pud buğda verməkdən azad etdi[223].

Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 15-də meşələrin, suların və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında da dekret verdi[*]. Həmin dekretə əsasən bütün meşələr, sular, yeraltı sərvətlər Azərbaycan Sovet Sosialist Respublikasının malı elan edildi[224]. Bu tədbir istismarçı siniflərə yeni bir zərbə oldu.

S. M. Kirov birinci Ümumbakı partiya konfransında Azərbaycan İnqilab Komitəsinin torpaq haqqındakı dekretindən bəhs edərək demişdir: «Bütün torpaqların heç bir ödənc alınmadan zəhmətkeş xalqa verilməsi haqqında dekret bəy-xan quruluşuna yalnız birinci zərbədir. Biz kommunistlər bu işə daha çox qüvvə sərf etməli, bəy və xanlara qarşı mübarizəni genişləndirməliyik»[225].

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi torpaq haqqında dekretlə əlaqədar olaraq, qəza partiya komitələrinə verdiyi sərəncamda göstərirdi ki, bəy və xanların siyasi zülmündən azad olmuş Azərbaycan zəhmətkeşlərinin qarşısında iqtisadi problemləri həll etmək vəzifəsi durur. Partiyanın kənddə işi, kəndlilərin ümumi marağı bütün torpaqları öz əllərinə keçirmək ətrafında səfərbər edilməlidir[226].

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 6-da kəndlilərə müraciət edərək, onları istismarçı siniflərə qarşı mübarizə aparmağa, hakimiyyəti əldə saxlamağa, torpaqları mülkədarlardan almağa çağırdı. Müraciətdə deyilirdi: «Rədd olsun istismarçılar, mülkədarlar, bəylər, xanlar və ağalar! Bütün torpaq zəhmətkeşlərə! Kəndli yoldaşlar, hakimiyyəti əlinizdə möhkəm saxlayını! Torpağı tüfeylilərə-mülkədarlara verməyin»[227].

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekreti Azərbaycanda sovet hakimiyyəti qəti qələbə çaldıqdan sonra aqrar məsələnin inqilabi yolla həllində atılan ilk nəhəng addım idi. Sovet hakimiyyətinin, fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsində bu tədbirin hədsiz dərəcədə böyük əhəmiyyəti var idi.

Zəhmətkeş kəndlilər Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekretini böyük ruh yüksəkliyi ilə qarşıladılar. Məsələn, 1920-ci il mayın 14-də Qaryakin qəzası kəndlilərinə torpaq haqqında dekret elan edildikdə, onlar sovet hakimiyyətinə öz təşəkkürlərini bildirir və qəbul etdikləri qətnamədə proletar

---

[222] V сьезд АКП(б), стеногр. отчет, 3-cü bületeni, Bakı, 1923, səh. 1.
[223] Четвертый Всеазербайджанский сьезд Советов, стеногр. отчет, Bakı, 1925, səh. 32-33.
[*] Bu dekret Azərbaycan İnqilab Komitəsi tərəfindən 1920-ci il mayın 12-də qəbul edilmişdir.
[224] СУ Азерб. ССР, 1920, № 1, səh. 29.
[225] С. М. Киров. Избранные статьи и речи (1912-1934 гг.), М., 1957, səh. 102-103.
[226] Sov.İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, fond 244, siyahı 1, iş 31, vər. 1.
[227] «Kommunist» qəzeti (rusca), 6 may 1920-ci il, № 4.

diktaturasına hər yolla yardım edəcəklərinə söz verirdilər[228]. Quba, Göyçay və başqa qəzaların zəhmətkeş kəndliləri də torpaq haqqında dekreti sevinclə qarşıladılar. Kürdəmir nahiyəsi kəndlilərinin 1920-ci il mayın 18-də keçirilmiş yığıncağının qəbul etdiyi qətnamədə kəndlilər sovet hakimiyyətinin aqrar siyasətini alqışlayır və inqilabı var qüvvələri ilə müdafiə etməyə hazır olduqlarını bildirirdilər[229].

Partiya və hökumət torpaq haqqında dekreti əməli surətdə həyata keçirmək üçün bir sıra tədbirlər gördü. Dekretin mahiyyətini kəndlilərə izah etmək və qəbul edilmiş inqilabi tədbirləri həyata keçirmək məqsədi ilə yerlərə təşviqatçı və təşkilatçılar göndərilməyə başladı.

Torpaq haqqında dekret istismarçı siniflərin kin və qəzəbinə səbəb oldu. Azərbaycanın bir çox qəza və kəndlərində yerli hakimiyyət orqanlarına soxulmağa müvəffəq olan düşmən ünsürlər torpaq haqqında dekretin mahiyyətini kəndlilərə nəinki izah etmirdilər, əksinə, hökumətin belə bir mühüm tədbirini zəhmətkeşlərdən gizlədirdilər[230]. Məhz bunun nəticəsində Azərbaycan İnqilab Komitəsinin bəy və mülkədar torpaqlarının müsadirə edilib kəndlilərə verilməsi haqqında dekreti Qarabağın bir sıra yerlərində yoxsullara məlum deyildi[231]. Lakin çox çəkmədi ki, sinfi düşmənin bu cəhdi iflasa uğradı. Belə olduqda onlar dekretin həyata keçirilməsinə mane olmaq üçün müxtəlif yollarla kəndlilər arasında dekret haqqında yanlış təsəvvür oyatmaq tədbirlərinə əl atdılar. Onlar belə bir şayiə yayırdılar ki, guya bütün torpaqlar avadanlığı ilə birlikdə bölünəcəkdir. Bununla da onlar torpaq haqqında dekretin xan və bəylərin, iri torpaq sahiblərinin əleyhinə çevrilməsi faktını kəndlilərdən gizlətmək istəyirdilər. Lakin düşmənin cəhdləri partiya və hökumət tərəfindən vaxtında ifşa edildi. Əksinqilabçılar tərəfindən buraxılan yalan xəbəri təkzib edən Azərbaycan SSR Xalq Torpaq Komissarı S. Ağamalı oğlu kəndlilərə müraciətində izah edirdi ki, həqiqətdə belə bir bölgü (torpaqların və avadanlığın bölgüsü) xırda sahibkarlara deyil, iri mülkədarlara aiddir[232].

Azərbaycan partiya təşkilatı və Azərbaycan İnqilab Komitəsi mülkədar torpaq sahibliyini ləğv etmək tədbirlərini həyata keçirmək məqsədi ilə bir sıra təşkilat tədbirləri gördü. Yerlərdə qəza və kənd torpaq komitələri təşkil etmək üçün hazırlıq işləri genişləndi.

Azərbaycan Sovet Sosialist Respublikası Xalq Torpaq Komissarlığı 1920-ci il mayın 16-da Şamxor və Cəbrayıl qəzalarına,[233] mayın 17-də isə Ağdaş

[228] Yenə orada, 18 may 1920-ci il, № 14.
[229] Azərbaycan İnqilab Komitəsinin «Əxbari» qəzeti, 21 may 1920-ci il, № 2.
[230] «Kommunist» qəzeti (rusca), 13 may 1920-ci il, № 10.
[231] «Красный Воин» гэзети, 27 мај 1920-ci il. № 110.
[232] «Kommunist» qəzeti (rusca), 13 may 1920-ci il, № 10.
[233] Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 171. vər. 74.

qəzasına[234] torpaq komitəsi sədrləri təyin etdi. Bakı, Göyçay, Quba, Şamaxı, Lənkəran, Gəncə, Nuxa, Qazax qəzalarında da torpaq komitələrinin təşkil edilməsi işi əksəriyyəti kommunist və yaxud kommunistlərə hüsn rəğbət bəsləyən ayrı-ayrı şəxslərə tapşırıldı[235].

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı meşələrin, suların, yeraltı sərvətlərin milliləşdirilməsinə dair dekreti həyata keçirmək məqsədi ilə yerlərdə bəzi inzibati dəyişikliklər etdi. Xalq Torpaq Komissarlığı 1920-ci il mayın 15-də verdiyi əmrə əsasən Şamxor, Gəncə, Şəmsəddin meşəbəylərini vəzifələrindən qovdu və onların yerinə yeni adamlar təyin etdi[236].

Əksinqilabçı müsavat hakimiyyəti zamanı torpaq məsələsinə dair kəndlilərin üzərinə qaldırılan cinayət işləri Azərbaycan İnqilab Komitəsinin 120 №-li əmri ilə ləğv edildi. Əmrdə deyilirdi: «Azərbaycanda Sovet hakimiyyəti təşkil edilənə qədər meşə qırmaq, əkinə zərər vermək, başqasının otunu çalmaq və sairə bu kimi torpaq münasibətinə əsaslanan bütün cinayətlər, həm cinayət məsuliyyəti etibarı ilə, həm də hərəkətdən xəzinəyə və xüsusi şəxslərə dəyən zərər haqqında qaldırılan cinayətlərə xitam verilsin».

1920-ci ilin may ayından qəza və kənd torpaq komitələrinin yaradılması işi genişləndi. Məsələn, Şamxor qəzasında torpaq komitələrinin təşkilinə 1920-ci il may ayının axırlarında başlandı. Mayın 23-də qəzanın Dəllər kəndində iki mindən artıq kəndlinin iştirak etdiyi yığıncaqda beş üzvdən ibarət kənd torpaq komitəsi seçildi. Şamxor qəzasının Morul, Seyfəli və başqa kəndlərində də torpaq komitələri yaradıldı[237]. Quba qəzasından göndərilən məlumatda deyilirdi: «Torpaqları bölmək üçün kəndlərdə torpaq komitələri təşkil edilmişdir»[238].

Qazax qəzasında da torpaq komitələrinin təşkil edilməsi işi müvəffəqiyyətlə gedirdi. «Kommunist» qəzeti bu barədə yazırdı: «Qəzanın kəndlərində torpaq komitələrinin yaradılması işi genişlənir. Torpaq komitələrinin üzvlüyünə əsasən yerli kommunistlər daxil olurlar»[239].

Mülkədar torpaq sahibliyinin ləğvi işini təşkil etmək məqsədi ilə, partiya və hökumətin göstərişlərinə uyğun olaraq, Azərbaycan Sovet Sosialist Respublikası Xalq Torpaq Komissarlığı 1920-ci il mayın 20-də qəza və kənd torpaq komitələrinin yaradılması haqqında Əsasnamə qəbul etdi. Əsasnamədə qəza və kənd torpaq komitələrinin qarşısında duran vəzifələr hərtərəfli göstərilirdi. Burada mülkədar torpaqlarının avadanlığı ilə birlikdə siyahıya alınıb müsadirə edilməsi, kəndlilər arasında bölüşdürülməsi və sairə barədə qəza və kənd torpaq komitələrinə müvafiq göstərişlər verilirdi. Əsasnamədə göstərilirdi ki, 5 may dekretini həyata

---

[234] Yenə orada, vər. 80.
[235] Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 171, vər. 107-110.
[236] Yenə orada, vər. 90.
[237] Yenə orada, iş 92, vər. 289.
[238] Yenə orada, fond 27, siyahı 1, iş 275, vər. 56.
[239] "Kommunist" qəzeti (rusca), 1 iyul 1920-ci il, № 50.

keçirmək üçün qəza inqilab komitələri yanında qəza torpaq komitələri, kənd cəmiyyətində isə kənd cəmiyyəti torpaq komitəsi yaradılmalıdır.

Qəza torpaq komitəsinin tərkibi Azərbaycan SSR Xalq Torpaq Komissarlığının təyin etdiyi sədrdən, Qəza İnqilab Komitəsinin bir üzvündən və yerli təşkilatların üç nümayəndəsindən ibarət olurdu.

Qəza Torpaq Komitəsi hər kənd cəmiyyətində 5 nəfərdən ibarət kənd cəmiyyəti torpaq komitəsini təşkil edirdi. Kənd cəmiyyəti torpaq komitəsi kənd cəmiyyətinə daxil olan kəndlilərin birləşmiş yığıncağında seçilirdi. Seçilən üzvlərdən biri Qəza Torpaq Komitəsi tərəfindən kənd cəmiyyəti torpaq komitəsinin sədri vəzifəsinə təyin edilirdi.

Əsasnamədə torpaq komitələri qarşısında duran vəzifələr konkret şəkildə göstərilmişdir. Orada deyilirdi ki, torpaq komitələri xanların, bəylərin, mülkədarların torpaqlarını, həmçinin monastır, kilsə və məscid torpaqlarını dərhal almalıdırlar. Sahiblərindən alınan torpaqlar torpaq komitələrinin ixtiyarına keçirdi. Müsadirə edilən mülklərdəki kənd təsərrüfat avadanlığının (hərəkət edən və hərəkət etməyən), təsərrüfat və yaşayış tikililərinin, kənd təsərrüfatı məhsulu və materiallarının siyahısı tutulur və bunlar da torpaq komitəsinin ixtiyarına verilirdi. Daha sonra qeyd edilirdi ki, nümunəvi mədəni təsərrüfata malik olan mülklər istisna olunmaqla, müsadirə edilmiş torpaqlar ehtiyacı olan əhali arasında bərabər bölüşdürülür[240].

Mədəni təsərrüfat xarakterli mülkləri bölgüdən kənarda saxlamaqdan məqsəd onların bütövlüyünü və məhsuldarlığını təmin etmək idi. Belə torpaqlarda sovet təsərrüfatlarının təşkili nəzərdə tutulurdu.

Ayrı-ayrı şəxslər və kəndlər arasında baş verən torpaq mübahisələrinin həlli işi də torpaq komitələrinə həvalə edilirdi[241]. Torpaqların müsadirə edilərək zəhmətkeş kəndlilər arasında bölüşdürülməsi zamanı meydana çıxan mübahisə və anlaşılmazlıq bir neçə kəndə aid olduqda, işə Xalq Torpaq Komissarlığı baxırdı[242]. Əsasnaməyə belə bir maddənin daxil edilməsi müsadirə olunmuş mülkədar torpaqlarının zəhmətkeş kəndlilər arasında düzgün bölünməsi üçün şərait yaradır, həmin mühüm məsələnin həllindəki təhriflərin qarşısını alırdı.

Əsasnamədə müsadirə edilmiş torpaqların bərabərçilik əsasında kəndlilər arasında bölüşdürülməsinin konkret yolları göstərilmişdi. Orada deyilirdi ki, sahibkarlardan müsadirə edilib yoxsul kəndlilərə verilən torpaqlar hər bir təsərrüfatın əmək qabiliyyətinə müvafiq olmalıdır. Yəni hər bir adam aldığı torpağı öz qüvvəsi, öz şəxsi əməyi ilə becərməlidir[243]. Bu, kənd təsərrüfatında muzdlu əmək tətbiqini məhdudlaşdırır, ona sarsıdıcı zərbə vururdu.

---

[240] Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 178. vər. 2, 5.
[241] Yenə orada.
[242] Yenə orada.
[243] Yenə orada.

Qəza və kənd torpaq komitələrinin üzərinə düşən vəzifələrin böyüklüyünü və çətinliyini nəzərə alan Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Əsasnamədə göstərirdi ki, bütün dövlət və ictimai müəssisələr, vəzifəli və xüsusi şəxslər torpaq komitələrinə və onların icra orqanlarına qarşıda duran vəzifələri yerinə yetirməkdə kömək etməlidirlər[244].

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı kollegiyasının 1920-ci il 31 may tarixli qərarında göstərilirdi ki, hazırkı keçid dövründə bütün qəza torpaq komitələri bilavasitə Xalq Torpaq Komissarlığına tabe olmalıdırlar. Yerli inqilab komitələri müvəqqəti inzibati, siyasi xarakterli idarə kimi öz rayonu dairəsində Xalq Torpaq Komissarlığının dekret, təlimat və əsasnamələrinə zidd olmamaq şərti ilə torpaq işlərinə dair sərəncam verə bilərlər[245].

Torpaqların iri sahibkarların əlindən alınıb, yoxsul kəndlilərə verilməsi işinə geniş zəhmətkeş kəndli kütlələrini cəlb etmək zəruri idi. Bunsuz torpaq məsələsi kimi bir məsələni həll etmək mümkün deyildi.

Bununla əlaqədar olaraq partiya və hökumət kəndliləri mülkədar torpaqlarını mütəşəkkil surətdə tutmağa, əldə edilən müvəffəqiyyətləri qoruyub saxlamağa, kənd və qəza torpaq komitələrinin işinə kömək etməyə çağırırdı.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı qəza və kənd torpaq komitələrinə təliqələr göndərərək, mülkədarların sahibliyində olan torpaqların dərhal tutulmasını tələb edirdi. Təliqədə göstərilirdi ki, sahibkarlardan müsadirə edilmiş torpaqların bir qismi torpaqsız və aztorpaqlı kəndlilər arasında bölünməli, digər qismi sovet təsərrüfatlarının qurulması üçün saxlanılmalı, qalan hissəsi isə torpaq komitəsinin sərəncamında qalmalıdır[246].

Partiya kommunistlərdən torpaq haqqında dekreti və başqa tədbirləri həyata keçirərkən ehtiyatlı olmağı, yerli şəraiti nəzərə almağı tələb edirdi. N. Nərimanov 1920-ci il mayın 17-də Bakı zəhmətkeşlərinin mitinqindəki çıxışında demişdi: «Moskvadan əzimətdən bir həftə müqəddəm Azərbaycan haqqında yoldaş Leninin hüzurunda tamam bir saat məruzə etdim. Azərbaycanın daxili və xarici halından məlumat verdim və Azərbaycanın əbədi məsud olması üçün necə hərəkət edəcəyimiz haqqında müsah etdik.

Bu məlumatları verdikdə yoldaş Lenin dərin fikrə getdi və sonra başını qaldırıb dedi:

«Siz müsəlman kommunistləri qarşısında çox böyük, ağır, məsuliyyətli vəzifələr durur, gedin, amma ifrat dərəcədə ehtiyatlı və sərhesab olun»[247].

Yerli şəraitlə hərtərəfli tanış olan Azərbaycan kommunistləri və sovet işçiləri dahi Leninin bu göstərişlərini öz işlərində rəhbər tuturdular.

---

244 Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 178. vər. 2, 5.
245 Yenə orada, fond 271, siyahı 1, iş 1, vər. 10.
246 Yenə orada, iş 43, vər. 215.
247 Azərbaycan İnqilab Komitəsinin "Əxbari" qəzeti, 21 may 1920-ci il, № 2.

Bu zaman Kommunist partiyası və sovet hökumətinin qarşısında duran ən vacib vəzifələrdən biri əksinqilabçıların müqavimətini qırmaqdan, fəhlə və zəhmətkeş kəndliləri əksinqilabçılara qarşı mübarizəyə səfərbər etməkdən, siyasi cəhətcə devrilmiş olan istismarçı sinifləri sona kimi darmadağın etməkdən ibarət idi. Məhz bu vəzifələri yerinə yetirməklə ölkədə fəhlə və kəndlilərin hakimiyyətini möhkəmlətmək olardı. Lakin bu, son dərəcə ağır və çətin bir iş idi. Çünki sinfi düşmən tamam darmadağın edilməmişdi. O, qüvvələrini səfərbərliyə alır və nəyin bahasına olursa-olsun yenidən hakimiyyət başına qayıtmağa cəhd edirdi. Müsavat, menşevik, daşnaq, eser və digər əksinqilabçılar fəhlə və kəndlilərə qarşı mübarizədə istismarçı siniflərə fəal kömək edirdilər.

İstismarçı siniflər fəhlə-kəndli hakimiyyəti əleyhinə müxtəlif yollarla mübarizə aparırdılar. Onlar qiyam qaldırır, qəsd təşkil edir, terrora, təxribata, yalan şayiələrə əl atırdılar.

V. İ. Lenin yazırdı: «Kapitalizmdən kommunizmə keçid tam bir tarixi dövrdür. Nə qədər ki, bu dövr qurtarmamışdır, labüddən istismarçıların köhnə quruluşu bərpa etməyə ümidi qalır, bu ümid isə köhnə quruluşu bərpa etmək cəhdlərinə çevrilir. Yıxılan istismarçılar devriləcəklərini gözləmədikləri, buna inanmadıqları, bunu heç fikirlərinə gətirmədikləri halda birinci ciddi məğlubiyyətdən sonra, əllərindən alınmış «cənnəti» geri qaytarmaq uğrunda, əvvəllər səfalı həyat sürən və indi «əclaf qara camaat» tərəfindən iflasa və dilənçiliyə (və ya «adi» əməklə məşğul olmağa) məhkum edilən ailələri uğrunda on qat artıq qüvvə ilə, quduz bir ehtirasla, yüz qat artmış bir kinlə döyüşə girirlər»[248].

Ölkənin başqa yerlərində olduğu kimi, Azərbaycanda da sovet hakimiyyətinin ilk dövründəki vəziyyət Leninin bu sözlərini təsdiq edirdi.

Azərbaycanda hakimiyyət İnqilab Komitəsinin əlinə keçən kimi keçmiş müsavat hökumətinin bir çox üzvləri, mülkədar və kapitalistlərin, general və zabitlərin bir çoxu məsuliyyətdən yaxalarını qurtarmaq üçün menşevik Gürcüstanına, İran və Türkiyəyə qaçdılar.

Menşevik Gürcüstanına qaçan xalq düşmənləri Tiflisdə gürcü menşeviklərinin və Antanta imperialistlərinin köməyi ilə özlərinin əksinqilabi mərkəzini yaratdılar və ona həyasızcasına «Azərbaycanı xilas komitəsi» adı verdilər[249]. Bu «komitə» Azərbaycanda qalan mülkədar, kapitalist və ruhanilərin köməyi ilə sovet hakimiyyəti əleyhinə təbliğat aparırdı. Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekreti və başqa inqilabi tədbirlərindən sonra bu təbliğat xüsusilə qüvvətləndi. Sinfi düşmən Azərbaycan fəhlə-kəndli hakimiyyətinə

---

[248] V. İ. Lenin. Əsərləri, 28-ci cild, Bakı, Azərnəşr, 1952, səh. 260.

[249] Первый созыв Всеазербайджанского сьезда Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов, Стеногр. отчет, Bakı, 1922, səh. 244.

qarşı yalnız təbliğat aparmaqla kifayətlənməyərək, yerlərdə qiyamlar təşkil etmək, təfriqə salmaq, qarışıqlıq salmaq, tədbirlərinə əl atırdı.

Bu zaman müsavatçılardan tutmuş gürcü menşeviklərinə qədər bütün əksinqilabçılar Sovet hakimiyyətinə qarşı vahid cəbhə yaratmışdılar. Daşnaqlar da bir tərəfdən Azərbaycan Sovet hakimiyyəti əleyhinə mübarizə aparırdılar. İstismarçı siniflərin öz mövqelərini asanlıqla tərk etməyəcəklərini əvvəlcədən görən Azərbaycan İnqilab Komitəsi hələ 1920-ci il aprelin 29-da əksinqilabçılara, soyğunçulara, möhtəkirlərə və başqa tüfeyli ünsürlərə qarşı mübarizə aparmaq üçün fövqəladə komissiya təşkil etmək haqqında əmr vermişdi. 1920-ci il may ayının 5-də Ali İnqilabi Tribunal təşkil edilmişdi.

Partiya və hökumət sinfi düşmənin quduz müqavimətini nəzərə alaraq, fəhlə və kəndliləri öz hakimiyyətinin keşiyində sayıq durmağa çağırırdı. Birinci Ümumbakı partiya konfransının tezislərində deyilirdi: «Burjuaziya və mülkədarlar hakimiyyəti təslim etmişlər, lakin silahı təslim etməmişlər»[250].

Mülkədar torpaq sahibliyinin qüvvətli olduğu rayonlarda, o cümlədən Gəncə qəzasında, Qarabağda sinfi mübarizə daha gərgin xarakter almışdı. Müsavatçılar, menşeviklər, daşnaqlar, ağqvardiyaçı zabit və generallar, xarici dövlətlərin agentləri əks-inqilabi çıxışların təşkilatçıları idilər. Qarabağda təşkil edilmiş qəsdin başında Kazımbəy adlı bir türk zabiti dururdu. Sovet inzibati orqanlarının gördükləri tədbirlər nəticəsində 1920-ci il may ayının ortalarında qəsdin üstü açıldı[251]. 1920-ci il mayın 25-də Nuxa qəzasında baş verən əksinqilabi çıxış qəti surətdə yatırıldı[252].

Bir yığın xan, bəy, Bakıdan qaçmış istismarçı ünsürlər, müsavatçı nazir, general və zabitlər 1920-ci il mayın 25-dən 26-na keçən gecə Sovet hakimiyyəti əleyhinə Gəncədə qiyam qaldırdılar. Gəncə qiyamı daxili və xarici əksinqilab tərəfindən hazırlanmışdı. Onun təşkilatçıları yerli mülkədar və kapitalistlər, müsavatçılar, menşeviklər, ağqvardiyaçılar, ingilis-amerikan imperialistləri, Türkiyə və İran agentləri idi. Menşevik Gürsüstanından Gəncə qiyamçılarına silah, döyüş sursatı və sairə göndərilirdi.

S. M. Kirov 1920-ci il iyunun 10-da V. İ. Leninə göndərdiyi teleqramda yazırdı: «Güman etməyə əsas var ki, Azərbaycan müsavatçılarının Gəncədəki qiyamı hərtərəfli surətdə Tiflisin özündə hazırlanmışdır. Keçmiş Don, Kuban, Terek hökumət nümayəndələri indi oradadır; Vrangelin nümayəndələri də orada silahlanır, Batum tam ingilislərin hakimiyyəti altındadır»[253].

Gənc Azərbaycan Sovet Sosialist Respublikasına qarşı xarisi müdaxilənin hazırlanmasında və keçirilməsində ingilis imperialistləri xüsusi ilə fərqlənirdilər. Q. K. Orçonikidzenin qeyd etdiyi kimi, Sovet hakimiyyətinin qələbəsindən sonra

---

[250] «Kommunist» qəzeti (rusca), 22 may 1920-ci il, № 17.
[251] Azərbaycan İnqilab Komitəsinin «Əxbari» qəzeti, 21 may 1920-ci il. № 9 2.
[252] «Kommunist» qəzeti (rusca), 11 iyun 1920-ci il, № 33.
[253] С.М.Киров. Статьи, речи, документы, I cild, səh. 225.

əksinqilabçı qüvvələr Azərbaycan qəzalarında fəaliyyət göstərməyə başlayaraq, ingilis müdaxiləçilərinin köməyi ilə iş gördülər[254].

Əksinqilabçıların baş qaldırması ilə əlaqədar olaraq, Gəncə qəzasını və ətraf rayonları vətəndaş müharibəsi alovları bürümüşdü.

Əmələ gəlmiş vəziyyətlə əlaqədar olaraq, Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi əksinqilabçıları tezliklə darmadağın etmək məqsədi ilə Azərbaycan Fəhlə-Kəndli Müdafiə Şurasını təşkil etdi və ona geniş səlahiyyət verdi[255].

Əksinqilabi qiyamı tezliklə yatırmaq, fəhlə və kəndlilərin hakimiyyətini möhkəmlətmək məqsədi ilə Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi 1920-ci il mayın 29-da bütün Azərbaycan fəhlələrinə, kəndlilərinə və qızıl əsgərlərinə müraciət etdi.

Mərkəzi Komitə kəndliləri əksinqilabçı ünsürlərin müqavimətini qəti surətdə qırmağa çağıraraq, öz müraciətində yazırdı: «Kəndlilər! İndi sizin yeganə vəzifəniz mülkədarlara qarşı mübarizə etməkdən, sizi torpaqsız qoymaq istəyən bəyləri, xanları, müsavatçıları məhv etməkdən ibarətdir. Torpaqları alın, mülkədarları məhv edin, sizin qardaşlarınızı öldürənlərə qarşı fəhlələrlə birlikdə mübarizə aparın»[256].

Mərkəzi Komitənin müraciətinin geniş zəhmətkeş xalq kütlələrinin sayıqlığını yüksəltməkdə, düşməni tamamilə darmadağın etmək üçün inqilabi qüvvələri səfərbər etməkdə böyük əhəmiyyəti oldu.

Partiyanın çağırışı ilə doğma Sovet hakimiyyətini müdafiəyə qalxışan zəhmətkeş kəndlilər düşmənə bir-birinin ardınca sarsıdıcı zərbələr endirdilər. «Əxbari» qəzeti bu haqda yazırdı: «Gəncə ətrafında olan hamı - kəndlər amansız bir surətdə müsəlləh bandalara hücum etmişlər»[257]. Sinfi düşmənin Gəncədə Sovet hakimiyyəti əleyhinə təşkil etdiyi alçaq qəsd 1920-ci il mayın 31-də darmadağın edildi. Gəncədəki əksinqilabi qiyamın yatırılmasında azərbaycanlılardan ibarət milli Qızıl Ordu  hissələri də fəal iştirak etdilər[258].

Əksinqilabi qiyamın yatırılmasına Kommunist partiyasının şanlı oğulları olan Serqo Orconikidze, Həmid Sultanov, Sultan Məcid Əfəndiyev, Bala Əfəndiyev və başqaları rəhbərlik etdilər. Qiyamın yatırılmasında Ağahüseyn Rəsulzadə,  Vəli Xuluflu, Fərhad Əliyev və başqa bolşeviklər fəal iştirak etdilər.

«Kommunist» qəzeti əksinqilabçıların cəhdlərinin puça çıxdığını və Azərbaycan zəhmətkeş kəndlilərinin Sovet hakimiyyətinə sədaqətli olduğunu qeyd edərək yazmışdı: «Əsgərlərin böyük əksəriyyəti başda olmaqla Gəncənin şəhər

---

[254] «Kommunist» qəzeti  (rusca), 19 iyun 1920-ci il, № 40.

[255] Известия Временного Революционного Комитета Азербайджанской Социалистической Советской Республики. 28 may 1920-ci il, № 10.

[256] «Kommunist» qəzeti  (rusca), 29 may 1920-ci il, № 23.

[257] Azərbaycan İnqilab Komitəsinin  «Əxbari» qəzeti, 3 iyun 1920-ci il, № 13.

[258] «Красный Воин» qəzeti, 3 iyun 1920-ci il, № 116.

yoxsulları azğın avantüristlərə qoşulmadılar, hətta, onların zahirən qələbə çaldıqları nəzərə gəldiyi dəqiqələrdə də inqilaba sadiq qaldılar. Müsavatın kəndlilər arasında əsla dayağı və nüfuzu yox idi, buna görə Gəncədəki bəy-xan üsyanının, hətta, müvəqqəti qalib gəldiyi zənn edilən zaman da ətraf kəndlərdə və Azərbaycanın digər yerlərində ona rəğbət və kömək göstərən olmadı. Bir çox əyalətlərdə məlum oldu ki, kəndlilər müsavatçılarla öz davalarını qılınc və qanla həll etməyə amadədirlər. Bu amadəlik xan-bəy quldur dəstələrinə amansız divan tutmaq forması alırdı.

Gəncə bəylərinin azğın avantürasının nisbətən asanlıqla və tez ləğv edilməsini kəndlilərin inqilabi fəallığı təmin etdi»[259].

Gürcüstanla Azərbaycan sərhədlərində yerləşən, Gürcüstanın Azərbaycanlı və gürcü kəndliləri Gəncə əksinqilabçılarına sığınacaq verməkdən boyun qaçıraraq, Sovet Azərbaycanının yoxsul kəndliləri ilə həmrəy olduqlarını bildirdilər[260].

Sovet hakimiyyəti əleyhinə əksinqilabçı qəsdin darmadağın edilməsini zəhmətkeş əhali böyük sevinclə qarşıladı. Əhali qiyamın yatırılmasında və şəhərin tufeylilərdən təmizlənməsində zəhmətkeşlərə kömək etmiş qızıl əsgərlərə öz dərin minnətdarlıqlarını bildirdilər. Qiyam yatırıldıqdan sonra ucqar kəndlərdən yoxsullardan ibarət çoxlu nümayəndə gələrək, bəy və mülkədarların zülmündən xilas olmaqda onlara kömək edən Qızıl Ordu dəstələrini təbrik etdilər[261].

Gəncədə Sovet hakimiyyətini möhkəmlətmək, sinfi düşməni tamamilə darmadağın etmək məqsədi ilə şübhəli, düşmən ünsürlər yerli idarələrdən qovuldu və onların yerinə fəhlə-kəndli hakimiyyətinə sadiq adamlar təyin edildi. 1920-ci il iyunun 4-də Gəncə İnqilab Komitəsinin köhnə tərkibi buraxıldı və yeni tərkibdən ibarət İnqilab Komitəsi yaradıldı. Görkəmli bolşeviklərdən S. M. Əfəndiyev Gəncə qəzası İnqilab Komitəsinin sədri, Bala Əfəndiyev isə Gəncə qəzası İnqilab Komitəsinin üzvü vəzifəsinə təyin edildi. Fəhlə və kəndlilər imperialist yırtıcılarının fitnə-fəsadı ilə daxili əksinqilabın düzəltdiyi quduz çıxışları inqilabi əzmlə dəf edirdilər. Şamxor qəzasının kəndliləri İnqilab Komitəsinin rəhbərliyi ilə Sovet hakimiyyətinin müdafiəsinə qalxaraq, qızıl əsgər qatarlarının təhlükəsizliyini təmin edir, dəmir yolları, körpüləri əksinqilabçıların basqınlarından qoruyurdular. Onlar sürətlə hərəkət edən dəstələr düzəldərək düşməni təqib və məhv edirdilər[262].

Azərbaycan K(b)P Şamxor qəza komitəsinin birinci katibi İslam Əliyev, Şamxor qəzası İnqilab Komitəsinin üzvü və torpaq şöbəsinin müdiri, 1917-ci ildən kommunist partiyasının üzvü Qurban Məmmədov və başqa kommunistlər qəzanın zəhmətkeş kəndlilərini Sovet hakimiyyəti ətrafında sıx birləşdirmək; sinfi düşməni darmadağın etmək üçün var qüvvələri ilə çalışırdılar. Qazax qəzası İnqilab

---

[259] «Kommunist» qəzeti, 8 iyun 1920-ci il, № 43.
[260] «Kommunist» qəzeti (rusca), 24 iyun 1920-ci il, № 44.
[261] Yenə orada, 2 iyun 1920-ci il, № 25.
[262] Yenə orada, 11 iyun 1920-ci il, № 33.

Komitəsinin sədri vəzifəsində çalışan İsrafil İbrahimov da Şamxorda əksinqilabçıların çıxışının yatırılmasında iştirak etmişdi.

Gəncə quberniyasında qolçomaq ünsürləri və müsavat quldur dəstələrinin qalıqları tərəfindən qaldırılmış olan antisovet qiyamın yatırılmasında Gədəbəy İnqilab Komitəsinin üzvü, Gədəbəy rayonunun komissarı Rüstəm Əliyev, Əli Rəcəbəliyev, M. Sadıxov, Seyidcəfər Yaqubov və başqaları fəal iştirak etdilər. Ə. Rəcəbəliyev, M. Sadıxov və S. Yaqubov qiyamçılara qarşı mübarizə məqsədi ilə Gədəbəy fəhlə və kəndlilərindən süvari dəstəsi təşkil etdilər.

Yoxsul, zəhmətkeş əhali Gəncə qiyamçılarına lənətlər yağdırır, əksinqilabçılara qarşı mübarizəyə qoşulurdular. Qazax qəzasının kəndliləri Gəncədə əksinqilabi qiyam baş verən zaman qəza inqilab komitəsinin rəhbərliyi altında 150 nəfərdən ibarət dəstə təşkil edərək, inqilabın keşiyində namusla dayandılar və əksinqilabçılara öz mənfur məqsədlərini həyata keçirmək imkanı vermədilər[263]. Qazax qəzası İnqilab Komitəsi zəhmətkeş kəndlilərin yaxından köməyi ilə 30-a kimi məşhur xan və bəyi həbs etdi[264]. Əksinqilabi çıxışların qarşısını almaq, zəhmətkeş kəndlilərin sinfi düşmənə qarşı mütəşəkkil mübarizəsini təşkil etmək məqsədi ilə kəndlərdə mitinqlər təşkil edilir və bu mitinqlərin qəbul etdiyi qətnamələrdə kəndlilərin Sovet hakimiyyətinə hərtərəfli kömək edəcəkləri qeyd edilirdi[265]. Gəncədə baş vermiş əksinqilabi qiyamla əlaqədar olaraq Ağdaşda keçirilmiş böyük mitinqin qəbul etdiyi qətnamədə deyilirdi: «Biz inqilabi mübarizədə fəal iştirak edəcəyik və Sovet hakimiyyətini burjuaziyanın, bəy və xanların hər cür qəsdindən var qüvvəmizlə qoruyacayıq»[266].

Gəncədə əksinqilabi qiyam darmadağın ediləndən sonra sinfi düşmən Qarabağda baş qaldırdı. Qarabağın istismarçı, tüfeyli ünsürləri Türkiyə və İran irticaçılarından, daşnaqlardan yardım alaraq, bilavasitə onların başçılığı ilə öz qanlı pəncələrini fəhlə-kəndli hakimiyyətinə uzatdılar. Xan, bəy, möhtəkir tör-töküntüsünə - Zeynalovlara, Rəfibəyovlara, İsrafilbəyovlara, Xudaverdiyevlərə arxalanan Türkiyə agenti Nuru Paşa 1920-ci il iyunun əvvəllərində Qarabağda qiyam qaldırdı.

Sinfi düşmən baş qaldıran kimi dərhal Sovet Hakimiyyəti tərəfdarları və təşkilatçıları əleyhinə hücuma keçdi. Qiyamçılar 1920-ci il iyunun 5-də Qarabağ İnqilab Komitəsi işçilərini həbsə alaraq, komitənin dörd üzvünü - Bahadır Vəlibəyovu, Q. İbrahimovu, Hüsü Hacıyevi və Süleyman Nurunu güllələnməyə məhkum etdilər. Zəhmətkeş əhalini qətl və qarət etməyə başladılar.

Lakin partiya və hökumətin gördükləri tədbirlər nəticəsində bu alçaq soyğunçuların özbaşınalığının qarşısı tezliklə alındı. XI Qızıl Ordu hissələri Qarabağ zəhmətkeşlərinin köməyinə göndərildi. DK(b)P MK və Azərbaycan

---

[263] Azərbaycan SSR OİMDA, fond 2426. siyahı 1, iş 7, vər.2.

[264] Yenə orada, fond 27, siyahı 1, iş 275, vər. 13.

[265] «Kommunist» qəzeti (rusca), 1 iyul 1920-ci il, № 50.

[266] «Kommunist» qəzeti (rusca), 2 iyun 1920-ci il, № 25.

İnqilab Komitəsi Dadaş Bünyadzadəni və Çingiz İldırımı Qarabağa göndərdi. XI Qızıl Ordunun, Azərbaycan milli Qızıl Ordu hissələrinin əməliyyatı və zəhmətkeş kütlələrin qəti mübarizəsn nəticəsində Qarabağdakı əksinqilabi qiyam da yatırıldı. Əhali arasında özünə dayaq tapa bilməyən xarici dövlətlərin agentləri və vətən xainləri olan qiyam başçıları oğurladıqları xalq əmlakını, çoxlu pulu, qiymətli şeyləri götürüb İrana qaçdılar. Əksinqilabçılar tərəfindən tutulmuş Qarabağ İnqilab Komitəsi üzvlərini Şuşa zəhmətkeşləri iyunun 13-də həbsdən azad etdilər. İyunun 15-də Şuşa əhalisi Qızıl Ordunu qızıl bayraqlar, duz-çörək və musiqi ilə qarşıladı[267].

Qızıl Ordu hissələri və könüllü xalq dəstələri düşmənə qarşı əməliyyatı genişləndirərək, Qarabağın yeni-yeni rayonlarını, o cümlədən Şuşa və Cəbrayıl qəzalarını azad etdilər. Zəhmətkeş kəndlilər əksinqilabçıların fitnəsinə uymadılar. Əksinə, onlar tüfeyli ünsürlərin darmadağın edilməsində fəal iştirak edərək böyük əzmkarlıq göstərdilər.

Qarabağda bəy, xan, mülkədar quldur dəstələrinə qarşı Azərbaycanlı və erməni zəhmətkeşləri birgə mübarizə aparırdılar. Onlar Şuşada, Ağdamda və başqa rayonlarda sinfi düşmənə qarşı birgə inqilabi cəbhə yaratmışdılar. Ağdamda olduğu kimi, Qaryagində də erməni və Azərbaycanlı zəhmətkeşlər Nuru Paşa və Zeynalovun quldur dəstələrinə qarşı mübarizədə birləşmişdilər[268].

Qiyam yatırılan yerlərdə xanların, bəylərin bütün əmlakı yoxsul kəndlilər arasında bölüşdürüldü. Bu sahədə Qızıl Ordunun nümayəndələri yerli partiya və sovet orqanlarına yaxından yardım göstərdilər.

Qarabağda antisovet qiyamın darmadağın edilməsi münasibəti ilə Dadaş Bünyadzadə Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanova göndərdiyi teleqramda yazmışdı: «İyunun 20-21-də Şuşa kəndlilərinin çox geniş iştirakı ilə izdihamlı mitinq keçirtdim. Əksinqilabçıların hamısı tutulub Bakıya göndərildi. Torpaq məsələsi kəndliləri sevindirir; məhsul zəhmətkeş kəndlilərə və qaçqınlara verilir. Bütün kəndləri gəzib mitinqlər keçirirəm. Bütün kəndlilər Sovet hakimiyyətinə tərəfdardır»[269].

Respublikamızın bir çox rayonlarında zəhmətkeş əhalinin öz zalımlarına qarşı mübarizəsi Qızıl Ordunun qardaşlıq yardımı sayəsində qalibiyyətlə başa çatdırıldı. Azərbaycanın başqa rayonlarında da, o cümlədən Zaqatalada, Bərdədə Sovet hakimiyyətinin düşmənlərinə sarsıdıcı zərbə endirildi.

1920-ci il iyunun 9-da müsavatçılar Zaqatalada qiyam qaldırdıqları zaman qəza hərbi-inqilab komitəsinin bütün heyəti, o cümlədən Mahmud Qocayev, Saleh Qocayev, Zəkəriyyə Balaxlinski, Abid Əfəndiyev və başqaları qiyamçılar tərəfindən həbs olunmuş və güllələnməyə məhkum edilmişdilər. Lakin qəzanın

---

[267] Yenə orada, 23 iyun 1920-ci il, № 43.
[268] «Kommunist» qəzeti (rusca), 24 iyun 1920-ci il, № 44.
[269] Yenə orada, 22 iyun 1920-ci il, №42.

silahlı kəndliləri Qızıl Ordunun yardımı ilə əksinqilabçıları darmadağın edib, inqilab komitəsi üzvlərini və bütün dustaqları həbsdən azad etdilər[270].

Bərdə rayonunda əksinqilabi qiyamın darmadağın edilməsi nəticəsində 60 daşnaq həbs edildi[271].

Gəncə və Qarabağ qiyamlarının müvəffəqiyyətlə darmadağın edilməsi nəinki daxili əksinqilaba, habelə xarici düşmənə də ciddi zərbə oldu.

Q. Musabəyov istismarçı siniflərin Sovet hakimiyyətinə qarşı düzəltdikləri qiyamların darmadağın edilməsi əhəmiyyətindən bəhs edərək demişdir: «Nəticədə, bütün bu əksinqilabçı çıxışları boşa çıxdıqdan sonra, Azərbaycanın geridə qalmış, savadsız, hələ də qolçomaqların, kapitalistlərin, mülkədarların, bəylərin və xanların qorxusu altında yaşayan kəndliləri Sovet hakimiyyətinin təntənəsinə qəti surətdə inandılar; onlar inandılar ki, idarə etmək işlərini cəsarətlə öz əllərinə ala bilərlər. Onlar başa düşdülər ki, fəhlə-kəndli hakimiyyətinə qarşı mübarizə aparmaq üçün əksinqilabın qüvvəsi yoxdur»[272].

Əksinqilabi qiyamlar darmadağın edildikdən sonra, zəhmətkeş kəndlilər Azərbaycan Kommunist partiyası və Sovet hakimiyyəti ətrafında daha sıx birləşdilər. Azərbaycanda Sovet hakimiyyəti daha da möhkəmləndi. Torpaq məsələsinin əməli şəkildə həlli üçün daha əlverişli şərait yarandı. Partiya və hökumətin rəhbərliyi, geniş zəhmətkeş kütlələrin fəallığı bu işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün imkan yaratdı. Yerlərdə kənd və qəza torpaq komitələrinin təşkilindən sonra mülkədar torpaqlarının, avadanlığının müsadirə edilməsi işləri genişləndi və mütəşəkkil xarakter aldı.

Lakin yerlərdə hazırlıqlı partiya kadrlarının, təbliğatçıların, savadlı işçilərin, mütəxəssislərin, o cümlədən yerölçənlərin lazımi qədər olmaması torpaq dekretinin və başqa tədbirlərin həyata keçirilməsində böyük çətinliklər törədirdi. Bundan istifadə edən sinfi düşmən öz simasını gizlədərək yerli idarələrə, təşkilatlara soxulur və orada pozuculuq işi aparırdı. Nəticədə, torpaq dekretinin həyata keçirilməsi, ərzaq tədarükü və sairə sahələrdə ciddi əyintilərə yol verilirdi.

Bu vəziyyəti aradan qaldırmaq və işi irəlilətmək üçün partiya və hökumət partiya kadrlarını, qabaqcıl fəhlələri yerlərə göndərirdi. 1920-ci il iyunun 10-dək yerlərdəki inqilab komitələrinə Bakıdan 57 təlimatçı ezam edilmişdi[273]. Qəza, nahiyə və kəndlərdə inqilab komitələrinin təşkili işinə kömək etmək üçün göndərilmiş 300-dən çox Bakı fəhləsindən başqa, 1920-ci ilin may-avqust aylarında Bakı partiya təşkilatı qəzalara partiya, dövlət və təsərrüfat işlərinə 600

---

[270] Azərbaycan Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958-ci il, səh. 268.

[271] «Kommunist» qəzeti (rusca), 19 iyun 1920-ci il, № 40.

[272] Второй созыв Азербайджанского сьезда Советов Рабочих, Крестьнских, Красноармейских и Матросских Депүтатов, Стеногр. отчет. Bakı, 1922-ci il, səh. 54.

[273] Azərbaycan SSR OİMDA. fond 27, diyahı 1, iş 273 vər. 33.

kommunist göndərmişdi. Onların yerlərdə hakimiyyət orqanlarının yaradılıb möhkəmləndirilməsində böyük rolu olmuşdu[274].

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekretini və başqa tədbirləri həyata keçirmək məqsədi ilə məsul partiya və Sovet işçiləri də fövqəladə müvəkkil sifəti ilə yerlərə ezam edilirdilər. Məsələn, Azərbaycan SSR Xalq Torpaq Komissarının müavini Sumbat Fətəlizadə Xalq Torpaq Komissarlığının fövqəladə müvəkkili kimi Bakı, Şamaxı, Göyçay, Quba və digər qəzaları gəzərək, respublikamızda aqrar məsələnin həlli, kənd təsərrüfatının bərpası və yüksəldilməsi, yerli Sovet hakimiyyəti orqanlarının möhkəmləndirilməsi üçün çox qüvvə sərf etmişdir. Həbib Cəbiyev isə AK(b)P MK-nın və XI Qızıl Ordu Hərbi İnqilab Şurasının Şamxor, Tovuz və Qazax qəzaları üzrə fövqəladə müvəkkili vəzifəsində çalışırdı. 1920-ci ilin iyun ayında Nuxa və Zaqatala qəzaları üzrə fövqəladə komissarın müavini vəzifəsinə təyin olunmuş Müzəffər Nərimanov, Nuxa və Zaqatala qəzaları üzrə fövqəladə komissiyanın müvəkkili vəzifəsində çalışan Abid Əfəndiyev əksinqilabı boğmaq, Sovet hakimiyyəti orqanlarını təşkil etmək, əhalini ərzaqla təmin etmək, torpaq haqqında dekretin və başqa tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün inamla çalışırdılar[275].

Qəza və kənd partiya fəalları da mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi və başqa təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi işinə Səfərbər edilmişdilər.

Torpaq haqqında dekreti həyata keçirmək, torpaq komitələrinin işini nizama salmaq məqsədi ilə Azərbaycan SSR XTK lazımi tədbirlər görürdü. Həmin tədbirlərdən biridə Azərbaycan SSR XTK-nın 1920-ci il iyunun 12% - də komissarlığın torpaq şöbəsindən yerlərə - torpaq komitələrinin ixtiyarına yerölçənlər ezam etmək haqqında əmri idi[276].

Görülən bu tədbirlər torpaq komitələrinin işini yaxşılaşdırır, iri mülkədar torpaq sahibliyinin ləğv edilməsini, yosul kəndlilərin torpaqla təchiz edilməsini sürətləndirirdi.

Kənd təsərrüfatını yenidən təşkil etmək üçün böyük əhəmiyyəti olan tədbirlərdən biri də xüsusi sahibkarlara məxsus kənd təsərrüfatı maşınları, alətləri, cihazları və anbarların Xalq Torpaq Komissarlığının ixtiyarına keçməsi haqqında Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 13 iyun tarixli dekreti idi[277]. Bu dekret iri xüsusi mülkiyyətçilərə yeni bir zərbə olub, onların iqtisadi mövqeyini sarsıtdı.

Yerlərdə torpaq haqqında dekretin həyata keçirilməsi işi ilə torpaq komitələrindən əlavə qəza inqilab komitəsi yanındakı torpaq şöbəsi də məşğul olurdu. Hökumət qəza inqilab komitəsi torpaq şöbəsi müdirlərinə geniş hüquqlar

---

[274] Sov.İKP MK yanında Marksizm-leninizm İnstitutunun Azərbaycan filialının partiya arxivi, fond 1, siyahı 125, iş 83. vər. 15.
[275] Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Bakı, 1958, səh. 166, 188, 193, 196.
[276] СУ Азерб. ССР, 1920-ci il, № 6, səh. 12.
[277] СУ Азерб. ССР, 1920-ci il, № 2, səh. 103.

vermişdi. Məslən, Gəncə qəzası İnqilab Komitəsinin verdiyi 1920-ci il 4 iyun tarixli vəsiqədə Gəncə qəzası İnqilab Komitəsi torpaq şöbəsinin müdirinə dükanları, Gəncə şəhərindən qaçanlarıı evlərini siyahıya almaq və müsadirə etmək hüququ verilmişdi. Daha sonra vəsiqədə deyilirdi ki, bütün hərbi və mülki təşkilatlar Gəncə qəzası İnqilab Komitəsinin torpaq şöbəsi müdirinin bütün qanuni tələblərinə əməl etsinlər və ona lazımi köməklik göstərsinlər[278]. Torpaq şöbəsi kənd təsərrüfatı alətlərini, mal-qaranı siyahıya alır, hökumətin aqrar siyasətinin düzgün həyata keçirilməsinə nəzarət edirdi.

Yerlərdə Sovet hakimiyyətini möhkəmlətmək, inqilab komitələrinin işini irəlilətmək məqsədi ilə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı 1920-ci il iyunun 22-də Bakıda qəza inqilab komitələri sədrlərinin qurultayını çağırdı. Qurultayda qəza inqilab komitələri sədrləri, Torpaq və Ədliyyə komissarlıqlarının nümayəndələri iştirak edirdilər. Qurultayda başqa məsələlərlə yanaşı, torpaq məsələsi də müzakirə olundu.

Qurultay torpaq haqqında dekretin həyata keçirilməsi sahəsində qazanılan müvəffəqiyyətləri qeyd etməklə bərabər, bu sahədə işləri irəlilətmək məqsədi ilə nümayəndələrə müvafiq göstərişlər verdi[279].

Sovet hakimiyyətinin qalib gəldiyi ilk günlərdən başlayaraq Azərbaycanda torpaq məsələsinin həlli sahəsində görülən tədbirlərin respublikada bəy-xan torpaq sahibliyinin ləğv edilməsi və yüz minlərlə yoxsul kəndlinin torpağa ehtiyacının ödənilməsi üçün böyük əhəmiyyəti var idi.

---

[278] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 6, iş 24, vər. 2.
[279] "Kommunist" qəzeti (rusca), 24 iyun 1920-ci il, № 44.

## III FƏSİL

## AZƏRBAYCANDA MÜLKƏDAR TORPAQ SAHİBLİYİNİN LƏĞV EDİLMƏSİ

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında dekretini həyata keçirmək məqsədi ilə görülən tədbirlər sinfi düşmənin darmadağın edilməsi sahəsində qazanılan müvəffəqiyyətlər torpaq üzərində mülkədar mülkiyyətini ləğv etmək üçün şərait yaratdı.

Qəza partiya təşkilatları və inqilab komitələri torpaq haqqında dekretin müvəffəqiyyətlə həyata keçirilməsi üçün qəza və kənd torpaq komitələrinə yaxından yardım göstərir, onların işinə istiqamət verirdilər.

Qəza torpaq komitələri torpaq haqqında dekreti həyata keçirmək məqsədi ilə torpaq komissiyaları təşkil edirdilər. Komissiyaların tərkibinə qəza torpaq komitəsinin nümayəndələri, yerölçənlər, inqilab komitəsinin üzvləri, kənd torpaq komissiyasının üzvləri, kənd cəmiyyətinin nümayəndələri daxil olurdular. Torpaq komissiyaları mülkədar torpaqlarını müsadirə edib qəza torpaq komitəsinin ixtiyarına verir və bu haqda akt tərtib edirdilər. Aktda onun tərtib edildiyi tarix, müsadirə edilən malikanənin adı, harada yerləşdiyi, kimlərə məxsus olduğu, tutduğu ərazinin sahəsi qeyd edilirdi. Aktda həmçinin müsadirə edilən malikanənin hansı yararlı təsərrüfat yerlərindən (tarla, bağ, çəmənlik və sairə) ibarət olduğu, onların hər birinin sahəsi, malikanəyə axan suyun miqdarı, yaşayış və təsərrüfat tikililərinin sayı, daşınar-daşınmaz əmlakın miqdarı göstərilirdi. Qəbul komissiyası aktda malikanə sahiblərinin nə işla məşğul olduqlarını, muzdlu əməkdən istifadə edib-etmədiklərini, malikanədə işləyənlərin aldıqları əmək haqqının miqdarını qeyd edirdi.

Torpaq komissiyası tərəfindən müsadirə edilən malikanə qəza tornaq komitəsi nümayəndəsinin - torpaq agentinin idarəsi altına keçirdi.

Torpaq komissiyaları tərəfindən sahibkar malikanələrinin alınması nşi 1920-ci ilin iyun-iyul aylarından genişləndi.

Lakin torpaq komissiyalarının işində nöqsanlar da var idi. Bu da hər şeydən əvvəl ondan ibarət idi ki, torpaq komissiyaları ilk dövrdə (iyun, iyul, avqust aylarında) əksər hallarda mülkədar malikanələrini alıb, qəza torpaq komitəsinin ixtiyarına verməklə kifayətlənirdilər. Halbuki müsadirə edilmiş sahibkar torpaqlarını yoxsul kəndlilər arasında bölmək, yüz və minlərlə Azərbaycan kəndlisinin torpağa olan ehtiyacını ödəmək lazım idi.

Yoxsul kəndliləri torpaqla təmin etmək yolu ilə onları ehtiyacdan qurtarmaq, yerlərdə Sovet hakimiyyətinin dayaqlarını möhkəmlətmək olardı. Bunu nəzərə alaraq Azərbaycan partiya nə Sovet təşkilatları müsadirə edilmiş mülkədar torpaqlarının yoxsul kəndlilər arasında bölünməsi işinə diqqəti artırdılar. Torpaq komissiyaları sahibkar malikanələrini müsadirə edib qəza torpaq komitəsinin

ixtiyarına verməklə bərabər, həmin torpaqları yoxsul kəndlilər arasında bölüşdürürdülər.

Kənddə torpaq münasibəti tamamilə dəyişirdi. Bunu aşağıdakı faktlar sübut edir. Gəncə qəzasının Sarov kənd cəmiyyətində 657 adamdan ibarət 155 ailə yaşayırdı. Onlardan 255 nəfəri və ya 64 ailə tamamilə torpaqsız idi. 429 adamın və ya 91 ailənin istifadəsində 3 desyatin həyətyanı torpaq, 525 desyatin suvarılan əkin yeri, 20 desyatin biçənək var idi. Kəndlilərin istifadəsində olan yararsız torpaqların sahəsi isə 26 desyatin idi. Bütün bu torpaqların ümumi sahəsi 580 desyatin idi (yararlı 554 desyatin, yararsız 26 desyatin). Mülkədar torpaqları müsadirə edilib qəza torpaq komitəsinin ixtiyarına keçəndən sonra bu kənddə 793 desyatin sahibkar torpağı 657 nəfər torpaqsız və aztorpaqlı kəndli arasında bölüşdürüldü. Bunun nəticəsində kəndlilərin istifadəsində olan torpaqların ümumi sahəsi 1.373 desyatinə, orta hesabla hər kəndliyə düşən torpağın miqdarı isə keçmişdəki 0,84 desyatindən 2,03 desyatinə çatdı[280].

Gəncə qəzasının Əlincəli və Köləkir kəndləri əhalisinin (76 ailənin, yaxud 496 adamın) istifadəsində 497 desyatin torpaq sahəsi var idi. Mülkədar torpaqları müsadirə ediləndən sonra həmin kəndlərin əhalisinə əlavə 160 desyatin torpaq sahəsi verildi. Nəticədə Əlincəli və Köləkir kəndlilərinin istifadəsində olan torpaqlar artdı. Torpaq bölgüsündən sonra hər kəndlinin torpağı 1,03 desyatindən 1,45 desyatinə çatdırıldı[281]. Quşçu kəndində işləyən torpaq komissiyası burada mülkədar Arustamovların 400 desyatinə qədər torpaqını müsadirə edərək, torpaqsız kəndlilərə payladı[282].

Gəncə qəzası torpaq komissiyası mülkədar Amaspurun, Hacı Məlikovların və başqalarının torpaqlarını, kənd təsərrüfatı avadanlığını müsadirə edərək, yoxsul kəndlilər arasında bölmək üçün lazımi tədbirlər gördü[283].

XI Qızıl Ordunun sıralarına səfərbər edilmiş yer quruluşu və kənd təsərrüfatı mütəxəssisləri Azərbaycanda torpaq haqqında dekretin həyata keçirilməsinə yaxından yardım göstərirdilər. Onların əksəriyyəti Rusiyada 1917-1918-ci illərdə mülkədar torpaqlarının müsadirə edilib, yoxsul kəndlilər arasında bölünməsi işində iştirak etmişdilər. Məsələn, Gəncə qəzasının iri torpaq sahibkarlarından Qummelin, Forerin, Tseytlərin bağlarını müsadirə edib, dövlət mülkiyyətinə çevirmək üçün göndərilən komissiyaya qoşun hissəsindən təcrübəli təlimatçılar, yerölçənlər və aqronom daxil idi[284].

Gəncə qəzasında Səfikürd və Bağçakürd kənd cəmiyyətlərində torpaq komissiyası mülkədar Səfikürdskilərin və başqa iri torpaq sahiblərinin torpaqlarını müsadirə edib, yoxsul kəndlilərin istifadəsinə verdi. Səfikürd və Bağçakürd kənd

---

[280] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 47, vər. 262.
[281] Yenə orada.
[282] "Qırmızı Gəncə" qəzeti, 24 iyun 1920-ci il, № 9.
[283] Azərbaycan SSR OİMDA, Gəncə qəzası İnqilab Komitəsi fondu, siyahı 16, iş 41, vər. 3.
[284] Yenə orada.

cəmiyyətlərinin istifadəsində olan 1.589 desyatin torpaq fonduna 1.442 desyatin mülkədar torpağı əlavə edildi. Nəticədə kəndlilərin torpaqları iki dəfə artdı. Hər bir kəndlinin istifadəsində olan əkin sahəsi 1,02 desyatindən 1,95 desyatinədək, bütün yararlı torpaqların, o cümlədən əkin yerlərinin sahəsi 1,27 desyatindən 2,41 desyatinədək artdı[285]. Həmin qəzanın Fəhrəli kənd cəmiyyətinin istifadəsində olan torpaqlar 870 desyatin artdı. Bunun nəticəsində hər bir kəndlinin istifadəsində olan əkin yeri 1,29 desyatindən 2,50 desyatinə, bütün yararlı torpaqların sahəsi isə 1,86 desyatindən 3,35 desyatinə çatdı[286]. Torpaqla bərabər, kəndliləri su ilə də təmin edirdilər.

Mülkədarlar öz təsərrüfat məqsədləri üçün su ehtiyatının əksər hissəsini zəbt edərək, kəndlilərin torpaqlarına su buraxmırdılar. Yoxsul kəndlinin yeganə yaşayış mənbəyi olan torpaq susuzluqdan məhsul vermirdi. Beləliklə, su məsələsi torpaq məsələsi ilə möhkəm bağlı idi. M. D. Hüseynov yazırdı: «bütün suvarma sistemi - kəhriz və su maşınları bəylərin əlində idi. Azərbaycanda isə susuz torpağa malik olmaq torpaqsız qalmaq deməkdir»[287].

Məhz buna görə də Sovet hakimiyyəti torpaq ilə bərabər, su məsələsini də zəhmətkeş xalqın xeyrinə həll etdi. Mülkədar torpaqları müsadirə edilib, yoxsul kəndlilər arasında bölüşdürülərkən torpaq komissiyaları suyu da kəndlilərin istifadəsinə verirdilər.

Torpaq komitələri mülkədarları torpaq və su üzərində mülkiyyət hüququndan məhrum etməklə yanaşı, onların canlı və cansız kənd təsərrüfatı avadanlığını, məhsulunu da müsadirə edərək, kollektiv təsərrüfatlar - artel, kommunalar, yoxsul kəndli təsərrüfatları arasında bölürdülər.

Əksinqilabçı ünsürlərin müqavimətinə baxmayaraq, torpaq komitələrinin fəaliyyəti və zəhmətkeş kəndlilərin fəallığı nəticəsində torpaq haqqında dekret qəzalarda müvəffəqiyyətlə həyata keçirilirdi. Məsələn, təkcə Gəncə qəzasında 1920-ci il iyulun 1-nə kimi ümumi sahəsi 56.784 desyatinə qədər olan 36 mülkədar malikanəsi (bu torpaqlar mülkədar Məlik Arustamovlara, Amaspura, Adıgözəlovlara, Hacı Məlikovlara, Məmmədbəyovlara, Həsən Tat oğluna, Qummelə, Forerə, Tseytlərə və başqalarına məxsus idi) qəza torpaq komitəsinin ixtiyarına keçmişdi[288].

Gəncə qəzasında müsadirə edilmiş mülkədar torpaqlarının sahəsi 1920-ci il iyulun axırlarında artıq 85.000 desyatinə çatdırılmışdı. Bu torpaq sahəsi əvvəllər 41 mülkədarın malikanəsi idi[289].

Yoxsul kəndlilər mülkədar torpaq sahibliyinin ləğv edilməsində son dərəcədə fəallıq göstərirdilər. Bəzən elə hallar olurdu ki, kəndlilər torpaq

---

[285] Azərbaycan SSR OİMDA, fond 77, siyahı 1, iş 47, vər. 122.
[286] Yenə orada.
[287] Mirzə Davud Hüseynov. Müsavat firqəsi keçmişdə və indi, Bakı, Azərnəşr, 1929, səh. 25.
[288] «Азербайджанская беднота» qəzeti, 25 iyul 1920-ci il, №18.
[289] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1. iş 3 vər. 2.

komitələri tərəfindən mülkədar torpaqlarının müsadirə edilib, onlara verilməsini gözləməyərək, bəy və xan torpaqlarını zəbt edib öz aralarında bölürdülər.

Partiya təşkilatlarının rəhbərliyi altında zəhmətkeş kəndlilər əksipqilabçı bəy-xan yuvalarını məhv edir, onlara baş qaldırmaq imkanı vermirdilər. «Kommunist» qəzetində dərc edilmiş bir məlumatda bu xüsusda deyilirdi: «Şamaxı qəzasında heç bir qolçomaq, xan və ya bəy öz burnunu göstərməyə cürət etmir»[290].

Qazax qəzasında da mülkədar torpaqlarının müsadirə edilməsi işi müvəffəqiyyətlə gedirdi. 1920-ci il iyul ayının ortalarına qədər burada 10 mülkədarın 1.879,5 desyatin torpağı müsadirə edilərək, yoxsul kəndlilər arasında bölünmüşdü[291]. Qazax qəzasından göndərilən bir məlumatda deyilirdi: «Xüsusi mülkiyyətçi torpaqlarının müsadirə edilməsi işi müvəffəqiyyətlə davam edir. Hər yerdə əhali Sovet hakimiyyətinə tam etimad göstərir və onun bütün tələblərini rəğbətlə qarşılayır»[292].

Kəndlilər bəy, xan və qolçomaq torpaqlarının müsadirə edilməsində fəal iştirak edirdilər. Məsələn, Qazax qəzasının Salahlı kəndində torpaq komitəsi tərəfindən mülkədar Vəkilovların torpaqları və inventarları müsadirə edilərkən, kəndlilər daha səkkiz qolçomağın siyahısını verərək, onların da torpaqlarını müsadirə etməyi xahiş etmişdilər[293].

Qazax qəzasında olduğu kimi, başqa qəzalarda da kəndlilər öz zalımlarına qarşı mübarizəni getdikcə qüvvətləndirirdilər. Onlar təhlükəli düşmən ünsürlərin zərərsizləşdirilməsində inzibati orqanların ən yaxşı köməkçiləri idilər. Şamxor və Tovuz qəzalarında bir çox mülkədarın tutulub Qazax həbsxanasına salınması məhz kəndlilərin fəal yardımı nəticəsində mümkün olmuşdu. Lakin mülkədarlardan bir çoxu xarivə qaçmaqla yaxasını xalqın qəzəbindən qurtara bilmişdi. Məsələn, Tovuz qəzasının iri mülkədarlarından Məmməd Ağa İsgəndərbəyov kəndlilər arasında yaşaya bilməyib, bütün əmlakını ataraq, yaxın adamları ilə birlikdə qaçmışdır. Mülkədar Teymurbəy Sultanovun da taleyi belə olmuşdur[294]. Qaçan mülkədarlardan bir çoxu dağlara çəkilərək, quldur dəstələri təşkil edir və qətl-qarətçiliklə məşğul olurdular, bir çoxları isə xaricə gedir və orada Sovet hakimiyyəti əleyhinə pozuculuq işi aparırdılar. Lakin sinfi düşmənin quduz müqavimətinə baxmayaraq, torpaq komitələri partiya və hökumətin göstərişlərini rəhbər tutaraq, yoxsul kəndlilərin fəal köməyinə arxalanaraq, torpaq haqqında dekretin həyata keçirilməsi sahəsində fəaliyyətlərini genişləndirdilər.

Kommunist partiyası və Sovet hakimiyyəti mülkədarlara məxsus təsərrüfat yerlərinin mütəşəkkil halda müsadirə edilib, zəhmətkeş xalqın istifadəsinə verilməsi siyasətini yeridirdilər. V. İ. Lenin «Torpaq haqqında dekretdə» yazmışdı:

---

[290] "Kommunist" qəzeti (rusca), 26 iyun 1920-ci il, № 46.
[291] Azərbaycan SSR OİMDA, fond 2552, siyahı 1, iş 6, vər. 30-31.
[292] "Kommunist" qəzeti (rusca), 23 iyun 1920-ci il, № 43.
[293] "Kommunist" qəzeti (rusca), 1 avqust 1920-ci il, № 76.
[294] «Азербайджанская беднота» qəzeti, 2 sentyabr 1920-ci il, № 18.

«Müsadirə edilib bundan sonra bütün xalqın malı olan əmlakın nə şəkildə olursa-olsun xarab edilməsinin ağır cinayət olduğu elan edilir və inqilabi məhkəmə tərəfindən cəzalandırılacaqdır. Qəza kəndli deputatları sovetləri hər cür lazımi tədbir görməlidirlər ki, mülkədar malikanələri müsadirə edilərkən ən ciddi qayda-qanun gözlənilsin, nə qədər və hansı torpaq sahələrinin müsadirə edilməli olduğu müəyyən edilsin, müsadirə edilən bütün əmlak dürüst siyahıya alınsın və xalqın ixtiyarına keçən bütün təsərrüfat, binalar, alətlər, mal-qara, məhsul ehtiyatı və sairə ən ciddi inqilabi bir qaydada mühafizə edilsin»[295].

Azərbaycan partiya və Sovet təşkilatları B. İ. Leninin bu göstərişlərini həyata keçirmək üçün hər cür konkret tədbirlər müəyyən edirdi. Azərbaycan SSR Xalq Torpaq Komissarı S. Ağamalı oğlu partiya və hökumətin tapşırığı ilə Azərbaycan kəndlilərinə müraciət edərək demişdi: «Yoldaşlar və qardaşlar, Azərbaycan kəndliləri... elə bir vaxt gəlib çatmışdır ki, siz öz əməyinizin, torpağınızın tam sahibisiniz...»[296]. Bununla bərabər, S. Ağamalı oğlu kəndliləri torpağı alarkən qarışıqlığa, qaydasızlığa yol verməməyə çağırırdı. O, deyirdi: «Belə hallara yol verilərsə, əksinqilab bundan istifadə edib baş qaldırar və işin əsil mənasında kəndlilər heç bir şey ala bilməzlər»[297]. Daha sonra Xalq Torpaq Komissarı kəndliləri əldə edilən müvəffəqiyyətləri qoruyub saxlamağa, kənd və qəza torpaq komitələrinin işinə kömək etməyə çağırırdı.

Partiya və Sovet təşkilatları torpaq haqqında dekreti mütəşəkkil surətdə həyata keçirmək üçün yerli orqanlara hər cəhətdən yardım edirdilər. Lənkəran qəzasının İnqilab Komitəsi qəza torpaq şöbəsinə bir milyon manat pul buraxmışdı[298]. Qəza inqilab komitəsi tərəfindən göstərilən bu yardımın torpaq şöbəsinin fəaliyyətinin genişləndirilməsi yerölçmə və yerquruculuğu işlərinə mütəxəssislərin cəlb edilməsinə kömək etdi.

1920-ci il iyun ayının axırlarından başlayaraq, qəzada torpaq haqqında dekretin və başqa tədbirlərin həyata keçirilməsi sahəsində irəliləmə əmələ gəldi. Lənkərandan xəbər verilirdi ki, qəzanın bütün nahiyə və kəndlərində inqilab komitələri yaradılmış, sahibkar malikanələri müsadirə edilmiş və kəndlilər bərabərçilik əsasında əkin sahələrini bölməyə hazırlaşırlar[299]. Lənkəran qəza torpaq komitəsi sədrinin 1920-ci il iyulun 27-də Azərbaycan torpaq komitələri sədrlərinin qurultayına verdiyi məlumatda göstərilirdi ki, xüsusi sahibkarlara məxsus olan torpaqlar, canlı və cansız kənd təsərrüfatı avadanlığı ilə birlikdə müsadirə edilmiş və buxarla işləyən 16 dəyirman siyahıya alınmışdır[300].

---

[295] V.İ.Lenin. Əsərləri, 26-cı cild, Bakı, Azərnəşr, 1952, səh. 256.
[296] «Kommunist» qəzeti (rusca). 20 may 1920-ci il. № 16.
[297] Yenə orada.
[298] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 254, vər. 2.
[299] Yenə orada, iş 275, vər. 78.
[300] Yenə orada, fond 271, siyahı 1, iş 3, vər. 3.

Lakin sinfi düşmən torpaq haqqında dekretin və başqa tədbirlərin həyata keçirilməsinə müqavimət göstərirdi. Mülkədarlar, xanlar, bəylər öz ağalıqlarını əldən vermək istəmirdilər. Onlar Sovet hakimiyyətinə qarşı hər cür cinayətə əl atırdılar. Bu məqsədlə Lənkəran qəzasının dağlıq hissəsində quldur dəstələri təşkil edilmişdi. Onlardan Ramazanın, qaçaq qaragüruhçu Alekseyevin, keçmiş pristav Qulam Tağıyevin, əksinqilabçı general Səlimovun quldur dəstələrini göstərmək olar. Bu dəstələr İran vasitəsi ilə ingilis işğalçılarından yardım alırdılar. Bir tərəfdən də qəzaya İrandan şahsevənlərin qarətçi dəstələrinin basqınları olurdu. Bəy-xan quldur dəstələrinin əməliyyatı kəndlilərin tarla işlərinə çıxmalarına, dinc əməklə məşğul olmalarına maneçilik törədirdi.

Lənkəran qəzasında əmələ gəlmiş vəziyyətlə əlaqədar olaraq, Azərbaycan partiya və Sovet təşkilatları bir sıra tədbirlər müəyyən etdi. Lənkəran qəzası İnqilab Komitəsi və partiya təşkilatı mərkəzdən göndərilən işçilərin köməyi ilə möhkəmləndi. Bu zaman Mustafa Quliyev, Əli Məmmədov, Nəsrulla Əsgərov, Şirəli Axundov, Dadaş Hüseynzadə və başqa kommunistlər Lənkəran qəzasında məsul vəzifələrdə çalışırdılar. Lənkəran qəzası torpaq komitəsinin sədri Şirəli Axundov idi. Lənkəranda məsul vəzifələrdə işləyən bir çox kommunist iş aparmaq üçün kəndlərə göndərilmişdi[301]. Partiya və Sovet fəalları yerlərdə yığıncaq və mitinqlər keçirərək, zəhmətkeş kəndlilərə Sovet hakimiyyətinin sosialist tədbirləri, torpaq dekreti və sairə haqqında məlumat verir, onları yeni vəzifələrin həyata keçirilməsi işinə səfərbər edirdilər. Kənd zəhmətkeşləri Sovet hakimiyyətini möhkəmlətmək uğrunda, torpaq uğrunda əksinqilaba qarşı qəti mübarizəyə qalxırdılar. Lənkəran qəzasınıp sparadi kəndlilərinin yıqınçaqında qəbul edilmiş qətnamədə deyilirdi: «Biz Sparadi kəndliləri vəd edirik ki, öz qırmızı respublikamızı yoxsul xalqın düşmənlərindən qoruyacağıq. Bizim aramızda bir nəfər də olsa fərari ola bilməz. Biz hamımız oğul və qardaşlarımızı əksinqilaba qarşı mübarizəyə verəcəyik[302].

Lənkəran qəzasının inqilabçı kəndliləri əksinqilaba qarşı mübarizə üçün döyüş dəstələri təşkil edirdilər. Kəndli gənclər könüllü surətdə Qızıl Ordu sıralarına yazılırdılar[303].

Quldur dəstələrinin özbaşınalığı, qətl və qarəti yerli zəhmətkeş əhalinin qəzəbinə səbəb olmuşdu. Odur ki, bəy-xan quldur dəstələrinə qarşı qızıl əsgərlərlə birlikdə, kəndlilər də qətiyyətlə mübarizə aparırdılar. Qəzanın Züvənd nahiyəsində Şahverənin şahsevən quldur dəstələri ilə kəndlilər arasında hər gün vuruşma baş verirdi[304]. Kəndlilər hakimiyyət orqanlarının köməyi ilə İrandan gələn quldur-qarətçi dəstələri darmadağın edib geri qaytarırdılar.

---

[301] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 246, vər. 20
[302] “Kommunist” qəzeti (rusca), 20 iyun 1920-ci il, № 41.
[303] Azərbaycan SSR OİMDA, fond 2484, siyahı 1, iş 2 a, vər. 270.
[304] “Kommunist” qəzeti (rusca), 20 iyun 1920-ci il, № 41.

Sebid nahiyəsi quldur dəstələrindən təmizləndikdən sonra burada sakitlik yarandı və bu, nahiyədə mülkədar torpaqlarını müsadirə edib, yoxsul kəndlilərə paylamağa imkan verdi[305]. Sebid nahiyəsində olduğu kimi, Orçivan nahiyəsində də mülkədar torpaq sahibliyinin ləğvi sahəsində görülən işlər xüsusi ilə müvəffəqiyyətli idi[306].

Torpaq komitələri xanların, bəylərin torpaqlarını müsadirə edərək, kəndlilər arasında bölüşdürürdülər. Mülkədar torpaqlarının əksəriyyəti icarə əsasında kəndlilərin istifadəsində idi. Torpaq komissiyaları bütün bu torpaqları kəndlilərə verərək, icarə sazişlərini ləğv etdilər. Kəndlilər soyğunçu mülkədarlara ağır icarə haqqı verməkdən həmişəlik azad edildilər[307].

Yoxsul kəndlilər torpaqdan başqa, kənd təsərrüfatı avadanlığı ilə də təchiz edilirdilər. Bu zaman Lənkəranda kənd təsərrüfatı alətləri kirə məntəqəsi və dəmirçi emalatxanası açılmışdı. Bu məntəqələr kəndlilərə böyük yardım göstərirdi.

Partiya və hökumətin göstərdiyi qayğı nəticəsində Lənkəran qəzasında 75 kəndin əhalisi öz təsərrüfatını yenidən təşkil etmişdi[308].

Lənkəran qəzasının dağlıq rayonlarında sinfi düşmən tamamilə darmadağın edilmədiyindən, orada torpaq dekretini və başqa tədbirləri həyata keçirmək mümkün olmurdu. Partiya və hökumət orqanları belə bir vəziyyətə son qoymaq məqsədi ilə lazımi tədbirlər gördülər. Nəticədə qəzanın dağlıq rayonlarının xeyli hissəsi düşməndən təmizləndi. Burada olan torpaqlar, meşələr qəza inqilab komitəsi torpaq şöbəsinin ixtiyarına keçdi və əhalinin istifadəsinə verildi. Qeyd etmək lazımdır ki, torpaq bölgüsündə bir sıra çətinliklər də aşkara çıxırdı. Lənkəran və Astara nahiyələrində sahibkar torpaqları bölüşdürülərkən yoxsul kəndlilərin bir çoxu torpaq norması ala bilmirdi. Kəndlilərin bir hissəsinə nəzərdə tutan miqdarda torpaq norması çatdığı halda, digər hissəsinə çatmırdı. Lakin yoxsul kəndlilərin bir hissəsini torpaq norması ilə təmin edib, digər hissəsini torpaqsız qoymaq olmazdı. Odur ki, torpaq norması ala bilməyən kəndlilər Muğanqabağı (Predmuqan) düzündəki azad torpaqlara köçürülürdü[309].

Göyçay, Quba, Nuxa, Cavanşir və digər qəzalarda torpaq dekreti müvəffəqiyyətlə həyata keçirilirdi.

Göyçay qəzasında hələ 1920-ci ilin may ayında istismarçı ünsürlərə sarsıdıcı zərbə endirilmiş və Sovet hakimiyyətinin qələbəsi təmin edilmişdi. Azərbaycan İnqilab Komitəsinin torpaq haqqındakı dekretini həyata keçirmək məqsədi ilə Göyçay qəzası İnqilab Komitəsi müvafiq tədbirlər görmüş, bəylərin, xanların əmlakı siyahıya alınmışdı[310].

---

305 «Kommunist» qəzeti (rusca), 4 avqust 1920-ci il, № 79.
306 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 246, vər. 2
307 Yenə orada, vər. 29.
308 "Kommunist" qəzeti (rusca), 20 iyun 1920-ci il, № 41.
309 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 246, vər. 23.
310 Yenə orada, iş 273, vər. 1.

1920-ci il iyunun 20-də Göyçay qəzası nahiyə nümayəndələrinin qurultayı çağırıldı. Qurultayda nümayəndələrə mülkədar torpaqlarını müsadirə edib, yoxsul kəndlilərə vermək haqqında konkret göstəriş verildi[311].

Qurultaydan sonra Göyçay qəzasında torpaq komitələrinin təşkili, az sonra isə mülkədar torpaqlarının müsadirə edilərək, yoxsul kəndlilər arasında bölüşdürülməsi genişləndi.

Zəhmətkeş kəndlilər torpaq komitələrinin işinə yaxından yardım göstərir və kəndlərdə inqilab komitələrinə soxulub, işdə qəsdən əyintilik törədən istismarçı ünsürlərin qovulması üçün tədbirlər görülməsini tələb edirdilər[312]. Kürdəmir nahiyəsinin Ərəb Mehdibəy kəndliləri nifrət etdikləri qəddar istismarçı mülkədar Səlimbəy Sultanovu sürgün etməyi tələb etmişdilər[313].

Qəzada sahibkar torpaqlarının müsadirəsi ilə əlaqədar olaraq, torpaqsız və aztorpaqlı kəndlilərə torpaq norması vermək üçün hazırlıq işləri aparılırdı. Eyni zamanda, mülkədarlardan müsadirə edilmiş malikanələrdə sovet təsərrüfatı təşkil edilirdi. Bunlardan Kürdəmirdə Şustovun, Kürdəmir stansiyası yaxınlığında Aqriyevin sənaye-şərabçılıq təsərrüfatlarını göstərmək olar[314].

Quba qəzasında da mülkədar torpaqlarının müsadirə edilərək, yoxsul kəndlilər arasında bölüşdürülməsi işi genişlənirdi. «Əxbari» qəzeti bu münasibətlə yazırdı: «Şura hökuməti elan edilər-edilməz zülm altında əzab çəkən Quba kəndliləri dərhad zalım bəylərə hücum edib, torpaq və sairəni öz aralarında təqsim etməyə başladılar»[315]. 1920-ci il sentyabrın 1-dək Quba qəzasının 90 kəndində torpaq komitələri təşkil edilmişdi. Torpaq komitələri bəy va xan torpaqlarının müsadirə edilərək, yoxsul kəndlilər arasında bölüşdürülməsi işini təşkil edirdilər.

Qəza kommunistləri yeni cəmiyyət qurucularının ön sıralarında gedərək, zəhmətkeş kəndliləri yeni vəzifələr ətrafında səfərbər edirdilər. 1920-ci ilin iyul ayında Qubada partiya konfransı oldu. Konfrans kommunistləri partiya və hökumətin inqilabi tədbirlərini əzmlə həyata keçirməyə çağırdı. Konfransın qətnaməsində deyilirdi: «Quba qəzasının bütün kommunistləri bir nəfər kimi öz qüvvələrini inqilabın xeyrinə və kommunizm ideyalarını kütlələr içərisinə yaymaq işinə sərf edəcəklər»[316].

Qəzanın kommunistləri torpaq haqqında dekretin, müvəffəqiyyətlə həyata keçirilməsinə fəal yardım edirdilər. Kommunistlərin rəhbərliyi və zəhmətkeş kəndlilərin fəallığı nəticəsində qəza və kənd torpaq komitələri mülkədar torpaq sahibliyinin edilməsi işini sürətləndirirdilər. Nəticədə 1920-ci ilin sentyabr ayınadək Quba qəzasında İsabəy Zülfüqarova, Zaxarova, Ziyatxanovaya, M. A.

---

[311] Yenə orada, vər, 49.
[312] Yenə orada, iş 275, vər. 116.
[313] Yenə orada, iş 273, vər. 52.
[314] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 275, vər. 52.
[315] Azərbaycan İnqilab Komitəsinin “Əxbari” qəzeti, 27 may 1920-ci il, № 7.
[316] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 275, vər. 53.

De-Bura, Mirzəyevlərə, Sorokinə, Kvelə, Xaçaturyansa, H. Z. A. Tağıyevə və başqa sahibkarlara məxsus 12 min desyatindən artıq torpaq müsadirə edildi[317].

Quba qəzasında sahibkarlardan müsadirə edilmiş torpaqların sahəsi 1920-ci il noyabr ayının 15-nə kimi 27.869 desyatin 1.430 kv sajenə çatdırıldı[318].

Torpaq bölgüsü nəticəsində Quba qəzası kəndlilərinin xeyli hissəsi müsadirə edilmiş mülkədar torpaqlarının hesabına 26.238 desyatin 1.430 kv sajen torpaq sahəsi addılar. 1.631 desyatin torpaq sahəsi Sovet təsərrüfatlarına verildi. Mülkədarlardan M. A. De-Burun «Xudat Çubuxlu», «Rustov», «Xudat» malikanələrinə məxsus olan 2.420 desyatin torpaq müsadirə edilərək, Bədirqala, Rustov, Aşağı Xudat, Şumaqur, İdris oba kəndlilərinin istifadəsinə verildi. Bakı kapitalisti H. Z. A. Tağıyevə məxsus olan 571 desyatinlik «Süleyman qışlaq» mülkünün torpaqları Bediş Qala kəndliləri arasında bölündü. Mülkədar Mirzəyevlərin və Arqutinskaya-Dolqorukovanın 2.138 desyatinlik «Çiçi» malikanəsi Çiçi kəndlilərinin, mülkədar Məmmədbəy, Baharbəy və başqalarının sahibliyində olan 3.038 desyatin 600 kv sajen sahəni əhatə edən «Zərqova» və «Bərqova» mülklərinə məxsus olan torpaqlar Zərqova kəndlilərinin, öz zalımlığı ilə məşhur olan mülkədar Əlibəy Zizikskinin 726 desyatinlik malikanələri Zizik, Digah, Rustov, Nügədi, Şuduq kəndlərinin yoxsul sakinləri, Xaçaturyansın 431 desyatinlik «Koçar» malikanəsi torpaqsız Kocar və aztorpaqlı Zeyti kəndliləri arasında bölüşdürüldü.

Quba qəzasında mülkədarlardan müsadirə edilmiş torpaqların bir hissəsi də Sovet təsərrüfatlarının ixtiyarına verildi. Məsələn, H. Z. A. Tağıyevin, Qukasovun və Lemkulun «Atlıxan», «Şahverdi», «Kobulyar», «Mahmud yataq» malikanələrinin əhatə etdiyi 2.337 desyatin torpağın 1.500 desyatindən çoxu Hacı Məmmədoba, Mirquluoba, Zeydan Muruq, Quzun və başqa kəndlərin əhalisi arasında bölündü; bu torpaqlardan 710 desyatini sovet təsərrüfatı üçün ayrıldı. Quba qəzasında 1.082 desyatin sahəni əhatə edən «Səfərabad» malikanəsinə məxsus olan 1.082 desyatin torpaq sahəsindən də 817 desyatini N. Nərimanov adına sovet təsərrüfatına verildi. Həmin malikanəyə məxsus 265 desyatinlik torpaq sahəsi seybətli, Yeni Səfərabad, Qədim Səfərabad kəndliləri arasında bölündü. Mülkədar De-Bura və başqa sahibkarlara məxsus olan 2.453 desyatinlik «Xudat çubuxlu» malikanəsi torpaqlarından 104 desyatini sovet təsərrüfatı üçün ayrıldı. 2.349 desyatinlik torpaq sahəsi isə İmamqulukənd, Aşağı Ləkər, Qalagah kəndliləri arasında bölündü[319].

1920-ci ilin sentyabr ayınadək Quba qəzasında mülkədarların sahibliyində olan 3.198 desyatindən artıq meşə yeri müsadirə edilərək, qəza torpaq komitəsinin ixtiyarına keçdi[320].

---

[317] Yenə orada, vər. 129.
[318] Azərbaycan SSR OİMDA, fond 2502, siyahı 1, iş 5, vər. 150.
[319] Azərbaycan SSR OİMDA, fond 2502, siyahı 1, iş 5. vər. 140-150.
[320] Yenə orada, fond 2096, siyahı 1, iş 9. vər, 33.

Quba qəzasında müsadirə edilmiş mülkədar malikanələrində 8 sovet təsərrüfatı təşkil edildi[321]. Onlardan Xaçmaz stansiyası yaxınlığında Neruçyevin, Qusarda Kvelin, Sorokinin bağ təsərrüfatını, Xudat stansiyası yaxınlığında Həmidkənddə Tağıyevin, Xudat poçta stansiyası yaxınlığında De-Burun, Qusarçay dəmiryol stansiyası qarşısında Qukasovun baq şərabçılıq təsərrüfatını göstərmək olar[322].

Sovet hökumətinin aqrar tədbirlərinin həyata keçirilməsi sahəsində Nuxa qəzasında da böyük işlər görülürdü. Nuxa qəzasında 1920-ci ilin avqust ayına kimi bəy-xan torpaqlarının çox mühüm hissəsi müsadirə edilərək qəza torpaq komitəsinin ixtiyarına verilmişdi. Torpaq haqqında dekretin həyata keçirilməsini başa çatdırmaq məqsədi ilə 1920-ci il avqustun 15-də Nuxada torpaq komitələri nümayəndələrinin qurultayı keçirildi. Müsadirə edilmiş sahibkar torpaqlarını yoxsul kəndlilər arasında necə bölüşdürmək haqqında qurultayda nümayəndələrə konkret göstərişlər verildi. Torpaq dekretinin həyata keçirilməsini təmin etmək məqsədi ilə üç torpaq komissiyası təşkil edildi [323]. Torpaq komissiyaları yerölçənlərlə birlikdə fəaliyyətə başladılar.

Mülkədar torpaqlarının müsadirə edilərək, yoxsul kəndlilər arasında bölüşdürülməsi işini Gəncə, Şamxor, Qazax, Cavanşir, Göyçay, Nuxa qəzalarının və başqa qəzaların torpaq komitələri qətiyyətlə həyata keçirirdilər.

Respublikamızın başqa rayonlarında olduğu kimi, Qarabağda da vəziyyət dəyişdi, yerli inqilab komitələri möhkəmlənir, torpaq komitələrinin fəaliyyəti genişlənirdi.

Yaradılan dinclik və əmin-amanlıqdan istifadə edən Azərbaycanlı və erməni əhalisi təsərrüfat işlərinə başlayırdı.

İri mülkədar torpaqlarının, daşınar və daşınmaz inventarlarının müsadirə edilməsi və bölünməsi sahəsində iş genişlənirdi. Məsələn, Qalabəyovlardan alınan mal-qara və atların yoxsul əhali arasında pulsuz bölünməsi üçün tədbir görüldü[324].

Qaçan əksinqilabçıların avadanlığı yoxsul kəndlilərin xeyrinə müsadirə edilirdi. Tərtərlə (indiki Mir Bəşir rayonu) Yevlax arasında olan bir neçə min desyatinlik bəy və xan torpaqları torpaq şöbəsinin sərəncamına keçmişdi.

Qarabağın dağlıq hissəsində partiya işi xüsusi ilə qüvvətli idi. Burada kommunist özəklərinin sayı sürətlə artırdı, çoxlu gənc partiya üzvlüyünə namizəd yazılırdı. Əhali içərisində geniş təbliğat, təşkilat işlərinin aparılması partiya və hökumətin qərarlarını müvəffəqiyyətlə həyata keçirmək imkanı verirdi[325].

Sovet hakimiyyətinin aqrar siyasəti on minlərlə yoxsul Azərbaycan kəndlisinin vəziyyətini əsaslı surətdə yaxşılaşdırırdı. Kəndlilər Sovet

[321] Yenə orada, fond 27, siyahı 1, iş 275, vər. 129.
[322] Yenə orada, fond 271, siyahı 1, iş 6, vər. 7.
[323] «Азербайджанская беднота» qəzeti, 26 avqust 1920-ci il, № 28.
[324] «Kommunist» qəzeti (rusca), 18 iyun 1920-ci il, № 39.
[325] Azərbaycan SSR OİMDA, fond 27, iş 275, vər. 66.

hakimiyyətinin onların öz hakimiyyəti olduğuna təcrübədə inandılar. Cananşir qəzasının Mehdixanlı kəndində ətraf kəndlərdən toplanmış 10.000 nəfər zəhmətkeş kəndlinin iştirakı ilə 1920-ci il iyunun 10-da keçirilmiş mitinqdə qəbul edilmiş qətnamədə deyilirdi: «Bütün dünya proletariatının rəhbəri yoldaş Lenini və bütün kommunist yoldaşları salamlayaraq, onların nəzərinə çatdırır və and içirik ki, əldə silah Sovet hakimiyyətini müdafiə edəcək, bu gün aldığımız torpağı heç bir vəchlə nə bəylərə, nə xanlara, nə də qolçomaqlara verməyəcəyik, hər hansı bir yerdə əksinqilab baş qaldırarsa, onu yer üzündən siləcəyik»[326].

Azərbaycanda Sovet hakimiyyətinin qəti qələbəsi respublikamızın simasını, iqtisadiyyatını, mədəniyyətini və məişətini dəyişdirir, siniflər və millətlər arasında yeni münasibətlər yaranmasına səbəb olurdu, Kommunist partiyasının Lenin milli siyasəti qardaş Azərbaycan və erməni xalqlarının qarşılıqlı münasibətlərinin bərpasında, bu iki dost xalqın əl-ələ verib yeni cəmiyyət qurmağa başlamalarında böyük rol oynadı. Azərbaycanın görkəmli yazıçılarından Məmməd Səid Ordubadi haqlı olaraq yazırdı: «Qafqazda olan milli ixtilafların məhvi və götürülməsi üçün şuralar qanunlarından qabil və müqtədir bir qanun yoxdur...»[327].

Çar hökumətinin, müsavatçıların, daşnaqların və digər burjua partiyalarının xain siyasəti nəticəsində azərbaycanlılarla ermənilər arasında salınmış milli ədavət həmişəlik olaraq aradan qaldırıldı. Bu iki xalq arasında dostluq və qardaşlıq münasibətlərinin bərpa edilməsi köhnə quruluşun mənfur qalıqlarının aradan qaldırılması, yeni azad və xoşbəxt cəmiyyət yaradılması işinə kömək etdi.

Tarixən qardaş və dost olan bu iki xalq qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında, yeni vəzifələrin həllində əlbir hərəkət edirdilər; onlar sinfi düşmənə qarşı döyüş cəbhəsində olduğu kimi, əmək cəbhəsində də bir-birinə yardım göstərirdilər. Qarabağın Cavanşir qəzası haqqında «Kommunist» qəzetində dərc edilmiş bir məqalədə deyilirdi: «Azərbaycanlılarla ermənilərin münasibəti qardaşcasınadır, taxıl müvəffəqiyyətlə yığılır. Bütün kəndlərdə inqilab komitələri, xalq məhkəmələri və torpaq komitələri yaradılır»[328]. Məhsul yığımında azərbaycanlılara kömək etmək üçün Qarabağın dağlıq hissəsində ermənilərdən kommunist dəstəsi təşkil edilmişdi[329]. Bu təşəbbüs erməni və Azərbaycanlı zəhmətkeşlərinin bir-birinə bəslədiyi mehriban dostluq hisslərinin təzahürü idi.

Beləliklə, kənddə yeni ictimai münasibətlərin yaranması sinfi düşmənin şiddətli müqavimətini aradan qaldırmaq, onların antisovet qiyamlarını müvəffəqiyyətlə yatırmaq, partiya və sovet işçilərinə qarşı əksinqilabçıların qanlı terrora başlamaq cəhdlərini qırmaq və kənd təsərrüfatını inkişaf etdirmək üçün geniş imkanlar açdı, qardaş azərbaycanlı, rus və erməni zəhmətkeş kəndlilərinin yaradıcı qüvvələrini birləşdirdi.

---

[326] «Kommunist» qəzeti (rusca), 18 iyun 1920-ci il, № 41.
[327] Azərbaycan İnqilab Komitəsinin "Əxbari" qəzeti, 28 may 1920-ci il, № 8.
[328] «Kommunist» qəzeti (rusca), 20 iyun 1920-ci il, № 41.
[329] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1. iş 275, vər. 66.

Mülkədar torpaqlarının müsadirə edilməsi bütün millətlərdən olan zəhmətkeşlərin həyati mənafeyini ifadə edən tədbir idi.

Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğv edilməsi işinin əməli surətdə həyata keçirilməsi ciddi çətinliklərə rast gəlirdi. Bu çətinliklər başlıca olaraq özünü aşağıdakı formalarda göstərirdi: a) sinfi düşmənin şiddətli müqaviməti; b) sıx meşəlik və dağətəyi rayonlarda quldur dəstələrinin əməliyyatı; v) İrandan şahsevən, xan və bəy, Ermənistandan daşnaq, Gürcüstandan menşevik quldur dəstələrinin basqınları; q) yerli əhalinin savadsızlığı və geriliyi; ğ) ruhanilərin Sovet hakimiyyətinin aqrar tədbirləri əleyhinə təbliğatı; d) torpaq işində çalışmaq üçün siyasi və texniki kadrların, xüsusi ilə milli kadrların çatışmaması və sairə. Bu çətinliklər haqqında S. Ağamalı oğlu yazırdı: «Torpağı kəndlilər arasında təqsim etməkdə qüvvə xeyli az idi və bəlkə yox idi. Cəmi 31 yerölçən (zemlemer) var ki, onun 20-ci çöldə işləyir. Bunların arasında 2-3 müsəlman var. Bu yerölçənlər arasında müsəlmanın az olması da işi mümanətə və müşkülata salır. Torpaq üstündə çox dava mübahisələr olub və bu saatda da hələ arası kəsilməyib davam etməkdədir. Kəndlilər hələ torpağı ümumi hesab etməyi öyrənməmişlər. Hər kəs öz ata-anasından qalma torpağını istəyir»[330].

N. Nərimanov 1921-ci il oktyabrın 3-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Plenumunun iki sessiyasında kənd təsərrüfatı kadrlarının çatışmaması məsələsindən bəhs edərək demişdi: «Mənim fikrimcə bütün maneələr ondan irəli gəlir ki, bizdə adamlar (kadrlar - red.) yoxdur. Mən yerlərdə oldum və bunların hamısını özüm görüb öyrəndim. Bizdə torpaq məsələsinin çətinləşməsinə səbəb odur ki, adamlar yoxdur, onları hazırlamaq lazımdır»[331].

Torpaq haqqında dekretin həyata keçirilməsində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq məqsədi ilə 1920-ci iyulun 27-dən avqustun 3-nə kimi Bakıda Azərbaycan qəza torpaq komitələri sədrlərinin qurultayı oldu. Qəza torpaq komitələri sədrlərinin qurultaya verdikləri məlumatlarda torpaq haqqında dekretin həyata keçirilməsi sahəsində xeyli müvəffəqiyyət qazanıldığı göstərilirdi[332].

Qurultay torpaq haqqında dekretin həyata keçirilməsi işini sürətləndirmək məqsədi ilə müvafiq tədbirlər gördü ki, bunların da böyük əhəmiyyəti var idi. Qurultayın qətnaməsində deyilirdi: «Torpaqlar bölüşdürülərkən birinci növbədə torpaqsız və aztorpaqlı kəndlilər torpaqla təmin edilməlidirlər. Torpaq haqqında dekret nəşr edildikdən sonra həmin yerə gələn əhaliyə isə ikinci növbədə torpaq verilməlidir»[333].

Qurultay kənd təsərrüfatı kardlarına böyük ehtiyac olduğunu nəzərə alaraq yerölçənləri, mühəndisləri, aqronomları, su təsərrüfatı işçilərini və başqa

---

330 «Azərbaycan füqərası» qəzeti, 2 fevral 1921-ci il, № 27.

331 Первая и вторая сессии Пленума Азербайджанского Центрального Комитета Советов, стеногр. отчет. Bakı, 1922, səh. 34.

332 Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 3, vər. 7, 9.

333 «Kommunist» qəzeti (rusca), 6 avqust 1920-ci il. № 81.

mütəxəssisləri işə dəvət etmək, Xalq Torpaq Komissarlığının işini geniş miqyasda təşkil etmək üçün çox mühüm tədbirlər qəbul etdi. Qurultay bilavasitə zəhmətkeş kəndlilərdən kənd təsərrüfatı kadrları hazırlamaq məsələsini bir vəzifə olaraq qarşıya qoydu. Qurultay qısa müddətli kənd təsərrüfatı, meşəçilik, yerölçən və hidrotexnik kursları açmaq üçün konkret qərarlar qəbul etdi[334].

Məlum olduğu kimi, Vətəndaş müharibəsi və xarici müdaxilə illərində Azərbaycanın bir sıra rayonlarında yerli əhali başqa yerlərə qaçmışdı. Onların atıb getdikləri torpaqları isə az sonra başqa kəndlərin torpaqsız və aztorpaqlı əhalisi tutaraq, orada yaşamağa başlamışdılar.

Sovet hakimiyyəti qurulandan sonra, qaçqınlar öz evlərinə qayıtmağa, vaxtı ilə istifadə etdikləri torpaqları becərməyə çalışırdılar. Bununla əlaqədar olaraq narazılıqlar, çətinliklər meydana çıxırdı. Qurultay əmələ gəlmiş belə bir vəziyyəti nəzərə alaraq qət etdi ki, vaxtı ilə atılmış torpaqlarda tamamilə əhali yerləşdirilmişsə həmin əhalinin yerləşdiyi torpaqlardan köçürülməsinə yol verilməməlidir. Harada mümkünsə dinc yolla qaçqın əhali torpaqla təmin edilməlidir.

Vətəndaş müharibəsi və xarici müdaxilə nəticəsində Azərbaycanda yüzlərlə kənd dağıdılmışdı. Qurultay bütün bu torpaqları milliləşdirməyi, kənd təsərrüfatı alətləri və iş heyvanları çatışmadığından, həmin torpaqları kollektivcəsinə becərməyi qərara aldı[335].

Azərbaycanda yerli qüvvələri torpaq haqqında dekretin həyata keçirilməsi məsələsi ətrafında səfərbər etmək məqsədi ilə Azərbaycan SSR Xalq Torpaq Komissarlığının göstərişi ilə qəzalarda da torpaq komitələri nümayəndələrinin, kəndlilərin qurultayları çağırılırdı. Onlardan Gəncə qəzasında olan torpaq komitələri nümayəndələrinin qurultayını göstərmək olar. Bu qurultay 1920-ci il avqustun 7-də Gəncə şəhərində açılmışdı. 1920-ci il avqustun 11-də isə Bakıda Bakı qəzası bitərəf kəndlilərinin qurultayı oldu. Bu qurultaylar torpaq haqqında dekretin həyata keçirilməsinin sürətləndirilməsi, yoxsul kəndlilərin torpaq, iş heyvanı və kənd təsərrüfatı alətləri ilə təchiz edilməsi, onların artel və kommunalarda birləşdirilməsi, istismarçı ünsürlərin daha da sıxışdırılması, yerlərdə zəhmətkeş kəndlilərin hakimiyyətinin möhkəmləndirilməsi məqsədini güdürdü. Məsələn, Gəncə qəzasının torpaq komitələri nümayəndələri qurultayının qəbul etdiyi qərarda deyilirdi ki, torpaq, su, canlı və cansız kənd təsərrüfatı avadanlığı üzərində xüsusi mülkiyyətin qəti surətdə məhv edilməsi və onların yaxın zamanda torpaq komitələrinin ixtiyarına keçməsi üçün bütün tədbirlər görülsün. Torpaqların birinci növbədə torpaqsız, sonra isə aztorpaqlı kəndlilərə verilməsi işinə başlanılmalıdır. Mülkədarlardan müsadirə edilmiş torpaqların əkilməsi üçün kəndlilərə hərtərəfli yardım göstərilməlidir. Bəylərdən, xanlardan və

---

334 Yenə orada.
335 «Kommunist» qəzeti (rusca), 6 avqust 1920-ci il. № 81.

başqa mülkədarlardan müsadirə edilmiş iş heyvanları bu məqsədlə kəndlilərə verilməlidir. Artel və kommunaların təşkili üçün lazımi tədbirlər görülməlidir[336].

Bakı qəzası bitərəf kəndlilərinin qurultayının qəbul etdiyi qərarda yuxarıda deyilən məsələlərə toxunmaqla yanaşı, su, əkin üçün toxum fondunun yaradılması məsələlərindən də bəhs edilirdi. Orada göstərilirdi ki, yeni suvarma mənbələrini axtarıb tapmaq və mövcud olan suvarma şəbəkələrinin yaxşılaşdırılması yolu ilə suvarılan torpaq sahəsinin genişləndirilməsi işinə başlanılmalıdır.

Qurultay payız əkininin yaxınlaşması ilə əlaqədar olaraq kəndlilərin toxumla təchiz edilməsi üçün bütün tədbirləri görməyi qərara aldı. Bu münasibətlə qurultay qət etdi ki, Sovet təsərrüfatlarından gələn bütün məhsul toxum fonduna çevrilsin, ədalətli, möhkəm qiymətlərlə məcburi satınalma və əmtəə mübadiləsi (neft, duz və sairə) yolu ilə toxum fondu yaradılsın[337].

Bu qurultayın respublikada torpaq məsələsinin həlli, yoxsul kəndlilərin vəziyyətinin yaxşılaşması, onların fəaliyyətinin mütəşəkkil xarakter alması, kənd təsərrüfatının bərpası üçün böyük əhəmiyyəti var idi.

Azərbaycan qəzalarında fəhlə və kəndli hakimiyyətinin yaradılıb möhkəmlənməsində, torpaq dekretinin və bütün başqa tədbirlərin həyata keçirilməsində partiya təşkilatları rəhbər rol oynayırdılar. Partiya təşkilatlarının qüvvətli olduqları yerlərdə partiya və hökumətin qərarları müvəffəqiyyətlə həyata keçirilirdi. Zəhmətkeşlərin arasında kommunistlərin nüfuzu gündən-günə artırdı. Kommunist partiyası sıralarına yeni-yeni qabaqcıl adamlar daxil olurdular. Kommunist özəkləri kəndin yoxsul, zəhmətkeş kütlələrini yeni vəzifələr ətrafında səfərbər edərək, onların istismarçı, düşmən siniflərə qarşı mübarizəsinə rəhbərlik edirdilər.

Kommunist özəklərinin fəaliyyəti haqqında aşağıdakı fakt xüsusi ilə maraqlıdır. Həmin faktda göstərilirdi: «Xızı kəndinə gələn sovet işçiləri kəndlilər arasında geniş iş aparırlar. Onlar mülkədarların torpaqlarını əllərindən alaraq, ən yoxsul kəndlilərə verirlər. Yoxsul kəndlilər kommunist özəyinin iştirakı olmadan heç nə etmirlər. Kəndlilər kommunist özəyinə məsləhət üçün, onları həyəcanlandıran bütün məsələlər üzrə müraciət edərək, yalnız ondan lazımi göstərişlər alırlar»[338].

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi yerlərdə partiya özəklərinin işini yaxşılaşdırmaq, qəza partiya komitələrində yol verilən nöqsanları aradan qaldırmaq, partiya təşkilatlarından qolçomaq, düşmən ünsürləri təmizləmək məqsədi ilə lazımi tədbirlər görürdü.

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin bütün qəzaların partiya komitələrinə 1920-ci il 15 avqust tarixli müraciətində deyilirdi ki, bütün

---

[336] "Kommunist" qəzeti (rusca), 27 avqust 1920-ci il, № 98.
[337] «Азербайджанская беднота» qəzeti, 15 avqust 1920-ci il, № 19.
[338] "Kommunist" qəzeti (rusca), 5 avqust 1920-ci il, № 80.

qəzaların partiya komitələri və kommunistlər yerlərdə Kommunist partiyası təşkilatlarını yaratmaq üçün bütün qüvvələrini səfərbər etməlidirlər.

Mərkəzi Komitə yerli partiya təşkilatlarının qarşısında duran vəzifələrdən bəhs edərək göstərirdi ki, partiya özəklərinin üzvləri arasında ciddi təmizlik aparılmalıdır. Özəklər olan yerlərdə, özəkləri birləşdirib yuxarı təşkilatlara, nahiyə partiya komitələrinə tabe etmək lazımdır. Nahiyə partiya təşkilatlarında ciddi təmizlik aparılmalıdır. Kommunist partiyası üzvləri sırasına girməyə müvəffəq olan qolçomaqları və təsadüfi adamları partiya sıralarından qovmaq lazımdır.

Mərkəzi Komitə yerli təşkilatlara müraciət edərək, onları partiya intizamına ciddi riayət etməyə, Azərbaycan Kommunist partiyasının vahid ailəsində birləşməyə çağırırdı. Müraciətdə partiya özəklərinin nahiyə komitələri ilə, nahiyə komitələrinin qəza komitələri ilə, qəza komitələrinin Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi ilə əlaqəsinin möhkəmləndirilməsi tələb edilirdi.

Mərkəzi Komitənin müraciətində deyilirdi ki, torpaqların yoxsullara verilməsi forması məsələsi partiya tərəfindən həll edilir, əməli surətdə isə Xalq Torpaq Komissarlığı və onun yerlərdəki orqanları tərəfindən həyata keçirilir. Əksinqilabçılara qarşı mübarizə forması partiya tərəfindən həll edilir, əməli surətdə isə fövqəladə komissiya vasitəsi ilə həyata keçirilir. Mərkəzi Komitə müraciətin axırında yerlərdəki partiya təşkilatlarını yorulmadan işləməyə çağıraraq göstərirdi ki, yalnız bu yolla ölkədə fəhlə və kəndlilərin hakimiyyətini möhkəmlətmək olar[339].

Bir tərəfdən qəza torpaq komitələri sədrlərinin qurultayı və onun qətnaməsi, digər tərəfdən də Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin müraciəti yerlərdə partiya və sovet təşkilatlarının işlərinin nizama salınması, düşmən ünsürlərinin ifşa edilib aradan qaldırılması, torpaq haqqında dekretin həyata keçirilməsi üçün mühüm tədbirlər idi.

Azərbaycanda Sovet hakimiyyətinin möhkəmlənməsində, partiya və hökumətin qarşıya qoyduqları vəzifələrin yerinə yetirilməsində kommunistlərlə yanaşı, komsomolçular da böyük rol oynayırdılar. O zaman Azərbaycan Kommunist fəhlə-kəndli Gənclər İttifaqı sıralarında 10.000 gənc birləşmişdi, onların 7.000-i kəndli idi[340].

Kənddə sosialist inqilabının qələbəsi və əksinqilabçıların darmadağın edilməsində gənclər möhkəm qüvvə idi. Onlar əldə silah sosialist dövlətinin möhkəmlənməsi uğrunda mübarizə edirdilər. Kəndli gənclər xan və bəylərin, başqa istismarçı ünsürlərin müqavimətinin aradan qaldırılmasında, sosialist tədbirlərinin həyata keçirilməsində partiya və sovet orqanlarının ən yaxın və fəal köməkçiləri idilər.

[339] "Kommunist" qəzeti (rusca), 15 avqust 1920-ci il, № 88.
[340] "Kommunist" qəzeti (rusca), 15 avqust 1920-ci il, № 62.

Azərbaycan gənclərinin fəaliyyətinə düzgün istiqamət verilməsi işində 1920-ci il iyulun 15-də çağırılan Azərbaycan Kommunist fəhlə-kəndli Gənclər İttifaqının birinci qurultayının böyük əhəmiyyəti oldu. Qurultay nümayəndələrinin əksəriyyətini kəndli gənclər təşkil edirdi ki, onların da sayı 300-ə kimi idi. Fəhlə nümayəndələrinin sayı 60 idi ki, onlar da əsasən Bakı fəhlələrini və dəmiryolçuları təmsil edirdilər[341].

Gənclər qurultayının əsas məsələlərindən biri torpaq məsələsi idi. Gənclər qurultayı qeyd etdi ki, yalnız torpaq məsələsinin həlli Azərbaycanda inqilabın qələbəsini təmin edə bilər, yalnız bəy, xan və başqa sahibkar torpaqlarının inqilabi yolla tutulması kəndliləri maddi və mənəvi əsarətdən xilas edər. Daha sonra qurultay göstərdi ki, indi bütün torpaq kəndlilərə məxsusdur, növbəti vəzifə isə torpaqların kəndlilər tərəfindən tutulmasıdır[342].

Partiya və hökumətin gördüyü tədbirlər, gənclər qurultayının qəbul etdiyi bu qərar torpaq dekretinin təxirəsalınmadan həyata keçirilməsi zəruriyyətindən doğurdu.

Azərbaycan kəndində torpaq haqqında dekretin həyata keçirilməsi ilə yanaşı, kənd təsərrüfatını yenidən qurmaq, kəndlilərin maddi-rifahını yaxşılaşdırmaq vəzifələri də günün təxirəsalınmaz məsələləri sırasında dururdu. Müharibə və silahlı müdaxilə nəticəsində, müsavatın qanlı ağalığı üzündən kənd təsərrüfatı bərbad vəziyyətə düşmüş, əkin sahələri, habelə məhsuldarlıq son dərəcə azalmışdı. Bununla əlaqədar olaraq respublikada ərzaq vəziyyəti gərgin şəkil almışdı[343].

Yoxsul əhali ərzaq mallarının çatışmamasından əziyyət çəkdiyi və ağır məhrumiyyətə tab gətirdiyi bir zamanda mülkədarlar, qolçomaqlar, möhtəkirlər taxılı qəsdən gizlədərək, ərzaq böhranını kəskinləşdirməyə, fəhlə-kəndli hakimiyyətinə zərbə vurmağa çalışırdılar.

V. İ. Lenin qolçomaqların istismarçı, soyğunçu təbiətini ifşa edərək yazmışdı: «Bu qaniçənlər müharibə zamanı xalqın ehtiyacından istifadə edərək varlanmışlar, onlar taxılın və başqa məhsulların qiymətini qaldıraraq, min və yüz minlərlə pul toplamışlar. Bu hörümçəklər müharibə üzündən var-yoxdan çıxan kəndlilər hesabına, aclıq çəkən fəhlələr hesabına piylənirdilər. Şəhərlərdə və fabriklərdə fəhlələr daha artıq aclıq çəkdiksə, bu zəlilər zəhmətkeşlərin qanını soraraq daha çox varlanırdılar»[344].

Taxılın çatışmaması ilə əlaqədar olaraq, Azərbaycan İnqilab Komitəsi 1920-ci il avqustun 26-da taxıl inhisarı haqqında dekret verdi. Dekretə görə, bütün taxıl ehtiyatı dövlət malı elan edildi. Dekretdə əsas zərbə istismarçı ünsürlərə - qolçomaq və möhtəkirlərə qarşı yönəldilmişdi. Taxıl inhisarına rəhbərlik işi

---

341 "Kommunist" qəzeti (rusca), 25 iyul 1920-ci il, № 70.
342 Yenə orada.
343 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 273, vər. 49.
344 V. İ. Lenin. Əsərləri, 28-ci cild. Bakı. Azərnəşr, 1952, səh. 44.

Azərbaycan SSR Xalq Ərzaq Komissarlığına tapşırılmış və ona bu sahədə on geniş səlahiyyət verilmişdi[345].

Azərbaycan İnqilab Komitəsi zəhmətkeşlərə, o cümlədən yoxsul kəndlilərə müraciət edərək, onları sıx birləşməyə, taxıl möhtəkirlərinə və taxılı gizlədənlərə qarış mübarizə aparmağa çağırırdı.

Azərbaycan İnqilab Komitəsinin taxıl inhisarı haqqında dekretini rəhbər tutan fəhlə-kəndli hakimiyyəti orqanların respublikada taxıl tədarükü işini genişləndirdilər. Lakin bu tədbirlər çətinliklə həyata keçirilirdi. Mülkədar, qolçomaq və möhtəkirlər taxılın və başqa ərzaq mallarının müsadirə edilməsi işinə müqavimət göstərirdilər.

Sinfi düşmənin müqavimətinə baxmayaraq ərzaq tədarükü müvəffəqiyyətlə davam edirdi. Zəhmətkeş kəndlilər yüksək şüurluluq, böyük vətənpərvərlik nümunələri göstərərək, artıq ərzaq mallarını dövlətə verirdilər. Bir çox qəzalarda dövlət üçün ərzaq tədarük edilməsi işinə hələ 1920-ci ilin iyun ayından başlanmışdı. 1920-ci il iyunun 27-də Quba qəzasının Qusar nahiyəsi kəndlilərinin birinci qurultayında Azərbaycan Sovet Respublikasının ərzaq ehtiyacını nəzərə alan zəhmətkeş kəndlilər ərzaq məsələsinə dair qətnamə qəbul edib, taxılın artıq hissəsini möhkəm qiymətlərlə dövlətə verməyi qərara almışdılar [346]. Cavad qəzasında yaralı və xəstə qızıl əsgərlərə yardım günü keçirilmişdi. Kəndlilər yaralı və xəstə qızıl əsgərlərə yardım olaraq 167.472 manat pul, 100 pud taxıl, 14 pud yarma, 40.000 yumurta, 22 girvənkə yağ, alt paltarı, 200-dən artıq döşəkağı və sairə vermişdilər[347].

Lakin zəhmətkeş kəndlilərin fəallığı, ərzaq orqanlarının gördükləri tədbirlər və sairə respublikanı ağır ərzaq çətinliyindən xilas edə bilmirdi. Çünki minlərlə desyatin əkin sahəsi əkilməmiş qalmışdı. Suvarma sisteminin sıradan çıxması üzündən məhsuldarlıq ciddi şəkildə aşağı düşmüşdü. Bununla əlaqədar olaraq respublikada ərzaq vəziyyəti gərgin şəkil almışdı.

Bu münasibətlə N. Nərimanov 1920-ci il mayın 25-də V. İ. Leninə yazırdı: «İşlərimiz yaxşı gedir, lakin ərzaq məsələsi çox çətinlik törədir. Hazırda biz düzgün ərzaq siyasəti yeridə bilmirik. Olmazmı, taxıl yığmaqdan ötrü Şimali Qafqazda bizim üçün müəyyən bir sahə ayırasız. O zaman hər bir işi möhkəm surətdə yerinə yetirmək olar»[348].

(Belə bir şəraitdə Sovet Rusiyası Azərbaycan xalqına öz qardaşlıq əlini uzatdı. V. İ. Leninin sərəncamı ilə təkcə 1920-ci ilin may ayından iyun ayının 9-na kimi Sovet Rusiyasından Azərbaycan zəhmətkeşləri üçün 683 vaqon taxıl göndərilmişdi[349].

---

[345] СУ Азерб. ССР, 1920-ci il, № 4, səh. 354.
[346] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, 275, vər. 66.
[347] «Красный Воин» qəzeti, 2 sentyabr 1920-ci il, № 193.
[348] N. Nərimanov. V. İ. Lenin haqqında (külliyyat) ,Bakı, 1957, səh. 38.
[349] Lenin məcmuəsi, XXXIV, səh. 322-323.

Birinci növbədə Bakı proletariatına ərzaq yardımı göstərilirdi. RSFSR Bakı fəhlələrinə hər ay 300.000 pud taxıl verirdi[350]. Həmin ərzaq yardımının böyük iqtisadi və siyasi əhəmiyyəti var idi. Çünki böyük ərzaq çətinlikləri keçirən Bakı fəhlələri aclıqdan xilas edilir, onların neft mədənlərində, fabriklərdə, zavodlarda səmərəli işləmələri üçün imkan yaranırdı. Sovet Rusiyası tərəfindən göstərilən bu yardım Azərbaycan kəndlilərinin də vəziyyətini yüngülləşdirir və ərzaq tədarükünü bir qədər məhdudlaşdırmaq, yerli əhalinin ərzaq ehtiyacını ödəmək, əkin üçün toxum fondu yaratmaq imkanı verirdi. Digər tərəfdən, bu yardım Sovet Rusiyası ilə gənc Azərbaycan Sovet Respublikası arasında dostluq, qardaşlıq ittifaqını daha da möhkəmlədirdi.

Sovet Rusiyasından Azərbaycana kənd təsərrüfatı mütəxəssisləri, yerölçənlər də göndərilirdi. Bu işi qüvvətləndirmək məqsədi ilə 1920-ci il avqustun 31-də Moskvada RSFSR və Azərbaycan SSR Xalq Torpaq Komissarlığı nümayəndələrinin müşavirəsi oldu. Həmin müşavirədə Azərbaycana müxtəlif ədəbiyyat, təlimat, kənd təsərrüfatı avadanlığı göndərilməsi, 10 aqronom, 20 yerölçən və başqa mütəxəssislərin ezam edilməsi qərara alındı[351]. Rusiya Sovet Federativ Sosialist Respublikasından Azərbaycan Sovet Sosialist Respublikasına 1.500 kotan, 15 diskli dırmıq, 100 yaylı kultivator, 25 toxumsəpən maşın, 50 cərgəarası toxa, 50 kərki, 100 otbiçən, 1.500 dəryaz, 2.500 oraq, 15 kökkəsən, 6 kultivator, 1.000 pud mis kuporosu və çoxlu ədəbiyyat göndərildi[352]. Sonrakı illərdə bu yardım daha da qüvvətləndirildi.

Sovet Rusiyasından müntəzəm və hərtərəfli yardım alan, fəhlə sinfi və kəndlilərin ittifaqına, zəhmətkeş kəndlilərin inqilabi yaradıcı fəaliyyətinə əsaslanan yerli partiya və Sovet təşkilatları kəndlilərin vəziyyətini yaxşılaşdırmaq, onları torpaq, kənd təsərrüfatı alətləri, toxum, iş heyvanı və sairə ilə təmin etməyə səy göstərirdilər.

Bu cəhətdən, 1920-ci il sentyabrın 9 - 13-də keçirilmiş Azərbaycan torpaq komitələri nümayəndələrinin ikinci qurultayının fəaliyyəti səciyyəvidir.

Azərbaycan SSR Xalq Torpaq Komissarı S. Ağamalı oğlu qurultayı açarkən demişdir: «Qurultay qarşısında duran əsas məsələ torpaqsız kəndliləri torpaqla təmin etməkdir. Bu tədbirin həyata keçirilməsinə texniki qüvvələrin çatışmamazlığı mane olur»[353]. S. Ağamalı oğlu daha sonra torpaq bölgüsü sahəsində qarşıda duran vəzifələrdən bəhs edərək demişdir: "Torpaqların dəqiq bölüşdürülməsi gələcəyin işidir. Bölgü zamanı baş verə biləcək sərhəd münaqişə mübahisələrinin həlli üçün yerlərdə öz mülahizə layihələrini təqdim edəcək komissiyalar təşkil etmək lazımdır»[354]. Qurultay qeyd etdi ki, yoxsul kəndliləri

---

[350] «Kommunist» qəzeti (rusca), 25 oktyabr 1920-ci il, № 146.
[351] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 1, vər. 53.
[352] Yenə orada, iş 176, vər. 24.
[353] «Азербайджанская беднота» qəzeti, 12 sentyabr 1920-ci il, № 40.
[354] Yenə orada.

torpaqla birinci növbədə təmin etmək lazımdır. Bundan başqa, yoxsul kəndlilərin toxumla təchiz edilməsi haqqında müvafiq qərar qəbul edildi. Həmin qərarda göstərilirdi ki, əhalinin əksər hissəsi toxumu dövlət hesabına alacaqdır. Bu, Sovet hakimiyyətinin zəhmətkeş kəndli kütlələri haqqında göstərdiyi qayğının nəticəsi idi. Qurultay kəndlilərin kənd təsərrüfat avadanlığı, su və sairə ilə təchiz edilməsi, onların meşə yerlərindən istifadə etmələri qaydası haqqında da qərar qəbul etdi[355].

Azərbaycan İnqilab Komitəsi qurultayın qərarlarına əsaslanaraq, bir sıra tədbirlər gördü; kənd təsərrüfatını yaxşılaşdırmaq və inkişaf etdirmək, onu yenidən qurmaq məqsədi ilə 1920-ci il sentyabrın 22-də yüz milyon manatlıq[*] xüsusi fond yaratmaq haqqında dekret verdi[356]. Bu fonddan birinci növbədə ictimai təsərrüfatlara yardım göstərilirdi.

1920-ci ilin payız aylarında Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi prosesi davam edirdi. Hələ müsadirə edilməmiş bir sıra malikanələr müsadirə edilərək ümumxalq malına çevrilirdi. Məsələn, Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 16 sentyabr tarixli dekretinə uyğun olaraq, Mərdəkanda və Şüvəlanda keçmiş kapitalistlərə - Şəmsi Əsədullayevə, Hacınskiyə, Muxtarova, Səfərova və başqalarına məxsus olan cəmisi 110 desyatin torpaq sahəsini əhatə edən 27 malikanə milliləşdirilərək, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının ixtiyarına verildi. Bu malikanələri idarə etmək işi Xalq Torpaq Komissarlığının sovxozlar yarım şöbəsina tapşırıldı[357].

Mülkədar torpaq sahibliyinin ləğv edilməsini başa çatdırmaq, müsadirə edilmiş torpaqların yoxsul kəndlilər arasında bölüşdürülməsini genişləndirmək məqsədi ilə Azərbaycan İnqilab Komitəsi 1920-ci il sentyabrın 30-da yerölçən texniki qüvvələrin səfərbər edilməsi haqqında dekret verdi[358].

Yerölçmə işlərinə yeni mütəxəssislərin cəlb olunması müsadirə edilmiş mülkədar torpaqlarının yoxsul kəndlilər arasında bölüşdürülməsi işinin baş çatdırılmasına imkan verdi. Sovet hökumətinin hər bir yeni tədbiri, torpaq haqqında dekretin və başqa tədbirlərin həyata keçirilməsi işində qazanılan hər bir müvəffəqiyyət sinfi düşməni quduzlaşdırırdı.

Cavad qəzasında sinfi düşmən ünsürlər baş qaldıraraq, kəndlərdə hərc-mərclik salır, Sovet hakimiyyəti əleyhinə təbliğat aparır, torpaq dekretinin həyata keçirilməsinə mane olurdular. Qəzada bir neçə quldur dəstəsi var idi ki, bunlar Petropavlovsk (indiki Sabirabad) və Salyanı tutmaq, əlverişli vəziyyət yaranacağı təqdirdə isə hətta Bakıya hərəkət etmək məqsədini qarşılarına qoymuşdular. Bu

---

[355] Azərbaycan SSR OİMDA, fond 271, iş 237, vər. 1 və 5.
[*] Bu rəqəm çervon qüvvəyə minməmişdən qabaqkı manatlarla hesablanır.
[356] СУ Азерб. ССР, 1920-ci il, № 5, səh. 465.
[357] "Kommunist" qəzeti (rusca), 9 noyabr 1920-ci il, №158.
[358] СУ Азерб. ССР, 1920-ci il, № 6, səh. 555-556.

quldur dəstələrini ingilis imperialistlərinin İrandakı agentləri silahla təchiz edirdilər[359].

Gəncədə, Qarabağda və başqa yerlərdə olduğu kimi, Cavad qəzasında da daxili və xarici düşmən ittifaq düzəldərək Azərbaycanda Sovet hakimiyyəti əleyhinə mübarizə aparmaqda heç bir cinayətdən çəkinmirdi. Qaradonlu nahiyəsindəki quldur dəstələri dinc əhalini talan edir, sədaqətli Sovet adamlarını güllələyirdilər. Biləsuvar nahiyəsində də quldur dəstələri zəhmətkeş əhalini narahat edir və Salyanı tutmağa çalışırdılar. Qaradonlu və Biləsuvar (indiki Puşkin rayonu) nahiyələrindəki quldur dəstələri mülkədar Sarıxan Şirvanskinin başçılığı altında birləşərək Qaradonluya basqın etmiş və az sonra Petropavlovskə yaxınlaşmışdılar.

XI Qızıl Ordu hissələri Cavad qəzası zəhmətkeşlərinin köməyinə gəldi. Əksinqilabçı quldur dəstələrinin hücumunun qarşısı alındı, düşmən Petropavlovsk nahiyəsindən qovuldu, Qaradonlu nahiyəsi quldur dəstələrindən təmizləndi. Quldur dəstələrinin qalıqları İrana qaçdılar. Zəhmətkeş əhalinin dinc təsərrüfat işlərinə başlaması üçün şərait yarandı. Qəzada asayişi bərpa etməkdə inqilab komitəsi sədri Yusif Qasımov mühüm rol oynamışdı. O, inqilab komitəsinin başqa üzvləri ilə birlikdə qəzada Sovet hakimiyyətini möhkəmlətmək yolunda böyük səylə, yorulmaq bilmədən çalışırdı. Qəza inqilab komitəsi və torpaq komitələri partiya və hökumətin aqrar məsələyə dair qərarlarını, torpaq haqqında dekreti həyata keçirmək sahəsində öz fəaliyyətlərini genişləndirdilər. Qəza inqilab komitəsi iri sahibkarlardan Abdullayev, Tumanyans, Arzumanov və başqalarının pambıqtəmizləyən zavodlarını, dəyirmanlarını, su stansiyalarını, apteklərini müsadirə edib milliləşdirdi[360]. Bundan başqa, mülkədarların malikanələri, tikililəri müsadirə edilərək, qəza torpaq komitəsinin ixtiyarına verildi. 1920-ci ilin payızına kimi Cavad qəzasında mülkədar Vinterin 1.352 desyatin, Karamzinin 2.019 desyatin, İsmayıl Hüseynbəyovun və Kafiyyə Sultan xanımın 884 desyatin, Səmədbəy Şixəlibəyovun 1.325 desyatin, İsrafilbəy Şirəlibəyovun 2.293 desyatin, Hüseynbala Babayevin 729 desyatin, Skobelevlərin 11.800 desyatin, İsmayıl Qurbanovun 4.000 desyatindən artıq, həmçinin başqa mülkədarların torpaqları müsadirə edildi[361].

Müsadirə edilmiş torpaqların yoxsul kəndlilər arasında bölüşdürülməsi işi də müvəffəqiyyətlə gedirdi. «Azərbaycan füqərası» qəzeti yazırdı: «Salyan, Hacıqabul və Zubovka dairələrində bütün torpaqlar zəhmətkeş kəndlilər arasında bölüşdürülmüşdür. Əhali hamılıqla torpağı şumlamaq və becərmək işinə başlamışdır»[362]. Xalq təsərrüfatı əhəmiyyəti kəsb edən müsadirə edilmiş mülkədar malikanələrində Sovet təsərrüfatının təşkili işi də sürətlə gedirdi.

---

[359] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 307 a, vər. 2 – 4.
[360] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 307 a, vər. 2 – 4.
[361] Yenə orada.
[362] «Azərbaycan füqərası» qəzeti, 7 oktyabr 1920-ci il, № 5.

Bu zaman Qaraçalada Vinter və Ekkin, həmçinin Karamzinin, Kornilovun, Stepanovun malikanələrində Sovet təsərrüfatları təşkil edildi[363].

Bundan əlavə, Azərbaycan SSR Xalq Torpaq Komissarlığı 1920-ci il oktyabrın 21-də Kafiyyə sultan xanım Hüseynbəyovanın və İsmayıl Hüseynbəyovun, Səmədbəy Şixəlıbəyovun, Kazımbəy Şirəlibəyovun, İsrafilbəy Şirəlibəyovun malikanələrində xalq torpaq komissarlığının bilavasitə idarəsi altında Sovet təsərrüfatları təşkil edildiyini elan etdi[364].

Lakin bəzi yerlərdə müsadirə edilmiş mülkədar torpaqlarının bölüşdürülməsi işində əyintilərə də yol verilirdi. Məsələn, Şuşa qəzasının Ağdam nahiyəsində bəy və xanların müsadirə edilmiş torpaq və əmlakının mühüm hissəsi qolçomaqların əlinə keçmişdi. Qarabağın düzənlik rayonlarında yerli orqanların zəifliyindən nə hazırlıqlı Sovet kadrlarının olmamasından istifadə edən varlılar və qolçomaqlar kənd inqilab komitələrinin bəzi üzvlərini öz təsirləri altına almağa və öz pozucu işlərini davam etdirməyə müvəffəq olmuşdular[365]. Ağdaş qəzasında vəziyyət bu cəhətdən daha yarıtmaz idi. Burada qəza, nahiyə və kənd inqilab komitələri və başqa idarələr Sovet hakimiyyətinə yad ünsürlərlə zibillənmişdi. Keçmiş pristavlardan, uryadniklərdən bir çoxu məsul vəzifələri ələ keçirərək kəndliləri sıxışdırır, onların şikayətlərini qəbul etmir, mülkədarları, qolçomaqları himayə edirdilər. İstismarçı ünsürlər torpaqlarının zəhmətkeş kəndlilərə keçəcəyini görərək bağlarını qırır və başqa ziyankarlıqlara əl atırdılar[366].

Kommunist partiyası və Sovet hökuməti mülkədar torpaq sahibliyinin ləğv edilməsi işini başa çatdırmaq, yoxsul kəndliləri torpaqla təmin etmək uğrunda mübarizə aparmaqla yanaşı, qolçomaqların məhdudlaşdırılması və sıxışdırılması siyasətini yeridirdi. Bunun üçün kənddə Sovet hakimiyyətinin möhkəm dayağını yaratmaq lazım idi. Çünki «Kənd daha vahid deyildi. Mülkədarlara qarşı bir nəfər kimi mübarizə edən kənddə iki cəbhə - fəhlələrlə birliklə qəti surətdə sosializmi həyata keçirməyə doğru getməkdə davam edən və mülkədarlara qarşı mübarizədən kapitala qarşı, pulun hakimiyyətinə qarşı, böyük torpaq islahatından qolçomaqların istifadə etməsinə qarşı mübarizəyə keçən ən yoxsul zəhmətkeş kəndlilər cəbhəsi ilə, daha tavanalı kəndlilər cəbhəsi əmələ gəldi»[367].

Buna görə də Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi kənd yoxsul komitələri yaradılması üçün tədbir gördü. V. İ. Lenin hələ 1918-ci ildə yazmışdı: «Yoxsul komitələri, zəhmətkeş kəndlilərn əsarət altına alan qolçomaqlara, varlılara, istismarçılara qarşı mübarizə etmək üçün lazımdır»[368].

---

[363] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 6, vər. 72.
[364] СУ Азерб. ССР, 1920-ci il, № 6, səh. 623-633.
[365] Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 90, vər. 2.
[366] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 2, iş 23, vər. 10.
[367] V. İ. Lenin. Əsərləri, 28-ci cild, Bakı. Azərnəşr, 1952, səh. 352.
[368] Yenə orada, səh. 46.

1920-ci ilin avqust ayında toplaşmış üçüncü Bakı partiya konfransı qeyd etdi ki, kəndlərdə qolçomaqların təsiri qüvvətli olduğu üçün yerlərdə hələlik kəndli deputatları sovetləri təşkil etmək mümkün deyildir. Konfrans kəndin proletar ünsürlərindən Sovet hakimiyyətinin möhkəm dayağını yaratmaq lazım olduğunu qeyd etdi. Bakı partiya konfransı Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin kənddə yoxsul komitələri təşkil etmək haqqındakı qərarını bəyəndi.

Azərbaycan İnqilab Komitəsi Kommunist partiyasının göstərişlərini rəhbər tutaraq və Sovet Rusiyasının zəngin təcrübəsinə istinad edərək, 1920-ci il sentyabrın 23-də kənd yoxsul komitələrinin yaradılması haqqında dekret verdi.

Dekretdə göstərilirdi ki, yoxsul komitələrinin qarşısında duran əsas vəzifə hökumətin siyasi, ərzaq və torpaq məramnaməsini həyata keçirməkdir[369].

Azərbaycan İnqilab Komitəsinin dekretinə əsasən kənd yoxsul komitələrinin təşkili işi genişləndi. Kənd yoxsul komitələri yerlərdə inqilabi hakimiyyət orqanları kimi meydana çıxdı.

Yoxsul komitələri inqilab komitələrindən fərqli olaraq, təyin edilmir, seçilirdi. Kənd yoxsul komitəsi sədrdən və dörd nəfər üzvdən ibarət olurdu.

Kənd yoxsul komitələri müxtəlif vəzifələri həyata keçirərkən müvafiq xalq komissarlığına, nahiyə və qəza inqilab komitələrinin şöbəsinə tabe olurdular. Məsələn, kənd yoxsul komitəsi torpaq sahəsində müəyyən bir tədbirn həyata keçirərkən Azərbaycan SSR Xalq Torpaq Komissarlığının əsasnamə və təlimatına uyğun hərəkət edir, nahiyə, qəza inqilab komitəsi torpaq şöbəsinin göstərişlərinə tabe olurdu.

Azərbaycan partiya təşkilatı yoxsul komitələrinin təşkili işinə böyük əhəmiyyət verdi. Azərbaycan KP MK kənd yoxsul komitələrinin yaradılması haqqındakı dekretlə əlaqədar olaraq, bütün qəzaların partiya təşkilatlarına müraciət edərək, onları bu işdə fəal iştirak etməyə çağırdı və «Bütün hakimiyyət kənd yoxsullarına!» şüarını bir daha irəli sürdü[370].

Partiya yoxsul komitələrinin qarşısında mühüm vəzifələr qoymuşdu. Yalnız bu vəzifələri həyata keçirmək yolu ilə Azərbaycan kəndində mülkədarların, qolçomaqların və başqa istismarçı ünsürlərin ağalığına, özbaşınalığına son qoymaq olardı.

Yoxsul komitələri qarşısında duran vəzifələr kənddə inqilabi qanunçuluğu qorumaqdan, cinayətkar, əksinqilabçı ünsürlərə qarşı mübarizə aparmaqdan, fəhlə - -kəndli hakimiyyətinin bütün qərarlarını kəndlilərə izah edib həyata keçirməkdən, kənd təsərrüfatını bərpa və inkişaf etdirməkdən, ərzaq tədarükü işində ərzaq orqanlarına yaxından yardım göstərməkdən, möhtəkirlərə, taxıl tədarükü işini pozanlara qarşı amansız mübarizə aparmaqdan və sairədən ibarət idi.

---

[369] СУ Азерб. ССР, 1920, № 5, səh. 482 - 483.
[370] «Азербайджанская беднота» qəzeti, 26 sentyabr 1920-ci il, № 52.

Kənd yoxsul komitələrinin qarşısında duran ən mühüm vəzifələrdən biri də yer quruluşu və torpaq haqqındakı qanunların düzgün yerinə yetirilməsinə nəzarət etməklə bərabər, bu işdə yaxından iştirak etmək idi.

Hərbi, maarif, səhiyyə, ictimai təminat işləri sahəsində də kənd yoxsul komitələri müvafiq vəzifələri həyata keçirməli idilər[371].

1920-ci ilin oktyabr ayından partiya və hökumətin göstərişlərinə uyğun olaraq, yerlərdə kənd yoxsul komitələrinin təşkili işi genişləndi. Bu mühüm məsələnin həlli mərkəzdə və yerlərdə partiya təşkilatlarının diqqət mərkəzində dururdu.

Kənd yoxsul komitələrinin təşkili işini yüksək səviyyədə keçirmək məqsədi ilə Bakıdan yerlərə partiya işçiləri, qabaqcıl fəhlələr göndərildi.

Azərbaycanda təşkil olunan yoxsul komitələri 1918-ci ildə Sovet Rusiyasında təşkil olunan yoxsul komitələrindən xeyli fərqli idilər. Bu fərq, hər şeydən əvvəl, ondan ibarət idi ki, Sovet Rusiyasında yoxsul komitələri sovetlərin mövcud olduğu şəraitdə fəaliyyət göstərirdilər. Azərbaycan SSR-də isə yoxsul komitələri sovetlərdən əvvəl yaradıldığına görə onların kəndlərdə geniş sərəncamverici və icraedici hüquqları var idi.

Partiya rəhbərliyi, Bakı proletariatının göstərdiyi yardım kənd yoxsul komitələrinin təşkili və onların fəaliyyətinin genişləndirilməsi, fəhlələrlə kəndlilərin ittifaqının möhkəmləndirilməsi üçün çox əhəmiyyətli idi.

Azərbaycan partiya təşkilatı Sovet Rusiyasının zəngin təcrübəsinə istinad edərək fəhlələrlə kəndlilərin ittifaqını möhkəmlətmək, şəhərin kəndə yardımını qüvvətləndirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirdi. Bu tədbirlərdən biri də kəndli həftəsi idi.

Sovet Rusiyasında kəndli həftəsi 1920-ci ilin avqust ayında keçirilmişdir. Belə bir tədbir kəndlilər arasında təbliğat və təşviqatı əyani vasitələrlə aparmağa imkan verirdi. RSFSR-in bütün şəhərlərində çoxlu fəhlə dəstələri səfərbər edilib kənd, göndərildi. Onların tərkibində çilingərlər, dülgərlər, dəmirçilər, dərzilər, mühəndislər, aqronlar və başqaları var idi. Təbliğatçılar, təşviqatçılar, mədəni-maarif fəalları da bu işə cəlb edilmişdilər.

Rusiyada keçirilən kəndli həftələri kəndlilərin təsərrüfatça dirçəlməsinə, onların güzəranının yaxşılaşmasına kömək etdi, şəhər və kənd zəhmətkeşlərinin qardaşlıq ittifaqının möhkəmlənməsində böyük rol oynadı.

«Azərbaycan füqərası» qəzeti yazırdı: «Rusiyada kəndli həftəsi təşkili nəhayət dərəcədə böyük mənfəətlər verdiyi təcrübə olunduğuna, Azərbaycanda icraiyyə qoyulacaq kəndlilər həftəsindən biz böyük nəticələr gözləməyə haqlıyıq»[372].

---

[371] «Азербайджанская беднота» qəzeti, 3 oktyabr 1920-ci il, № 58.
[372] «Azərbaycan füqərası» qəzeti, 29 sentyabr 1920-ci il, № 1.

Qəzet kəndli məsələsində fəhlə sinfinin qarşısında duran vəzifələrdən bəhs edərək yazırdı: «Zira fəhlələr inqilabın başlıca ələmdarı olduqlarına cəhət kəndçi füqərasına rəhbər olub, onları düz inqilab yoluna salmalıdırlar»[373].

Sovet Rusiyasında kəndli həftələri və günlərinin keçirilməsi, habelə onun müsbət nəticələrini nəzərə alan Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin qərarı ilə kəndli həftəsi və ərzaq kampaniyasını keçirmək üçün xüsusi komissiya yaradıldı.

Azərbaycanda kəndli həftəsi və ərzaq kampaniyası keçirilməsinin kənd yoxsul komitələrinin təşkili ilə bir vaxta düşməsi xüsusi ilə böyük əhəmiyyət kəsb edirdi. Bu, kənd istismarçılarına ikitərəfli zərbə endirmək imkanı verirdi. Həmin zərbələrdən biri kənd yoxsul komitələrinin təşkili, digəri isə fəhlələrin kəndli həftəsinə getməsi idi.

Azərbaycan KP MK-nın qərarına əsasən 1920-ci il oktyabrın əvvəllərində kəndli həftəsi keçirmək üçün hazırlıq işləri genişləndi. 1920-ci il oktyabrın 4-də mətbuatda kəndli həftəsi və ərzaq kampaniyasını keçirmək haqqında təlimat elan edildi[374]. Həmin təlimat Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi, Azərbaycan İnqilab Komitəsi, XI Qızıl Ordunun hərbi-inqilabi şurası, Bakı Soveti tərəfindən tərtib edilmiş və bəyənilmişdi.

Kəndli həftəsi və ərzaq kampaniyasını təşkil edib, keçirmək məqsədi ilə Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi yanında komissiya təşkil edildi. Komissiyanın Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi tərəfindən təyin edilmiş 3 nəfərdən ibarət rəyasət heyəti var idi.

Kəndli həftəsini keçirmək məqsədi ilə qəza mərkəzlərində, nahiyələrdə, kəndlərdə ayrı-ayrılıqda üç nəfərdən ibarət komissiya təşkil edilməsi haqqında göstəriş verilmişdi. Təlimatda göstərilirdi ki, kəndli həftəsini keçirməkdə məqsəd kəndlilərə real yardım göstərməkdir. Bu isə kəndlilərə duz, ağ neft, pambıq parça, kibrit və sairə paylamaqdan, kənd təsərrüfatı alətlərini, yolları, körpüləri, su vuran nasosları təmir etməkdən, kanalları təmizləməkdən, bir sıra kənd təsərrüfatı işlərini icra etməkdən, kommunist məfkurəsini, Sovet quruculuğunun əsaslarını geniş təbliğ etməkdən ibarət idi.

Bu vəzifələrin həyata keçirilməsi nəticəsində kəndli təcrübədə inanacaqdı ki, Sovet hakimiyyəti kəndliyə sənaye məhsulları verir, o kəndliyə nəinki torpaq verir, həm də onun becərilməsinə yardım göstərir. Bundan sonra kəndli fəhlələr üçün ərzaq tədarük edilməsinə kömək etməyə bilməzdi.

Kəndli həftəsinə dair təlimatın yeddinci maddəsi torpaq məsələsinə həsr edilmişdi. Orada göstərilirdi ki, kəndlilərə hərtərəfli yardım göstərmək, ərzaq tədarükünü keçirməklə bərabər, qəza və nahiyə üçlüklərinə (komissiyaya), torpağı kəndlilərə vermək, bu işdə ciddi sinfi siyasət yürütmək vəzifəsi tapşırılmışdı.

---

[373] Yenə orada.

[374] “Kommunist” qəzeti (rusca), 4 oktyabr 1920-ci il, № 128.

Təlimatda deyilirdi ki, komissiyalar elə etməlidirlər ki, torpaqlar qolçomaqların əlindən alınıb, onların qolçomaq qohumlarının əlinə keçməsin, əksinə, yoxsullar mülkədarların və iri qolçomaqların torpaqlarını ala bilsinlər. Komissiyalar torpaq bölgüsü işlərində Xalq Torpaq Komissarlığının və torpaq şöbələrinin göstərişlərini rəhbər tutmalı idi.

Kəndli həftəsini keçirməli olan komissiyaların öhdəsində belə bir vəzifənin qoyulması torpaq haqqında dekretin həyata keçirilməsi üçün çox əhəmiyyətli idi.

Partiya və hökumət yoxsul əhaliyə qayğı ilə yanaşaraq, təlimatda göstərirdi ki, yerlərdə nəzərdə tutulan işləri görərkən yoxsul kəndlilərə, qaçqınlara və qızıl əsgər ailələrinə birinci növbədə yardım göstərilməlidir.

Kəndli həftəsini keçirmək üçün təlimatda qabaqcıl şəhər fəhlələrinin, Bakıda və yerlərdə xüsusi şəxslərdə olan emalatxanaların, dəmirçixanaların səfərbər edilməsi, fabrik və zavodlarda kənd təsərrüfatı alətlərinin hazırlanması, imkan daxilində Qızıl Ordu hissələri nəzdindəki emalatxanalardan istifadə edilməsi və sairə göstərilmişdi.

Bu işdə partiya və komsomol təşkilatlarının, başqa idarələrin qüvvəsindən istifadə etmək haqqında da göstəriş verilmişdi[375].

Kəndli həftəsini keçirmək işində Bakı fəhlələrinin öhdəsinə böyük və şərəfli bir vəzifə düşürdü. Partiya göstərirdi ki, Bakı fəhlələri kəndli həftəsini müvəffəqiyyətlə keçirməyə borcludurlar[376].

Kəndli həftəsi və ərzaq kampaniyasını keçirmək məqsədi ilə Bakı və onun rayonlarında fəhlələrin konfransları, mitinqləri, iclasları olurdu. Binəqədi, Ağşəhər, Zığ, Suraxanı və başqa rayonlarda olan yığıncaqlarda fəhlələr kəndli həftəsini və ərzaq kampaniyasını mütəşəkkil qaydada keçirməyi qərara aldılar. Məsələn, Suraxanı rayonu fəhlələrinin konfransının qəbul etdiyi qətnamədə deyilirdi ki, yalnız fəhlə sinfi ilə yoxsul kəndlilərin ittifaqını möhkəmlətməklə, milyonlarla kəndlini bəylərin, xanların, qolçomaqların təsirindən, daha doğrusu, istismarından qurtarmaq olar. Fəhlə-kəndli ittifaqını möhkəmlətmək yolu ilə ərzaq böhranı keçirən Bakı şəhəri üçün bəylərdən, qolçomaqlardan taxıl almaq, fəhlə-kəndli ittifaqını möhkəmlətməklə inqilab düşmənlərinin axırına çıxmaq olar[377].

Bakının mədən, zavod və idarələrində olduğu kimi, Azərbaycan qəzalarında da partiya və hökumətin göstərişlərinə uyğun olaraq, kəndli həftəsinə və ərzaq kampaniyasına hazırlıq işləri aparılırdı. Məsələn, Lənkəran qəza İnqilab Komitəsinin. 1920-ci il oktyabrın 12-də olan iclasında kəndli həftəsini keçirmək üçün yaradılan üçlüyə geniş plan hazırlamaq tapşırılmışdı. İclasın qərarında göstərilirdi ki, partiya qurultayından (Azərbaycan Kommunist partiyasının ikinci qurultayı nəzərdə tutulur) qayıdan işçilər dərhal kəndli həftəsini keçirmək işinə

---

[375] «Kommunist» qəzeti (rusca), 4 oktyabr 1920-ci il, № 128.
[376] «Азербайджанская беднота» qəzeti, 30 sentyabr 1920-ci il, № 56.
[377] «Азербайджанская беднота» qəzeti, 25 oktyabr 1920-ci il, № 77.

başlasınlar[378]. Kəndli həftəsini keçirmək üçun qəza və nahiyələrdə komissiyalar təşkil edilirdi. Ən böyük qəzalardan biri olan Gəncə qəzasının 7-ci nahiyəsində kəndli həftəsinə hazırlıq işləri 1920-ci il oktyabr ayının 15-dən başladı. Kəndli həftəsini keçirmək üçün yaradılan nahiyə komissiyası nahiyədəki əhalini həyətlərin və adamların sayına görə siyahıya alırdı. Siyahıya alınan əhali yoxsul, ortabab, qolçomaq olması etibarı ilə bir-birindən ayrılırdı. Komissiya kəndlilərin tələbatına uyğun olaraq, kəndli həftəsi zamanı nə kimi işlər görmək lazım olduğunu qeydə alırdı[379]. Kəndli həftəsinin qarşısında duran əsas vəzifələr əvvələn zəhmətkeş kəndlilərin qolçomaqlar əleyhinə mübarizəsini təşkil etməkdən, kəndlilərə yoxsul komitələrində təşkil olunmaqda yardım göstərməkdən, bəzi yerlərdə hakimiyyət orqanlarına soxulmuş düşmən ünsürləri ifşa edib qovmaqdan, təbliğat-təşviqat işini genişləndirməkdən, əkinçisi, kəndlinin ən adi ev şeylərinə, kənd təsərrüfatı alətlərinə, ən vacib sənaye mallarına olan ehtiyacını ödəməkdən, üçüncüsü, fəhlələrin ehtiyacını ödəmək məqsədi ilə kənddən taxıl və başqa ərzaq malları almaqdan ibarət idi.

Azərbaycanda kənd yoxsul komitələrinin təşkilinə, kəndli həftəsinə və ərzaq kampaniyasına hazırlıq işləri aparıldığı bir zamanda 1920-ci ilin oktyabrında Azərbaycan Kommunist partiyasının ikinci qurultayı oldu. Qurultayın işində Q. K. Orconikidze, Nəriman Nərimanov, S. Ağamalı oğlu, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Mirzə Davud Hüseynov, Ruhulla Axundov və başqaları iştirak edirdilər. Qurultayın gündəliyində təşkilat, kənddə iş və başqa məsələlər dururdu. Qurultay partiyanın kənddəki siyasətinin müvəffəqiyyətlərini və nöqsanlarını qeyd etdi və sosializm quruculuğu işlərinin gələcək yollarını göstərdi.

Q. K. Orconikidze, N. Nərimanov, S. Ağamalı oğlu, M. D. Hüseynov, Ə. H. Qarayev, H. Sultanov və başqaları öz çıxışlarında kənddə iş məsələsinə toxundular.

Qurultayı Rusiya Kommunist partiyası Mərkəzi Komitəsinin Qafqaz bürosu adından təbrik edən Q. K. Orconikidze kənddə sosialist inqilabının yayılmasına, Sovet hakimiyyətinin möhkəmlənməsinə mane olan bir çox nöqsanların meydana çıxması səbəblərini göstərdi. O, bunu hər şeydən əvvəl, Bakı proletariatının kənddə təsirinin zəifliyi, kəndlilərin avamlığı, onların bir çoxunun kortəbii surətdə istismarçı ünsürlərin, ruhanilərin təsiri altında olması ilə izah etdi. Bu nöqsanları aradan qaldırmaq məqsədi ilə Q. K. Orconikidze dedi ki, biz bəylərə, xanlara və qolçomaqlara qarşı amansız mübarizə aparmalı və eyni zamanda avam Azərbaycan kəndlilərini bəylərin, xanların təsirindən qurtarmalı və bu gün aydın olmayan məsələləri onlara aydınlaşdırmalıyıq. Yoxsula və ortababa sübut etməliyik ki, şəhər proletariatı onun yeganə dostudur[380].

[378] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 246, vər. 27.
[379] «Бакински рабочи» qəzeti, 30 dekabr 1920-ci il, № 46.
[380] Q. K. Ordconikidze. Статьи и речи, 1 cild, M., 1956, səh. 126.

Kənddə iş məsələsini müzakirə edən qurultay qərara aldı ki, «Yerlərdə inqilab komitələri dövründən yoxsul komitələri vasitəsi ilə sovetlərə keçilməlidir»[381]. Qurultay kəndli deputatları sovetlərinə keçmək üçün yoxsul komitələrinin təşkilinin zəruri olduğunu qeyd edib, kəndləri qolçomaq-müsavatçı ünsürlərdən təmizləmək üçün yoxsul komitələrinin çox mühüm əhəmiyyətini göstərdi[382].

RK(b)P VIII qurultayının qərarını və RK(b)P MK-nın kənddə iş haqqında təlimatlarını rəhbər tutan AK(b)P II qurultayı göstərdi ki, partiya təşkilatları yoxsul komitələrinin təşkilinə və sonra isə onların fəaliyyətinə rəhbərlik etməlidirlər. Yerlərdəki partiya təşkilatlarının qarşısında kənddə sinfi təbəqələşməni keçirmək, proletar və yarımproletar ünsürlərini təşkil etmək, yoxsul kəndlilərin hakimiyyətini möhkəmləndirmək vəzifəsi durur. Bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün qurultay göstərdi ki, yerlərdəki təşkilatçıların tərkibi yalnız sınanmış köhnə partiya işçilərindən, şəhər proletariatının nümayəndələrindən olmalıdır.

Qurultay yerlərdə Sovet hakimiyyətini möhkəmlətmək, yoxsul kəndliləri Sovet hakimiyyətinin dayağına çevirmək, ortabab kəndliləri inqilabın tərəfinə çəkmək, qolçomaqlara qarşı mübarizə aparmaq, kənddə təbəqələşmə keçirmək vəzifələrini qarşıya qoydu.

Qurultay yoxsul və ortabab kəndlilərin mənafeyini qoruyaraq, onlara qayğı ilə yanaşmağı, mülkədarlardan, xanlardan, bəylərdən, qolçomaqlardan alınan mal-qaranı, avadanlığı, taxıl və başqa ərzaq ehtiyatlarını zəhmətkeş əhali arasında bölməyi qət etdi. Qurultay göstərdi ki, yalnız bu yolla yoxsul kəndlilər inqilabın verdiyi xeyri real surətdə hiss edə bilərlər.

Qurultay torpaq məsələsinin həllində inqilabi metodun tətbiq edilməsini lazım bildi və göstərdi ki, torpaqları dekret-mexaniki yolla deyil, müsadirə yolu ilə istismarçı siniflərdən alıb yoxsul kəndlilərə vermək lazımdır.

Qurultayın kənddə iş məsələsinə dair qəbul etdiyi qətnamədə göstərilirdi ki, mülkədar torpaq sahibliyinin ləğv edilməsi, bəylərin və xanların torpaqlarının müsadirə edilməsi işi qəti surətdə başa çatdırılmalıdır. Eyni zamanda orada göstərilirdi ki, müsadirə edilmiş torpaqlar dərhal kənd cəmiyyətləri daxilində bölünməlidir.

Kənd cəmiyyətləri daxilində torpaqları bölərkən, qolçomaqların normada nəzərdə tutulduğundan artıq qalan torpağını, mal-qarasını, avadanlığını, iri maldar qolçomaqların mal-qarasını, dən, yem ehtiyatının artıq hissəsini alaraq, dərhal yoxsul kəndlilər arasında paylamalı.

Lakin partiya o zaman qolçomaqları tamamilə əmlakdan məhrum etməyi qarşıya bir vəzifə olaraq qoymamışdı. Bunun üçün hələ lazımi şərait yox idi. Odur ki, qətnamədə deyilirdi ki, qolçomaqlara qarşı mübarizə varlı kəndlilərin əmlakının

[381] Резолюции 2-го сьезда АКП. Bakı, 1920, səh. 10.
[382] Yenə orada, səh. 25-26.

tamamilə müsadirə edilməsinə gətirib çıxarmamalıdır. Bu, yalnız qolçomaqların istismarçı meyllərini məhdud etməyə gətirib çıxarmalıdır. Sovet hakimiyyətinə qarşı açıq mübarizə aparan qolçomaqların isə əmlakının, torpağının, mal-qarasının tamamilə müsadirə edilməsi qət olundu.

Qurultay mülkədarlardan alınan bütün torpaqların (pambıq və sairə texniki bitki sahələrindən başqa) kəndli ailələri arasında bölüşdürülməsini tələb etdi.

Qurultay eyni zamanda xüsusi əhəmiyyət kəsb edən nümunəvi iri malikanələrin bölünməsinin məqsədəuyğun olmadığını göstərərək, onlarda iri sovet təsərrüfatları təşkil etməyi qərara aldı.

Qurultay sudan istifadə edilməsini nizama salmağı, suvarılan torpaqların sahəsini genişləndirməyi qərara aldı. Bu məqsədlə qurultay texniki qüvvələrin (yerölçənlərin, hidrotexniklərin, aqronomların) səfərbər edilməsini lazım bildi.

Azərbaycan Kommunist partiyasının ikinci qurultayı Sovet Rusiyasının zəngin təcrübəsinə əsaslanaraq, öz qətnaməsində şəhərlə kənd arasında sıx əlaqə yaratmaq, Bakı proletariatı ilə yoxsul kəndlilərin sarsılmaz ittifaqını möhkəmlətmək məsələsinə xüsusi diqqət yetirdi. Qurultay Bakı proletariatına müraciət edərək, onu yerlərdə Sovet hakimiyyətini, fəhlə-kəndli ittifaqını möhkəmlətmək işinə yardım göstərməyə, öz sıralarından kəndə təşkilatçı kadrlar göndərməyə çağırdı[383].

Qurultayın qərarları kənddə işi yaxşılaşdırmaqda partiya və sovet təşkilatları üçün proqram oldu. Qurultaydan sonra yoxsul komitələrinin təşkili, mülkədar torpaq sahibliyinin ləğvi, kəndli həftəsinə hazırlıq işləri daha da qüvvətləndi.

Qəzalarda işləri nizama salmaq, yoxsul komitələri təşkil etmək, kənddə partiyanın siyasətini düzgün həyata keçirmək məqsədi ilə yüzlərlə kommunist və bitərəf fəhlələr səfərbər edilib kəndə göndərildi. Bakı proletariatı öz sıralarından 1.500 qabaqcıl fəhləni kəndli həftəsi kampaniyasını keçirmək üçün kəndlərə göndərdi[384]. Onlardan 550 nəfəri kommunist[385], 200 nəfəri komsomolçu[386] və qalanı qabaqcıl bitərəf fəhlə idi. Bu fəhlələrdən 1.200 nəfəri ixtisaslı, 300 nəfəri isə ixtisassız idi. Kəndli həftəsi zamanı kəndə yüzlərlə fəhlə ilə yanaşı, onlarla maarif və mədəniyyət işçisi də göndərilmişdi.

Azərbaycanın zəhmətkeş kəndliləri kəndli həftəsinə gedən Bakı fəhlələrini böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayırdılar. Nuxa qəzasına gedən fəhlələrdən biri Bakıdakı yoldaşlarına göndərdiyi məktubda yazırdı ki, biz, səfərbər edilən yoldaşlar qəzaya gəldik. Burada bizi xüsusilə yoxsullar sevinclə qarşıladılar. Biz gəlməyimizin məqsədini kəndlilərə danışdıq, bu da onları çox sevindirdi. Bir sözlə, kəndli həftəsi ideyası yoxsullara siyasi cəhətcə çox qüvvətli təsir edir[387].

---

[383] Резолюции 2-го сьезда АКП. Bakı, 1920. səh. 26-27.
[384] «Азербайджанская беднота» qəzeti, 29 oktyabr 1920-ci il, №81.
[385] «Бюллетень ЦК АКП», 18 fevral 1921-ci il, № 4.
[386] «Бакински рабочи» qəzeti, 17 dekabr 1920-ci il, № 35.
[387] «Азербайджанская беднота» qəzeti, 29 oktyabr 1920-ci il, №81.

Kommunist özəklərinin qüvvətli olduğu yerlərdə kəndli həftəsi daha mütəşəkkil keçirdi.

Məsul partiya işçiləri kəndli həftəsini keçirmək və təbliğat aparmaq məqsədi ilə kəndlərə göndərilirdilər[388].

Kəndli həftəsinin keçirilməsi işində fəhlələrlə yanaşı, qızıl əsgərlər də fəal iştirak edirdilər. Qızıl əsgərlər kəndlərə ağ neft, duz, dəmir və sairə daşıyırdılar[389].

Qızıl əsgərlər kənd təsərrüfatı alətlərini təmir etmək, yeni kənd təsərrüfatı alətləri qayırmaq, torpaqları becsərmək və başqa işləri görməkdə kəndlilərə yaxından yardım göstərirdilər. Məsələn, Lənkəran qəzasının Ərçivan, Sebid və Biləsuvar nahiyələrində qızıl əsgərlər kəndli həftəsi zamanı 143 kotan, 52 kavahın, 59 furqon və araba, 3 mala və sairə təmir etmiş, 3 yeni təkər qayırmış, 1.660 at nallamış və bir sıra başqa işlər görmüşlər. Bütün işlər pulsuz və birincsi növbədə yoxsul və qızıl əsgər ailələri üçün görülmüşdür[390].

Ağdaş qəzasında qızıl əsgərlər 100 desyatin torpağı şumlayıb əkmişdilər[391].

Qəzalara müxtəlif kənd təsərrüfatı alətləri, sənaye malları və sairə göndərilirdi. Yerlərə göndərilən sənaye malları içərisində 50.000 pud duz, 100.000 puddan artıq ağ neft, 801 min qutu kibrit, 56 min stəkan, 30 min lampa şüşəsi, 50.000 arşın pambıq parça və sairə var idi[392].

Kəndli həftəsini keçirən mərkəzi komissiyanın verdiyi tam olmayan məlumata görə, yerlərdə Bakı fəhlələri tərəfindən ümumiyyətlə 2.713 kotan, 1.051 kavahın, 112 mala, 1.300 xış, 814 bel, 411 yaba, 89 oraq, 62 dəyirman, 125 maşın, 26.369 başqa kənd təsərrüfatı alətləri, 80 körpü, 69 yaşayış binası, 29 qeyri-yaşayış binası, 577 araba və 9.967 balta, 10.546 nal, 18.239 xırda ev şeyləri və sairə təmir edildi və yenisi qaytarıldı[393].

Bundan əlavə, Bakıda hazırlanmış olan çoxlu miqdarda kənd təsərrüfatı alətləri və onların hissələri, ev əşyası, həmçinin ən vacib sənaye malları - ağ neft, kibrit, duz, manufaktura və sairə siyahı üzrə ehtiyacı olan yoxsul kəndlilər, qızıl əsgər ailələri, qaçqınlar arasında paylandı. Fəhlələr tərəfindən kəndlilər arasında geniş təbliğat-təşviqat və təşkilat işləri aparıldı.

Azərbaycan Kommunist partiyası Bakı təşkilatının fəaliyyəti haqqında Azərbaycan KP üçüncü qurultayına verilmiş hesabatda kəndli həftəsi və onun əhəmiyyətindən bəhs edilərək deyilirdi: «Kəndli həftəsi əmələlərlə (fəhlələrlə - red.) Azərbaycan kəndliləri arasında qardaşlıq ovuşması, qardaş köməyi idi. Aylarca davam edən bu həftə ərzində Bakıdan Azərbaycan vilayətlərinə 550 kommunistin başda olması ilə 1.500 əmələ göndərilmişdir. Bunlar Bakıdan

[388] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 246, vər. 40.
[389] «Kommunist» qəzeti (rusca), 9 noyabr 1920-ci il, № 158.
[390] «Бакински рабочи» qəzeti, 10 yanvar 1921-ci il, № 7.
[391] «Бакински рабочи» qəzeti, 4 yanvar 1921-ci il, № 3.
[392] "Azərbaycan füqərası" qəzeti, oktyabr 1920-ci il, № 6.
[393] «Kommunist» qəzeti (rusca), 26 yanvar 1921-ci il, № 19.

vaqonlarla neft, cövhər, duz, dəmir, şüşə, kibrit və sairə aparmışlar. Kəndli həftəsi ərzində kəndlilərin xışları, evləri, ev əşyaları təmir və islah olunmuşdur. Əmələlər kəndlilərə müxtəlif məsələlər haqqında məlumatlar və məsləhətlər vermişlərdir»[394].

Kəndli həftəsinin müvəffəqiyyətlə keçirilməsi yerlərdə ərzaq tədarükü üçün şərait yaratdı. Azərbaycan qəzalarında ərzaq tədarükü partiya və hökumətin göstərişinə uyğun qaydada aparılırdı. Ərzaq tədarükündə qəzanın maddi vəziyyəti nəzərə alınırdı. Bakı fəhlələrinin göstərdikləri qardaşlıq yardımına cavab olaraq, qabaqcıl kəndlilər ərzaq tədarükünü müvəffəqiyyətlə keçirmək üçün nə mümkünsə edirdilər.

1920-ci ilin oktyabr ayından başlayaraq, Azərbaycan qəzalarında kənd inqilab komitələri buraxılmağa və onların yerində kənd yoxsul komitələri təşkil edilməyə başladı.

Kəndli həftəsinə gedən fəhlələr kənd yoxsul komitələrinin təşkili işində böyük rol oynayırdılar. Məsələn, kəndli həftəsi münasibəti ilə Göyçay qəzasına gedən fəhlələr yüzdən çox kənddə yoxsul komitələri təşkil etdilər[395].

1921-ci il fevralın 10-da çağırılmış olan Nuxa qəzası yoxsul komitələrinin birinci qurultayı yoxsul komitələrinin təşkilində Bakı fəhlələrinin gördükləri böyük işdən bəhs edərək öz qətnaməsində yazmışdı: «Nuxa qəza yoxsul komitələrinin birinci qurultayı Bakıdan gələn yoldaşların kənd yoxsullarını təşkil etmək mənasında çox böyük iş gördüklərimi dərindən dərk edərək və qiymətləndirərək, qərara aldı ki, Bakı fəhlələrinə onların Nuxa qəzasındakı nümayəndəsi vasitəsi ilə salam göndərilsin. Nuxa qəzası yoxsul komitələrinin birinci qurultayı dərk edir ki, yalnız şəhər fəhlələri ilə kəndlilər birlikdə, Azərbaycan zəhmətkeşlərinin rifahını yüksəltmək kimi böyük bir işi yerinə yetirə bilərlər. Yaşasın şəhərlə kəndin birliyi»[396].

1921-ci il mayın 25-də Ümumbakı partiya konfransında çıxış edən Q. K. Orconikidze demişdi ki, Bakı fəhlə sinfi yoxsul komitələrinin yaradılmasında həqiqətən ona layiq olan rolu oynadı.

Azərbaycan partiya təşkilatı yüzlərlə Bakı fəhləsini kəndlərə göndərməklə yerlərdə siyasi, təşkilat işlərini yüksək səviyyəyə qaldırmağa müvəffəq oldu. N. Nərimanov Azərbaycan qəzalarında Bakı fəhlələrinin gördükləri, işlərin əhəmiyyətindən bəhs edərək demişdi: «Bakı fəhlələri bizim ilhamvericilərimizdirlər. Bakı fəhlələri bizi işdə tərbiyə edənlərdirlər. Bakı fəhlələri özləri kəndlərdə işləyərək, kəndli yoldaşlarımızı yenidən tərbiyələndirir, Azərbaycanda yeni həyat başlandığını onlara başa salırdılar. Bakı fəhlələri kəndlilərə izah edirdilər ki, öz səadətini, müqəddəratını öz əllərinə almaq vaxtı

---

[394] "Azərbaycan füqərası" qəzeti, 16 fevral 1921-ci il, № 37.
[395] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 275. vər. 150.
[396] Azərbaycan Kommunist partiyasının tarixi, birinci hissə, Bakı, 1958, səh. 410.

çatmışdır. Butün bunlara şübhəsiz, Kommunist partiyamız ilham verir, bizim Kommunist partiyamız düzgün yol göstərir; bu yeni həyatı məhz o yaratmışdır»[397].

N. Nərimanov başda olmaqla Azərbaycanın partiya və sovet təşkilatlarının rəhbər xadimləri özləri də müntəzəm surətdə kəndə gedir və kənddə aparılan işə bilavasitə əməli surətdə kömək edirdilər. Bu münasibətlə «Kənd füqərası» qəzeti yazırdı: «Bir neçə gün bundan qabaq kəndlərdə işləmək və kəndlilərin halını öyrənmək üçün yoldaşlarımız Nəriman Nərimanov, S. Ağamalı oğlu və bir çox başqa yoldaşlar Gəncəyə, Şuşaya, Göyçaya, yoldaşlarımız Ruhulla Axundov ilə Musabəyov Qubaya, Qusara, Dəvəçiyə və başqa kəndlərə getmişlər»[398]. Azərbaycan SSR Xalq Xarici İşlər Komissarı Mirzə Davud Hüseynov 1920-ci ilin dekabrında Lənkəran qəzasına gedərək orada yoxsul komitələri vasitəsi ilə zəhmətkeş əhaliyə sənaye malları verilməsi işini təşkil etmişdi[399]. Hökumət rəhbərlərinin, o cümlədən şəxsən N. Nərimanovun Azərbaycan qəzalarına səfərindən bəhs edən «Azərbaycan füqərası» qəzeti yazırdı: «məzkur yoldaşın (N. Nərimanovun - Ə. R.) dövdətindən sonra hökumətin ümdə diqqət və təvəccöhü Azərbaycan kəndlərinə əta olunmuşdur»[400].

Fəhlə sinfinin yardımına arxalanan yoxsul kəndlilər bəylərə, xanlara, qolçomaqlara qarşı mübarizəni daha da genişləndirir, sinfi düşmənə yeni-yeni zərbələr endirirdilər.

Yoxsul komitələrinin şəxsində kənddə Sovet hakimiyyətinin möhkəm dayağının yaranması ilə sinfi düşmənlə mübarizə zəminində torpaq haqqında dekretin həyata keçirilməsi də xeyli sürətlənir.

Azərbaycan Kommunist partiyasının ikinci qurultayının qətnaməsini rəhbər tutan kəndlilər inqilabi yolla sahibkar torpaqlarını müsadirə edib, aralarında bölürdülər.

Kəndlilərdə bəy, xan və sairə sahibkar torpaqlarının müsadirə edilməsinə qarşı həvəs o qədər qüvvətli idi ki, bir çox hallarda onlar torpaq komitəsinin və ya sahib torpaqlarını müsadirə edən komissiyanın fəaliyyətə başlamasını gözləməyərək, mülkədar torpaqlarını tutur və öz aralarında bölürdülər.

Bu zaman Azərbaycan qəzalarında istismarçı ünsürlərin torpaqlarını və əmlakını müsadirə edib yoxsul kəndlilər arasında bölmək üçün xüsusi komissiyalar işləyirdilər. Bir çox kəndlərdə yoxsul əhali öz nümayəndələrini komissiyanın dalınca göndərərək, mülkədar və qolçomaq mal-qarasını müsadirə edib, yoxsullar arasında bölünməsi işini təşkil etməyi ondan xahiş edirdi[401].

---

397 Первый созыв Всеазербайджанского сьезда Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов, 6 - 19 мая 1921, Стеногр. отчет, Bakı. 1922, səh. 5.

398 «Kənd füqərası» qəzeti, 28 oktyabr 1920-ci il, № 4.

399 «Бакински рабочи» qəzeti, 23 dekabr 1920-ci il, № 40.

400 “Azərbaycan füqərası” qəzeti, 3 dekabr 1920-ci il, № 37.

401 «Kommunist» qəzeti (rusca), 24 noyabr 1920-ci il. № 171.

Sinfi düşmənlərin torpaq və əmlakını zəhmətkeşlər arasında bölən komissiya Qazax qəzasında birinci növbədə Ermənistan və Gürcüstanla sərhəd olan ərazidə işə başladı. Bundan da məqsəd qolçomaq və bəylərin başının üstünü qəfildən alıb, onlara öz mal-qaralarını və əmlakını çıxarıb xaricə aparmaq imkanı verməmək idi. Komissiya öz işini kommunist özəklərinin yaxından yardımı ilə həyata keçirirdi. Kənd yoxsulları ruh yüksəkliyi və fəallıqla bəylərin, mülkədarların, qolçomaqların əmlakının müsadirə edilməsi işində iştirak edirdilər.

Komissiya üzvləri yoxsul kəndlilərə müraciət edərək deyirdilər ki, qoy yoxsul kəndlilər buradaca bəylərin, qolçomaqların keçmişini açıq söyləsinlər; qoy onlar desinlər ki, bəy və qolçomaqlar bu mal-qaranı öz əməkləri ilə qazanmış, yoxsa başqalarını istismar, qarət, talan etmək hesabına əldə etmişlər. Yoxsul kəndlilərin hamısı buna cavab olaraq, bir səslə hər bir bəy və qolçomaq haqqında məlumat verərok, onları ifşa edirdilər.

Müsadirə edilən qolçomaq və bəy mal-qarası komissiyanın rəhbərliyi, kommunist özəyinin və yoxsul komitəsinin yaxından iştirakı ilə aşağıdakı qaydada yoxsul kəndlilər arasında bölüşdürülürdü. Birinci növbədə, heç bir əmlakı olmayan ən yoxsul kəndli ailələrinə, ailədə olan üzvlərin sayına görə mal-qara verilirdi. Qalan mal-qara isə nəzərdə tutulandan az mal-qaraya malik olan kəndlilər arasında bölünürdü. İş heyvanları da bu qaydada paylanırdı. Hər bir kənddə əhali üç kateqoriyaya - yoxsullar, ortabablar və qolçomaqlara ayrılırdılar. Partiya və hökumətin göstərişləri ilə qolçomaq və bəylərin əmlakı, mal-qarası və sairə tamamilə müsadirə edilmirdi. Onların ixtiyarında ortabab kəndlinin malik olduğu əmlakdan az hissə qalırdı.

Bəy və qolçomaqların əmlakı müsadirə edilərkən, kəndlilər onların keçmişini, tutmuş olduqları iyrənc əməlləri açıb söyləyərək, bu tüfeyliləri ifşa edirdilər. İstismarçı ünsürlərin əmlakı müsadirə edilərkən yoxsul kəndlilər öz zalımlarına deyirdilər: «Yadınızdadırmı, siz bizim vəziyyətimizlə, yoxsulluğumuzla hesablaşmırdınız. Siz bizi ələ salırdınız, bizə gülürdünüz. Bu çar zamanı idi, bəylərin, qolçomaqların, müftəxorların hakimiyyəti zamanı idi. İndiki hakimiyyət isə Sovet hakimiyyəti adlanır, yəni fəhlə və kəndlilərin hakimiyyəti. Bizim cənnətimiz budur. Bunu biz arzu edirdik. O zaman biz ağlayırdıq, indi isə siz ağlayırsınız. Bu da sizə azdır. Sizi kökündən məhv etmək lazımdır. Sizdə olan bütün mal, mülk sizin tərəfinizdən deyil, bizim qabarlı əllərimizlə qazanılmışdı. Siz indi nəinki mal-qaranı, həmçinin evinizdə olan bütün əmlakı verməlisiniz»[402].

1920-ci il noyabrın 1-dən 18-nə kimi Qazax qəzasında qolçomaqlara məxsus olan 1.400 baş iribuynuzlu, 20.000 baş xırdabuynuzlu mal-qara müsadirə edilmişdi. Onlardan 30 baş iribuynuzlu və 50 baş xırdabuynuzlu cins mal-qara sovet təsərrüfatı üçün ayrılmışdı. Qalan mal-qara isə qəzada 20 kəndin yoxsulları

[402] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 1. vər, 71-75.

arasında bölüşdürülmüşdü[403]. Zəhmətkeş əhali bəy və qolçomaqların əmlakının müsadirə edilməsi ilə kifayətlənmək istəmirdi. Varlıların zülmündən hiddətlənən kəndlilər onları məhv etmək istəyirdilər. Kəndlilərin öz zalımlarına qarşı apardıqları sinfi mübarizə getdikcə kəskin xarakter alırdı. Hətta elə hallar olurdu ki, kəndliləri qəddar bəy və qolçomaqların evlərini yandırmaqdan zorla çəkindirmək olurdu[404] .

Qazax qəzasında kənd yoxsul komitələri əksinqilabçı ünsürlərə qarşı ciddi mübarizə edirdilər. Məsələn, təkcə Çaylı kənd yoxsul komitəsi əksinqilabçıların 10 nəfər başçısını həbs edərək, fövqəladə komissiyaya vermişdi[405].

Partiya və hökumətin göstərişlərinə əsasən Azərbaycan SSR Xalq Torpaq Komissarlığı mülkədar torpaq sahibliyinin ləğv edilməsi, müsadirə edilmiş mülkədar torpaqlarının yoxsul kəndlilər arasında bölünməsi və həmçinin Sovet hakimiyyətinə qarşı açıq düşmən mövqe tutan qolçomaqların tamamilə əmlakdan məhrum edilməsi sahəsində də müvafiq tədbirlər görürdü.

Azərbaycan SSR XTK-nın 1920-ci il noyabrın 15-də verdiyi əmrdə deyilirdi ki, kəndin qolçomaq ünsürlərinə qarşı mübarizəni genişləndirmək, qolçomaqları ortabab kəndlilərin səviyyəsinə endirmək və Sovet hakimiyyətinə açıq müqavimət göstərən qolçomaqları isə tamamilə əmlakdan məhrum etmək lazımdır. Bundan əlavə, əmrdə göstərilirdi ki, müsadirə edilmiş mülkədar və qolçomaq əmlakını, ərzaq mallarını və torpaqlarını dərhal yoxsul kəndlilər arasında bölmək lazımdır[406].

Azərbaycan SSR XTK tərəfindən verilən bu əmr yerlərdəki təşkilatlara torpaq dekretini həyata keçirmək və kəndin istismarçı ünsürlərinə qarşı mübarizəni qüvvətləndirmək yollarını göstərirdi.

1920-ci ilin oktyabr ayında təşkil edilərək, fəaliyyətə başlayan yoxsul komitələri kommunistlərin rəhbərliyi və fəhlə sinfinin yardımı sayəsində partiya və hökumətin qarşıya qoyduqları vəzifələri müvəffəqiyyətlə yerinə yetirirdi.

Yoxsul komitələri təşkil edildikdən sonra mülkədar torpaqlarının müsadirə edilməsi və onların yoxsul kəndlilər arasında bölüşdürülməsi işi daha da qüvvətləndi. Lakin 1920-ci ildə aparılan torpaq bölgüsü təxmini idi. Torpaq bölgüsü işlərində dürüstlüyə o qədər də riayət etmək mümkün olmurdu. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, ayrı-ayrı qəzaların, nahiyələrin, kəndlərin sərhəddi, orada yaşayan əhalinin miqdarı düzgün müəyyənləşdirilməmişdi. Bunun üçün xeyli vaxt və texniki qüvvə lazım idi. Halbuki torpaq bölgüsünü yubandırmaq olmazdı. Çünki kəndlilər bəylərə, xanlara və başqa tüfeyli ünsürlərə qarşı apardıqları mübarizənin barını dərməli idilər. Digər tərəfdən, mülkədarlardan müsadirə edilmiş torpaqları boş qoyub becərməmək və məhsulunu toplamamaq

[403] «Kommunist» qəzeti (rusca), 24 noyabr 1920-ci il, № 171.
[404] Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 275, vər. 151
[405] «Бакински рабочи» qəzeti, 17 noyabr 1920-ci il, № 9.
[406] Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 171. vər, 246.

olmazdı. Qışın yaxınlaşması da bir tərəfdən bu işin sürətlə görülməsini tələb edirdi. Kəndlilər göndərdikləri ərizələrdə şikayət edib yazırdılar ki, mülkədarlar qovulmuş, torpaqlar isə boş qalmış, bölünməmişdir, qış, yaxınlaşır, yerlər isə əkilməyib. Bütün bunları nəzərə alan hökumət 1920-ci ildə torpaqların təxmini də olsa bölgüsünü keçirmək üçün nə mümkünsə etdi.

Məsələn, Gəncə, Şamaxı, Tovuz və Qazax qəzalarında 1920-ci ilin dekabrına kimi bəylərin, xanların və qolçomaqların müsadirə edilən torpaqları, kənd təsərrüfatı alətləri, mal-qaraları, toxumları yoxsul kəndlilər arasında bölündü[407].

Yoxsul komitələri torpaq bölgüsü sahəsində buraxılmış nöqsanları aradan qaldırmaq məqsədi ilə bir çox yerlərdə torpaqları yenidən böldülər. Bəzi inqilab komitələrinə və torpaq komitələrinə qolçomaqların və başqa istismarçı ünsürlərin soxulması ilə əlaqədar olaraq, torpaq bölgüsü sahəsində qəsdən əyintilərə yol verilmiş, yoxsul kəndlilərdən bir çoxu torpaq ala bilməmişdilər. Məsələn, Göyçay qəzasının Kürdəmir nahiyəsində mülkədar torpaqlarının müsadirə edilməsinə baxmayaraq, həmin tornaqlar kəndlilərin istifadəsinə verilməmişdi[408]. Tovuz qəzasında inqilab komitələrinin və torpaq komitələrinin bir çoxunun qolçomaq ünsürlərlə zibillənməsi ilə əlaqədar olaraq, torpaq islahatı işində ciddi nöqsanlara yol verilmişdi. Həmin qəzada torpaqlar kəndlilər arasında bölüşdürülərkən yoxsulların böyük hissəsi yaxşı torpaq ala bilməmişdi[409].

Zaqatala dairəsində torpaq alan yoxsul kəndlilərin iş heyvanı və kənd təsərrüfatı alətləri olmadığından torpağı becərə bilmirdilər. Yoxsul kəndlilər arasında bölüşdürülən torpaqlar varlı kəndlilər tərəfindən şumlanıb əkilirdi[410]. Bu isə faktik surətdə müsadirə edilmiş mülkədar torpaqlarının varlı kəndlilərin, qolçomaqların əlinə keçməsi demək idi. Lakin bu nöqsanlar az sonra, partiya və hökumətin qolçomaqları sıxışdırmaq, onların torpaqlarının, kənd təsərrüfatı alətlərinin, mal-qarasının artıq hissəsini yoxsul kəndlilərin xeyrinə müsadirə etmək haqqında göstərişlərindən sonra tədricən aradan qaldırılmağa başladı.

On minlərlə yoxsul kəndlini ehtiyacdan qurtarmaq məqsədi ilə mülkədar və qolçomaqlardan müsadirə edilmiş mal-qara, taxıl və kənd təsərrüfatı alətləri torpaq komitələri və sovet təsərrüfatlarının ixtiyarına verilməyib, ən yoxsul kəndlilər arasında bölünürdü[411].

Lənkəran qəzasında qolçomaqların mal-qarasının 50 faizini müsadirə etmək haqqında qərar həyata keçirildi[412].

---

[407] «Бакински рабочи» qəzeti, 6 dekabr 1920-ci il, № 25.
[408] «Kommunist» qəzeti (rusca), 6 dekabr 1920-ci il, № 181.
[409] «Kommunist» qəzeti (rusca), 10 dekabr 1920-ci il, № 185.
[410] «Бакински рабочи» qəzeti, 10 noyabr 1920-ci il, № 7.
[411] Yenə orada.
[412] Yenə orada, 5 dekabr 1920-ci il, № 24.

Azərbaycan kəndində aqrar məsələnin həlli və başqa tədbirlərin həyata keçirilməsinə Kommunist partiyası rəhbərlik edirdi. Kommunist partiyası zəhmətkeş kəndliləri bəylərə, xanlara, qolçomaqlara qarşı mübarizəyə çağırır, onların işini istiqamətləndirirdi. Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin bütün partiya təşkilatlarına 17 noyabr 1920-ci il tarixli müraciətində bu məsələyə toxunulmuşdur. Müraciətdə deyilirdi: «Azərbaycanda əksinqilabı tamamilə əzmək, yoxsulların və ortababların yoxsul komitələri vasitəsi ilə qolçomaqlara qarşı yürüşünü təşkil etmək vaxtı gəlib çatmışdır»[413].

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin çağırışına cavab olaraq, yerlərdə partiya işi daha da qüvvətləndi. Təsadüfi, şübhəli ünsürlərin partiya sıralarından qovulması, namuslu, düzgün, fəal zəhmətkeşlərin partiya üzvlüyünə qəbul edilməsi ilə, onun sıraları sağlamlaşdırıldı. Ən yoxsul, muzdur kəndlilər kommunist özəklərinə qəbul edilirdilər. Yerlərdə kommunist özəklərinin sayı tədricən artırdı. Məsələn, Gəncə qəzasında bu zaman yalnız yoxsul və muzdurlardan ibarət bir sıra yeni kommunist özəkləri təşkil edilmişdi.

Kəndlərdə təşkil edilmiş olan kommunist özəkləri inqilabçı olmaları etibarı ilə əvvəl təşkil edilmiş özəkləri geridə buraxmışlar[414].

Yoxsul komitələri torpaq dekretinin həyata keçirilməsi zamanı buraxılmış nöqsanları aradan qaldırır, yoxsul kəndlilərin torpaqla təmin edilməsi üçün ciddi tədbirlər görürdülər. Göyçay qəzasının Mollu, Şıxlı və Ərəb Şahverdi kəndlərində yoxsul komitələri tərəfindən əkin yerlərinin yoxsul kəndlilər arasında yenidən bölüşdürülməsi faktı bunu təsdiq edir[415].

Yoxsul kəndliləri torpaqla bərabər, qoşqu heyvanları ilə təchiz etmək məqsədi ilə Göyçay qəzası İnqilab Komitəsinin birləşmiş iclasında qolçomaqlardan qoşqu heyvanlarının 50 faizini almaq haqqında qərar qəbul edildi ki, o da yerinə yetirildi[416].

Yoxsul komitələrinin fəaliyyəti nəticəsində respublikamızın digər qəzalarında da böyük iş görülürdü. Buna görədir ki, Azərbaycan partiya təşkilatı nahiyə və kənd yoxsul komitələrinin təşkili işi nə çox böyük əhəmiyyət verir və bu işin müvəffəqiyyətlə, yüksək səviyyədə başa çatdırılması üçün lazımi tədbirlər görürdü.

1920-ci ilin noyabr ayının 26-27-də Azərbaycan KP MK Plenumu yoxsul komitələrinə yardım haqqında xüsusi məsələ müzakirə etdi və konkret tədbirlər qəbul etdi[417].

Azərbaycan İnqilab Komitəsi yoxsul komitələrinin fəaliyyət dairəsini genişləndirmək məqsədi ilə 1920-ci il noyabrın 29-da yoxsul komitələri haqqında

---

413 Yenə orada, 17 noyabr 1920-ci il, № 9.
414 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 1, iş 275, vər. 160.
415 «Бакински рабочи» qəzeti, 23 noyabr 1920-ci il, № 14.
416 «Kommunist» qəzeti, 6 dekabr 1920-ci il, № 181.
417 «Kommunist» qəzeti (rusca), 29 noyabr 1920-ci il, № 175.

yeni dekret verdi. Həmin dekretə əsasən kənd inqilab komitələrindən əlavə, nahiyə inqilab komitələri də ləğv edildi, kənd və nahiyə yoxsul komitələri təşkil olundu. Dekretdə göstərilirdi ki, yoxsul komitələri vasitəsi ilə Azərbaycanda torpaq məsələsini şəhər proletariatının və kənd yoxsullarının mənafeyinə uyğun olaraq həll etmək, kənd istismarçılarından torpaqları, daşınar və daşınmaz kənd təsarrüfatı avadanlığını və ərzaq ehtiyatını alıb kənd yoxsullarına vermək və sairə vəzifələri həyata keçirmək lazımdır [418]. Dekretdə yoxsul komitələrinin qolçomaq torpaqlarının, inventarlarının, ərzaq ehtiyatının artıq hissəsini almaq tələbi irəli sürülürdü.

Yoxsul komitələri haqqında 1920-ci il 29 noyabr tarixli dekretin həyata keçirilməsi işinə rəhbərliyi Azərbaycan İnqilab Komitəsi fövqəladə beşliyə tapşırdı.

Azərbaycan İnqilab Komitəsinin göstərişi ilə Azərbaycan SSR Daxili İşlər, Torpaq və Ərzaq Xalq komissarlıqları yoxsul komitələri haqqında Əsasnamə tərtib etdilər və onu 1920-ci il noyabrın 29-da mətbuatda elan etdilər[419].

Əsasnamədə yoxsul komitələrinin seçilməsi qaydası, onların vəzifələri, fəaliyyət forması və başqa təşkilatlarla qarşılıqlı münasibəti müəyyən edilmişdi.

Əsasnamədə kənd yoxsul komitələrindən başqa nahiyə yoxsul komitələrinin də yaradılması nəzərdə tutulurdu. Nahiyə komitələri yanında idarə, torpaq, ərzaq, mədəni-maarif şöbələri təşkil olunurdu. Əsasnamədə bu şöbələrin qarşısında duran vəzifələr konkret şəkildə qeyd edilirdi. Məsələn, nahiyə yoxsul komitələri torpaq şöbələrinə xanların, bəylərin, mülkədarların, monastırların, kilsələrin, məscidlərin və vəqf torpaqlarının, canlı və cansız kənd təsərrüfatı əmlakını müsadirə etməklə yanaşı, qolçomaqların, varlıların torpaqlarının, mal-qarasının, alətlərinin, taxılının və sairənin artıq hissəsini almaq vəzifəsi də tapşırılmışdı.

Əsasnamədə torpaqların bərabər şəkildə bölünməsi haqqında da müvafiq göstərişlər var idi. Əsasnamədə deyilirdi ki, qolçomaqlardan, xanlardan və bəylərdən alınan torpaqlar, həmçinin keçmiş xəzinə, monastır, kilsə və məscid torpaqları (texniki bitkiləri olan torpaqlar istisna olunmaqla) əkin yerləri, bağlar kənd cəmiyyətlərində kəndlər arasında, kəndlərin daxilində isə yoxsul, torpaqsız və aztorpaqlı kəndlilər arasında bölünməlidir.

Qolçomaqlardan və mülkədarlardan müsadirə edilmiş otlaqlar, örüşlər və biçənəklər yoxsulların ümumi istifadəsinə verilirdi.

Əsasnamədə deyilirdi ki, kənd və nahiyə yoxsul komitələri ixtiyarlarında olan torpaqların sərhəddi daxilində ali hakimiyyət orqanları sayılırlar. Onların qərarları həmin yerdə yaşayan bütün əhali üçün məcburidir[420].

---

[418] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 6, iş 1, vər. 1.
[419] «Бакински рабочи» qəzeti, 29 noyabr 1920-ci il, № 19.
[420] Azərbaycan SSR OİMDA, fond 2475. siyahı 6, iş 1. vər. 2-3.

Yoxsul komitələrinin təşkilinə son dərəcə böyük əhəmiyyət verən Azərbaycan KP MK 1920-ci il noyabrın 29-da kommunistlərə müraciət edərək, onları yoxsul komitələrinin təşkili işini müvəffəqiyyətlə başa çatdırmağa çağırırdı. Mərkəzi Komitənin müraciətində deyilirdi: «Respublikamızda yoxsulların qüvvətli əlini hiss etməyən bir kənd də olsa qalmamalıdır». Mərkəzi Komitə qeyd edirdi ki, «Yoxsullara kənddə torpaq və hakimiyyət verən inqilabı, həqiqətən yoxsullardan ibarət olan yoxsul komitələri həyata keçirə bilərlər»[421]. Mərkəzi Komito yerli partiya təş-kilatlarına tapşırırdı ki, yoxsul komitələrino fəal kommunistlərin, yaxud basarıqlı, namuslu bitərəf yoxsul kəndlilərin daxil olmalarına nəzarət etsinlər. Azərbaycan KP MK-nın mürasiətində deyilirdi ki, «Biz yoxsul komitələri vasitəsi ilə Azərbaycan kəndində həmişəlik olaraq Sovet hakimiyyətini möhkəmlədirik»[422].

Fəhlə sinfinin yerlərdə dayaq məntəqələri olmaq etibarı ilə yoxsul komitələri Azərbaycan kəndində sosialist inqilabının yayılmasında, mülkədar torpaq sahibliyinin ləğv edilməsində, müsadirə edilmiş sahibkar torpaqlarının yoxsul kəndlilər arasında bölüşdürülməsində böyük rol oynadılar.

Müraciətdə göstərilirdi ki, yoxsul komitələrinin vəzifəsi yalnız kənd yoxsullarını təşkil etməkdən ibarət deyildir. O, habelə ortabab kəndliləri qolçomaqlardan ayırmalı, ortababları təsərrüfat quruculuğu işinə cəlb etməlidir. Partiyanın Mərkəzi Komitəsi ortababa toxunmamağı, qolçomağı buxovlamağı bir şüar kimi irəli sürürdü.

Ortabab kəndlilərə və qolçomaqlara qarşı münasibət məsələlərində partiya yoxsul komitələri qarşısında iki mühüm vəzifə qoyurdu. Partiya göstərirdi ki, bir tərəfdən ortababın əmlakının toxunulmazlığı və onun qolçomaqdan ayrılması, digər tərəfdən qolçomaqlar üzərində zor və kənd yoxsullarını mütəşəkkil surətdə ona qarşı qoymaq - bax bu iki vəzifə yoxsul komitələrinin əməli işinin əsasını təşkil etməlidir.

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin kənddə iş şöbəsi qarşıda duran başqa vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə bilavasitə rəhbərlik edirdi. Həmin şöbəyə Ruhulla Axundov rəhbərlik edirdi. Azərbaycan KP MK-nın kənddə iş şöbəsi 1920-ci ilin dekabr ayından 1921-ci ilin fevral ayına kimi olan müddətdə 15 qəzada və 4 nahiyədə partiya konfransları və yerlərdə partiya üzvlərinin müşavirələrini keçirmişdi[423]. Kənddə iş şöbəsinin yanında torpaq, maarif, daxili işlər komissarlıqlarının nümayəndələrindən ibarət kollekiya təşkil edilmişdi. Həmin kollekiyada şöbənin özündən də nümayəndə var idi. Bu kollekiya kənddərdə və qəzalarda partiya və sovet işinə bilavasitə istiqamət verirdi.

AK(b)P MK-nın kənddə iş şöbəsi tərəfindən müxtəlif vaxtlarda Azərbaycan dilində iki qəzet: «Kənd füqərası» və «Azərbaycan füqərası» qəzetləri nəşr

---

[421] «Kommunist» qəzeti (rusca), 29 noyabr 1920-ci il, № 175.
[422] «Kommunist» qəzeti (rusca), 29 noyabr 1920-ci il, № 175.
[423] Бюллетень ЦК АКП (б), 14 fevral 1921-ci il, № 2.

olunurdu. Bu qəzetlərdən əlavə, Azərbaycan K(b)P MK-nın orqanı olan «Kommunist» (Azərbaycan və rus dillərində), «Азербайджанская беднота», «Бакински рабочи» qəzetləri nəşr edilirdi. Bu qəzetlər Kommunist partiyası və sovet hökumətinin aqrar siyasətinin həyata keçirilməsində, zəhmətkeş kəndliləri Sovet Hakimiyyəti ətrafında sıx birləşdirmək işində böyük rol oynadı.

Qolçomaqlara qarşı mübarizənin genişlənməsində Azərbaycan SSR XTK-nın 1920-ci il dekabrın 5-də elan etdiyi təlimatın da çox böyük əhəmiyyəti oldu. Həmin təlimat qolçomaqları nə cür sıxışdırıb məhdudlaşdırmaq, əhaliyə nə qədər torpaq, mal-qara, ərzaq norması vermək və başqa məsələlərə həsr edilmişdi.

Təlimatda yoxsul komitələrinə bir vəzifə olaraq tapşırılırdı ki, qolçomaq tipli təsərrüfatların ixtiyarında o qədər torpaq saxlasınlar ki, həmin torpaqları qolçomaqlar öz ailələrinin əməyi ilə becərsinlər[424].

Təlimatda göstərilirdi ki, torpaq norması yerli şəraitə görə hər bir adama aşağıdakı qaydada verilməlidir:

1) Əkilən yerlərdə: a) suvarılan rayonlarda $^{3}/_{4}$ desyatindən 1 $^{1}/_{4}$ desyatinə kimi; b) suvarılmayan rayonlarda 1 $^{1}/_{4}$ desyatindən iki desyatinə kimi.

2) Bağlıq və üzümlüklər üçün $^{3}/_{8}$ desyatindən $^{3}/_{4}$ desyatinə kimi.

Hər bir təsərrüfatda torpağı becərmək üçün lazımi miqdarda iş heyvanları saxlanılırdı. Təlimatda göstərilirdi ki, beş adama kimi üzvü olan ailələrə bir inək, 7 nəfər üzvü olan ailələrə iki inək, 9 nəfər üzvü olan ailələrə üç inək, doqquzdan yuxarı üzvü olan ailələrə dörd inək, hər adama isə dörd baş xırdabuynuzlu (qoyun, keçi) mal-qara düşür.

Təlimata görə, əsasən maldarlıqla məşğul olan təsərrüfatlarda hər adama 25 qoyun (keçi), iki inək, iki adama bir at (qatır) və hər təsərrüfata bir düşürdü. Qolçomaqlarda olan iri kənd təsərrüfatın maşınları (dərzbağlayan, taxılbiçən, otçalan və sairə) müsadirə edilirdi. Hər bir təsərrüfatda lazım olan xırda kənd təsərrüfat alətləri (xış, kotan, mala, dəryaz, oraq və sairə) saxlanılırdı. Təsərrüfatda xırda kənd təsərrüfatı alətləri artıq olduqda, bunlar alınıb ehtiyacı olan təsərrüfatlara verilirdi. Müsadirə edilmiş iri kənd təsərrüfatı maşınlarının hamısı, xırda kənd təsərrüfatı alətlərinin isə bir hissəsi kəndlilərin ümumi istifadəsinə verilirdi.

Təlimatda ərzaq və toxum norması da müəyyənləşdirilmişdi. Hər təsərrüfatda adam başına ərzaq üçün 12 pud dən, əkmək üçün hər desyatinə 9 puddan artıq olmayaraq buğda və 11 puddan artıq olmayaraq arpa saxlanılırdı.

Təlimatda yoxsul komitələrinə bir vəzifə olaraq, tapşırılırdı ki, qolçomaqlardan alınan torpaqları, mal-qaranı, kənd təsərrüfatı alətlərini, taxılı ehtiyacı olan əhali arasında göstərilən norma ilə bölsünlər.

Ümumi istifadədə olan örüşlər, otlaqlar, biçənəklər və sairə kənd əhalisinin ümumi istifadəsinda qalırdı[425].

---

[424] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 6, iş 1. vər. 4.

Azərbaycan SSR Xalq Torpaq Komissarı S. Ağamalı oğlu deyirdi ki, kəndin təbəqələşməsi, qolçomaqlara qarşı mübarizə kəndlilərin öz işidir. Torpaq komissarlığı isə bu barədə kəndlilərə hər cür kömək etməyə hazırdır. Xalq Torpaq Komissarlığı bu işi müvəffəqiyyətlə başa çatdırmaqdan ötrü nə mümkünsə edəcək[426].

Kənd və nahiyə yoxsul komitələri qolçomaqların hesabına yoxsul kəndliləri torpaq, mal-qara, kənd təsərrüfatı aləti, ərzaq və toxumla təchiz edirdi. Yoxsul komitələrinin fəaliyyəti nəticəsində istismarçı ünsürlərə qarşı mübarizə daha da qüvvətlənirdi. Gəncə, Lənkəran, Cavad və başqa qəzalarda mülkədar torpaq sahibliyinin ləğvi, mülkədar və qolçomaq torpaqlarının, əmlakının, ərzaq mallarının və sairənin yoxsul kəndlilərə verilməsi sahəsində qazanılan müvəffəqiyyətlər bunu təsdiq edir. Məsələn, Cavad (Salyan) qəzasında mülkədar torpaq sahibliyinin ləğv edilməsi prosesi kənd yoxsul komitələri təşkil ediləndən sonra daha da qüvvətləndi. Qəzanın Boje-promısel, Salyan, Zubyev və Hacıqabul rayonlarında bütün torpaqlar kəndlilər arasında bölüşdürüldü[427].

Müsadirə edilmiş mülkədar torpaqlarının kəndlilər arasında bölünməsi, burada növbəti kənd təsərrüfatı işlərinə başlamaq üçün şərait yaratdı. Torpaq alan minlərlə yoxsul kəndli payız əkini işlərinə başladı. Lakin bunu Cavad qəzasının bütün kəndləri haqqında demək olmaz. Orada elə kəndlər var idi ki, torpaqlar bəy və xanların, qolçomaqların əlində qalmaqda idi. Torpaqları qolçomaqlar nə özləri əkirdilər, nə də əkmək üçün kəndlilərə verirdilər[428].

Qəzada yoxsul komitələri şəbəkəsi genişləndikcə bu nöqsanlar tədricən, qolçomaqlara qarşı ciddi sinfi mübarizə şəraitində aradan qaldırılırdı. Məsələn, Pokrovka, Andreyevka və Astraxanka kəndlərində yoxsul komitələri qolçomaqların artıq əmlakını müsadirə etdilər[429].

Muğanın cənubunda da (Privolnoyedə, Prişibdə) qolçomaqlara iqtisadi cəhətcə ciddi zərbə endirildi. Onların mal-qaraları, həyətləri, emalatxanaları, zavodları, dəyirmanları və artıq evləri müsadirə edildi. Bütün müsadirə edilən müəssisələr kooperativə verildi. Qolçomaqlarda olan pul da müsadirə edilərək, kooperativə verilmişdir[430]. Yoxsul komitələrinin fəallığı nəticəsində Lənkəran qəzasında da bəylərin və xanların qalıqlarının aradan qaldırılması, qolçomaqların əmlakdan məhrum edilməsi və əhalinin təbəqələrə ayrılması işləri sürətləndirildi[431]. Şamaxı qəzasında xüsusi sahibkarlarda olan mal-qaranın, daşınar və daşınmaz

---

[425] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 6, iş 1, vər. 4.
[426] «Бакински рабочи» qəzeti, 14 yanvar 1921-ci il, № 11.
[427] «Азербайджанская беднота» qəzeti, 31 oktyabr 1920-ci il, № 82.
[428] «Бакински рабочи» qəzeti, 3 dekabr 1920-ci il, № 23.
[429] «Бакински рабочи» qəzeti, 10 dekabr 1920-ci il, № 29.
[430] «Kommunist» qəzeti (rusca), 1 fevral 1921-ci il, № 24.
[431] «Бакински рабочи» qəzeti, 23 dekabr 1920-ci il, № 40.

əmlakın, həmçinin əkin üçün yararlı torpaqların siyahıya alınıb bölünməsi üçün tədbir görüldü. Ehtiyacı olan kəndlilərə əkmək üçün toxum verildi[432].

Gəncə qəzasında müsadirə edilmiş bəy, xan və qolçomaq torpaqları yoxsul kəndlilər arasında bölündü, xüsusi mülkiyyətçilərin əlində olan taxılın, iş heyvanlarının, kənd təsərrüfatı alətlərinin normada nəzərdə tutulduğundan artıq qalan hissəsi müsadirə edildi[433]. Torpaqların milliləşdirilməsi sahəsində yeni-yeni tədbirlər həyata keçirildi.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığının 1920-ci il 29 noyabr tarixli əmri ilə Şamxor qəzasında Kür çayının sahilində keçmiş mülkədar Sultanovların mülkiyyəti sayılan 100 desyatinə yaxın qamış plantasiyası milliləşdirildi[434].

Partiya və sovet təşkilatlarının, inqilab komitələrinin, torpaq komitələrinin, yoxsul komitələrinin fəaliyyəti və zəhmətkeş kəndli kütlələrinin istismarçı ünsürlərə qarşı apardıqları fəal mübarizə sayəsində 1920-ci ilin sonuna kimi Azərbaycan kəndində bəy-xan torpaq sahibliyinin aradan qaldırılması sahəsində xeyli iş görüldü.

Meşələrin, suların, yeraltı sərvətlərin milliləşdirilməsi haqqında Azərbaycan SSR İnqilab Komitəsinin 1920-ci il 15 may tarixli dekreti müvəffəqiyyətlə həyata keçirildi. Mülkədarların ixtiyarında olan meşə sahələrindən 220.931 desyatini müsadirə edilərək ümumxalq malına çevrildi. Qəzalar üzrə bu meşə sahələri aşağıdakı şəkildə bölünürdü: Lənkəran qəzasında 60.000 desyatinə kimi, Şamxor meşəbəyliyində 40.000 desyatin, Zaqatala meşəbəyliyində 35.000 desyatin, Şuşa meşəbəyliyində 26.000 desyatin, Nuxa meşəbəyliyində 15.000 desyatin, Cəbrayıl meşəbəyliyində 12.000 desyatin və sairə[435].

1921-ci ilin yanvarına kimi 650.583 desyatin mülkədar torpağı müsadirə edilərək, yoxsul kəndlilər arasında bölüşdürülmüşdü[436]. Bundan Gəncə qəzasında 186.796 desyatin, Qazax qəzasında 103.199 desyatin, Şamxor qəzasında 76.026 desyatin, Quba qəzasında 75.706 desyatin, Cavanşir qəzasında 46.966 desyatin. Şuşa qəzasında 24.345 desyatin, Tovuz qəzasında 13.331 desyatin, Cavad qəzasında 13.238 desyatin, Nuxa qəzasında 12.210 desyatin, Cəbrayıl qəzasında 10.513 desyatin, Lənkəran qəzasında 7.923 desyatin, Bakı qəzasında 6.606 desyatin, Göyçay qəzasında 5.803 desyatin, Şuşa qəzasında 34-000 desyatin, Ağdaş qəzasında 31414 desyatin, Zaqatala qəzasında 2.500 desyatin idi[437].

---

432 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 2, iş 23, vər. 10.
433 Yenə orada, siyahı 1, iş 275, vər. 160.
434 "Kommunist" qəzeti (rusca), 8 dekabr 1920-ci il, № 183.
435 «Бакински рабочи» qəzeti, 29 noyabr 1920-ci il, № 19.
436 Отчет Народного Комиссариата Земледелия к II сьезду Советов, Bakı, 1922, səh. 7-8, «Kommunist» qəzeti (rusca), 30 yanvar 1921-ci il; «Бакински рабочи» qəzeti, 16 fevral 1921-ci il. № 37.
437 Yenə orada.

Qeyd etmək lazımdır ki, Azərbaycanda olan bir milyon desyatindən artıq xüsusi sahibkar torpaqlarından yalnız əkin yerləri, bağlar və biçənəklər kəndli təsərrüfatları arasında bölünürdü ki, bunların da ümumi sahəsi təxminən 550-580 min desyatin idi. Qalan meşələrdən, otlaqlardan və sairədən ibarət torpaqlar mülkədarların əlindən alınaraq milliləşdirildi, xalqın ümumi istifadəsinə verildi.

Beləliklə, Sovet hakimiyyəti qurulandan sonra bir ildən də az müddətdə əsrlərdən bəri Azərbaycan kəndlilərini əzən, istismar edən, onların geridə, avamlıq və cəhalətdə qalmasına səbəb olan bəy, mülkədar torpaq mülkiyyətinə son qoyuldu. Kommunist partiyasının rəhbərliyi, yoxsul kəndlilərin fəallığı bu işin sürətlə başa çatmasında mühüm rol oynadı. Sovet hakimiyyəti xəzinənin sahibliyində olan pay torpaqlarını da heç bir əvəz alınmadan yoxsul kəndlilərin ixtiyarına verdi.

Müsadirə edilmiş mülkədar torpaq sahələrinin müəyyən hissəsində sovet təsərrüfatları təşkil edildi. 1921-ci ilin ortalarında onların sayı 22-yə çatırdı[438]. 1921-ci ildə sovxozların istifadəsində 4.500 desyatinə kimi suvarılan əkin yerləri, 566 desyatin üzümlük, 186 desyatin meyvə bağları və sairə var idi. Sovxozlarda 183 at, 623 iribuynuzlu mal-qara,m 1.141 xırdabuynuzlu mal-qara, 640 donuz və sairə var idi[439].

Dövlət sovxozları kənd təsərrüfatı alətləri, iş heyvanları, əkin materialı ilə təchiz etmək məqsədi ilə böyük məbləğdə pul buraxırdı. Sovxozların su ilə təchiz edilməsi üçün də tədbir görülürdü.

Mülkədarlardan müsadirə edilmiş və torpaq komitələrinin ixtiyarına keçmiş mal-qaranın bir hissəsi sovxozlara verilir və bu sovxozlarda cins malların inkişafına səy göstərilirdi.

Azərbaycanda dövlət əhəmiyyəti kəsb etməyən xırda sovxozlar da var idi ki, onlar da kiçik bağ sahələrini özlərində birləşdirmişdilər. Lakin belə sovxozların saxlanılması məqsədəuyğun olmadığından ləğv edilirdi. Bu tip sovxozlara Qazax, Quba, Nuxa və başqa qəzalarda rast gəlmək olardı. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı bu sovxozlardan ikisini - Quba qəzasındakı Aşağı Müşkür sovxozunu və Nuxa qəzasındakı Daşüz sovxozunu ləğv edərək, onları aqronom məntəqəsinə çevirmək məqsədi ilə komissarlığın kənd təsərrüfatı şöbəsinin ixtiyarına verdi. Xırda sovxozlar aradan çıxdığı bir zamanda bir çox yerlərdə iri əkinçilik və maldarlıq sovxozları təşkil elilirdi. Onlardan 1921-ci ildə Şuşa qəzasının Hindarx kəndində təşkil edilmiş sovxozu göstərmək olar.

1922-ci ilin əvvəllərində Azərbaycanda 12.524 desyatin torpaq sahəsinə malik olan 17 sovet təsərrüfatı qalmışdı. Bu sovet təsərrüfatlarının ixtiyarında olan torpaqların 9.763 desyatini əkin yerləri (onlardan 5.640 desyatini suvarılan, 4.123

---

438 Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 60, vər. 126.
439 Azərbaycan SSR OİMDA, fond 410, siyahı 1, iş 60, vər. 126.

desyatini suvarılmayan), 622,5 desyatini üzümlüklər və meyvə bağları, 570 desyatini biçənəklər, 1.548 desyatini yararsız yerlər idi[440].

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin ilk aylarından başlayaraq kənddə sovet təsərrüfatlarından başqa, torpağı ictimai qaydada becərmə formaları olan kommuna və artellər də təşkil edilirdi.

V. İ. Lenin artel və kommunaların əhəmiyyətindən bəhs edərək deyirdi: «Kommunalar, artel üsulu ilə becərmək, kəndli şirkətləri - əlverişli olmayan xırda təsərrüfatdan qurtarmaq yolu budur, bu yolla təsərrüfatı yüksəldib yaxşılaşdırmaq, qüvvələrə qənaət etmək, qolçomaqlara, müftəxorlara və istismara qarşı mübarizə aparmaq olar»[441].

Azərbaycan Kommunist partiyası və Sovet hökuməti artel və kommunaları təşkil edərkən V. İ. Leninin göstərişlərini rəhbər tuturdular.

Kommunist partiyası hələ Böyük Oktyabr Sosialist inqilabından əvvəl marksizm-leninizm klassiklərinin nəzəri göstərişlərinə əməl edərək xırda əmtəə istehsal edən kəndli təsərrüfatlarına öz münasibətini müəyyən etmişdi. Kommunist partiyası həyat təcrübəsinə əsasən göstərirdi ki, xırda əmtəə istehsal edən təsərrüfatlar kəndliləri ehtiyacdan və aclıqdan qurtara bilməz. Partiya kəndlilərə yeni yol göstərirdi ki, o da iri təsərrüfatların təşkili yolu idi. Lakin bunu birdən-birə etmək olmazdı. Tək kəndli təsərrüfatlarının kollektiv təsərrüfatlarda birləşdirilməsi üçün lazımi şərait olmalı idi. Azərbaycan Kommunist partiyasının II qurultayı kollektiv təsərrüfatların təşkilində könüllülük prinsinini əsas tutaraq, göstərirdi ki, kəndlilərin iradəsinin əksinə olaraq, heç bir kənd təsərrüfatı birləşməsinin təşkilinə girişməməli, azad surətdə meydana çıxan birləşmələrə isə yardım göstərməklə kifayətlənməli[442].

V. İ. Lenin göstərirdi ki, tək kəndli təsərrüfatlarını kollektiv təsərrüfata cəlb etmək yalnız kənd yoxsulları təsərrüfatı köhnə qayda ilə idarə etməyin mümkün olmadığını tamamilə dərk etdikdən sonra mümkündür.

Azərbaycan kəndlərindən bir çoxunda torpaqları ictimai qaydada becərmək üçün ilk addımlar atılırdı. Müsadirə edilmiş mülkədar malikanələrindən, üzərində nümunəvi, mədəni təsərrüfatlar qurulan torpaq sahələrindən sovxozların və kollektiv təsərrüfatların (artel və kommunalar) təşkili üçün istifadə edilməyə başlanılmışdı.

Keçmiş mülkədar malikanələrinin yerində təşkil edilən kollektiv təsərrüfatlardan başqa, bir də kəndlilərin xırda təsərrüfatlarını birləşdirən kollektiv təsərrüfatlar təşkil edilirdi ki, onların da sayı tədricən artırdı.

Bakı qəzasının Maştağa, Zabrat, Türkan, Buzovna, Kürdəxanı, Binə, Qala və başqa kəndlərinin sakinləri Azərbaycan SSR Xalq Torpaq Komissarlığına

---

[440] Отчет Народного Комиссариата Земледелия к II сьезду Советов, Bakı, 1922, səh. 18.
[441] V.İ.Lenin. Əsərləri, 28-ci cild, Bakı, Azərnəşr, 1952, səh. 174.
[442] Azərbaycan SSR PİMDA, fond 271, siyahı 1, iş 237, vər. 6, 9 – 15.

müraciət edərək, onların kəndlərində kollektiv təsərrüfatlar təşkil etmək üçün təlimatçılar göndərilməsini xahiş etmişdilər[443]. Az sonra kəndlilərin xahişi yerinə yetirilmiş və bu kəndlərdə kollektiv təsərrüfatlar meydana gəlmişdi.

Bir çox kənd yoxsulları var idi ki, (xüsusi ilə qaçqınlar) kənd təsərrüfatı aləti çatışmadığından, Sovet hakimiyyətinin onlara verdiyi torpaqlardan istədikləri kimi istifadə edə bilmirdilər.

Kənd yoxsullarının kollektiv təsərrüfatlarda birləşmələri isə bu maneələri aradan qaldırırdı. Oplar aldıqları torpaqları lazımınca becərmək, məhsuldarlığı yüksəltmək, maddi-rifah hallarını yaxşılaşdırmaq imkanı əldə edirdilər.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı partiyanın göstərişlərini rəhbər tutaraq mövcud olan kollektiv təsərrüfatlarda (artel və kommuna) işləri nizama salmaq, gələcək artel və kommunaları düzgün təşkil etmək məqsədi ilə 1920-ci il avqustun 22-də kənd təsərrüfatı artelinin, avqustun 24-də isə kənd təsərrüfatı kommunasının Nizamnaməsini qəbul etdi. Artel Nizamnaməsində göstərilirdi ki, kənd təsərrüfatı arteli zəhmətkeşlərin təsərrüfatı birlikdə idarə etmək məqsədi ilə təşkil edilmiş könüllü birləşməsidir. Artelin qarşısında duran vəzifə kənd təsərrüfatını fərdi idarə etməkdən təsərrüfatı yoldaşcasına, birlikdə idarə etməyə keçməkdən, əməyi daha da məhsuldar etməkdən, torpağı becərmə üsullarını təkmilləşdirməkdən, zəhmətkeş kəndlini ehtiyacdan qurtarmaqdan, insana lazım olan hər bir şeylə onu təchiz etməkdən və sairədən ibarət idi. Artel buna nail olmaq məqsədi ilə üzvlərinin qüvvələrini, vəsaitini birləşdirir və ümumi bir təsərrüfat yaradırdı. Arteldə kənd təsərrüfatının ehtiyacını ödəmək üçün artel üzvlərinin qüvvəsi ilə emalatxanalar və başqa müəssisələr təşkil edilirdi.

Nizamnamədə artel üzvlərinin verməli olduqları üzvlük haqqı, onların vəzifə və hüquqları müəyyənləşdirilmişdi. Nizamnamədə göstərilirdi ki, artelə qəbul olunan hər bir adam artel üzvlərinin ümumi iclasının müəyyən etdiyi məbləğdə üzvlük haqqı verməlidir. Ümumi iclasın razılığı ilə üzvlük haqqı tək pulla deyil, şeylə də verilə bilərdi.

Hər bir artel üzvü azad idi və istədiyi vaxt arteldən çıxa bilərdi. Artel üzvü dini və siyasi etiqadda azad idi, o şəxsi və ailə həyatında azad hərəkət edə bilərdi.

Arteldə istehsal edilən məhsul onun üzvləri arasında, hər bir üzvün gördüyü işin müqabilində bölünürdü.

Artelin vəsaiti artel üzvlərinin gəlirinin bir hissəsindən, hökumətin buraxdığı borc və yardımdan təşkil edilirdi[444].

Kənd təsərrüfatı kommunası Nizamnaməsində kommunaların məqsəd və vəzifələri, onların tərkibi, vəsaiti və təşkili haqqında göstəriş verilirdi. Nizamnamədə göstərilirdi ki, kənd təsərrüfatı kommunaları zəhmətkeşlərin könüllü

---

[443] "Бакински рабочи» qəzeti, 14 yanvar 1921-ci il, № 11.

[444] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 1, iş 13, vər. 58.

ittifaqıdır. Burada zəhmətkeşlər birlikdə işləyərək, istehsal etdikləri məhsulu bərabər şəkildə aralarında bölürlər.

Kommunalar kənd təsərrüfatında məhsuldarlığı yüksəltmək, əkin sahələrini genişləndirmək, ərzaq malları istehsalını artırmaq, kənd təsərrüfatı maşın və alətlərindən məqsədəuyğun şəkildə, lazımınca istifadə etmək, əkinçilikdə sosialist təsərrüfatına keçmək üçün iqtisadi əsas yaratmaq, nümunəvi fermalar düzəltmək, aqronomik mərkəzlər yaratmaq, ona (kommunaya) üzv olanların həyati tələblərini nisbətən bərabər şəkildə ödəmək məqsədi ilə təşkil edilirdi. Kommuna zəhmətkeş sinfə mənsub olan, muzdlu əməkdən istifadə etməyən və kommunanın Nizamnaməsinə tabe olan vətəndaşlardan təşkil edilirdi. Kommunaya daxil olan adamın bütün əmlakı, əmlaka olan hüququ kommunaya keçirdi.

Kommunanın vəsaiti Sovet hakimiyyəti tərəfi ona verilmiş olan torpaq normasından və pul vəsaitindən, kommuna üzvlərinin kommunaya verdikləri daşınar və daşınmaz əmlakdan, kommunanın istehsal etdiyi məhsuldan təşkil edilirdi.

Nizamnamədə göstərilirdi ki, kommuna kənd təsərrüfatı işləri ilə məşğul olmaqla bərabər imkan daxilində müxtəlif dəmirçi, çilingər, ayaqqabı, xarrat-dülgər və başqa emalatxanalar açaraq ən vacib əşyaların istehsalı ilə məşğul olmalı idi, həmçinin kommuna özünə lazım olan kadrların hazırlanmasına da qayğı göstərməli idi.

Kommuna suvarma suyundan səmərəli istifadə etmək və yeni suvarma tikililəri düzəltmək yolu ilə əkin sahələrini artıra bilərdi. Kommunanın hər bir üzvü kommuna təsərrüfatında özü şəxsən işləməli idi[445].

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı kənd təsərrüfatı kollektivlərinin qeydə alınması üçün tədbir görmüşdü. Bu münasibətlə Xalq Torpaq Komissarlığı müvəqqəti Əsasnamə qəbul etmişdi ki, orada da təşkil edilən kommunaların, artellərin və həmçinin şirkətlərin Xalq Torpaq Komissarlığının kommunal təsərrüfatı yarım şöbəsində qeydə alınması göstərilirdi.

Əsasnamədə qeyd edilirdi ki, tərkibində beş ailədən az olmayaraq üzvü olan kənd təsərrüfatı birləşmələri qeydə alınırlar. Kənd təsərrüfatı birləşmələri aşağı formadan yuxarı formaya, məsələn, arteldən kommunaya və əksinə keçdikdə Xalq Torpaq Komissarlığının kommunal təsərrüfatı yarım şöbəsində qeyd olunmalı və bunun səbəbləri mütləq göstərilməlidir[446].

Azərbaycan SSR Xalq Torpaq Komissarlığının gördüyü bu tədbirlərdən sonra torpaqların ictimai qaydada becərmə formaları olan daha bir sıra artel və kommunalar yaradıldı. Partiya və hökumətin göstərdiyi qayğı nəticəsində yoxsul kəndlilərin kollektiv təsərrüfatlara daxil olmaları halları artdı.

---

[445] Azərbaycan SSR OİMDA, fond 2475, siyahı 1, iş 13, vər. 57.
[446] Yenə orada, vər. 59.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı torpaqların ictimai qaydada beçərilməsi işlərini təşkil etmək məqsədi ilə 1920-ci ilin ortalarından qəzalara təlimatçılar göndərməyə başladı. Təlimatçıların qarşısında duran əsas vəzifə artel və kommunaların təşkili idi. Eyni zamanda təlimatçılara artel və kommunaları təftiş etmək, onların işlərini, hesabatlarını yoxlamaq, lazım gəldikdə kollektiv birləşmələrin şuralarına yeni seçkilər keçirmək vəzifəsi tapşırılmışdı. Təlimatçılara göstəriş verilmişdi ki, kənd təsərrüfatı birləşmələrinə torpaq verilərkən torpaq komitələrinin işində iştirak etməklə bərabər, torpaqların düzgün bölünməsi ilə əlaqədar olaraq baş verən torpaq mübahisələrini həll etsinlər, birləşmələrin maddi vəsaitə, avadanlığa və toxuma olan ehtiyaclarının dərəcəsini müəyyənləşdirsinlər[447].

Yerlərə göndərilmiş təlimatçılar ezamiyyətdən qayıdandan sonra, olduqları qəzada torpaqların ictimai qaydada becərilməsinin vəziyyəti, yeni təşkil edilmiş artel və kommunalar haqqında Xalq Torpaq Komissarlığına məlumat verirdilər.

Məsələn, Göyçay qəzasına getmiş təlimatçının hesabatından məlum olur ki, Xalq Torpaq Komissarlığı təlimatçıların rəhbərliyi və yerli zəhmətkeş kəndlilərin təşəbbüsü ilə Göyçay qəzasında «Hümmət» (kommunanın 554 üzvü var idi), «Əkinçi» (29 üzv), Tobişen (45 üzv), Ruşan (36 üzv), Keşxurd (63 üzv), Birinci İvanovka (75 üzv) kənd təsərrüfatı kommunaları təşkil edilmişdi[448].

Yoxsul kəndlilər kommunaların təşkili işinə həvəslə qoşulurdular[449]. Onlar hakimiyyət orqanlarına müraciət edərək, artel və kommunaların təşkilində onlara yardım göstərilməsini xahiş edirdilər. Məsələn, Göyçay qəzasının kəndlərindən birində 10-12 kəndli ailəsi kənd təsərrüfatı kommunası təşkil etmək istədiklərini bildirərək, «Xoşavan» adlı torpaq sahəsinin onlara verilməsini xahiş edirdilər. Qəzanın Kirmanxanı, Kəlbənd, Kirk, Şükürçü, Vəng və başqa kəndlərinin əhalisi kommunalarda təşkil edilmək arzusunda olduqlarını bildirirdilər[450].

Yerlərdə kollektiv təsərrüfatların təşkilinə də sinfi düşmən müxtəlif üsullarla müqavimət göstərirdi.

Varlılar artel və kommunalara daxil olmaqdan boyun qaçırmaqla bərabər, yoxsulları da bundan çəkindirməyə çalışırdılar[451].

Kənd təsərrüfatı alətlərinin, iş heyvanlarının çatışmadığı yerlərdə yoxsullar yardım üçün qolçomaqlara müraciət etməli olurdular. Bundan istifadə edən qolçomaqlar kənd yoxsullarını öz təsirləri altına alaraq, Sovet hakimiyyəti, artel və kommunaların təşkili əleyhinə təbliğat aparırdılar[452]. Məsələn, Şamaxı qəzasının

---

[447] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 245, vər. 6.
[448] Yenə orada, vər. 7.
[449] Yenə orada, vər. 8.
[450] Azərbaycan SSR OİMDA, fond 271. Siyahı 1, iş 245, vər. 254-255.
[451] Yenə orada, vər. 8.
[452] Yenə orada.

Astraxanka kəndində qolçomaq ünsürlərin pozucu fəaliyyəti üzündən Xalq Torpaq Komissarlığının təlimatçısı burada kommuna təşkil edə bilməmişdir[453].

Şamaxı qəzasının Çuxuryurd kəndində təşkil edilmiş kommuna formal xarakterdə idi. Kommuna üzvləri öz əmlaklarını ictimailəşdirməkdən boyun qaçırırdılar. Onların əksəriyyəti ortabablar idi[454].

Elə kəndlər də var idi ki, onlarda artel və kommunaların təşkilinin təşəbbüsçüləri mülkədar və qolçomaqlar olmuşdular. Onların bundan məqsədi gözdən pərdə asmaq, əmlaklarının toxunulmazlığını təmin etmək idi. Məsələn, 1920-ci il sentyabrın 19-da Şamaxı şəhərindəki «Kotan» kommunası yoxlanılarkən məlum olmuşdur ki, onun təşkilatçısı istismarçı mülkədar Kərbəlayi Yusifdir. Kərbəlayi Yusif əvvəllər və Sovet hakimiyyəti qurulduqdan sonra belə nökər saxlayırdı. O, Sovet hakimiyyəti qurulduqdan sonra qəza torpaq komitəsinin istismarçı ünsur olan sədri ilə əlbir idi. Onlar əmlaklarını əllərində saxlamaq, Sovet hakimiyyəti orqanlarının qətini özlərindən yayındırmaq məqsədi ilə kommuna təşkil etmişdilər. Təlimatçı öz hesabatında göstərirdi ki, ortabablardan və nökərlərdən ibarət olan bu kommunanın üzərinə ciddi nəzarət qoymaq lazımdır[455].

Azərbaycanda elə artel və kommunalar da var idi ki, onların torpaqları olduğu halda, kənd təsərrüfatı alətlərinə, iş heyvanlarına, toxuma böyük ehtiyac hiss edirdilər. Xüsusi ilə dağılmış kəndlərdə təşkil edilən kollektiv təsərrüfatların ciddi yardıma ehtiyacları var idi. Onlardan Göyçay qəzasındakı Ruşan, Tobişen, Keşxurd və başqa kommunaları göstərmək olar[456]. Bütün bunları nəzərə alan Azərbaycan Sovet hökuməti hər vasitə ilə ictimai mülkiyyətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsinə yardım göstərirdi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 22 sentyabr tarixli dekretinə əsasən kənd təsərrüfatının bərpası və inkişafı üçün ayrılmış 100 milyon manatlıq fonddan birinci növbədə artel və kommunalara yardım və borc olaraq vəsait buraxılırdı. Məsələn, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının boc və yardım məsələsinə baxan xüsusi komitəsinin 1921-ci il yanvar ayının 15-dəki iclası kənd təsərrüfatı alətlərini təmir etmək, təsərrüfatı bərpa etmək və yaxşılaşdırmaq məqsədi ilə üç il müddətinə Bakı qəzasındakı artel və kommunalardan onuna 2.500 min manat, Göyçay qəzasındakı artel və kommunalardan ikisinə 2.150 min manat, Qazax qəzasındakı artel və kommunalardan ikisinə 4.600 min manat borc buraxmağı qərara aldı[457].

Azərbaycan sovet hökuməti mülkədarlardan və qolçomaqlardan müsadirə edilmiş əmlakı yoxsul kəndlilərə, ehtiyacı olan artel və kommunalara paylayırdı. Məsələn, Lənkəran qəzası Nijnimolokanski kəndində burjuaziya və qolçomaqların

---

453 Yenə orada, vər. 241-245.
454 Yenə orada.
455 Azərbaycan SSR OİMDA, fond 271. siyahı 1. iş 245, vər. 254-255.
456 Yenə orada, vər. 64-66.
457 Yenə orada, iş 162, vər. 51-52.

əmlakdan məhrum edilməsi işi müvəffəqiyyətlə həyata keçirilmiş və müsadirə edilmiş 100 baş mal-qara kommunaya verilmişdi[458].

1920-ci ilin axırlarında Azərbaycanda 32 kollektiv təsərrüfat var idi ki, onlardan da 19-u kommuna 12-ci artel və 1-i şirkət idi. Bu kollektiv təsərrüfatlarda 3.013 üzv var idi. Onların istifadəsində 3.474 desyatin torpaq sahəsi var idi[459].

1921-si ilin əvvəllərində kollektiv təsərrüfatların sayı 65-ə çatdırıldı ki, onlardan da 25-i kommuna, 39-u artel və biri şirkət idi[460]. O cümlədən Bakı qəzasında 8 kommuna, 25 artel; Göyçay qəzasında 6 kommuna, 1 artel, 1 şirkət; Salyan qəzasında 3 kommuna, 4 artel; Şamaxı qəzasında 4 kommuna; Lənkəran qəzasında 4 artel; Quba qəzasında 2 kommuna; Qazax qəzasında 1 kommuna, 3 artel; Şamxor qəzasında 2 artel; Gəncə qəzasında 1 kommuna var idi[461]. Kollektiv təsərrüfatlara, əsasən, yoxsullar və qismən ortabablar daxil idilər. Bu təsərrüfatların torpaq sahəsi 5.332 desyatin idi. Onlardan 2.000 desyatini kommunaların, 3.332 desyatini isə artellərin istifadəsində idi. Kollektiv təsərrüfatlarda 4.912 nəfər, o cümlədən kommunalarda 1.424 nəfər, artellərdə isə 3.488 nəfər üzv var idi[462].

Az sonra xüsusi ilə yoxsul komitələrinin fəaliyyəti nəticəsində artel və kommunaların sayı daha da artdı. 1921-ci il mayın 1-nə kimi Azərbaycanda olan artel və kommunaların sayı 151-ə çatdı ki, onlardan da 120-si artel və 31-i kommuna idi. Onlardan Bakı qəzasında 74 artel, 10 kommuna; Salyan qəzasında 7 artel, 3 kommuna; Şamaxı qəzasında 4 artel, 6 kommuna; Göyçay qəzasında 1 artel, 9 kommuna; Qazax qəzasında 2 artel, 1 kommuna; Şamxor qəzasında 3 artel; Quba qəzasında 3 kommuna, Gəncə qəzasında 2 artel, 2 kommuna; Şuşa qəzasında 1 artel; Ağdaş qəzasında 15 artel, 1 kommuna və Cəbrayıl qəzasında 7 artel var idi[463]. Bu artel və kommunalar dağınıq, fərdi kəndli təsərrüfatlarının sosialist inkişaf yoluna düşməsi sahəsində atılan ilk addımlar idi.

Qeyd etmək lazımdır ki, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ilk dövrlərində kommuna, artel və şirkətlərin təşkil edilməsi gələcəkdə zəhmətkeş kəndlilərin kollektiv təsərrüfatlara elliklə keçməsi işində müəyyən rol oynamışdır. Lakin bu dövrdə (1920-21-ci illər) ictimai təsərrüfatların geniş dairədə təşkil edilməsi üçün hələ obyektiv şərait yetişməmişdi. Zəhmətkeş kəndlilərin xüsusi mülkiyyətə meyli hələ güclü idi və birdən-birə onları ictimai təsərrüfata keçirmək mümkün deyildi. Kommunist partiyasının kənddə kollektiv təsərrüfatlar təşkil etmək sahəsində bütün sonrakı fəaliyyəti bu işin nə qədər ciddi olduğunu aydın surətdə göstərdi.

---

458 Azərbaycan SSR OİMDA, fond 27, siyahı 2, iş 23, vər. 13.
459 “Kommunist” qəzeti (rusca), 5 yanvar 1921-ci il, № 4.
460 Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 80, vər. 43-47.
461 Yenə orada.
462 Yenə orada.
463 Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 251, vər. 21.

Məhz buna görə də hələ ilk dövrlərdə təşkil olunmuş ictimai təsərrüfatların çox hissəsi sonradan ləğv edildi və əsas diqqət gələcəkdə kənd təsərrüfatının kollektivləşməsinə zəmin hazırlamaq işinə verildi. Kommunist partiyasının bu xətt-hərəkəti sonradan kəndin sosialistcəsinə yenidən qurulmasında ciddi rol oynadı. Respublikamızda nisbətən qısa bir müddətdə zəhmətkeş kəndlilərin ictimai təsərrüfatlara axışıb gəlməsi məhz partiyanın kütlələri bu təsərrüfatların üstünlüyünə inandırmasının nəticəsi idi.

Kommunist partiyası və Sovet hökuməti Azərbaycan zəhmətkeşlərinin maddi vəziyyətini yaxşılaşdırmaq işinə xüsusi diqqət verirdi.

Müsavatçılar və xarici müdaxiləçilərin ağalığı dövründə qarət edilən zəhmətkeş kəndlilər tamamilə müflisləşmək təhlükəsi altında idilər. İş heyvanlarının, avadanlığın, toxumun kəskin surətdə azalması kəndlilərin güzəranının pisləşməsinə səbəb olmuşdu.

Suvarma şəbəkələrinin dağılması nəticəsində 200 min desyatinə kimi əkin sahəsi istifadədən çıxmışdı. Pambıq və başqa texniki bitkilər tamamilə əkilmirdi. Kəndli təsərrüfatlarının 40 faiz çoxu iş heyvanlarından məhrum olmuşdular[464].

Hərbi kommunizm siyasəti ilə əlaqədar olaraq, 1920-ci ilin avqust ayından Azərbaycanda taxıl tədarükü həyata keçirilirdi. Bu da kənddəki artıq taxılın alınması yolu ilə həyata keçirilirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan kənd təsərrüfatında taxıl istehsalı əsas sahə olmadığından, burada taxıl tədarükü Rusiyaya nisbətən məhdud xarakter daşıyırdı.

Azərbaycanın xarici dövlətlərlə həmsərhəd olması, beynəlxalq vəziyyətin gərginliyi burada Qızıl Ordu hissələrinin saxlanması zəruriyyətini doğururdu. Məsələn, İranla həmsərhəd olan Cəbrayıl qəzasında bir diviziya saxlanılırdı. Bir qəzada bütöv bir diviziyanın saxlanılmasının səbəbi buraya İrandan tez-tez quldur dəstələrinin basqını idi. Dağlıq Qarabağda daşnaq quldur dəstələrinin baş qaldırması da burada hərbi hissələrin saxlanmasını tələb edirdi. Qazax qəzasında vəziyyət bu cəhətdən daha ağır idi. Menşevik Gürcüstanı və daşnaq Ermənistanı ilə həmsərhəd olan Qazax qəzasına hər vaxt xaricdən hücum ehtimalı var idi. Bu isə hökuməti Qazax qəzasında 2-3 diviziya qoşun saxlamağa vadar edirdi[465].

Bu qoşunların ərzaqla təchiz edilməsi işləri kəndlilərin öhdəsinə düşürdü və beləliklə, ərzaq çətinlikləri baş verirdi.

Kəndlərdən bir çoxunda hərbi hissələrin yerləşdirilməsi, qoşqu mükəlləfiyyəti, mal-qara və taxılın müsadirə edilməsi və sairə kəndlilər arasında müəyyən narazılığa səbəb olur, ortababda tərəd doğururdu[466]. Sinfi düşmən bu narazılıqdan öz xeyrinə istifadə etməyə çalışırdı. Qolçomaqlar ortabab kəndliləri öz tərəflərinə çəkməyə ciddi surətdə cəhd edirdilər. Onlar yerlərdə Sovet

[464] "Экономический вестник Азердайджана», № 4 (79), 1926-cı il, səh. 72.

[465] Первый созыв Всеазербайджанского сьезда Советов, стенорг. Отчет, 6-19 мая 1921, Bakı, 1922, səh. 70- 75.

[466] Бюллетень ЦК АКП (б), № 9, 1921.

hakimiyyətinin dayaqlarını sarsıtmaq üçün hər cür pozuculuğa əl atırdılar. Azərbaycan Kommunist partiyasının 1920-ci ilin oktyabr ayında keçirilən ikinci qurultayı respublikanın ərzaq vəziyyətinin ağır olduğunu nəzərə alaraq, lazımi tədbirlər gördü. Bu tədbirlərdən ən əhəmiyyətlisi respublikada, əsasən, taxıl inhisarını dayandırmaqdan, mülkədarlardan və qolçomaqlardan müsadirə edilmiş taxılın hesabına kəndliləri ərzaq və toxumla təchiz etməkdən və sairədən ibarət idi. Qurultay kəndi neft, duz və sairə ilə təchiz etməyi partiyanın mübariz vəzifəsi hesab etdi. Ərzaq mallarının çatışmaması ilə əlaqədar olaraq, qurultay ərzaq mallarının respublikadan xaricə çıxarılmasına yol verməmək üçün müvafiq tədbirlər müəyyən etdi.

Qurultay iri maldarlar tərəfindən mal-qaranın xaricə aparılması hallarının olduğunu qeyd etdi və bunun qarşısını almaq üçün İrana, Ermənistana və Gürcüstana gedən yollarda xüsusi silahlı gözətçi dəstələri təşkil etməyi qərara aldı[467].

AK(b)P MK 1920-ci ilin axırlarında RK(b)P MK-ya müraciət edərək, Azərbaycanda ərzaq tədarükünü dayandırmaq haqqında məsələ qaldırdı[468]. Rusiya Kommunist (bolşeviklər) partiyası Mərkəzi Komitəsi Azərbaycan bolşeviklərinin bu təklifini bəyəndi, eyni zamanda Azərbaycanda ərzaq yardımının qüvvətləndirilməsi haqqında bir sıra tədbirlər müəyyən etdi[469].

Qardaş Sovet Rusiyasının yardımına arxalanan Azərbaycan İnqilab Komitəsi respublikada torpaqların tamamilə əkilməsi və kəndlilərin vəziyyətinin yüngülləşdirilməsi labüdlüyünü nəzərə alaraq, xeyli taxıl ehtiyatı olan Lənkəran və Cavad qəzaları istisna olunmaqla, Azərbaycanın bütün qəzalarında taxıl məhsullarının (buğda, arpa, çəltik) tədarükünü 1921-ci ilin yanvar ayında dayandırmağı qərara aldı[470].

Azərbaycanın Lənkəran və Cavad qəzalarında taxıl tədarükünün müvəqqəti olaraq davam etdirilməsi həmin qəzaların zəngin taxıl ehtiyatına malik olması ilə əlaqədar idi.

Taxıl tədarükünün dayandırılması Azərbaycan kəndlilərinin vəziyyətini xeyli yaxşılaşdırdı.

V. İ. Lenin Azərbaycan zəhmətkeşlərinin, birinci növbədə Bakı fəhlələrinin taxılla təchiz edilməsinə böyük qayğı göstərirdi. V. İ. Lenin 1921-ci il sentyabrın 9-da Türküstan Xalq Ərzaq komissarlığına göndərdiyi teleqramda yazmışdı: «Azərbaycan üçün Krasnovodskiyə birinci növbədə 600.000 pud taxıl göndərin, çünki ərzaq vəziyyətinin ağır olması dərhal belə bir yardım göstərməsini tələb edir.

---

[467] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1. iş 237. 5.
[468] Известия ЦК АКП (б), № 4, 1921, səh. 4.
[469] Yenə orada, səh. 7.
[470] "Kommunist" qəzeti (rusca), 11 yanvar 1921-ci il, № 8.

Taxılın göndərilməsi gedişi haqqında Əmək və Müdafiə Şurasına və Xalq Ərzaq Komissarlığına məlumat verin»[471].

Kəndlilərin vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə 1920-ci ilin axırlarında fövqəladə komissiya təşkil edilmişdi [472] . 1921-ci il yanvar ayının 30-da komissiyanın iclasında görüləcək işlərin layihəsi hazırlandı. Respublikanın hər tərəfindən kəndlilər komissiyaya müraciət edərək, yardım göstərilməsini xahiş edirdilər[473].

Azərbaycanda taxıl tədarükünün dayandırılması, fövqəladə komissiyanın fəaliyyəti, Sovet Rusiyasının göstərdiyi ərzaq yardımı zəhmətkeşlərin vəziyyətinin yaxşılaşdırılmasına və kənd təsərrüfatının bərpasına kömək etdi. Toxum fondunun təşkili, suvarma şəbəkələrinin tədricən təmiri əkin sahələrini genişləndirməyə, ərzaq böhranına son qoymağa imkan verdi.

Azərbaycan zəhmətkeşləri də qardaş Sovet Rusiyasına neft, pambıq və sairə göndərirdilər. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra təkcə birinci üç gün ərzində Bakıdan Həştərxana 1.239 min pud neft göndərilmişdi. Sonralar Sovet Rusiyasına göndərilən neftin miqdarı getdikcə artırdı: 1920-ci ilin may ayında RSFSR-ə 15 milyon pud, iyun ayında isə 21,2 milyon pud neft göndərilmişdi. Azərbaycan neftçiləri ölkəyə verdikləri nefti 1920-ci ilin axırlarında 160 milyon puda çatdırdılar[474].

Azərbaycan SSR Xalq Ərzaq Komissarlığı 1920-ci ilin may ayında hədiyyə olaraq Moskva zəhmətkeşlərinə 9 vaqon düyü göndərmişdi[475]. Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası tərəfindən bu zaman Həştərxana 1.032 pud pambıq göndərilmişdi[476].

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi prosesi 1921-ci ildə başa çatdırıldı. Bu işin müvəffəqiyyətlə həyata keçirilməsində yoxsul komitələri böyük rol oynadılar. Yoxsul komitələri torpaqların mülkədarlardan və başqa istismarçı ünsürlərdən zorla alınmasında, müsadirə edilmiş torpaqların kəndlər arasında və kəndlər daxilində yoxsul kəndlilər arasında bölünməsində xeyli iş gördülər. Yoxsul komitələri qolçomaqları sıxışdırmaq, onların iqtisadi gücünü zəiflətmək üçün böyük səy göstərirdilər.

1921-ci ilin may ayında I Ümumazərbaycan Sovetlər qurultayında N. Nərimanov Azərbaycanda yoxsul komitələrinin fəaliyyətindən danışaraq qeyd edirdi ki, «Yoxsul komitələri inqilab komitələrindən sonra söz yoxdur ki, müəyyən nəticələr verdi. Yoxsul komitələri öz işlərini gördülər, kəndlilər içərisində təbəqələşməyə nail oldular. Buna şübhə yoxdur ki, indi sovet quruculuğu daha

---

471 Lenin məcmuəsi, XVIII, səh. 132.
472 Azərbaycan SSR OİMDA, fond 410, siyahı 2, iş 12, vər. 149.
473 Yenə orada, siyahı 1, iş 200, vər. 2.
474 Azərbaycan Kommunist partiyasının tarixi, birinci hissə, Bakı.1958, səh. 294. 296.
475 "Жизнь национальностей» qəzeti,15 iyun 1920-ci il, № 18.
476 Azərbaycan İnqilab Komitəsinin «Əxbari» qəzeti, 30 may 1920-ci il, № 9.

asanlıqla gedəcəkdir, ona görə ki, artıq kəndlilərin şüurunda inqilab baş vermişdir»[477].

Azərbaycan K(b)P MK-nın göstərişi ilə 1920-ci ilin dekabr və 1921-ci ilin yanvar, fevral aylarında Azərbaycan qəzalarında kənd yoxsul komitələrinin qurultayları keçirildi.

Yoxsul komitələrinin nahiyə, qəza qurultaylarının çox böyük əhəmiyyəti var idi. Bu qurultaylarda yoxsul komitələri təşkil ediləndən sonra görülmüş işlərə yekun vurulur, torpaq dekretinin və başqa tədbirlərin həyata keçirilməsi işində olan nailiyyət və nöqsanlar aşkara çıxarılır və onların islah edilməsi üçün düzgün yol göstərilirdi. Yoxsul komitələrinin nahiyə və qəza qurultayları kəndlilərin oyanması, onların siyasi həyata qoşulması, sinfi düşmənin ifşa edilməsi, kəndlilərin yeni sosializm ruhunda tərbiyələnməsi üçün ən münasib vasitələrdən biri idi. Yoxsul komitələrinin qəza qurultaylarında həm yerli partiya təşkilatlarına, həm də yoxsul komitələrinin nümayəndələrinə kənddə Sovet quruculuğunun vəziyyətini öyrənmək imkanı verilmişdi. Mərkəzi Komitənin müraciətində göstərilirdi ki, yoxsul komitələrinin qurultayları ən çox nöqsanların islah edilməsi, yoxsul komitələri və onların şöbələrinin düzgün təşkili, yoxsul komitələrində işləmək üçün qəzadakı savadlı adamların cəlb edilməsi, yeni işçilərin hazırlanması işləri ilə məşğul olmalıdırlar[478]. 1920-ci il dekabr ayının axırlarında Quba qəzasının Müşkür nahiyəsində keçirilmiş yoxsul komitələri qurultayı tərəfindən Azərbaycan İnqilab Komitəsinə göndərilən təbrik teleqramında yazılmışdı: «Yoxsul komitələrinin qurultayına toplaşan biz Müşkür nahiyəsinin yoxsul kəndliləri and içirik ki, qolçomaqları tamamilə məhv edənədək mübarizə edəcəyik, biz bütünlüklə Sovet hakimiyyətinin tərəfindəyik. Yoxsul kəndlilərin mənafeyini müdafiə edəcəyik. İnqilabçı Şərqin rəhbəri olan Nəriman Nərimanov yoldaşın şəxsində Azərbaycan İnqilab Komitəsini salamlayırıq»[479]. Başqa nahiyə və qəzalarda da yoxsul komitələrinin qurultayları keçirildi.

Azərbaycanda torpaq məsələsinin həllində, bəy, mülkədar ağalığının sona kimi darmadağın edilməsində, zəhmətkeşlərin tüfeyli ünsürlərə qarşı mübarizəsinə mütəşəkkil xarakter verilməsində 1920 - 1921-ci illərdə qəzalarda və kəndlərdə keçirilən bitərəf kəndli konfransları da mühüm rol oynamışdır. Məsələn, 1920-ci ilin sentyabr ayından 1921-ci ilin fevral ayına qədər Quba qəzasında iki qəza və dörd nahiyə kəndli konfransı; Salyan qəzasında bir, Nuxa qəzasında dörd; Göyçay qəzasında bir; Ağdaş qəzasında bir; Tovuz qəzasında dörd qəza kəndli konfransları; Lənkəran qəzasında iki qəza kəndli konfransı və 4 nahiyə kəndli konfransı olmuşdur[480].

---

[477]Первый созыв Всеазербайджанского сьезда Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских Депутатов, 6-19 мая 1921, стеногр, отчет. Bakı, 1922, səh. 27.

[478] «Kommunist» qəzeti (rusca), 3 yanvar 1921-ci il, № 2.

[479] Yenə orada, 11 yanvar 1921-ci il, № 8.

[480] Известия ЦК АКП (б), 1921, № 6, səh. 17-18.

V. İ. Lenin 1920-ci ildə bitərəf kəndli konfranslarına böyük əhəmiyyət verərək yazmışdır: «Kütlələrin əhvali-ruhiyyəsini izləmək, onlarla yaxınlaşmaq, onların tələblərini ödəmək, onların içərisindən ən yaxşı işçiləri dövlət vəzifələrinə irəli çəkmək və i. a. üçün bizdəki təcrübə inqilabın gedişində, bitərəf fəhlə və kəndli konfransları kimi bir orqan yaratmışdır və biz də ona hər vasitə ilə yardım etməyə, onu inkişaf etdirməyə, genişləndirməyə çalışırıq»[481].

Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi Sovet hakimiyyətinin möhkəmlənməsində, yerlərdə partiya və hökumətin göstərişlərinin həyata keçirilməsində yoxsul komitələrinin böyük rolunu nəzərə alaraq 1921-ci il fevralın ikinci yarısında yoxsul komitələrinin I Ümumrespublika qurultayını çağırmağı qərara aldılar.

Azərbaycan İnqilab Komitəsinin qərarına əsasən kənd yoxsul komitələrinin nahiyə qurultayında hər nahiyədən yoxsul komitələrinin Ümumazərbaycan qurultayına 10 nümayəndə göndərmək qət edilmişdi. Qurultay keçirmək mümkün olmayan nahiyələr Ümumazərbaycan yoxsul komitələri qurultayına nahiyə yoxsul komitələri üzvlərindən 5 nəfərini göndərməli idilər. Yerlərdəki partiya qüvvələri nahiyə yoxsul komitələrinin qurultaylarının keçirilməsi işinə səfərbər edilmişdilər. Azərbaycan K,P MK kənd yoxsul komitələrinin nahiyə qurultaylarını keçirməyi yerli partiya təşkilatlarına bir vəzifə olaraq tapşırmışdı[482]. Azərbaycan K(b)P MK özünün 1921-ci il fevral ayının 6-da və 8-də mətbuatda dərc etdirdiyi direktiv məktublarında respublika yoxsul komitələri qurultayının əhəmiyyətini göstərmiş, qurultaya seçkilər keçirmək işini qüvvətləndirməyi tələb etmişdi. Mərkəzi Komitə direktiv məktublarında qeyd edirdi ki, yoxsul komitələri qurultayına məhz yoxsulların nümayəndələri seçilməlidir, yoxsulları kənd burjuaziyasına qarşı qəti mübarizəyə qaldırmaq üçün qurultaya hazırlıq dövründən istifadə etmək lazımdır.

Azərbaycan yoxsul komitələrinin birinci qurultayını 1921-ci il fevral ayının 20-də N. Nərimanov açdı. Qurultayın işində Q. K, Orconikidze, M. D. Hüseynov, D. Bünyadzadə, H. Sultanov, Ə. H. Qarayev, R. Axundov, Q. Musabəyov, S. Ağamalı oğlu, M. B. Qasımov, Rəhim Hüseynov və başqaları iştirak edirdilər.

Azərbaycan kəndində Sosialist inqilabının dərinləşməsində, yerlərdə Sovet hakimiyyətinin möhkəmləndirilməsində yoxsul komitələrinin böyük inqilabi fəaliyyətini qurultay bir daha nümayiş etdirdi. Kənddə partiyanın siyasətinin düzgün başa düşüldüyü, yoxsulların birləşərək qolçomaqlara və başqa tüfeyli ünsürlərə qarşı mübarizə apardıqları qurultayda qeyd olundu. Qurultay göstərdi ki, ortabab kəndlilər yoxsullarla birləşə bilər və qolçomaqlara qarşı birgə mübarizə apara bilərlər.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı respublikada kəndlər arasında və kəndlər daxilində torpaq bölgüsü işlərini sürətləndirmək, yerölçənlərin işinə

---

481 V.İ.Lenin. Əsərləri, 31-ci cild, Bakı, Azərnəşr, 1952, səh. 34.

482 “Kommunist” qəzeti (rusca), 31 yanvar 1921-ci il, № 23.

düzgün istiqamət vermək məqsədi ilə 1921-ci il yanvarın 28-də yerölçənlərin qurultayını çağırdı.

Qurultay ərəfəsində Bakıya toplaşan yerölçənlərin bir neçə dəfə müşavirəsi oldu. Bu müşavirələrdə hər bir yerölçən işlədiyi qəzada yerölçmə, torpaq bölgüsü işlərinin vəziyyəti haqqında məlumat verirdi. Müşavirələrdəki fikir mübadiləsinin böyük əməli əhəmiyyəti var idi. Qurultay yanvarın 28-də açıldı. Qurultayda respublikanın 18 qəzasından 50 adam iştirak edirdi. Qurultaya S. Ağamalı oğlu sədrlik edirdi. Qurultay hər bir qəzada torpaqların müsadirə edilməsi, siyahıya alınması və zəhmətkeş əhali arasında bölünməsi sahəsində nümayəndələrin hesabatını dinləyib müvafiq tədbirlər gördü. Bu tədbirlərdən ən başlıcası birinci növbədə mülkədar torpaq mülkiyyətinin ləğvini başa çatdırmaqdan, kəndlər arasında və kəndlər daxilində torpaq bölgüsünü sürətlə və düzgün həyata keçirməkdən ibarət idi. Bu vəzifələrin öhdəsindən gəlmək üçün qurultay işə yeni texniki qüvvələrin və birinci növbədə yerölçənlərin cəlb edilməsini qət etdi.

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi və torpaqların kəndlilər arasında bölünməsinin özünə məxsus xüsusiyyətləri və çətinlikləri var idi. Bu xüsusiyyət və çətinliklərin bir qismi obyektiv, yəni Azərbaycanın özünün ictimai-iqtisadi inkişafı ilə, digəri isə subyektiv amillərlə əlaqədar idi.

Azərbaycan Mərkəzi Rusiyaya nisbətən iqtisadi siyasi, mədəni cəhətdən geri qalmışdı. Azərbaycan kəndi nisbətən irəlidə gedən sənaye sahələri ilə az əlaqədə idi. Kənd təsərrüfatında kapitalist əlaqələrinin zəif inkişafı nəticəsində şəhərlə kənd arasında əmtəə mübadiləsi zəif gedirdi. Buna görə Azərbaycan kəndində kapitalistcəsinə təbəqələşmə Rusiyanın mərkəzi quberniyalarına nisbətən hələ zəif idi. Belə bir iqtisadi və ictimai şərait, şübhəsiz, kəndli kütlələrinin torpaq uğrunda mübarizələrinə mənfi təsir göstərirdi.

Azərbaycan kəndlilərinin əksəriyyəti (90 faizdən çoxu) savadsız idi. Kəndlilərin bir qismi arasında dini fanatizm, mövhumat hələ güclü idi. Xüsusi mülkiyyətə toxunulmazlıq haqqında islam dininin ehkamlarının ruhanilər tərəfindən geniş təşviq edilməsi zəhmətkeş kəndlilərin mülkədarlara qarşı torpaq uğrunda mübarizəsinə bəzən mane olurdu. Lakin bu, bəy və mülkədarlara qarşı torpaq uğrunda mübarizədə Azərbaycan kəndlilərinin fəallığının qarşısını ala bilmədi.

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi və torpaqların bölünməsi işi kadrların çatışmadığı bir şəraitdə həyata keçirilirdi ki, bu da böyük çətinliklərə səbəb olurdu. Çar hökumətinin müstəmləkəçilik siyasəti Azərbaycanda ixtisaslı kənd təsərrüfatı kadrlarının yetişməsinə imkan verməmişdi. Hazırlıqlı, ixtisaslı milli kadrların olmaması torpaq məsələsinin həllində əyintilərə səbəb olurdu.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığının torpaq quruluşu şöbəsinə yerlərdə işləmək üçün 400 yerölçən lazım olduğu halda, cəmi 48 yerölçən

işləyirdi[483]. Bu isə mülkədarlardan zəbt olunmuş və bilavasitə dövlətin ixtiyarına keçmiş torpaqların vaxtlı-vaxtında kəndlilərə verilməsi işini xeyli çətinləşdirirdi. Torpaq orqanlarına soxulmuş qolçomaq ünsürlər Azərbaycan Sovet hökumətinin torpaq siyasətini pozurdular.

Respublikamızın xarici dövlətlərlə - İran və Türkiyə ilə həmsərhəd olmasından istifadə edən daxili və xarici düşmən nə yolla olursa-olsun fəhlə-kəndli hakimiyyətinə zərbə vurmağa, Sovet hökumətinin ən mühüm tədbirlərindən birinin - torpaq haqqında dekretin həyata keçirilməsinə, gənc Sovet respublikasının möhkəmlənməsinə mane olmağa çalışırdı. Azərbaycanda, xüsusi ilə Lənkəran, Cavad qəzalarında, Qarabağda yuva salmış bəy-qolçomaq quldur dəstələri döyüş meydanında əzilən kimi İran və Türkiyənin ərazilərinə qaçır və oradakı mürtəce qüvvələrdən yardım alırdılar. Sinfi düşmən İran və Türkiyə ərazisindən Sovet Azərbaycanına zərbə vurmaq üçün istifadə edirdi.

1920-ci ilin noyabr ayına kimi daşnaqların Ermənistanda, 1921-ci ilin fevral ayına kimi isə menşeviklərin Gürcüstanda hakimiyyət başında qalmaları da Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi işlərinə mənfi təsir göstərirdi. Azərbaycanda hərlənən əksinqilabçı dəstələrin bir qismi də məhz daşnaq və menşeviklərin, köməyinə arxalanırdı.

Azərbaycanın coğrafi şəraiti də torpaqların müsadirə edilməsi və yenidən bölünməsi işlərini çətinləşdirirdi. Rusiyada ucsuz-bucaqsız düzənliklər olduğu halda (bu, torpaqların müsadirə edilməsi və bölünməsi işlərini asanlaşdırır), Azərbaycanda, hətta, bir kəndin daxili dərələr, təpələr, dağlıqlar, düzənliklər və sairə ilə örtülü idi. Bu isə yerölçmə və torpaq işlərini çətinləşdirirdi [484]. Azərbaycanda düzənlik sahələrlə yanaşı, dağlıq rayonlarda da yararlı torpaq sahələri var idi. Düzənlik rayonlarda torpaqların müsadirə edilib kəndlilər arasında bölünməsi işi nisbətən asanlıqla həyata keçirildiyi halda, dağlıq, meşəlik rayonlarda bu iş bir sıra ciddi çətinliklərə rast gəlirdi. Bu da hər şeydən əvvəl dağlıq rayonların coğrafi şəraitindən istifadə edən bəy-qolçomaq quldur dəstələrinin bu rayonlarda hərlənmələri idi. Onlar öz hərəkətləri ilə yaxın kəndləri həyəcanlı vəziyyətdə saxlayır, yerli təşkilatlara torpaq haqqında dekreti və başqa tədbirləri həyata keçirmək imkanı vermirdilər (Lənkəran, Zaqatala və başqa qəzalarda vəziyyət belə idi). Qolçomaq-bəy quldur dəstələri kəndlilərə qara-qorxu gələrək, mülkədar torpaqlarını tutmamağı onlardan tələb edir, əks təqdirdə qətl-qarət ediləcəklərini bildirirdilər. Kadrların, nəqliyyat vasitələrinin çatışmaması üzündən Xalq Torpaq Komissarlığı belə rayonlara lazımi diqqət yetirə bilmirdi.

Azərbaycan əhalisinin milli tərkibinin müxtəlif olması torpaq məsələsinin həllində bütün millətlərin mənafeyinin nəzərə alınmasını tələb edirdi.

---

[483] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 1, iş 4, vər. 73.

[484] С. Агамалыоглы. К земельному вопросу в Азербайджане, «Коммунист» qəzeti (rusca), 5 yanvar 1921-ci il, № 4.

Çarizmin, müsavatçıların, daşnaqların mənfur siyasəti nəticəsində Azərbaycanda yaşayan millətlər arasında ədavət toxumu səpilmişdi. Bu yaramaz siyasət nəticəsində 300-dən artıq Azərbaycanlı, rus və erməni kəndi dağılmış, on və yüz minlərlə adam qırılmış, qaçqın vəziyyətinə düşmüş, yoluxucu xəstəliklərə tutulmuş, evsiz-eşiksiz, ac-çılpaq qalmışdı[485].

Azərbaycan kəndli ölkəsi idi. Kəndlərdə yaşayan əhalinin 90 faizini Azərbaycanlılar təşkil edirdilər. Bakı proletariatının isə əksəriyyətini təşkil edənlər ruslar və başqa millətlər idi. Bakı proletariatının sıralarında kəndlə əlaqəsi olan azərbaycanlılar az idi. Bu isə Bakı fəhlələri ilə Azərbaycan kəndliləri arasında ittifaqın möhkəmlənməsi işində ciddi çətinliklərə səbəb olurdu. Çünki Bakıdan kəndə gedən rus fəhləsi yerli əhalinin dilini bilmədiyi üçün təbliğat-təşviqat işləri apara bilmirdi. Yerli şəraitin müxtəlif olması torpaq normasını müəyyənləşdirmək işində böyük çətinlik törədir, kəndlilər arasında tez-tez mübahisələrə və narazılığa səbəb olurdu.

Lakin bütün bunlar müvəqqəti çətinliklər olmuş, 1920-ci il 5 may dekretinin həyata keçirilməsinə ciddi maneçilik törədə bilməmişdir.

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi sürətlə həyata keçirilmişdir.

Respublikamızda mülkədar torpaq mülkiyyətinin ləğvinin, əsasən, 1920-ci ildə həyata keçirilməsində məhz partiya və hökumət orqanlarının, yerli təşkilatların, zəhmətkeş kəndlilərin gördükləri qəti tədbirlər böyük rol oynamışdır.

Azərbaycanın zəhmətkeş kəndlilərinin mülkədar, vəqf torpaqlarını müsadirə edərək öz mülkiyyətlərinə çevirmələri daxili və xarici irticanın hiddətinə səbəb olmuşdu. Məsələn, xaricdə mühacirətdə olan keçmiş müsavat «hökumətinin» xarici işlər nazirinin köməkçisi, «Azərbaycan» qəzetinin redaktoru Şəfibəy Rüstəmbəyov 1921-ci il sentyabrın 2-də İstambulda çıxan «İler» adlı türk qəzetinin müxbiri ilə müsahibəsində Azərbaycanda aqrar islahatının inqilabi metodla həyata keçirilməsindən narazı olduğunu bildirmişdir[486]. Azərbaycandan xaricə qaçan xalq düşmənləri respublikamızda keçirilən aqrar islahatından narazı qalmaqla kifayətlənməyərək, müxtəlif yollarla fəhlə-kəndli hakimiyyətinə zərbə vurmaq, yenidən hakimiyyət başına qayıtmaq cəhdləri göstərmişlər ki, bütün bu cəhdlər də iflasa uğramışdır

Azərbaycan Sovet İttifaqı xalqlarının qardaşlıq ailəsində inkişaf edərək qüdrətli sənaye, qabaqcıl kənd təsərrüfatı, yüksək mədəniyyətə malik respublikaya çevrilmişdir.

---

[485] Yenə orada.

[486] Bax: Y. M. Kaçarava, Sovet Gürcüstanı xalq təsərrüfatının bərpası dövründə (1921-1925), Tbilisi, 1958, səh. 158 (gürcü dilində).

# NƏTİCƏ

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi kəndin sosialistcəsinə yenidən qurulması yolunda atılan ilk böyük addım idi.

Böyük Oktyabr Sosialist inqilabının qanunauyğun davamı olan Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi zəhmətkeş kəndliləri əbədi olaraq xoşbəxt həyat yoluna çıxartdı. Sov.İKP XXII qurultayının qəbul etdiyi Sovet İttifaqı Kommunist partiyasının yeni Proqramında göstərildiyi kimi Oktyabr inqilabı «...mülkədar torpaq sahibliyini ləğv etdi və kəndlilərə əsrlər boyu həsrətini çəkdikləri torpağı verdi, istismarçıların silki və sinfi imtiyazlarından əsər - əlamət qoymadı»[487].

Sovet hakimiyyətinin ilk inqilabi tədbirlərinin böyük siyasi, ictimai və iqtisadi əhəmiyyəti var idi. Bəy, xan, mülkədar torpaq sahibliyinin ləğvi və yüz minlərlə yoxsul kəndlinin torpaqla təmin edilməsi, kənddə sosializmə keçidin, istismarın ləğvinin əsasını qoymaqla, kənd təsərrüfatının bərpası və inkişafı üçün böyük imkanlar açdı.

1920 - 1921-ci illərdə torpaq haqqında dekretin həyata keçirilməsi sahəsində görülən işlər müvəffəqiyyətlə nəticələndi. Azərbaycan SSR Xalq Torpaq Komissarlığının verdiyi məlumata görə, Azərbaycanda bir yığın xana, bəyə, qismən qolçomağa və başqalarına məxsus olan 1.382.947 desyatin torpaq zəhmətkeş kəndlilərin ixtiyarına keçdi[488]. Bu, Kommunist partiyasının aqrar siyasətinin Azərbaycanda həyata keçirilməsinin ilk böyük nailiyyəti idi. Torpaq üzərində bəy, mülkədar ağalığına son qoyulması sahəsində həyata keçirilən bu mühüm tədbirlər nəticəsində kəndli kütlələri sosialist inqilabından ən tez və ən çox faydalanan sinif oldu.

Torpaq məsələsinin düzgün həll edilməsi zəhmətkeş kəndlilərin sovet hakimiyyəti ətrafında daha sıx toplanması və sovet hakimiyyətinin qüdrət və qüvvət mənbələrindən biri olan fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi üçün son dərəcə böyük əhəmiyyəti var idi.

Azərbaycan İnqilab Komitəsinin torpaq haqqında 1920-ci il 5 may tarixli dekreti mülkədar ağalığına öldürücü zərbə vurdu, bütün köhnə torpaq «qanun» və qaydalarını darmadağın etdi; torpağı zəhmətkeş kəndlilərin istifadəsinə verdi. Bu, sadə bir hadisə olmayıb, kəndin ictimai-iqtisadi və siyasi həyatında, zəhmətkeş kəndlilərin məişətində və şüurunda əsaslı inqilab idi. Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğv edilməsinin böyük beynəlxalq əhəmiyyəti var idi. Belə ki, Şərq ölkələri içərisində, eləcə də Zaqafqaziyada birinci dəfə olaraq Azərbaycanda mülkədar torpaq mülkiyyəti ləğv edildi. Məhz buna görə də «Kommunist» qəzeti yazırdı: «Azərbaycan Şərqdəki inqilabın güzgüsüdür,

---

[487] Sovet İttifaqı Kommunist partiyasının Proqramı. Bakı, Azərnəşr, 1961-ci il, səh. 11.
[488] Известиə ЦК АКП (б), 1921, № 15, səh. 20.

müvəffəqiyyətlə həll olunmuş torpaq məsələsi isə bu güzgünü bəzəyəcək bir çərçivədir»[489].

Azərbaycanda mülkədar torpaq mülkiyyətinin ləğvi kənddə tədricən sosialist istehsal münasibətlərinin meydana gəlməsi üçün zəmin hazırladı. Torpaq üzərində dövlət mülkiyyətinin yaranması zəhmətkeş kəndlilərin istismardan azad edilməsi, kənddə sosialist istehsal üsulunun yaranmasına və sovet demokratiyasının inkişafı üçün iqtisadi zəminin meydana gəlməsinə səbəb oldu.

1921-ci ilin yazında qəzalarda inqilab komitələri və yoxsul komitələri əvəzinə fəhlə və kəndli deputatları sovetləri yaradıldı. Kənd, nahiyə və qəza sovetləri respublikamızda torpaq məsələsinin həllində böyük rol oynadılar. Sovetlərin köməyi ilə 1921-1923-cü illərdə 1.998.114 desyatin sahədə torpaq bərabərçilik üzrə ayrı-ayrı kəndlər arasında bölündü[490]. Torpaqların kəndlər arasında bölünməsi işləri xüsusi «zərbə» dəstələri tərəfindən icra edilirdi ki, onun da tərkibinə 8-12 yerölçən daxil olurdu. Torpaq bölgüsü işi il boyu aparılırdı. Hər bir qəzada torpaqların bölünməsi işi 2-3 ay müddətində başa çatdırılırdı.

1921-ci ildə qəzalar üzrə torpaq bölgüsü aşağıdakı şəkildə olmuşdu: Şuşa qəzasında 151.524 desyatin, Cavanşir qəzasında 83.688 desyatin, Kürdəmir qəzasında 28.754 desyatin, Göyçay qəzasında 45.202 desyatin, Quba qəzasında 427.195 desyatin, Ağdaş qəzasında 163.312 desyatin, Şamaxı qəzasında 216.350 desyatin, Cəbrayıl qəzasında 116.999 desyatin, Lənkəran qəzasında 55.062 desyatin, Qubadlı qəzasında 171 desyatin sahədə yerölçmə, torpaq sahələrinin siyahıya alınması və tədqiqi işləri aparılmışdı ki, həmin torpaqların da respublika üzrə ümumi sahəsi 1.288.257 desyatin olmuşdu[491].

1922-1923-cü illərdə isə 709.857 desyatin sahədə yerölçmə, torpaq sahələrinin siyahıya alınması və kəndlər arasında bölünməsi işləri aparılmışdı.

Qəzalar üzrə vəziyyət belə idi: Ağdaş qəzasında 29.559 desyatin, Bakı qəzasında 45.000 desyatin, Gəncə qəzasında 49.984 desyatin, Göyçay qəzasında 1.283 desyatin, Cəbrayıl qəzasında 14.305 desyatin, Zaqatala qəzasında 15.000 desyatin, Qazax qəzasında 106.368 desyatin, Quba qəzasında 145.269 desyatin, Lənkəran qəzasında 45.618 desyatin, Nuxa qəzasında 66.383 desyatin, Salyan qəzasında 37.169 desyatin, Şamxor qəzasında 15.758 desyatin, Şamaxı qəzasında 75.178 desyatin, Şuşa qəzasında 32.788 desyatin[492].

1921-1923-cü illərdə, yoxsul komitələri fəaliyyəti dövrü istisna olunmaqla, torpaq bölgüsü işləri kəndlərin daxilində deyil, kəndlər arasında aparılmışdır.

---

[489] «Kommunist» qəzeti (rusca), 17 noyabr 1920-ci il, № 165.

[490] Отчет к III Всеазербайджанскому сьезду Советов в 1922-1923 гг., II hиссə, Bakı, səh. 59.

[491] Отчет Народного Комиссариата Земледелия за время с 28 апреля 1921 г. по 28 апреля 1922 г. К 2-му Сьездү Советов, Bakı, 1922, səh. 11.

[492] Отчет к III Всеазербайджанскомү сьездү Советов 1922 - 1923 гг.. II hissə, Bakı, səh. 63.

Yoxsul komitələrinin fəaliyyəti zamanı kəndlərin daxilində görülmüş torpaq bölgüsü işləri texniki qüvvələr tərəfindən aparılmadığından hesaba alınmamışdı.

1921 və 1923-cü illərdə kənd təsərrüfatı əhəmiyyəti kəsb edən torpaqların kəndlər arasında bərabər surətdə bölünməsi işləri görüldü. Lakin bu vəzifələrin həyata keçirilməsi üçün verilən vaxtın məhdudluğu, yerölçən-texniki qüvvələrin lazımi miqdarda olmaması üzündən görülən işlər sxematik idi.

İki quberniyanın ərazisini əhatə edən Azərbaycan SSR-də çalışan yerölçənlərin sayı bu zaman 50-dən artıq deyildi. Bu isə yerölçmə işlərini çətinləşdirirdi.

Aztorpaqlı kəndli torpaqların bərabərçilik əsasında bölüşdürülməsini tələb edirdi.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı kənd cəmiyyətləri və kəndlər arasında torpaqların bərabərçilik əsasında bölünməsinin böyük əhəmiyyəti var idi. Lakin kəndlər daxilində planlı surətdə torpaq bölgüsü aparılmadığından, əslində kəndlərdə qolçomaqlar və torpaqsızlar, varlılar və muzdurlar hələ mövcud idilər. Yoxsul kəndli kütlələrinin bir qismi torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi, kəndlər və kənd cəmiyyətləri arasında torpaqların bərabərçilik əsasında bölünməsi nəticəsində yaranmış şəraitdən lazımınca istifadə edə bilmirdilər.

Azərbaycan kəndlisi torpaqların bərabər şəkildə yenidən bölünməsini səbirsizliklə gözləyirdi.

Hökumət, yoxsul kəndlilərin torpaqla təmin edilməsinin vacibliyini və əhəmiyyətini nəzərə alaraq, kəndlərin daxilində torpaqların yenidən bölünməsini qət etdi və bu işə sərf edilən xərcləri öz öhdəsinə götürdü.

Təsərrüfatın müvəffəqiyyətlə idarə edilməsinə şərait yaratmaq üçün torpaqdan istifadənin bir çox məsələlərini qanunla nizama salmaq lazım idi.

Bu məqsədlə də respublikanın ali hakimiyyət orqanları tərəfindən torpaq məhkəmələri haqqında Əsasnamə, zəhmətlə torpaqdan istifadə etmək haqqında Əsasnamə və Azərbaycan SSR-in Torpaq Məcəlləsi hazırlandı və təsdiq edildi.

Azərbaycan SSR-də torpaqdan zəhmətlə istifadə etmək haqqında Əsasnamə və Azərbaycan SSR Torpaq Məcəlləsi tərtib edilərkən yerli şəraitə uyğun olaraq, RSFSR-in zəhmətlə torpaqdan istifadə haqqında Əsasnaməsi və RSFSR Torpaq Məcəlləsi əsas götürülmüşdür.

Azərbaycan SSR Torpaq Məcəlləsi 1923-cü il iyun ayının 15-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Plenumunun 3-cü sessiyasında qəbul və təsdiq edilərək həmin il oktyabrın 1-dən qüvvəyə minmişdi. Azərbaycan SSR Torpaq Məcəlləsinin respublikamızda torpaq məsələlərinin qanunla nizama salınması, yoxsul və zəhmətkeş kəndlilərin mənafeyinin qorunması, kəndli təsərrüfatlarının bərpa və inkişaf etdirilməsi üçün böyük əhəmiyyəti oldu.

Torpaq quruluşu sahəsində görüləcək işləri planlı şəkildə aparmaq məqsədi ilə bir neçə təlimat verilmişdi. Onlardan torpaqların bərabərçilik əsasında bölüşdürülməsi işlərinin həyata keçirilməsi haqqında təlimatı, statistika işləri

haqqında təlimatı, torpaq cəmiyyətlərinin qeydə alınması haqqında təlimatı göstərmək olar. Lakin işlərin yeniliyi və təcrübəsizlik bu təlimatlarda torpaq quruluşu ilə əlaqədar olan bütün məsələləri nəzərə almağa imkan vermirdi. Buna görə də 1923-cü ilin dekabr ayında torpaq quruluşu işçilərinin Gəncədə keçirilən qurultayında torpaq quruluşu sahəsində iki ay müddətində (1923-cü ilin oktyabr ayından dekabr ayına kimi) görülmüş işlərin təcrübəsi əsasında həmin təlimatlara bir sıra düzəlişlər edildi.

Hər bir qəzada torpaq quruluşu işlərinə başlanılmadan əvvəl yerli işçilərin, yəni qəza partiya komitəsi, qəza icraiyyə komitəsi, qəza torpaq şöbəsi yerli texniki işçilərin və Xalq Torpaq Komissarlığı nümayəndələrinin iştirakı ilə torpaq quruluşu sahəsində görüləcək işlərin dəqiq planı hazırlanırdı. Plan tərtib edilərkən torpaqdan istifadədə yerli şərait, həmçinin topoqrafik və iqlim şəraiti nəzərə alınırdı.

Partiya və sovet təşkilatları tərəfindən həyata keçirilən hazırlıq tədbirlərindən sonra, 1923-cü ilin oktyabr ayından torpaqların kəndlər daxilində bərabərçilik əsasında bölünməsi işlərinə başlanıldı. Bu işlərin məqsəd və vəzifəsi torpaq cəmiyyətlərini təşkil etməkdən, torpaq sahələrini və əhalini siyahıya almaqdan, qəzaları yer quruluşuna görə rayonlara ayırmaqdan, hər bir rayon üçün orta hesabla hər adama düşən torpaq normasını müəyyən etməkdən, hər bir rayonda torpaqları bərabərçilik əsasında bölməkdən, torpaq cəmiyyətlərinin sərhəddi daxilində ayrı-ayrı təsərrüfatlar arasında torpaq bölgüsü keçirməkdən ibarət idi.

Qeyd etmək lazımdır ki, Azərbaycan SSR Xalq Komissarlar Sovetinin Xüsusi Komissiyası 1923-cü ilin aprel ayında Nuxa qəzasında yer quruluşu işlərini təftiş edərək, orada kəndlər arasında torpaq bölgüsü işlərinə 1923-cü ilin avqust ayından başlamağı qərara aldı. Bu işlər Nuxa qəzasında 1923-cü ilin dekabr ayında başa çatdırıldı. 1924-cü ilin yanvarından isə kəndlər daxilində torpaq bölgüsü işləri aparılmağa başladı.

Bu işlər 8-12 yerölçəndən və 16-24 yerölçən köməkçisindən ibarət torpaq quruluşu dəstəsinə tapşırılmışdı. Torpaq quruluşu dəstəsi torpaq bölgüsü işlərini yerli hakimiyyət orqanları və kənd cəmiyyəti nümayəndələri ilə sıx əlaqədə aparırdı.

Torpaqları bərabərçilik əsasında bölmək üçün qəzada partiya komitəsinin nümayəndəsi, qəza icraiyyə komitəsi nümayəndəsi, qəza torpaq şöbəsi müdiri, torpaq quruluşu dəstəsi rəisi, yerli aqronomlar, hidrotexniklər və meşəbəyindən ibarət komissiya təşkil edilirdi. Hər bir torpaq cəmiyyətində isə kənd torpaq bölgüsü komissiyası təşkil edilirdi ki, onun tərkibinə torpaq cəmiyyətinin 3 nəfər aztorpaqlı kəndlidən ibarət nümayəndəsi daxil olurdu. Bu komissiyalar torpaqların bölünməsində qəza komissiyasının işinə yaxından yardım göstərirdilər.

Torpaqların kəndlər arasında bölünməsi planı həyata keçirildikdən sonra, kəndin daxilində olan torpaqların ayrı-ayrı təsərrüfatlar arasında bölünməsinə başlanıldı. Torpaqlar hər bir təsərrüfatın ehtiyacına görə bölünürdü.

1923-cü il oktyabrın 7-dən Gəncə qəzasında, oktyabrın 13-dən Şamxor qəzasında, oktyabrın 18-dən Qazax qəzasında, noyabrın 24-dən Naxçıvan MSSR-də, 1924-cü il avqustun 15-dən Ağdam, Cəbrayıl, Kürdüstan qəzalarında və Dağlıq Qarabağ Muxtar Vilayətində, 1925-ci il aprelin 6-dan Salyan qəzasında, aprelin 13-dən Ağdaş qəzasında, mayın 16-dan Göyçay qəzasında, mayın 30-dan Quba qəzasında, iyunun 17-dən Şamaxı qəzasında torpaqların bərabərçilik əsasında bölünməsi işlərinə başlanıldı.

Torpaqlar bərabərçilik əsasında bölündükdə torpaq cəmiyyətlərinin ixtiyarında olan torpaqların sərhədləri, qəzada istifadədə olan torpaq fondu müəyyənləşdirilirdi. Eyni zamanda dövlətə məxsus torpaq sahələri və meşəliklərin sahəsi də müəyyənləşdirilirdi. Zəhmətkeş əkinçilər torpaqla təchiz edildikdən sonra, azad torpaq fondu təşkil edilirdi.

Partiya və hökumətin qayğısı və gördüyü tədbirlər nəticəsində mal-qarası, avadanlığı, əkin yeri olmayan kəndli təsərrüfatlarının sayı xeyli azaldı. Məsələn, 1921-ci ildə Azərbaycanda əkin yeri olmayanların miqdarı 26 faiz olduğu halda, 1927-ci ildə onların miqdarı 15 faizə enmişdi[493].

Bir desyatinə qədər torpağı olan təsərrüfatların sayı 1921-ci ildə 25,7 faiz olduğu halda, 1927-ci ildə 20 faiz olmuşdur. Bu, bir desyatinə qədər torpağı olan təsərrüfatların əlavə olaraq yeni torpaq sahələri almaları ilə izah edilir. 1 desyatindən 3 desyatinə qədər torpağı olanlar 1921-ci ildə 27 faiz idisə, 1927-ci ildə 39,8 faiz olmuşdur[494]. Bu rəqəmlər torpaqsız və aztorpaqlı təsərrüfatların sayının azaldığını, ortabab təsərrüfatların sayının artdığını göstərir.

Azərbaycanda mal-qarası olmayan təsərrüfatların sayı 1921-ci ildə 23,6 faizdən 1927-ci ildə 17,3 faizə endirildi[495]. Avadanlığı olmayan təsərrüfatların sayı azaldılaraq 1927-ci ildə 43 faizə çatdırıldı[496]. Sonrakı illərdə isə bu sahədə daha yeni müvəffəqiyyətlər qazanıldı.

Mülkədar torpaqlarının müsadirə edilməsi və bu torpaqların həmişəlik olaraq kəndlilərin istifadəsinə verilməsi kənddə dərin ictimai-siyasi dəyişikliklərə səbəb oldu. Əgər Sovet hakimiyyətinin qələbəsinə qədər Azərbaycanda kəndli təsərrüfatında əksəriyyəti yoxsullar təşkil edirdilərsə, Sovet hakimiyyətinin qələbəsindən sonra əksəriyyəti ortabablar təşkil edirdilər. 1927-ci ildə kəndli

[493] 20 лет Азербайджанской ССР, статистический сборник, Bakı, 1940, səh. 46; «Kommunist» qəzeti, 18 noyabr 1927-ci il, № 269.
[494] Yenə orada.
[495] 20 лет Азербайджанской ССР, статистической сборник. səh. 46.
[496] Yenə orada.

təsərrüfatlarının 41,8 faizi yoxsul, 51,4 faizi ortabab, 6,8 faizi isə qolçomaq təsərrüfatı idi[497].

Beləliklə, Kommunist partiyası və Sovet hökumətinin həyata keçirdiyi aqrar tədbirlər nəticəsində mülkədar zülmünə tamamilə son qoyuldu, qolçomaqların iqtisadi və siyasi gücü əhəmiyyətli dərəcədə sarsıdı, yoxsul və ortabababların kəndin ictimai və siyasi həyatında rolu xeyli qüvvətləndi.

Kəndlilər arasında baş vermiş təbəqələşmə nəticəsində ortabablar kənd təsərrüfatında mərkəzi sima oldular. 1929-cu ilə kimi Qazax, Gəncə, Şamxor, Nuxa qəzalarında, Naxçıvan MSSR-də və başqa rayonlarda, kəndlər arasında və kəndlərin daxilində torpaqların bölüşdürülməsi işləri başa çatdırıldı.

Torpaqların milliləşdirilməsi nəticəsində 4.7 milyon hektar torpaq əvəzsiz olaraq Azərbaycan kəndlilərinin istifadəsinə verildi. Bundan əlavə. 2,4 milyon hektar yaylaq və qışlaq otlaq yerləri də kəndlilərin istifadəsinə keçdi[498].

Aqrar məsələnin kəndlilərin xeyrinə həll edilməsi, torpağın əvəzsiz kəndlilərin istifadəsinə verilməsi bəy, xan, mülkədar zülmünə son qoyulması, istismarçı ünsür olan qolçomaqların sıxışdırılması,.

Bakı fəhlələrinin Azərbaycan kəndinə hərtərəfli köməyi - bütün bunlar geniş zəhmətkeş kəndli kütlələrinin Sovet hakimiyyətinə etimadını və köməyini təmin etdi. Yoxsul və ortabab kəndlilər zəhmətkeş kəndli deputatları sovetləri ətrafında daha sıx birləşdilər. Zəhmətkeş kəndli deputatları sovetlərinin şəxsində yerlərdə Sovet hakimiyyətinin dayaqları daha da möhkəmləndi.

Kommunist partiyasının qarşıya qoyduğu növbəti vəzifə - sosializm quruculuğu haqqındakı Lenin planının on mühüm tərkib hissəsi, geridə qalan, dağınıq kənd təsərrüfatını mümkün qədər «sadə, asan və kəndlilərə müyəssər olan» bir yolla - kəndlilərin könüllü surətdə istehsal kooperativlərində birləşməsi yolu ilə, yəni kollektivləşmə yolu ilə sosialistcəsinə yenidən qurmaqdan və kənd təsərrüfatı istehsalını tədricən müasir maşın texnikası ilə təchiz etməkdən ibarət idi.

Azərbaycan bolşevikləri ÜİK(b)P XV qurultayının qərarlarını rəhbər tutaraq fərdi kəndli təsərrüfatlarını kooperativləşdirmək xətti ilə kənd təsərrüfatını sosialistcəsinə yenidən qurmağa başladılar.

Sovet dövləti kəndin sosialistcəsinə yenidən qurulmasına ciddi müqavimət göstərən qolçomaqları bir sinif kimi ləğv etmək, onları istehsal alət və vasitələrindən məhrum edib torpaqlarını və avadanlığını kolxozlara vermək zərurəti qarşısında qaldı. Azərbaycanda cəmi 8.555,1 min hektardan ibarət olan ümumi torpaq fondundan yararlı olan 6.239,3 min hektarı əvəzsiz və həmişəlik olaraq kolxozların ixtiyarına verilmiş, 280,2 min hektar sahədə isə sovxozlar təşkil edilmişdi[499].

---

[497] Yenə orada.
[498] Azərbaycan SSR OİMDA, fond 271, siyahı 2. iş 100, vər. 37.
[499] Azərbaycan SSR xalq təsərrüfatı, statistika külliyyatı. Bakı, 1957. səh. 78. 79, 80.206

N. S. Xruşşov yoldaş kənd təsərrüfatının kollektivləşməsinin əhəmiyyətindən danışaraq göstərmişdir ki, partiya Lenin nəzəriyyəsini rəhbər tutaraq, fəhlə sinfinin və kəndlilərin əsas kütlələrinii köməyinə arxalanaraq kəndlilərin xırda fərdi təsərrüfatdan iri kollektiv təsərrüfata keçməsini təmin etdi. Bu, kənddə sosialist istehsal üsulunu təsdiq edən bir inqilab idi[500].

Ölkəmizdə kolxoz quruluşunun qalib gəlməsi ilə zəhmətkeş kəndlilərin həyatında böyük dəyişikliklər baş verdi. Kənd təsərrüfatının elliklə kollektivləşməsi və ölkəmizdə istismarçıların son qalıqları olan qolçomaqların bir sinif kimi ləğv edilməsi nəticəsində kənddə köhnə kapitalist münasibətləri ləğv edildi və yeni sosialist istehsal münasibətləri yarandı.

Bu münasibətlə dövrümüzün Kommunist manifesti adlanan Sovet İttifaqı Kommunist partiyasının yeni Proqramında deyilir: «Sovet kəndinin iri sosialist təsərrüfatına keçməsi - kəndlilərin iqtisadi münasibətlərində, onların bütün həyat tərzində böyük inqilab demək idi. Kollektivləşmə kəndi qolçomaq əsarətindən, sinfi təbəqələşmədən, səfalət və dilənçilikdən həmişəlik xilas etdi. Əsrlər boyu davam etmiş kəndli məsələsi Leninin kooperativ planı əsasında həqiqətən həll edilmiş oldu»[501].

Kommunist partiyasının və Sovet hökumətinin ölkənin sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi siyasəti iqtisadiyyatımızın bütün sahələrində sosialist təsərrüfat sisteminin tam qələbəsinə səbəb oldu.

Sovet hakimiyyəti illərində Azərbaycanda torpaq məsələsinin həlli sahəsində qazanılan müvəffəqiyyətlərlə yanaşı, su probleminin həlli sahəsində də böyük işlər görülmüşdü.

V. İ. Lenin Zaqafqaziyada və o cümlədən Azərbaycanda su probleminin əhəmiyyətindən bəhs edərək 1921-ci ilin aprel ayında «Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan və Dağlılar respublikasındakı kommunist yoldaşlara» məktubunda göstərmişdir ki, «Kəndlilərin vəziyyətini dərhal yaxşılaşdırmağa çalışmaq və elektrikləşdirmə, suvarma sahəsində böyük işlərə başlamaq lazımdır. suvarma hər şeydən çox vacibdir və ölkənin simasını hər şeydən çox dəyişdirər, onu yenidən canlandırar, keçmişi dəfn edər, sosializmə keçməyi möhkəmləndirər»[502].

V. İ. Lenin 1921-ci il aprelin 9-da Orconikidzeyə göndərdiyi teleqramda suvarma məsələsinin təxirə salınmadan həllini tələb etmiş və yazmışdı: «...Bakının ehtiyatları vasitəsi ilə Azərbaycanda suvarma işini irəlilətməyə səy edəsiniz ki, əkinçilik və heyvandarlıq inkişaf etdirilsin...»[503].

---

[500] N. S. Xruşşov. Sov.İKP MK-nın dekabr (1958) Plenumunda məruzə. Stenoqrafik hesabat, M., 1958, səh. 6.

[501] Sovet İttifaqı Kommunist partiyasının Proqramı. Bakı, Azərnəşr, 1961, səh. 13-14.

[502] V. İ. Lenin. Əsərləri, 32-ci cild, Bakı, Azərnəşr. 1952, səh. 342.

[503] V. İ. Lenin. Əsərləri, 35-ci cild, Bakı, Azərnəşr. 1952, səh. 469.

Azərbaycan kommunistləri V. İ. Leninin göstərişlərini rəhbər tutaraq respublikamızda su problemini həll etmək üçün bütün qüvvələri səfərbər etdilər. Nəticədə Azərbaycanda su probleminin həlli sahəsində də böyük müvəffəqiyyətlər qazanıldı. Sovet hakimiyyəti illərində Şimali Muğanda Lenin adına və Şaumyan adına kanallar, Cənubi Muğanda Əzizbəyov adına kanal, Mil düzündə Orconikidze adına kanal, Mingəçevir su anbarı kimi nəhəng suvarma sistemləri yaradılmışdır.

Son illər ərzində 172 kilometr uzunluğunda olan və saniyədə 114 kubmetr su verən Yuxarı Qarabağ kanalı, 180 kilometr uzunluğunda olan və saniyədə 26 kub-metr su verən Samur-Dəvəçi kanalı istifadəyə verilmişdir. Uzunluğu 123 kilometr nəzərdə tutulan Yuxarı Şirvan kanalının birinci növbəsi 1958-ci ildə istifadəyə verilmişdir. Bu kanalın istifadəyə verilməsi Şirvan zonası rayonlarında kənd təsərrüfatının daha da inkişaf etməsi üçün yeni imkanlar yaratmışdır. Araz çayında tikilmiş Bəhramtəpə bəndi Şimali və Cənubi Muğanı suvaran bütün suvarma sistemləri üçün su mənbəyi yaradılması məsələsini həll etmişdir.

Suvarma sahəsində həyata keçirilən tədbirlər əkin sahələrini xeyli genişləndirməyə, bir sıra rayonlarda quraqlıq təhlükəsini aradan qaldırmağa, əkinlərin su ilə təchiz edilməsini yaxşılaşdırmağa, məhsuldarlığı artırmağa imkan vermişdir.

Partiya və hökumət respublikamızda su məsələsinin tamamilə həlli üçün hər cür şərait yaradır və lazımi vəsait buraxır.

Belə bir faktı göstərmək kifayətdir ki, 17 il ərzində (1923-cü ildən 1940-cı ilədək) respublikanın su təsərrüfatına 125 milyon manat xərc çəkilmişdisə, müharibədən sonrakı 12 il ərzində su təsərrüfatı sahəsində tikinti işlərinə kapital qoyuluşu təqribən 1.900 milyon manat olmuşdur[504].

Sov.İKP XXI qurultayının müəyyən etdiyi kimi, qarşıdakı yeddiillikdə respublikamızda su probleminin həlli sahəsində böyük işlər görüləcəkdir. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi 1959-1965-ci illərdə respublikamızda suvarılan torpaqların sahəsini 193 min hektar artırmağa, 141 min hektar sahədə suvarma işlərini yaxşılaşdırmağa və 1.100 min hektar qış otlağına su çıxarmağa imkan verəcəkdir[505].

Sovet İttifaqı Kommunist partiyasının tarixi XXI qurultayı ölkəmizin və o cümlədən respublikamızın kolxozçuları və sovxoz işçiləri qarşısında 1959-1965-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının artırılması sahəsində böyük vəzifələr qoymuşdur. Bu münasibətlə Sov.İKP növbədənkənar XXI qurultayının təsdiq etdiyi 1959-1965-ci illərdə SSRİ xalq təsərrüfatının inkişafına dair kontrol rəqəmlərdə göstərilir ki, 1958-ci ilə nisbətən 1965-ci ildə Azərbaycanda pambıq istehsalı 2,1-2,2 dəfə, barama istehsalı təqribən 1,2 dəfə. taxıl istehsalı 1,9-2,2 dəfə, üzüm və meyvə istehsalı 2,7 dəfə, ət istehsalı 1,8 dəfə, süd istehsalı 2 dəfə və yun

[504] «Kommunist» qəzeti, 29 yanvar 1958-ci il, № 24.
[505] «Azərbaycan kənd təsərrüfatı» qəzeti, 3 fevral 1959-cu il, № 15.

istehsalı 1,6 dəfə artacaqdır. Kolxozlarda və sovxozlarda təqribən 118 min hektar sahədə yeni bağlar və üzümlüklər salmaq nəzərdə tutulur[506].

Azərbaycan kolxozçuları və sovxoz işçiləri ölkəmizin başqa qardaş xalqları ilə birlikdə Kommunist partiyasının və Sovet hökumətinin müdrik rəhbərliyi altında partiyanın kommunizm qurucuları qurultayı olan Sov.İKP XXII qurultayı tərəfindən qəbul edilmiş yeni Proqramında irəli sürülən əzəmətli vəzifələri həyata keçirmək uğrunda, kənd təsərrüfatının yeni yüksəlişi uğrunda böyük ruh yüksəkliyi ilə mübarizə edirlər.

[506] Материалы внеочередного XXI сьезда КПСС, М., 1959, səh. 228

# MÜNDƏRİCAT

**GİRİŞ**

**I FƏSİL**

Azərbaycanda  Sosialist inqilabının qələbəsi ərəfəsində aqrar məsələ və kəndlilərin torpaq uğrunda mübarizəsi

**II FƏSİL**

Azərbaycanda Sovet haknmiyyətinin qələbəsi və mülkədar torpaq sahibliyini ləğv etmək sahəsində ilk tədbirlər

**III FƏSİL**

Azərbaycanda  mülkədar  torpaq   sahibliyinin ləğv edilməsi

**NƏTİCƏ**

Nəşriyyat redaktoru: **S. Əsədov**

Texniki redaktoru: **T. İsmayılov**

Korrektoru: **Ədilə Qasım qızı**

Çapa imzalanmış 22/III-1962-ci il.

Kağız formatı 84x108 $^{1}/_{32}$. Kağız vərəqi 3,31.

Çap vərəqi 10, 86. Hes-nəşriyyat vərəqi 11,06 FQ 14061

.

Sifariş 677. Qiyməti 1 man. Tiraj 800.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin «Qızıl Şərq» mətbəəsi.

Bakı, Həzi Aslanov küçəsi, 80,